**İsrafil İsmayılov**
(Tarix elmləri doktoru, professor)

# TÜRK DÜNYASI XX ƏSRDƏ

*Kitabın nüsxələri türkdilli dövlətlərin prezidentlərinə göndəriləcəkdir*

***

*Экземпляры книги будет посланы президентам тюркоязычных государств*

***

*В конце книги «Оглавление» дано также на русском языке*

***

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2009

63.3(0=74ue)6-8
İ 82

*«Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümüdlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir».*

HEYDƏR ƏLİYEV

İsrafil Zakir oğlu İsmayılov. TÜRK DÜNYASI XX ƏSRDƏ. Bakı, 2009. Səh.216.

*Redaktor:* fəlsəfə elmləri namizədi,
*dosent* YAŞAR ƏHMƏDOV.

*Kitabın işıq üzü görməsində xeyriyyəçiliyinə görə müəllif Nəsimi rayon İcra Hakimiyyəti başçısı Nəsib Məhəmməliyevə dərin təşəkkürünü bildirir.*

İ.Z.İsmayılov, 2009

$\frac{030}{12-208 \cdot i} N \cdot 589 \cdot 968 \cdot III - X$

*«Vətən» nəşriyyatı.*

*«Nə xoşbəxtdir,*
*Türkəm deyən».* (1933)

M.K.ATATÜRK.



Mustafa Kamal Paşa (Atatürk)




(1923-2003)

# ÖN SÖZ

Bəşər mədəniyyətinin yaradılmasında ilk cərgələrdə olmuş öncül xalqlar qruplarından biri olan türkdilli xalqlar özlərinin sonrakı inkişaf mərhələlərində də bu mədəniyyətin zənginləşməsində xeyli töhfələr vermişlər. Təkcə onu demək kifayətdir ki, qədim və orta əsrlər tarixində türklərin 120-yə qədər dövlətləri olmuşdur ki, bunlardan 16-sı imperiyadır. Onlardan sonunscusu olan Osmanlı imperiyası 1299-cu ildə Anadoluda yaranmış və 1923-cü ilə qədər yaşamışdır.

Hazırda dünyanın 7 müstəqil dövlətində (Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Kıbris Türk Cümhuriyyəti) türkdilli xalqlar toplu şəkildə yaşayırlar. Bunlardan əlavə dünyanın 12 regionunda 30-dan çox türkdilli xalq yaşadıqları ərazilərdə qədim dövrlərdən başlayaraq məskən salmışlar və indi də həmin ərazilərdə yaşayırlar.

Sovetlər İttifaqı dağıldığı dövrdə Rusiya federasiyası tərkibində olan 16 muxtar respublikadan 7-sində (Başqırdıstan, Buryatiya, Tatarıstan, Tuva, Yakutiya, Cuvaşiya, Dağıstan). 5 muxtar vilayətdən 3-də (Qaracay-Çerkəz, Dağlıq Altay, Xakas) türkdilli xalqlar yaşayırdı və indi də yaşayırlar.

XX əsrin sonunda dünyada türkdilli xalqların əhalisinin sayı 250 milyona yaxındır.

Son illərdə türkdilli xalqların tarixinə dair professor Vəli Həbiboğlu tərəfindən 1995-ci ildə Bakıda nəşr edilmiş «Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri» kitabı, professor Fazil Qara oğlunun (Ankara) Bakıda 2007-ci

ildə nəşr etdirdiyi «Türk millətinin tarixi, qurduğu dövlətlər və ata-babaları» kitabi, filologiya elmləri doktoru Elməddin Əlibəylinin qədim türklərin tarixinə dair yazılar diqqəti cəlb edir.

Azərbaycan Dövlət Neft Akademiyasının professoru, tarix elmləri doktoru İsrafil İsmayılovun türk dünyası mövzusuna aid oxucuya təqdim etdiyi bu üçüncü kitabı (I kitab- 2001-ci ildə «Türk dünyası XX əsrin 90-cı illərində», II-kitab 2005-ci ildə «Türklük şərəfi») müəllifin son illər apardığı yaradıcılıq fəaliyyətinin yekunudur.

Kitabda şərh edilən «Türkliyin mahiyyəti», «Birinci Beynəlxalq Türkoloji qurultay», «Türk dünyasının XX əsrdə yetişdirdiyi görkəmli dövlət xadimləri və hərbi xadimlər», Türkdilli xalqların milli-azadlıq mübarizələrinin uğurları və problemləri, Dünyanın türkdilli xalqlarının XX əsrdə yetişdirdikləri görkəmli mədəniyyət xadimləri, Türksoy Təşkilatı və Türkdilli dövlət başçılarının zirvə görüşləri, SSRİ-nin dağılması ilə əlaqədar olaraq yaranmış yeni Türkdilli dövlətlərin xalqların mədəni əlaqələrinin genişlənməsi, yeni Türkdilli dövlətlərin müsəlman əhalisinin islama qayıdışı, türkdilli xalqların birliyinin genişlənməsi və digər məsələlər öz yeniliyi və məzmunu etibarilə diqqəti cəlb edir.

Şübhə etmirəm ki, müəllifin təqdim etdiyi bu kitab da oxucu tərəfindən maraqla qarşılanacaqdır.

***Hörmətlə,***

Akademik,
Sosialist Əməyi Qəhrəmanı

**İsmayıl İbrahimov**



## GİRİŞ

Hesablamalara görə hazırda dünyanın yeddi müstəqil dövlətində və ona qədər digər regionunda 250 milyondan çox türkdilli əhali yaşayır.

XX əsrin əvvəllərində nəşr edilən Brokqauz və Efronun məşhur ensiklopediyasının 67-ci cildində (1902-ci ildə nəşr edilmişdir) göstərilir ki, qədimdən başlayaraq türklər Asiya qitəsi ərazisinin yarıdan çoxunda, Avropanın cənub-şərqinin böyük bir hissəsində və Afrikanın şimal-şərqində məskunlaşmışlar və sayca dünya əhalisinin 2%-ni təşkil edirlər (s.34).

Qədim Şumerlər türkmənşəlidirlər. Amerika şumerşunası S.N.Kramer öz kitabına «Tarix şumerlərdən başlanır» adı vermişdir. Şumerlər isə müasir türkdilli xalqların əcdadlarıdırlar.

Qərbin bəzi alimləri qərəzli məqsədlərlə türkdilli xalqların qədim bəşər mədəniyyətinin yaradılmasında iştirakını inkar etmək üçün, onların (türklərin) köçəri olduqları haqqında cəfəng fikirlər təbliğ edirlər (rus şərqşünası Radlov da bu fikri təbliğ etmişdir). Halbuki, tarixdə türklərin 120-yə qədər milli dövləti olmuşdur ki, bunlardan 16-ı imperiya idi. Onlardan biri olan Osmanlı imperatorluğu 1299-cu ildə Anadoluda yaranmış və 1922-ci ilə qədər davam etmişdir.

Türkdilli xalqların sayca ən çox dövlətləri sultanlıq, bəylik və atabəylik, xaqanlıq və xanlıq adlandırılmışdır.

«Türk» sözünün əsl mənası çevik, cəsur deməkdir. Belə mənaya ilk dəfə qədim Çin mənbələrində rast gəlinir.

ABŞ-ın Sietl şəhərindəki Vaşinqton universitetinin professoru, mənşəcə azərbaycanlı olan, qədim Şərq tarixinin tədqiqatçısı doktor Tariyel Azəri Şumer dili yazısı olan, «Urartu mıxi yazı dili»nin türk şifrəsini açmışdır.[1]

Türk tarixində hələ orta əsrlərdə Əmir Teymur, Atulla, Ildırım Bayazid, Sultan Mehmet Fateh, Cavanşir, Şah İsmayıl Xətai kimi görkəmli dövlət xadimləri və hərbi sərkərdələr yetişmişdir. Yalnız qədim Şərqdə 60-dan çox türk

[1] Daha geniş bax: «Xalq qəzeti», 24 may 2008.

hökümdarı, Xaqani və sərkərdəsi olmuşdur.[1]

Son 20-30 ildə Azərbaycan tarixinin daha qədim dövrdən başlandığını təsdiq edən elmi tədqiqatların çoxalması təsdiq edir ki, Azərbaycan-türk xalqının tarixi XI əsrdən çox əvvəllər başlanmışdı.

Azərbaycan tarixşünaslığına bu yeni baxışın tədqiqatçılarından olan akademik Ziya Bünyadov, professorlar - Yusif Yusifov, Vəli Həbiboğlu, Elməddin Əlibəyli, Mirəli Seyidov və digərləri bu qənaətə gəlmişlər ki, dünyanın türkdilli xalqlarının hər birinin tarixi və mədəniyyətlərinin ayrıca tədqiqi ilə yanaşı bütün türkdilli xalqların tarixinin bütövlükdə öyrənilməsi, cəmi türk dünyasının ictimai-siyasi fikir tarixinin ortaq məxrəclərə istinad edərək, öyrənilməsi uğurlu nəticələr verə bilər.

Türkdilli xalqlar bəşər mədəniyyətinə Nizami Gəncəvi (1141-1209), Əbu Mahmud Qəzali (1059-1111), Nəsirəddin Tusi (1201-1274), Cəlaləddin Rumi (1202-1273), Yusif İmrə (1240-1320), Uluqbəy (1394-1449), Əlişir Nəvai (1441-1501), Məhəmməd Füzuli (1494-1550) kimi məşhur şairlər, filosoflar və alimlər bəxş etmişlər.

**Məhəmməd Peyğəmbər (Ə.S.) demişdir: türk dilini öyrənin, çünki onların hakimiyyəti çox uzun sürəcəkdir.**

Böyük türk mütəfəkkiri və dilşünası Mahmud Kaşqarlı (XI əsr) ərəblərin türk dilini öyrənmələrini asanlaşdırmaq üçün **«Divani lüğəti-türk»** əsərini yazmışdır. Bu məşhur əsər gec də olsa, Azərbaycan dilinə istedadlı dilçi alim Ramiz Əskər tərəfindən tərcümə edilmiş və həmin əsər haqqında müəllif mükəmməl tədqiqat işi yazaraq elm aləmində öz adını əbədiləşdirmişdir.

İndiki Çində türkdilli xalqların hələ qədimdə yaşadıqları tarixi və bədii ədəbiyyatda da qeyd edilmişdir.

Mahmud Kaşqarinin «Divan»ında deyilir ki, məşhur fateh Makedoniyalı İskəndər (Aleksandr) öz ordusu ilə Səmərqəndi zəbt edib Çinə tərəf yolunu davam etdirdikdə qarşıda Saka (Şu) adlı türk hökmdarı (Xaqanı) ilə qarşılaşır və Hücənd çayı ətrafında türklər İskəndərin ordusunun

---

[1] Vəli Həbiboğlu. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri. B., 1995; Türkün qızıl kitabı (I kitab), Bakı, 1992.



hücumlarının qarşısını aldıqda İskəndər onlarla barış (sülh) bağlayır.

Böyük Nizami Gəncəvi Makedoniyalı İskəndərin fətehliyinə həsr etdiyi «İskəndərnamə» əsərində Firdovsinin «Şahnamə» əsərində verilən şərhdən fərqli olaraq İskəndəri fatehlikdən daha çox, dünyada ədalət axtaran, ədalət məskəni olan yeri tapmağa can atan insan kimi qələmə vermişdir. Bu ideya isə azadlıq sevən türk etnosuna xas olan bir əlamətdir. Ədalətsizliyin səbəbini insan bətnindəki zülmətdə görən Nizami isə insanları böyük ədalətə çağırmışdır.

Şeyx Nizami Gəncəvi öz poemalarını («Xəmsə») tarix üçün nəzmə çəkəndə Azərbaycan və digər qonşu ərazilərdə ərəb xilafəti hökm sürürdü. Nizami öz əsərlərini o zamanın Yaxın Şərqdə hökmdar dil olan fars dilində yazsa da, onun bu əsərlərində azərbaycan-türk ruhu mövcuddur. Bu ruh «Xosrov və Şirin» poemasında daha qabarıq hiss olunur.

Dünyanın çox saylı türkdilli xalqlarının təsnifatı müxtəlif istiqamətlərdə verilmişdir.

«Sovet Ensiklopedik lüğəti» kitabında (M., 1980) türkdilli xalqlar aşağıdakı qruplara bölünmüşdür: qərbi hun qrupu xalqları (Bulqar, Xəzər, Çuvaş dillərində danışan xalqlar) və şərqi hun dilləri qrupu. ***Oğuz qrupu*** – oğuz, türkmən, qaqauz, azərbaycan, türk və i.; ***qıpçaq qrupu*** – karaim, kum, qaraçay-balkar, tat, başkir, noqay, qazax, qaraqalpak; ***karluq qrupu*** – uyqur (noqay), özbək; ***Şərq qolu*** – uyqur, tuva, xakas, şor; qırğız-qıpçaq qrupu – qırğız və digərləri.[1]

Keçmiş SSRİ-də 23 türkdilli xalq yaşayırdı[2].

Elmi ədəbiyyatda türkdilli xalqların bir toplu kimi formalaşmaları 3 dövrə bölünür:

*qədim türklər* – oğuzlar, tuvinlər, xakaslar, şovlar.

*yeni türklər* – azərbaycanlılar, özbəklər, türkmənlər, qaqauzlar, qıaçaylar, peçaneqlər, poloveslər, salaqlar, çığateylar.

*ən yeni türklər* – başqırdlar, noqaylar, tatarlar, oyratlar və s.

---

[1] Sovet Ensiklopedik lüğəti. M., 1980, s.1380.

[2] Rusiya Federasiyası dövləti tərkibində hazırda 15 türkdilli xalq yaşayır.

Türkdilli xalqların yerləşdiyi coğrafi ərazilər bu kitabın müəllifinin 2001-ci ildə nəşr etdirdiyi kitabda geniş verilmişdir.[1]

XX əsrin əvvəllərindən başlayaraq dünyada türkdilli xalqların tarixinin öyrənilməsinə maraq xeyli artmışdır. 1921-ci ildə «Türk devletleri tarixi» (etnoloji bir deneme kitabı) Türkiyədə Şükru Kaya Seferoğlu və Adnan Müderrisoğlu tərəfindən nəşr edilmişdir (həcmi – 190 s.).

1986-cı ilə Ankarada «Türk dövlətləri tarixi» adlı digər kitab nəşr edilmişdir. 1995-ci ildə Bakıda Vəli Həbiboğlunun «Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri (I kitab)» nəşr edilmişdir. 1999-cu ildə həvəskar tarixçi Miribrahim Hüseynov tərəfindən Bakıda «Dünya türklərinin müxtəsər tarixi» adlı kitabı (həcmi 290 s.) nəşr edilmişdir.

Dünyada yaşayan türkdilli xalqların sayca böyük bir hissəsi XX əsrin əvvəllərində Rusiya imperiyası tərkibində müstəmləkə vəziyyətində yaşayırdı və hazırkı dövrə qədər faktiki olaraq bu vəziyyətdə qalmışlar. Bu xalqlar eyni zamanda Rusiyada türkşünaslığın əsasını qoymuşlar.

Peterburq universitetinin Şərq dilləri fakültəsinin ilk dekanı azərbaycanlı Mirzə Hacı Qasım oğlu **Kazımbəy** olmuşdur. (Cənubi Azərbaycanın Rəşt şəhərində anadan olmuşdu). O, Rusiya Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Mirzə Kazım bəy Lev Tolstoy və Nikolay Çernişevski kimi görkəmli şəxslərə Şərq dillərindən dərs demişdir. O, Peterburq Elmlər Akademiyasının müxbir üzvü, Qazan universitetinin fəxri üzvü, Boston (ABŞ) Şərqşünaslar Cəmiyyətinin müxbir üzvü, Britaniya Kral Asiya Cəmiyyətinin (London) həqiqi üzvü, Almaniya Şərqşünaslar Cəmiyyətinin üzvü seçilmişdir. Mirzə Kazım bəy Peterburq universitetinin Şərq dilləri üzrə fəxri doktoru adına layiq görülmüşdür.

Əraziləri Rusiya və digər dövlətlər tərəfindən zəbt edilmiş türkdilli xalqlar haqqında aşağıdakı məlumatlar diqqətəlayiqdir:

[1] İsrafil İsmayılov. Türk dünyası XX əsrin 90-cı illərində. B., 2001. s.36-37.



| № | Xalqların adları və ya ərazilərinin adları | Rusiya tərəfindən işğal edilməsi tarixi | Əhalisi (milyon nəfər) | XX əsrin sonunda müstəqil və ya muxtar dövlət qurumu elan edilməsi |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | Azərbaycanlılar | Əraziləri 1828-ci ildə Rusiya və İran dövlətləri arasında bölünərək Şimali və Cənubi Azərbaycan adlandı. Cənubi Azərbaycan: 1938-ci ilədək Azərbaycan əyaləti adlanırdı. Bundan sonra Şərqi və Qərbi Azərbaycan Ostanlığı adlanır (inzibati mərkəz – Təbriz şəhəri). | | Şimali Azərbaycan 1918-1920-ci illərdə müstəqil Xalq Cümhuriyyəti. |
| 2. | Acarlar | 1877-1878-ci il Rusiya-Türkiyə müharibəsindən sonra Batum, Qars və Ərdahan Rusiyaya qatıldı. 1921-ci ildə Qars və Ərdahan Türkiyənin tərkibinə daxil edildi. | Rusiya ərazisindəki acarlara 1922-ci ildən Gürcüstanın tərkibində Muxtar Respublika statusu verildi. XX əsrin sonlarında bu muxtariyyətə faktiki olaraq xitam verildi. | |
| 3. | Balkarlar | Rusiya tərkibində. | | Şimali Qafqazda, Rusiya tərkibində. |
| 4. | Qaraçay çərkəzlər | Rusiyanın Stavropol vilyəti tərkibində 1922-ci ildən Muxtar vilayət. | 115 min nəfər | 1987-ci ildən Muxtar vilayət |
| 5. | Başqırdlar | 1557-ci ildə Rusiya tərəfindən işğal olunmuşdur. | 3,8 | 1919-cu ildən Rusiya tərkibində Muxtar respublikadır. |
| 6. | Qazaxlar | 1860-cı ildə Rusiya tərəfindən zəbt edilmişdir. 1926-cı ildə Muxtar | 13,3 | 1991-ci ildən müstəqil dövlətdir. |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | | respublika. 1936-cı ildə SSRİ tərkibində İttifaq respublika. | | |
| 7. | Qırğızlar. | 1960-cı ildə Rusiya tərəfindən zəbt edilmişdir. 1926-cı ildə Muxtar, 1936-cı ildə ittifaq respublika | 2 | 1991-ci ildən müstəqil dövlətdir. |
| 8. | Qaqauzlar | Əksəriyyəti Moldavıyada yaşayır. | | |
| 9. | Qumuklar | Rusiya federasiyası tərkibində olan Dağıstanın tərkibində region. Türkdilli xalq. | | |
| 10. | Dunqanlar. | Qazaxıstanın tərkıbində yaşayan türkdilli xalq. | | |
| 11. | Özbəklər | 1880-cı ildə Rusiya tərəfindən işğal olunmuş və Türküstan general-qubernatorluğu (1887) tərkibində 1936-cı ildən SSRİ tərkibində ittifaq respublikası. | 18 | 1991-ci ildən müstəqil dövlətdir. |
| 12. | Qaraqalpaqlar | 1936-cı ildə Özbəkistan Sovet respublikası tərkibində Muxtar respublika. | 218 min nəfər | Müstəqil Özbəkistanın tərkibində |
| 13. | Tatarlar: 1) Qazan tatarları; | 1545-52-ci illərdə Rusiyaya birləşdirilmişdir. 1920-ci ildən Rusiya tərkibində Muxtar respublika. | 0,8-1,6 | |
| | 2) Krım tatarları. | II Dünya müharibəsi illərində Sibirə sürgün edilmiş başı bəlalı xalq. | | Sevastopol, Simferopol. (hələ də öz vətənlərinə qayıda bilməmişlər). |
| 14. | Türkmənlər | 1860-1885-ci illərdə Rusiya tərəfindən işğal olunmuşdur. 1924-cü ildən Muxtar, 1936-cı ildən müttəfiq respublika. | 4 | 1991-ci ildən müstəqil ölkədir. |
| 15. | Tuvinlər | Rusiya Federasiyası tərkibində Muxtar Sovet respublikası kimi 1944-cü ildə təşkil edilmişdir. | 276 min nəfər | Qızıl şəhəri |



| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 16. | Yakutlar | Rusiya imperiyası tərkibində olmuş və indi də Rusiya tərkibindədir.. | | |
| 17. | Uyqurlar: | 1) Orta Asiya (Türküstan) və Çində yaşayan türkdilli xalq. 2) Rusiya tərkibində 1927-ci ildən Muxtar respublika. | 6 | 1878-ci ildən Çinin Uyqur-Sinyan muxtar rayonunda yaşayırlar. |
| 18. | Xakaslar | 1927-ci ilədək Minusiysk və Abakan tatarları ( türkləri) adlandırılırdılar. (5 qohum ailə tayfasından ibarət türkdilli xalq). | | |
| 19. | Çuvaşlar | Rusiya tərkibində 1925-ci ildən Muxtar respublika. | 1,4 | |
| 20. | Kıpris türkləri | 1975-ci ilin 13 fevralında Şimalı Kiprin türk icması özünü «Kipris türk dövləti» elan etmişdir. 15 noyabr 1983-cü ildə respublika (Cümhuriyyət) elan edilmişdir. | | |
| 21. | Makedonlar. | Keçmiş Yuqoslaviya federativ respublikası tərkibində (1963) respublika | 1,8 | |

***

XX əsrin əvvəllərində Qahirədə türk dilində «Türk» adlı bir qəzet nəşr edilirdi. Naşiri Əli Kamal bəy olan bu qəzetdə konstitusiyaya və islahatlara aid yazılar və təkliflər müzakirə edilirdi. Sultan Əbdülhəmidin idarə etdiyi Türkiyədə belə bir qəzetin nəşri qeyri-mümkün idi. İsmayıl bəy Qaspralı 1911-1912-ci illərdə Baxçasarayda (Krım) «Tərcüman» adlı türkcə qəzetə nəşr edildi. Azərbaycanlı Məhəmməd ağa Şahtaxtlı Tiflisdə Azərbaycan dilində «Şərqi-Rus» qəzetini (1905-1906-cı illərdə), Əlimərdan bəy Topçubaşov isə «Həyat» qəzetini (maliyyələşdirici H.Z.Tağıyev idi) nəşr etdirməyə başladı. Həmin dövrdə İstanbulda «Türk yurdu» jurnalı nəşr edilirdi. Görkəmli filosof, şair və publisist, professor Əli bəy Hüseynzadə 1905-ci ildə Bakıda nəşr edilən «Həyat» qəzetinin 9-cu sayında yazmışdı: «**Türklər tarix səhnəsinə miladi İsadan iki yüz min il əqdəm çıxmışlar**».

XIX əsrin sonlarından başlayaraq türkdilli xalqların birliyi ideyası əksəriyyət hallarda turançılıq adı ilə məlumdur və bu ideya daha çox romantik məna daşımışdır.

Turançılığın ideoloqu Ziya Göyalp turançılıq haqqında belə yazmışdır: «Türkçülərin uzaq məfkurəsi, turan namı altında birləşən oğuzları, tatarları, qırğızları, özbəkləri, yakutları lisanda, ədəbiyyatda, harsda (mədəniyyətdə) birləşdirməkdir. Bu məfkurənin bir reallıq halına keçməsi mümkündür, yoxsa yox? Yaxın məfkurələr üçün bu cəhət aransa da, uzaq məfkurələr üçün aranmaz, çünki uzaq məfkurə ruhlardakı sonsuz vəcdi bir xeyli yüksəltmək üçün hədəf alınan çox cazibəli bir xəyaldır... Yüz milyon türkün bir millət halında birləşməsi türkçülər üçün ən qüvvətli bir vəcd mənbəyidir. **Turan məfkurəsi olmasaydı, türkçülük bu qədər sürətlə yayılmayacaqdı. Bununla birlikdə, kim bilir, bəlkə istiqbalda turan məfkurəsinin üsulu da mümkün olacaqdı?**»

Buradan aydındır ki, turançılıq daha çox türklüyün geniş yayılmasına xidmət etmişdir. Bu ideyanını reallaşması isə çox uzaq və bəlkə də romantik bir məqsəd kimi düşünülürdü.

Bu təbliğin mühüm hissəsini yazıda çətin olan ərəb əlifbasının dəyişdirilməsi ideyası təşkil edirdi.

Azərbaycanda tarixən bu ideyanın əsas təşkilatçısı Mirzə Fətəli Axundov (1812-1878) olmuşdur.



XIX əsrin ikinci yarısında Rusiyada yaşayan tərəqqipərvər türk ziyalıları içərisində Üsili Cədid (Yeni üsül) məktəblərinin yaradılması hərəkatı da bu ideyaya və məqsədə xidmət edirdi.

XX əsrin 70-ci ilində Sovetlər İttifaqı tərkibində yaşamış türkdilli xalqlar üçün çox ziddiyyətli bir dövr olmuşdur. Həmin dövrdə türkdilli xalqların tarixləri ifrat dərəcədə saxtalaşdırılmışdır. Digər tərəfdən, həmin xalqlar da SSRİ tərkibində həyata keçirilən iqtisadi və mədəni inkişaf mərhələlərini keçərək müəyyən iqtisadi və mədəni inkişaf səviyyələrinə nail olmuşlar.

Rusiya alimlərinin böyük bir hissəsinin fikrincə SSRİ-nin dağılması göstərdi ki, bolşevizm ideyası Rusiya imperiyasında geniş xalq kütləsi tərəfindən başa düşülməmişdi və qəbul edilməmişdi. Bu ideyanı bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra təqiblərlə xalqa qəbul etdirdilər.

XX əsrin ortalarında böyük Hindistanda isə Mxatma Qandinin «Zülümsüz müqavimət» nəzəriyyəsi bütün hind xalqı tərəfindən qəbul edildi və bu hərəkata qoşulan hind xalqı Hindistanda yaşayan bütün ingilislərin xidmətindən imtina etmək yolu ilə itaətsizlik etmələri nəticəsində ingilis imperializminin müstəmləkəçilik siyasətini baykot etmək yolu ilə onu məcbur etdilər ki, Hindistan xalqına müstəqillik versin və Hindistan dinc yolla müstəqilliyini qazandı.

Rusiya imperiyası tərkibinə əvvəllər işğal yolu ilə birləşdirilən türkdilli xalqların sovet-bolşevik siyasi sistemini qəbul etmələri də əsasən zor gücünə olmuşdur. Rus alimlərinin bir hissəsi Rusiyanın Avropada hazırlanmış marksizm ideyasını 1917-ci ilin oktyabr çevrilişi ərəfəsində bu ideyanı qəbul etməsi üçün hazır olmadığını iddia editlər. Bunlardan ən birincisi Rusiyada marksizmin təbliğinə Vladimir Lenindən də əvvəl başlamış G.V.Plexanov olmuşdur.

Rusiyada 1917-ci ilin oktyabr çevrilişindən sonra türkdilli xalqların tarixləri o qədər saxtalaşdırılmışdır ki, bu xalqların tarixini həm ortaq məxrəcdən, həm də hər bir türk xalqının XX əsr tarixini yenidən yazmağa böyük ehtiyac vardır.



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Türk dünyası mövzusu son illərdə Türkiyədə və Azərbaycanda daha çox tədqiqatçıların diqqətini cəlb etməkdədir. Bu diqqətin səbəblərindən biri XX əsrin sonunda Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) yaradılmasının 90-cı ildönümünün, Türkiyədə isə Cümhuriyyətin yaradılmasının 85-ci ildönümünün geniş qeyd edilməsi, eləcə də son illərdə Azərbaycanda iqtisadi və mədəni inkişafda yüksək nailiyyətlərin əldə edilməsi ilə əlaqədardır.

Azərbaycanda türk dünyası mövzusu üzrə ilk yazı bu kitabın müəllifi tərəfindən 2001-ci ildə **«Türk dünyası XX əsrin 90-cı illərində»** (həcmi 140 s.) adı ilə nəşr olunmuşdur. Həmin müəllifin ikinci kitabçası **«Türklük şərəfi»** adlanır və 2005-ci ildə nəşr olunmuşdur) (həcmi 150 s.). Türkiyə professoru Fazil Qaraoğlu 2007-ci ildə Bakıda irihəcmli **«Türk millətinin tarixi, qurduğu dövlətlər və ata-babaları»** adlı irihəcmli kitabını (həcmi 383 s.) nəşr etdirmişdir.

2008-ci ildə Ankarada nəşr edilən «Türk dünyası şerləri antalogiyası» kitabında türkdilli xalqlar yaşayan 24 ölkənin şairlərinin (Azərbaycandan Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Sabir Rüstəmxanlının, Vaqif Səmədoğlunun, Zəlimxan Yaqubun və digərlərinin) şerləri verilmişdir.

Ədalət naminə demək lazımdır ki, türkdilli xalqların mədəniyyətləri və adət-ənənələri Qərbin bir çox tərəqqipərvər ziyalıları tərəfindən, o cümlədən bəzi rus ziyalıları tərəfindən hələ XVIII əsrdən başlayaraq daha dürüst qiymətləndirilirdi.

Fransanın böyük maarifçi filosofu və tarixçisi Fransua Volter (1694-1778) belə bir qənaətə gəlmişdir ki, **«Türklər qazandıqları zəfəri ruhlarda və nəsillərdə yaşatmağın üsullarını bilirlər».**

Rusiyada isə əsrlər boyu qonşu Türkiyəyə qarşı davam edən inamsızlıqlar belə ədalətli mövqenin formalaşmasına imkan verməmişdir və belə əhvali-ruhiyyə hələ də davam edir.

Amerika Birləşmiş Ştatlarının 2008-ci ilin sonunda seçilmiş yeni prezidenti Barak Obama özünün yeni prezidentliyinin ilk günlərindən İslam dünyasına qarşılıqlı hörmət və əməkdaşlıq haqqında, inamsızlığı ləğv etmək haqqında müraciət etmişdir.

Rusiya imperiyası Türkiyə-Azərbaycan münasibətlərinə həmişə son dərəcə qısqanclıqla yanaşmışdır. Xüsusilə



Azərbaycanın görkəmli mədəniyyət xadimləri olan Əli bəy Hüseynzadənin və Məmməd Əmin Rəsulzadənin bilavasitə iştirakı ilə nəşr edilən və bütün müsəlman şərqinə yayılan «Molla Nəsrəddin» jurnalını (1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə və 1922-1931-ci illərdə Bakıda nəşr edilmişdir), eləcə də «Füyuzat» (Bakı) jurnalının guya partürkçü və panislamçı məqalələrinə görə gözdən salmaq və susdurmaq istəyirdi Halbuki, həmin jurnallar türkdilli xalqların mədəniyyətini təbliğ etmək və həmin xalqların dövlətçilik ideyalarını təbliğ etmək üçün yaradılmışdı.

Və, nəhayət, daha bir mühüm nəşr haqqında.

Müstəqil Azərbaycan dövlətinin müstəqilliyinin bərpasının on illiyi münasibətilə 2002-2006-cı illərdə Bakıda **«Heydər Əliyev və Şərq»** adlı 6 cildlik mükəmməl kitab nəşr edilmişdir.

Kitabın müəllifləri elmlər doktoru professor Vilayət Quliyev, Qalay Allahverdiyev, Vəhdət Sultanzadə, Novruz Məmmədov və elmlər namizədi Mübariz Qurbanlıdır.

Həmin altı cildliyin II kitabının əvvəlində Azərbaycanın mübariz ədibi Xəlil Rza Ulutürkün ulu öndər Heydər Əliyev ilə aşağıdakı müsahibəsi verilmişdir.

**Xəlil Rza:** ***Yolunuz haradır, Heydər bəy?***
**Heydər Əliyev:** ***Yolumuz Şərqə olsa da, yolumuz qərbədir.***
**Xəlil Rza:** ***Günəş Qərbdə batır…***
**Heydər Əliyev:** ***Qərbdə batırsa da, Şərqdə doğur.***

Altı cildliyin II cildi Azərbaycan-İran münasibətlərinə, III-IV cildlər Azərbaycan-Türkiyə münasibətlərinə, V cild İslam konfransı dövlətlərinə, VI cild «Türk dünyası»na həsr olunmuşdur.

Kitabların aşağıdakı bölmələri (nəşr etdiyimiz kitabın mövzusu ilə əlaqədar olaraq) xüsusi diqqət cəlb edir.

Şərq siyasətimizə bir nəzər: I kitabda - Azərbaycan-Türkiyə əlaqələri; III kitabda - Türkiyə Cümhuriyyətinin prezidentləri, Azərbaycan-Türkiyə mədəni əlaqələri; VI kitabda – Heydər Əliyev və türk dünyası .

Altı cildliyin VI cildində Bakıda M.Atatürk mərkəzinin müdiri Milli Məclisin üzvü professor Nizami Cəfərovun «Heydər Əliyev və türk dünyası» adlı geniş məqalə (s.5-39) Azərbaycan tarixşünaslığına böyük bir hədiyyədir.

Həmin VI cilddə eləcə də türk dünyasının aşağıdakı rəhbərləri və ictimai xadimlərinin Heydər Əliyev haqqında deyimləri verilmişdir: Nursultan Nazarbayev (Qazaxıstan); Bülənd Ecevit (Türkiyə); Mintemir Şaymiyev (Tatarıstan); İslam Kərimov (Özbəkistan).

Nəşrin VI cildində türk dünyasının aşağıdakı dövlətləri və onların prezidentləri haqqında arayışlar verilmişdir: Qazaxıstan haqqında (s.63-191); Özbəkistan haqqında (s.192-282); Türkmənistan haqqında (s.283-331); Qırğızıstan haqqında (s.332-367).

Azərbaycanın ikiyə bölünməsi haqqında Rusiya və İran arasında bağlanmış Gülüstan və Türkmənçay müqavilələrinin mətnləri də nəşrin II kitabında verilmişdir.

Türkdilli Azərbaycanın öz dövlət müstəqilliyini (SSRİ-nin dağılması zəminində) bərpa etməsi ilə Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsinin Şimali Azərbaycana aid olan hissəsi öz hüquqi əhəmiyyətini itirmişdir.



## I Fəsil.

## TÜRKLÜYÜN MAHİYYƏTİ VƏ ONUN İLK NƏZƏRİYYƏÇİLƏRİ VƏ TƏBLİĞATÇILARI

XIX əsrin sonlarından başlayaraq Türkiyədə və Azərbaycanda başlanmış güclü türk istiqlal hərəkatının əsas ideoloqları Azərbaycanın Salyan bölgəsində dünyaya göz açmış Əli bəy Hüseynzadə (1864-1940) və Türkiyənin Diyarbəkir bölgəsində dünyaya göz açmış Mehmet Ziya Əfəndi oğlu Göyalp (1887-1924) olmuşdur.

**Əli bəy Hüseynzadə** Tiflisdə və Peterburqda qısa müddətli təhsildən sonra İstanbul universitetinin hərbi şöbəsini 1895-ci ildə bitirmiş və hərbi təbib ixtisası ilə yüzbaşı rütbəsində bir müddət orada işləmiş və 1904-cü ilin sonunda Bakıya gəlmiş və «Həyat» qəzetinin redaktoru olmuşdur.

Ə.Hüseynzadə 1907-ci ildə redaktoru olduğu «Füyuzat» jurnalında (naşiri xeyriyyəçi milyoner Hacı Zeynalabdin Tağıyev idi) «türkləşmək, islamlaşmaq və Avropalaşmaq» şüarı ilə çıxış etmişdir.

**Ziya Göyalp** fəlsəfə və sosiologiya elmlərinə xüsusi maraq göstərmiş və İstanbul universitetində 1919-cu ilə qədər sosiologiya üzrə professor vəzifəsində çalışmışdır. O, 1918-ci ildə yazdığı «Türkləşmək, islamlaşmaq - müasirləşmək» adlı kitabını həmin şüarın geniş izahına həsr etmişdir.

Azərbaycanlı professor Əli bəy Hüseynzadə 1910-cu ildən sonra əksəriyyət hallarda Türkiyədə yaşamışdır. Bakıda nəşr olunan «Füyuzat» jurnalının 23-cü sayında «Türkçülük, islamçılıq, müasirçilik» düsturu ilə çıxış edərkən türkçülüyü bütün türk dünyası birliyi üçün əsas istiqamət kimi müəyyənləşdirərək öz fikrini **«islam əqidəli, türk qanlı və Avropa qiyafəli bir insan olalım»** demişdi. O düsturu **«bizə türk hissiyyatlı, islam etiqadlı və Avropa qafiyəli fədai lazımdır»**, - məzmununda da şərh edirdi.

Əli bəy Hüseynzadənin əksəriyyət vaxtlarda yaşadığı və Ziya Göyalpın vətəni olan Türkiyədə Sultan Abdulhəmidin istibdadı dövrü olan həmin illərdə «İttihad və tərəqqi» partiyası yenicə yaranmışdı.

Əli bəy Hüseynzadə «Türklər kimdir və kimlərdən ibarətdir?» adlı əsərini 1905-1906-cı illərdə Bakıda «Həyat» qəzetində hissə-hissə çap etdirmiş, sonra isə Türkiyədə kitabça şəklində nəşr etdirmişdir. Həmin əsərində Ə.Hüseynzadə yazmışdır: «Türklərin ən qədim xətt və əlifbası run»[1] deyilən bir xəttdir və özləri tərəfindən ixtira olunmuşdur (s.224).

Ə.Hüseynzadə türklər haqqında son dərəcə qiymətli ümumiləşdirmələr vermişdir. Həmin kitabında o, yazmışdır: «İslamı olduğu kimi qəbul etsələr də «türklər əsla ərəbləşmədilər» (s.225). «Əcəba səbəbi nədir?». Bu suala cavabında o, yazır: «Hər lisan lüğət və qəvaiddən ibarət bulunduğu halda, türk lisanı başlıca qəvaiddən ibarətdir,... Yəni türk dili lüğətə əhəmiyyət verməz, hər lisandan bəyəndiyi kəlməyi alıb öz malı kimi asanlıqla öz ... nəhviyyəsinə tətbiqən təsrif edər» (s.225).

Əli bəy Hüseynzadə «türk dilinin vəzifeyi-mədəniyyəsi» əsərində yazırdı ki, islam mədəniyyətinin sonuncu – üçüncü inkişaf dövrü türk tarixindən ibarətdir və **türk dili öz üstün cəhətlərinə görə Asiyada ümumi ünsiyyət vasitəsinə çevrilə bilər**.

1910-cu ildə yenidən Türkiyəyə qayıdan Əli bəy Hüseynzadə ömrünün sonunadək (qısa fasilələrlə) İstanbul universitetinin tibb fakültəsində (1933-cü ilədək) professor işləmişdir. O, İstanbulda Əhməd Ağayev, Məmməd Əmin Rəsulzadə, Y.Akçuraoğlu və digər mütəfəkkirlər ilə birlikdə «türk ocağı» dərnəyi təşkil etmişdi.

Əli bəy Hüseynzadə Mustafa Kamal Atatürkün hökümətində bir sıra mühüm vəzifələrdə işləmişdir.

Azərbaycan ilə əlaqəsini qırmayan Əli bəy Hüseynzadə Bakıda 1926-cı ildə keçirilmiş türkoloji qurultaya dəvət edilmişdi və orada məruzə ilə çıxış etmişdi.

Ziya Göyalp 1919-cu ildə İstanbulun İngiltərə ordu hissələri tərəfindən zəbt edildikdə Malta adasına sürgün edilmiş və 1921-ci ilə qədər sürgündə olmuşdur.

Ziya Göyalp 1923-cü ildə Türkiyə Cümhuriyyətinin ilk Ana Yasasının (Konstitusiyasının) hazırlanmasında fəal iştirak etmiş və həmin il Türkiyə Millət Məclisinə millət vəkili

---

[1] Əli bəy Hüseynzadə haqqında daha geniş bax: İ.Z.İsmayılov Azərbaycanda dövlətçilik fikri oçerkləri. Bakı, 1996, s.54-59.



seçilmişdir.

1923-cü ildə Ziya Göyalp «Türklüyün əsasları» kitabını nəşr etdirmiş və bu əsərində öz görüşlərinin daha geniş şərhini vermişdir.

Ziya Göyalp hələ cavan yaşlarında ərəb və fars dillərini mükəmməl öyrənməklə yanaşı fransız dilini də mənimsəmişdir və ömrünün son illərində yazdığı «Türk mədəniyyəti» adlı əsərində bu mədəniyyətin xarici təsirlərdən yan keçmədiyini qeyd etmişdir. Z.Göyalp yazır ki, Türkiyə xalqının mədəniyyəti ilə yanaşı ədəbiyyatçılar tərəfindən «osmanlı mədəniyyəti» də yaranmışdır. Bu ikililik əxlaqda da öz əksini tapmışdır. Ziya Göyalp yazır ki, «türk əxlaqı» ilə osmanlı əxlaqı bir-birinə ziddir.[1] Müəllif göstərir ki, türk xalqının əxlaqında «iman» çox güclüdür və bu indi də güclü olaraq qalmışdır.

Mustafa Kamal Paşa Atatürkün çıxışlarında, Əli bəy Hüseynzadənin və Ziya Göyalpın əsərlərində türklərin xarakteri və psixologiyasının xüsusiyyətləri geniş verilmişdir: buraya möhkəm intizam və qanunsevərlik, ailə və namus məsələlərində müqəddəslik və ədalət, vətəni müdafiə və millətin mənafeinin qorunmasında dəyanət kimi keyfiyyətlər daxildir.

Türk-müsəlman dünyasının ensiklopedik şəxsiyyəti olan Azərbaycanlı professor Əli bəy Hüsenzadə eyni zamanda görkəmli publisist idi. 1906-cı ildə yazdığı və Bakıda nəşr olunan «Dəbistan» jurnalında nəşr olunmaq üçün nəzərdə tutulan «Hali-Vətən» şerində o, yazmışdı:

**Ucundadır dilimin**
**Həqiqətin böyüğü**
**Nə qoydular deyəyim**
**Nə kəsdilər dilimi.**

***

**Ayılmadı qələmim bu türk ilə əcəmi**
**Nə qoydular yazayım**
**Nə qırdılar qələmi.**

Əli bəy Hüsenzadə bütün türklərin birliyini, dil birliyi, əqidə birliyi əsasında birləşməsini təbliğ edirdi. O, müstəmləkəçiliyi, xüsusilə Rusiya müstəmləkəçiliyini kəskin tənqid etmişdir.

---

[1] Ziya Göyalp. «Türklüyün əsasları». Bakı, 1991, s.43.

## II Fəsil.

# ŞƏRQİN İLK DEMOKRATİK XALQ CÜMHURİYYƏTİ

Şərqin ilk demokratik Cümhuriyyəti olan Azərbaycan Xalq Cümhuriyyəti cəmisi 23 ay (1918-1920) yaşasa da, Cümhuriyyət təkcə Şərqdə deyil, dünyada ən demokratik dövlət qurumu olaraq qəbul edilmişdir.

Birinci dünya müharibəsinin təsiri ilə dünyada sükut etmiş 3 imperiya tərkibinə Rusiya imperiyası, Osmanlı (Türkiyə) imperiyası və Avstriya-Macarıstan imperiyası daxildir.

1917-ci ilin fevralında Rusiyada 300 illik tarixə malik olan Romanovlar sülaləsinin dağılması, onun milli ucqarlarında yaşayan türkdilli xalqlarının da milli azadlıq hərəkatının güclənməsi üçün şərait yaratdı.

Rusiyada Fevral (1917) inqilabından sonra Azərbaycanın milli burjua partiyası olan «Musavat» partiyası (1913-cü ildə yaradılmışdır) milli demokratik hərəkata başçılıq edən güclü siyasi təşkilata çevrildi.

1917-ci il martın 3-də Rusiya Dövlət Dumasının Cənubi Qafqazdan olan deputatlarının təşəbbüsü ilə Tiflisdə Zaqafqaziyanın idarəçiliyi üzrə Xüsusi Komitə yaradıldı. Bu komitə regionun əsas millətlərini Dövlət Dumasında təşkil edən deputatlardan ibarət idi. Komitəyə V.Xarlamov sədr seçilmişdi. Komitə tərkibində M.Cəfərov və K.Abaşidze üzv seçildilər. Müvəqqəti hökümətin qərar və təlimatlarına uyğun olaraq, Komitəyə Cənubi Qafqazda müvafiq hüquq və səlahiyyətlər verildi. Zaqafqaziyanın idarəçiliyi üzrə təşkil edilmiş həmin Komitə Müvəqqəti hökümətin rəsmi orqanı funksiyasını yerinə yetirirdi.

Bakıda «Musavat» partiyasının getdikcə artan təsirinin qarşısını almaq üçün Rusiya bolşevikləri və erməni daşnaklar 1918-ci ilin mart ayının sonunda azərbaycanlıların soyqırımın təşkil etdilər. Bunun üçün bəhanə isə martın 30-da Lənkərana yola düşəcək «Evelina» gəmisinin (şəxsi heyəti müsəlmanlardan ibarət idi) bolşeviklər tərəfindən tərk-silah edilməsi oldu. Bakı ictimaiyyəti gəmidə zəbt edilmiş silahların



qaytarılmasını tələb etdikdə qarşıdurma yarandı və bolşevik-daşnak silahlı qüvvələri şəhərin müsəlman əhalisinə qarşı soyqırıma başladı. Martın 30-da başlanan həmin soyqırım aprelin 2-si gecəsinə qədər davam etdi və Bakıda 11 mindən çox azərbaycanlı qətlə yetirildi.

Soyqırım günlərində erməni daşnaklar və rus bolşevik silahlıları Bakıda azərbaycanlılardan 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə (talan) etdilər.

Bakıda həyata keçirilmiş soyqırım Azərbaycanın Şamaxı, Quba, Xaçmaz, Lənkəran və Salyan şəhərlərində də davam etdirildi.

1917-ci ilin 15-20 aprelində Bakıda Qafqaz müsəlmanlarının qurultayı çağrıldı. Qurultayda Musavat və Türk Ədəmi-Mərkəziyyət partiyası (Gəncədə Nəsib bəy Yusifbəylinin başçılığı ilə təşkil edilmişdi) geniş ərazi - milli muxtariyyət tələbi ilə çıxış edirdi. Həmin il mayın 1-11-də Moskvada keçirilmiş ümumrusiya müsəlmanlarının qurultayı da ərazi - milli muxtariyyət tələbini müdafiə edirdi.

1917-ci ilin oktyabrında Rusiyada həyata keçirilmiş inqilabi çevriliş Rusiya xalqlarının milli müstəqilliyə olan ümüdlərini bir qədər artırdı. Azərbaycanda Musavat və Türk Ədəmi-Mərkəziyyət partiyaları birləşdi. Həmin ilin noyabrında Tiflisdə yaradılmış Zaqafqaziya hökuməti (Zaqafqaziya Komissarlığı) tərkibinə Azərbaycandan F.Xoyski, M.Cəfərov və X.Məlikaslanov daxil edildi.

1917-ci ilin dekabrında Ərzincanda (Türkiyə) Zaqafqaziya komissarlığı ilə Osmanlı dövləti arasında barışıq imzalandı. Dekabrın 19-da Zaqafqaziya Komissarlığı milli qoşun (ordu) hissələrinin yaradılması haqqında qərar verdi.

1918-ci ilin 22 fevralında Cənubi Qafqazdan Ümumrusiya Müəssisələr məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziya Seymi yaradıldı. Zaqafqaziya Seymində Azərbaycan siyasi partiyalarından 44 nəfər iştirak edirdi. Həmin il aprelin 22-də Zaqafqaziya Federativ Respublikalarının yaradılması elan edildi. Lakin bir neçə gün sonra onun tərkibindən ilk əvvəl Seymin gürcü fraksiyası çıxdı və öz müstəqilliyini elan etdi.

1918-ci ilin 26 mayında Zaqafqaziya Seymi özünün buraxıldığını elan etdikdə mayın 27-də Seymin müsəlman

## Azərbaycan Xalq Cümhuriyyətinin

## görkəmli xadimləri

## (1918-1920)



M.Ə.Rəsulzadə
Milli Şuranın sədri



Ə.M.Topçubaşov
Parlamentin sədri



F.x.Xoyski
Nazirlər Şurasının sədri (1,2,3-cü kabinə)



N.b.Yusifbəyli
Nazirlər Şurasının sədri (4,5-ci kabinə)



(Azərbaycan) fraksiyası üzvləri hələ Tiflisdə olduqları üçün orada Azərbaycan Milli Şurasını yaratdılar (Şuranın sədri vəzifəsinə Məmmədəmin Rəsulzadə seçildi).

Həmin dövrdə Bakıda isə Sovet Rusiyası hökuməti tərəfindən Stepan Şaumyanın rəhbərliyi altında qondarma «Bakı Kommunası» yaradılmışdı.

Zaqafqaziya Seyminin müsəlman fraksiyası tərkibində yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərkibinə Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Behbud ağa Cavanşir, general-polkovnik Səməd ağa Mehmandarov, Xəlil bəy Xasməmmədov, Como bəy Hacinski, general-mayor Həbib Səhimov və digər görkəmli dövlət xadimləri daxil edildi. Bunların əksəriyyəti Avropada və Rusiyada mükəmməl ali təhsil almış mütəxəssis ziyalılar idilər.

1918-ci ilin 28 mayında Tiflisdə təşkil edilmiş Azərbaycan Milli Şurası Azərbaycanın dövlət müstəqilliyini elan edən «İstiqlal Bəyannaməsi»ni qəbul etdi. Bu «Bəyannamə» Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya aktı idi.

1918-ci ilin 30 mayında Azərbaycan müvəqqəti hökumətinin başçısı Fətəli xan Xoyskinin imzası ilə Azərbaycanın öz istiqlalını bəyan etməsi haqqında «Bəyannamə» radioqramma ilə İstanbula, Berlinə, Vyanaya, Parisə, Londona, Romaya, Vaşinqtona, Sofiyaya, Buxarestə, Tehrana, Madridə, Haaqaya, Moskvaya, Stokholma, Kiyevə, Xristianiyaya, Kopenhagenə və Tokiyaya göndərildi.

Sovet Rusiyasından hərbi kömək almış Stepan Şaumyana tabe olan daşnak-bolşevik hərbi qüvvələri Gəncədə yerləşən Azərbaycan Xalq Cümhuriyyəti hökumətini məhv etmək üçün iki qrup hərbi dəstə ilə Ağsu-Qaraməryəm-Göyçay və Hacıqabul-Kürdəmir-Müsuslu istiqamətlərə silahlı dəstələri göndədərək, Rusiyadan əlavə hərbi qüvvə tələb etdi.

Azərbaycan Xalq Cümhuriyyətinə qarşı hərbi hücumların olacağını nəzərə alaraq, 1918-ci ilin 4 iyununda Batumda Azərbaycan ilə Osmanlı Türkiyəsi dövləti arasında «Dostluq və əməkdaşlıq haqqında müqavilə» imzalanmışdı və həmin müqavilənin 4-cü bəndində tərəflərin lazım olduqda bir-birinə hərbi yardımı nəzərdə tutulurdu.

Gəncədə yerləşmiş Azərbaycan Xalq Cümhuriyyəti hökümətinə qarşı göndərilən daşnak-bolşevik (rus) hücumlarının qarşısını almaq üçün Batum müqaviləsinin 4-cü bəndinə uyğun olaraq Türkiyədə 5-ci Qafqaz dıviziyası (komandan Mürsəl Paşa) təşkil edilmişdi və həmin diviziya Gəncəyə gətirildi.[1]

5-ci Qafqaz diviziyası və Azərbaycanın hərbi hissələrindən ibarət (general Ə.Şıxlinskinin komandan olduğu) müsəlman milli korpusu iyulun 29-da Göyçay-Qaraməryəm istiqamətində Bakıdan göndərilən daşnak-rus hərbi hissələrinə qarşı əks hücuma keçdilər, iyunun 1-2-də Qaraməryəm və Ağsu ərazilərində aparılmış döyüşlərdə düşmən qüvvələri darmadağın edildi və Bakı istiqamətində hərbi yürüş davam etdirildi. 1918-ci ilin avqustunun əvvəlində 5-ci Qafqaz diviziyası Bakının ətrafına (Xırdalana) çatdı. Həmin günlərdə Bakı Kommunası rəhbərliyi Bakını tərk etdi və onun əvəzinə Bakıda menşevik-eser-daşnak qüvvələrindən Sentrokaspi (Mərkəzi Xəzər) adlı «hakimiyyət» yaradıldı. Adı çəkilən Sentrokaspi hakimiyyəti İranda yerləşən Britaniya Ekspedisiya ordusunu komandan general Denstterviliп hərbi qüvvəsini Bakıya dəvət etdi və həmin ordunun bir neçə batalyonu avqustun 4-7-də Xəzər dənizi vasitəsilə Bakıya kiçik gəmilərdə daxil oldular.

Qafqaz İslam ordusunun komandiri Nuru Paşanın təşəbbüsü ilə Bakını azad etmək üçün Türkiyədən göndərilən 3 alay Bakıya yaxınlaşdıqda birgə hücum başlandı. Bakı uğrunda həlledici döyüşlərdə 1000 nəfərlik Azərbaycan nizami hərbi qüvvələri (komandir general Həbib bəy Səlimov) və Azərbaycanın Bakı ətrafı rayonlarından gəlmiş könüllü suvari dəstələri də fəal iştirak etdilər.

---

[1] Qafqaz türk islam ordusunun Azərbaycanın ıstiqlal uğrunda döyüşlərdə geniş iştirakı 2008-ci ildə Bakıda fəaliyyət göstərən Qafqaz Universiteti elmi işçiləri tərəfindən yazılaraq çap edilmiş iri həcmli kitabda (69?-ci s.) geniş şərhi edilmişdir.



Qafqaz İslam ordusunun komandiri Nuru Paşanın sentyabrın 13-də imzaladığı əmrə əsasən Bakıya hücum başlandı. Nuru Paşanın müavini Rüşti bəy 1934-cü ildə İstanbulda çap etdirdiyi «Böyük hərbdə Bakı yollarında, Qafqaziya piyada ordusu» adlı kitabında yazmışdır: «14-14 sentyabr gecəsi bütün cəbhə boyu makinalı tüfəng atəşi eşidildi. Biləcəri və Erməni kənd yaxınlığında bəzi yanğınlar baş vermişdi. 15 sentyabr 1918-ci ildə səhərin açılması ilə topçularımız atəşə başlamışlardı.

...Nargin adası ilə şəhər arasında bir qafilə olduğu göründü. Bunlar qaçmaqda olan ingilis əsgərləri idi. Saat 10.30-da, üstündə İran bayrağı ilə böyük, bəyaz bir bayraq taxılmış qapalı bir minik avtomobilinin şəhərdən gəldiyi xəbər verildi. Gələn avtomobildən İran konsulu ilə Bakı Qərb cəbhəsinin erməni komandanı çıxdı. Onlar şəhərin və erməni əsgərlərinin təslim şərtlərini danışmaq üçün gəlmişdilər».

Erməni-daşnak və bolşevik hərbi qüvvələrin təslim olması və şəhərdən çıxarılması haqqında müqaviləyə Mürsəl Paşa, Həbib bəy Səlimov və digərləri imza etdilər...»

1918-ci ilin 15 senyabrı Qurban bayramı günü idi, bu gün azərbaycanlılar üçün eyni zamanda azadlıq bayramı oldu. Bakının düşmənlərdən təmizlənməsi uğrunda döyüşlərdə 800-1000 nəfər Türk əsgəri şəhid oldu, azərbaycanlılardan şəhid olanların sayı isə bundan çox idi.

Bakının azad edilməsində iştirak edən Azərbaycanlı döyüşçülər içərisində «Tatar (azərbaycanlı) süvari alayı»nın min nəfərə qədər əsgər və zabit idə olmuşdur. Bunlar I Dünya müharibəsi illərində «Dikaya (vəhşi) diviziya» adlanan diviziya (Rəsmi sənədlərdə «Qafqaz Tuzem diviziyası» adlanırdı) tərkibində olan azərbaycanlılardan ibarət «Tatar alayı»nın zabit və əsgərləri idilər. 1917-ci ilin noyabrında həmin Qafqaz tüzem diviziyası əsasında «müsəlman korpusu», 1918-ci ilin 26 iyununda isə həmin korpusun əsasında «Əlahiddə Azərbaycan korpusu» yaradılmışdı.

Azərbaycanın 1918-ci ildə əldə edilmiş müstəqilliyinin beynəlxalq sənədlə tanınması, onun müstəqil dövlət kimi mövcudluğundan (1918-ci ilin 28 maydan) il yarım sonra (1920-ci ilin 11 yanvarında) Paris sülh konfransında elan edildi. Bu isə Azərbaycanın bolşevik Rusiyası tərəfindən silah

gücünə 1920-ci ilin 28 aprelində boğulmasından cəmisi üç ay yarım əvvəl idi.

Bunula belə Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə və bütün Türk dünyasında yaranmış ilk demokratik respublika olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinə qarşı qəsd hazırlayan əsas düşmən cəbhəsi daşnak (erməni)-bolşevik qüvvələrindən ibarət idi. Erməni ordusunun 1920-ci ilin martında (Novruz bayramı ərəfəsində)Qarabağa soxulmuş qüvvələrini Azərbaycanın milli ordusu darmadağın etmişdi. Lakin bir ay sonra bolşevik Rusiyasının 60 minlik XI ordusunun hücumunun qarşısını almaq mümkün olmadı. Burada geniş oxucu kütləsinə çatdırılması lazım olan bəzi məqamları şərh etməyə ehtiyac duyulur:

Rusiya Sovet hökuməti I Pyotrun vəsiyyətinə sadiq qalaraq, keçmiş Rusiya imperiyasının 1917-ci ildə itirdiyi Zaqafqaziyanı yenidən zəbt etmək üçün ilk əvvəl Azərbaycanı işğal etməli idi. Bunun üçün Rusiyada hazırlanmış hərbi-diplomatik plana əsasən aşağıdakı tədbirlər həyata keçirildi:

1) Azərbaycanı Denikinə qarşı müharibədə Rusiyaya kömək etməyə (?!) dəvət etmək və ittifaqa razı olmadıqda Azərbaycana diplomatik təzyiqləri gücləndirmək. Qeyd edək ki, Sovet Rusiyası Azərbaycanın Xalq Cümhuriyyəti hökumətini tanımamışdı;

2) Azərbaycanın Milli Ordusunu respublikanın şimalından uzaqlaşdırmaq üçün Rusiyanın müttəfəqi olan Ermənistan ordusunun Qarabağa hüsumunu təşkil etmək;

3) Öz müstəqilliyi uğrunda mübarizədə hərbi köməyə ehtiyacı olan Anadolu türklərinə hərbi kömək göndərmək bəhanəsi ilə, Rusiya ordusunun Azərbaycandan keçməsinə mane ola biləcək siyasi müqaviməti neytrallaşdırmaq və XI ordunun Azərbaycana girməsinə nail olmaq;

4) Bu işdə Rusiya bolşevik hökuməti Azərbaycanın yerli bolşeviklərinin rəhbərlərinin bir qrupunun (Əliheydər Qarayev, Mirzə Davud Hüseynov və s.) köməyinə əmin idi. Bu yerli bolşeviklərə həmin məsələdə Cənubi Azərbaycandan Bakıya vaxtilə neft mədənlərində işləmək üçün gəlmiş çoxsaylı fəhlələri təmsil edən «Ədalət» partiya təşkilatının bir qrup rəhbərləri də tərəfdar çıxmışdı.



Beləliklə müstəqil Azərbaycanın işğal edilməsi planının icrasına başlandı.

Göstərilən dövrdə Azərbaycanda fəaliyyət göstərmiş görkəmli siyasi mühacir Mirzə Bala Məmmədzadə (1898 – 1959) sonralar Almaniyada olarkən 1938-ci ildə nəşr etdirdiyi «Milli Azərbaycan hərəkatı...» kitabında hadisələri belə şərh edir: «Nəsib bəyin hökuməti istefa vermişdi. Həsən Hacinskiyə yeni kabinetin təşkil üçün kart-blanş verildi. Həsən Hacinski Türkiyə Kommunist partiyasının zamin durması və tövsiyəsi ilə Qafqaz Mərkəzi İnqilab Komitəsilə müzakirəyə girişdi və kommunist partiyasını rəsmən siyasi partiya kimi qəbul etmək və ölkə daxilində sərbəst sürətdə fəaliyət göstərməyinə icazə vermək, həbs olunmuş kommunistləri azad etmək, Azərbaycanın daxili işlərinə müdaxilə etməmək şərtilə Qırmızı Ordunun Azərbaycandan Ermənistana və Gürcüstana hərəkətinə mane olmamaq, ingilislərlə siyasi münasibətləri kəsmək barədə iki tərəf arasında razılıq hasil olundu»[1].

Halbuki, həmin günlərdə Məmmədəmin Rəsulzadə Bakıda aparılan bu danışıqlarda iştirak edən Türkiyə kommunistləri və mühacirlərindən olan Nail bəyə, Xəlil Paşaya və digərlərinə (Rüfət bəy, Yaqub bəy, d-r Fuad Sabit...) demişdi: «Etməyin, bizi öz halımıza buraxın, yüz ildən bəri əsarəti altında olduğumuz rusları biz daha yaxşı tanıyırıq. Onlar hiylə ilə gələr, sonra bizi əzərlər»[2].

Azərbaycanın 30 minlik milli ordusunun əsas qüvvələri Qarabağda Əskəran keçidini 1920-ci ilin novruz bayramı ərəfəsi (martda) ələ keçirmiş Ermənistan ordu hissələrinə qarşı döyüşə göndərildiyi üçün ölkənin şimal sərhəddində cüzi bir ordu hissəsi qalmışdı.

1920-ci ilin 26 aprel axşamı XI ordu iki zirehli qatarın müşayəti ilə Dağıstandan Azərbaycan sərhədlərini keçmişdi və dəmir yol stansiyalarını bombardman edirdi.

Sərhəddə yaxın Yalama stansiyasına qədərki məsafənin ilk kilometrində dəmir yolu relsləri milli ordu tərəfindən sökülmüşdü.

---

[1] Mirzə Bala Məmmədzadə. Milli Azərbaycan hərəkatı. B, 1992, s.136-137
[2] Yenə orada, s.137.

Həmin dövrün hadisələrinin geniş şərhi 1961-ci ildə İstanbulda nəşr edilmiş 1400 səhifəlik «Azərbaycan istiqlal mücadiləsinin xatirələri» kitabının müəllifi Kazım Qara Bəkir Paşa tərəfindən verilmişdir. Bu xatirələrin bir yerində deyilir: «...Quba valisinə sərhəddəki dəmir yolu relslərinin bir kilometrə qədər sökülməsi əmri verilmişdi. Ertəsi gün vali relsləri sökdürdü. Fəqət bu dəfə yalançı vətənpərvər Xəlil Paşa general Şixlinskinin (Azərbaycan Xalq Cümhuriyyəti hərbi Nazirinin müavini Əliağa Şixlinski – red) yanına qaçır, «Aman Paşam, hökümət sərhəddə dəmiryolu relslərini sökdürmüşdür. Qızıl ordu Anadoluya keçə bilməyəcək, Tədbir görün», deyir.

General Şixlinskinin əmri ilə relslər yerinə qoyuldu.

Beləliklə Ənvər Paşanın rus ordusu ilə birlikdə gələrək, Anadoluya keçəcəyi haqqında bolşeviklərin yaydığı yalan təbliğata inananlar da oldu və XI ordu Bakıya doğru hücumunu, sərhəddə qısa müqavimətdən sonra, davam etdirdi.

Azərbaycan Xalq Cümhuriyyəti parlamanının 27 aprel axşamı (1920) çağırılmış son iclasında yerli bolşeviklərin hakimiyyətin onlara verilməsi haqqında ultimatumu (tələbi) gecə saat 11-də qəbul edildi. Səsvermədə «İttihad» partiyasında (lideri Qarabəyov idi) olan deputatlar sosialist deputatlarla birləşmişdilər. Parlamanda çıxış edən Səmədağa Ağamalı oğlu demişdi: Madam ki, Azərbaycanın istiqlaliyyətini qorumağa söz verirlər, «millətin əmin-amanlığını qorumaq» naminə yeni qüvvənin hakimiyyətə gəlməsinə etiraz etməyin mənası yoxdur və təslimdən başqa çarə də yoxdur...»

Parlamanın həmin iclasındakı son çıxışında Məmməd Əmin Rəsulzadə isə belə demişdi: «Anadolunun imdadına getmək bəhanəsiylə yurdumuza girən bu işğal ordusu bir daha Vətənimizdən çıxmaq istəməyəcəkdir... bu ultimatumu qəbul etmək höküməti öz əlimizlə dost cildli düşmənə təslim etməkdir». Tarix, bu sözlərin müəllifinin uzaqgörənliyini sübüt etdi.

Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi iki ilə yaxın müddətdə xalqın mübarizə tarixində misilsiz rol oynayaraq zəngin dövlətçilik təcrübəsi miras qoymuşdur.



1918-ci ilin 7 dekabrında işə başlayan Azərbaycan Parlamanı özünün bir il beş aylıq fəaliyyəti dövründə 150-dən çox mühüm qanun qəbul etmişdi. 1919-cu ildə Parlamanın qərarı ilə fəaliyyətə başlamış Bakı Dövlət Universiteti xalqın tarixində parlaq bir səhifə kimi qiymətli idi. Parlaman Azərbaycanda 7 müəllimlər seminariyası, bir qadın seminariyası, bütün qəza mərkəzlərində orta məktəblərin açılması haqqında fərman vermişdi. Eləcə də, hər il 100 nəfər gəncin dövlət hesabına xarici ölkələrdə təhsil almağa göndərilməsinə başlanmışdı.

Bununla belə Azərbaycanın ilk müstəqil demokratik Cümhuriyyətinin boğulacağının qarşısını almaq qeyri mümkün, qaçılmaz oldu.

Əlbəttə, burada əsas faktor xaricdəki (Rusiya) və Azərbaycanın daxilindəki bolşevik qüvvələrinin birləşməsi olmuşdur. Belə bir vəziyyətlə Azərbaycanın müstəqilliyinin Rusiya tərəfindən tanınmaması da mənfi rol oynadı.

Azərbaycanın müsətəqiliyinin tanınmasının gecikdirilməsi əsasən ABŞ hakim dairələrinin həmin dövrdə Qafqazın zəif dövlətləri üçün konfederasiya yaradılması planı ilə əlaqədar idi.

Amerika prezidenti V.Vilson Parisdə olacaq Beynəlxalq sülh konfransında iştirak etmək üçün oraya gəlmişdi və 1919-cu ilin 28 mayında (Azərbaycanın istiqlalının ildönümü günü) Azərbaycan nümayəndə heyətini qəbul etmişdi. Nümayəndə heyətinin başçısı Əlimərdan bəy Topçubaşov V.Vilsona memorandum təqdim etmişdi. Bu sənəddə Azərbaycanın siyasi və iqtisadi vəziyyəti şərh edilir və Prezident V.Vilsondan xahiş edilirdi ki, onun 14 maddədən ibarət məşhur prinsipləri, və xüsusilə öz müqəddəratını təyin etmək hüququ prinsipli Azərbaycana da şamil edilsin. Lakin V.Vilson sülh konfransının dünyanı kiçik hissələrə parcalamaq niyyətində olmadığını söyləmişdi. V.Vilsonun fikrincə həmin dövrdə ən real çıxış yolu böyük dövlətlərin birinin kiçik dövlətlərdən yaradılmış konfederasiya üzərində qəyyumluğuna razı olması idi.

Azərbaycanın nümayəndə heyətinin V.Vilson tərəfindən belə soyuq qarşılanmasının əsas səbəblərindən biri həmin

dövrdə ermənilərin Türkiyə və Azərbaycan əleyhinə çox geniş təbliğat kompaniyası aparması olmuşdur.

Buna görə də Ə.Topçubaşov Parisdə olduğu müddətdə ingilis və fransız dillərində Azərbaycana aid bir neçə kitabça hazırlayıb, onların geniş yayılmasını təşkil etmişdi. Lakin bu gec idi, və hadisələrə əsaslı təsir edə bilməzdi.

Digər tərəfdən Azərbaycana həmişə arxa olan Türkiyə dövləti I dünya müharibəsində məğlub olan ittifaqa daxil olduğu üçün ağır vəziyyətdə idi, özünün köməyə böyük ehtiyacı var idi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti milli müstəqilliyini möhkəmləndirmək üçün quruçuluq işinə belə bir çətin vəziyyətdə başlamışdı.

Azərbaycanın üç rəngli bayrağı 1918-ci ilin 9 noyabrında Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin sədri F.Xoyskinin hökümətin iclasında məruzəsi əsasında qəbul edilmişdi. Bu bayraqda *«göy»* rəng – **türklüq**, *«qırmızı»* - **müasirlik**, *«yaşıl»* - **islam** rəmzi kimi Ziya Göyalpdan və Əli bəy Hüseynzadədən gələn ideyadır. Əlibəy Hüseynzadə həmin dövrdə, bizə «Türk hissiyatlı, İslam etiqatlı, Avropa qiyafəli fədai» lazımdır fikri ilə çıxış edirdi və bunu «türkləşdirmək, islamlaşmaq, müasirləşmək» şəklində düstürlaşdırmışdı. Buna uyğun olaraq bu üçlük müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağında göy, yaşıl və qırmızı rənglər ilə ifadə olunmuşdur.

Almaniya və Sovet Rusiyası arasında 1918-ci ilin martında bağlanmış Brest-Litovsk sülh müqaviləsinə əsasən Qars və Batum vilayətləri Türkiyə nəzarəti altına keçmişdi və 1918-ci ilin 25 aprelində Türkiyə ordusu Qarsa daxil olmuşdu. Qars vilayətində 1918-ci ildə 225 min müsəlman əhalisi, 11 min erməni, 9 min gürcü və 26 min rus yaşayırdı[1].

1918-ci ilin oktyabrında qəbul edilmiş Mudros barış müqaviləsinə əsasən Türkiyə ordu hissələri Zaqafqaziyanı tərk etdi və bu regiona ingilis ordu hissələri gətirildi, Qarsda ingilis general-qubernatorluğu yaradıldı. Həmin general-qubernatorluğun tərkibinə 1919-cu ilin əvvəlində Qars,

[1] Aydın Hacıyev. Cənubi-Qərb Qafqaz (Qars) Cümhuriyyətinin yaradılması və süqutu tarixindən. Bakı 1992, səh.11 *(rus dilində)*.



Batum, Axalsıx, Axılkələk, Şərur, Naxçıvan, Sürməli, İrəvan daxil idi. 1919-cu ilin yanvarında bu ərazilərdə (Qars vilayəti də adlanırdı) keçirilən parlaman seçkilərində parlamana 64 deputat seçildi və həmin ilin 27 martında parlamanın sədri Əsəd Hacıyev Qarsı «Cənubi-Qərb Qafqaz demokratik Cümhuriyyəti» elan etdi. Beləliklə Zaqafqaziya regionunda yeni bir respublika yaradıldı. Lakin aprelin 12-də ingilis ordu dəstələri yenicə yaranmış parlamanın 30 üzvünü həbs edərək, parlamanı qovdu. Həmin gün ingilislərin dəvəti ilə Qarsa erməni hərbi hissələri daxil oldu və üç gün sonra ingilislər Qars vilayətini daşnaq Ermənistanına təntənəli sürətdə təhvil verdilər və Karqanov (Karqanyan) vilayətin hakimi təyin olundu.

1919 – 1920-ci illərdə Qars vilayətində türklərə və digər müsəlmanlara qarşı soyqırım həyata keçirildi. Daşnak Ermənistanı 1920-ci ilin əvvəlində Zəngəzur, Şərur-Dərələyəz vilayətlərini işğal etmişdi, Qarabağa isə tez-tez hücumlar edilirdi[1].

Həmin dövrdə Rusiyaya, ABŞ və İngiltərə hakim dairələrinə arxalanan daşnak Ermənistanı hətta Türkiyəyə müharibə elan etmişdi. Türkiyə ordusu 1920-ci ilin 2 noyabrında Qarsı, 10 noyabrda isə bütün Qars vilayətini erməni quldur dəstələrindən azad etdi.

Ermənistanın Rusiya bolşevikləri tərəfindən zəbt ediləcəyini yəqin edən ABŞ prezidenti V.Vilson Ermənistana kömək etməyi dayandırdı və 1920-ci ilin 29 noyabrında Ermənistanda da Sovet hakimiyyəti yaradıldı.

Beləliklə daşnakların Ermənistanı Qars vilayəti hesabına genişləndirmək planı baş tutmadı. Daşnaklar Qars vilayətini itirməkdə Rusiya Sovet hökümətini indii də ittiham edirlər. Daşnak partiyası ideoloqlarından olan A.Arşaruni Parisdə nəşr etdirdiyi «Araçe» («İrəli») qəzetinin 1932-ci il 9 dekabr sayında «15 il qırmızı qamçı altında» adlı məqaləsində yazmışdı: «Sovet hakimiyyəti Türkiyə ilə birlikdə Ermənistan Respublikasının binasını darmadağın etdi...».

[1] Aydın Hacıyev. Qars və Araz Türk respublikalarının tarixindən. Bakı, Azərnəşr, 1994.

Məlumdur ki, Rusiya Sovet hökuməti XI Qırmızı ordusunun gücü ilə Ermənistan Respublikasını əsasən Azərbaycan torpaqları hesabına yaratdı, Azərbaycanın qədim Zəngəzur diyarı və ətraf rayonları ermənilərə peşkəş verildi.

Ermənistanın ərazisinin 82% Azərbaycan əraziləri hesabına zəbt edilmiş ərazilərdir.

Azərbaycan və Türk dünyası üçün əsas ağrılı məsələlərdən biri Ermənistan adlanan dövlətin əsasən qədim Azərbaycan əraziləri hesabına təşkil edilməsidir. Bu məsələdə o zamankı Azərbaycan rəhbərliyi də milli mənafeyə sadiq qalmamış və bəlkə də qala bilməmişdir. Belə ki, Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli iclasında İrəvan haqqında məsələ müzakirə edilmişdi. Aleksandropol (Qumru) Türkiyə tərəfindən zəbt edildiyi üçün Ermənistan tərəfi İrəvanı özü üçün siyasi mərkəz seçmişdi. Azərbaycan Milli Şurası bu iclasda səs çoxluğu ilə İrəvanı Ermənistan (Ararat) respublikasının mərkəzi kimi tanımağı mümkün saymışdı.

Əlbətdə, bu razılıq siyasi səhv idi. Bu tədbirə heç olmasa etiraz etmək, tarixi bir fakt kimi, indi üçün də çox lazım idi.

İrəvan (Çuxursəd) Səfəvi dövlətinin bəylərbəyliyindən biri olmuşdur. Bu ərazi XVI əsrin sonu – XVII əsrin əvvəllərində Osmanlı dövlətinin tərkibində olmuş və rəsmi yazışmalarda Rəvan (sonralar İrəvan) əyaləti adlandırılırdı.

Azərbaycanın Milli Şurasının sədri seçilmiş Məmməd Əmin Rəsulzadənin mövqeyi bu məsələlərdə tamamilə fərqli olmuşdur. Bu məsələlərdə o, öz mövqeyini həmin dövrdə, Sovet Rusiyası Hökumətinin rəhbərlərindən biri olan Stalinə də açıqcasına deməkdən çəkinməmişdir.

Məlumdur ki, Stalini 1904-cü ildə Bayıl türməsində həbsdən qaçıran Məmməd Əmin Rəsulzadəni 1920-ci ilin noyabrında Stalin həmin Bayıl türməsindən azad edərək, özü ilə Moskvaya aparmış və onun Finlandiyadan keçərək Türkiyəyə getməsi üçün şərait yaratmışdır[1].

Məmməd Əmin Rəsulzadə ilə Bayıl türməsində Stalin görüşərkən ondan soruşmuşdur "Siz bir il yarımlıq

[1] Bu haqda daha geniş, bax, prof. İsmayılov İ.Z. Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri. 1995, s.35-45.



hakimiyyətiniz dövründə xalqa nə verə bildiniz?" M.Ə.Rəsulzadə cavabında demişdi: "Çox şey verə bilmədik, amma milli azadlığın nə olduğunu başa saldıq. Az da olsa milli istiqlalı daddılar".

Məmməd Əmin Rəsulzadə 1923-cü ildə nəşr olunmuş "Əsrimizin Səyavuşu" əsərində "Biz nə qazandıq"? sualına cavab verərkən Azərbaycan Xalq Cümhuriyyətində seçgilər yolu ilə Parlamanın yaradılması və fəaliyyəti haqqında yazmışdır: **«Hər şeydən əvvəl Azərbaycan Cümhuriyyətinin əsas ideyası bütün vətəndaşların bərabər bir hüquqda yaşaması üzərində qururmuşdur. Burada ...ərkək-qadın, müsəlman-xristian, türk, türk olmayan, cins və milliyyət fərqi gözləmədən, zəngin-fəqir, müdir-işçi, torpaq sahibi-günəmuzdu, öyrətmən-tələbə, möhtərəm-cahil, sinif, məslək, təbəqə, rütbə, məqam, nəsib, bilgi imtiyazı aramadan, bütün vətəndaşlar məmləkətin idarəsində iştirak edir. Burada bir sinif digər sinifə hakim deyildir. Burada misli Avropada təqlid olunmayan həqiqi bir xalq Cümhuriyyəti qurulmuşdur».**

## III Fəsil.

## TÜRKİYƏ CÜMHURİYYƏTİ

*Azərbaycan və Türkiyə arasında mövcud olan qardaşlıq əlaqələri və bu əlaqələrin səmimiliyi özü-özlüyündə qiymətli olmaqla yanaşı, həm də ona görə qiymətlidir ki, Azərbaycan vasitəsilə biz digər dost ölkələrlə əlaqələrimizi həyata keçiririk.*

**M.K.ATATÜRK**

Şərqdə çoxəstəlik tarixə malik və müstəqilliyini həmişə qoruya bilmiş Türkiyə (və onun mübariz xalqı) Türk dünyasının ən böyük və qüdrətli dövlətidir. Müasir Türkiyədə yaşayan əhalinin 700 il davam etmiş səltənətinin əsasını qoymuş sərkərdə Osmanın (1258-1326) adı ilə əlaqədar olaraq bu türklərə tarixi ədəbiyyatda Osmanlı türkləri də deyirlər.

Ölkənin Konstitusiyasına (Ana Yasasına) əsasən 1924-cu ildə «Osmanlı» adı «Türkiyə» adı ilə əvəz edilmişdir.

Türkiyə Cümhuriyyətinin yaranma tarixi – 1923-cu ilin 29 oktyabrı milli bayram (Cümhuriyyət günü) kimi qeyd ediiir. Belə ki, birinci dünya müharibəsində Antanta dövlətlərinə qarşı müharibə blokunda (Almaniyanın başçılığı ilə) məğlub olan üçlüyün iştirakçısı olan Türkiyənin tarix boyu qəhrəmanlıqlar göstərmiş xalqı əsarətə düşmək qorxusu ilə qarşılaşdıqda, bütün xalq briqada generalı Mustafa Kamal paşanın başçılığı altında beş il davam edən azadlıq mücadiləsinə qalxdı və qalib gəldi. Fransa, İtaliya, Yunanıstan və İngiltərənin, eləcə də qonşu ermənilərin işğalçı qüvvələri darmadağın edildi və 1922-ci ilin sentyabrında bütün Anadolu düşmənlərdən təmizləndi. Bundan az əvvəl, 1922-ci ilin 16 martında Moskvada bağlanmış Rusiya-Türkiyə müqaviləsi Türkiyənin şimal-qərb sərhədlərinin təhlükəsizliyini təmin etdi.

Lozanna konfransında (1923-cü il 24 iyun) imzalanmış sülh müqaviləsi Türkiyə Respublikası dövlətinin beynəlxalq



aləmdə tanınması demək idi, (Yalnız Mosul rayonu haqqında məsələnin həlli sonraya saxlanmışdı).

1922-ci ilin 1 noyabrında Türkiyənin Böyük Millət Məclisi 600 il davam etmiş sultanlığı ləğv etdi və sonuncu sultan VI Mehmet ölkədən Maltaya qaçdı. Mustafa Kamal paşa (Atatürk) dünya tarixində dörd dəfə dalbadal ölkə prezidenti seçilmiş ilk dövlət xadimidir (ondan sonra belə bir şərəfə Amerika Birləşmiş Ştatlarında Franklin Ruzvelt layiq görülmüşdür).

Xoşbəxt təsədüfdür ki, rəmzi varislik əlaməti olaraq Azərbaycan prezidenti Heydər Əliyev Mustafa Kamal paşanın Türkiyənin Cümhur başqanı (prezidenti) elan edildiyi 1923-cü ildə dünyaya göz açmışdır.

1923-cü ilin 29 oktyabrında Türkiyədə Cümhuriyyət dövlət forması elan edildi və böyük öndər Mustafa Kamal paşanın başçılığı altında yeni dövlətin quruculuğuna başlandı. Həmin günlərdə Atatürk demişdi: **«...Türkiyənin yeni və modern bir dövlətə ehtiyacı var. Bu məmləkət yuxarıdan aşağıya dəyişdirilməlidir. Ordu biliksiz, ləyaqətsiz zabitlərdən təmizlənməlidir. Köhnə qanunlar ləğv edilməlidir. Fəs atılmalı, qadın qəfəsdən çıxarılmalı, onlara azadlıq verilməlidir. Bir kişi bir qadından artıq başqasıyla evlənməməlidir! Kişilər və qadınlar eyni hüquqlara sahib olmalı, avropalılar kimi yaşamalıdırlar.**

**Demokratik bir cəmiyyətdə Türkiyənin bütün sosial məsələlərini həll etmək olar...».**

Qardaş Türkiyə xalqı XX əsrin 20-ci illərinin əvvəllərində öz yüz illiklər tarixinin ən ağır günlərini yaşayırdı. I dünya müharibəsində məğlub olmuş üçlük ittifaqı tərkibində olmuş Türkiyə ərazilərinin çox hissəsi əcnəbilər tərəfindən zəbt edilmişdi. Türkiyə ordusu öz müstəqilliyi uğrunda 20 cəbhədə döyüşlər aparırdı. Sonralar M.Atatürk Türkiyənin həmin dövrdəki vəziyyətini belə şərh etmişdir: **«...Düşmənlərimiz bizim üstümüzə yunan ordusunu tuşlatdılar. O zaman düşmənə müqaviməti yalnız sıravi vətəndaşlar, Vətəni müdafiəyə ürəyi yanan vətənpərvərlər qalxdılar... Buna görə də yunan ordusu öz qarşısında zəif müdafiə xəttinə rast gəldi...»**[1].

---

[1] Kamal Atatürk. Seçilmiş nitq və çıxışları. M., 1966, s.156, rus dilində.

Lakin Türkiyə xalqı müstəqilliyini qorumaq əzmində idi.

Türkiyə Böyük Millət Məclisi 1921-ci ilin 5 avqustunda Mustafa Kamal paşanı Ali Baş Komandan təsdiq etdi.

1921-ci ilin 23 avqustunda Türkiyə ordusunun başladığı 22 günlük Sakarya meydan müharibəsi tarixi qələbə ilə qurtardı. Bu döyüşlərdə əldə edilmiş böyük qələbələrə görə Türkiyə Böyük Millət Məclisi Mustafa Kamal paşaya «marşal» rütbəsi və «qazı» adını verdi.

M.Atatürk 1922-ci ilin yayında demişdir: **«Türkiyənin bugünkü mübarizəsi yalnız onun azadlığı naminə və payına olsaydı, bəlkə də, daha qısa, daha az qanlı olar və tez qurtarardı. Türkiyə qəti və ciddi səylər edir. Çünki apardığı mübarizə məzlum millətlərin, bütün Şərqin mübarizəsidir».**

1922-ci ilin 26 avqustunda Mustafa Kamal paşanın komandanlığı altında Yunan ordusuna qarşı başlanmış **«Böyük hərbi hücum»** əməliyyatı avqustun 30-da tam qələbə ilə başa çatdı və Anadolu düşməndən azad edildi. Bütövlükdə isə hərbi əməliyyatlar 1919-cu ilin 19 mayında başlanmışdı və 1922-ci ilin 9 sentyabrında İzmirin azad edilməsi ilə başa çatdı. Həmin ildə etdiyi çıxışların birində Mustafa Kamal paşa demişdi: Amerika, Avropa və bütün sivilizasiya dünyası bilməlidir ki, türk xalqı ... qeyri-şərtsiz azad və müstəqil yaşamağa qəti qərar veribdir» (bax: Ulkan Qocatürk. Atatürk, Bakı, 1991, s.101). 1923-cü ildə etdiyi çıxışlarının birində M.Atatürk demişdi: **«Türkiyə dövlətinin istiqlaliyyəti müqəddəsdir».**

1923-cü ilin 29 oktyabrında Türkiyənin Böyük Millət Məclisi Konstitusiyanın (Anna yasanın) 1-ci maddəsinə dəyişiklik edərək **«Türkiyə dövlətinin hökümət formasının Cümhuriyyət»** olmasını qərara aldı. Bundan sonra Milli Məclisdə prezident seçildi.

Mustafa Kamal paşa Türkiyə Cümhuriyyətinin Prezidentliyinə Xalq partiyası (az sonra Xalq Respublikaçılar Partiyası adlandırıldı) tərəfindən irəli sürülmüşdü (o, bu partiyanın sədri idi) və onun işləyib hazırladığı 9 maddədən ibarət təkliflər partiyanın proqramm tələbi kimi qəbul olunmuşdu.



Türkiyə Cümhuriyyətinin gələcək həyatında xüsusi əhəmiyyəti olan bu proqramm xarakterli tələblər aşağıdakılardır:

- hakimiyyət türk millətinə mənsubdur;
- sultanlıq ləğv edilməlidir;
- inqilabın nailiyyətləri və ölkənin təhlükəsizliyi qorunmalıdır;
- xalqa xidmət edən məhkəmə sistemi qurulmalıdır;
- aşar (vergi) sistemi xalqın sosial mənafeinə xidmət etməlidir;
- hərbi xidmətin müddəti azalmalı və hərbçilərin maddi vəziyyəti yaxşılaşdırılmalıdır;
- ehtiyitda olan zabitlərin, müharibə əlillərinin və təqaüdçülərinin həyat səviyyəsi qaldırılmalıdır;
- dövlət məmurlarının fəaliyyəti gücləndirilməli, maddi vəziyyətləri yaxşılaşdırılmalıdır;
- müharibə nəticəsində dağılmış ölkə bərpa edilməlidir.

Göründüyü kimi, prezidentin irəli sürdüyü vəzifələr proqram xarakteri daşıyırdı və sistemlə görülmüş tədbirlər nəticəsində Türkiyə Cümhuriyyəti dünyanın güclü dövlətləri sırasına çıxarıldı.

Müasir Türkiyə dövləti Mustafa Kamal paşanın dövlətçilik üzrə işləyib hazırladığı altı prinsip əsasında yaradılmışdır: respublikaçılıq, millətçilik (Milli mənafeyə sədaqət mənasında), xalqçılıq (vahid xalq mənafeinə üstünlük), laisizm (dünyavilik), etatizm (dövlətçilik), inqilabçılıq.

Atatürkün xalqçılıq prinsipi bütün millət fərdlərinin qanun qarşısında bərabərliyinə əsaslanır.

Dövlətçilik prinsipi haqda isə M.Atatürk demişdir: «Türkiyənin tətbiq etdiyi dövlətçilik sistemi, on doqquzuncu əsrdən bəri sosializm nəzəriyyələrinin irəli sürdükləri fikirlərdən alınaraq tərcümə edilmiş bir sistem deyildir...

Dövlətçiliyin, bizcə mənası budur: fərdlərin xüsusi təşəbbüslərini və fəaliyyətlərini əsas tutmaq..., ölkə iqtisadiyyatını dövlətin əlinə almaq...».

Dünyavilik prinsipi, din və dövlət işlərinin bir-birindən ayrılmasını nəzərdə tutur.

İnqilabçılıq prinsipi: köhnəliyin ləğv edilməsi, yeniliyə, sivilizasiyaya keçməyi tələb edir.

Beləliklə, Mustafa Kamal paşanın hərbi və siyasi rəhbərliyi altında Türkiyədə Osmanlı sultanlığı əvəzinə müasir dünyəvi dövlət quruluşu yaradıldı.

Azərbaycan hökümətinini başçısı N.Nərimanov Mustafa Kamal paşaya 1921-ci ilin 26 aprelində göndərdiyi teleqramda onu və Türkiyə xalqını Antanta dövlətləri silahlı qüvvələri üzərində tarixi qələbələrə görə təbrik edərək yazmışdı: **«Azərbaycan hökuməti inqilabi ruhlu türk xalqının sərbəstliyini məhv etmək istəyən Antanta dövlətlərinə qarşı müqəddəs müharibəyə qalxdığı həmin günlərin sevincli anlarını təbrik edir və Sizin sevincinizə şərik olduğunu bildirir...** türk xalqı qəhrəmanlıq mübarizəsinin ikinci ilində onun sərbəstliyini məhv etmək istəyən Antanta dövlətləri üzərində böyük qələbələr qazanmışdır...» (Bax, «Azərbaycan» qəzeti, 14/IV. 2002).

1921-ci ilin 18 oktyabrında Ankarada Azərbaycan Şura Respublikasının səlahiyyəti nümayəndəliyinin binasının açılışı münasibətilə səfir İbrahim Əbilov Mustafa Kamal paşanı bu açılışa dəvət etmişdi və Azərbaycan bayrağının səfirliyin binası üstündə qaldırılması şərəfini ifa etməyi ondan xahiş etmişdi. Səfirliyin binasının istifadəyə verilməsi münasibətilə keçirilmiş təntənəli tədbirdəki çıxışında Mustafa Kamal paşa demişdi: **«Azərbaycan və Türkiyə arasında olan qardaşlıq əlaqələri və bu əlaqələrin səmimiliyi özü-özlüyündə qiymətli olmaqla yanaşı həm də ona görə qiymətlidir ki, Azərbaycan vasitəsilə biz digər dost ölkələrlə əlaqələrimizi həyata keçiririk».**

Müstəqillik yollarında ilk addımlarını atan Azərbaycan xalqı və onun həmin dövrdəki başçısı Nəriman Nərimanov qardaş Türkiyə xalqına müvafiq köməkliklər etmişdir.

Uzun sürən hərbi əməliyyatlar nəticəsində Türkiyə dövləti iqtisadi çətinliklərlə üzləşdiyi üçün Mustafa Kamal paşa 1921-ci ilin martında Nəriman Nərimanova Azərbaycan dövləti tərəfindən Türkiyəyə borc olaraq maliyyə yardımı edilməsi haqqında müraciət etmişdir. Azərbaycan dövlətinə həmin dövrdə başçılıq edən N.Nərimanov bu köməyi təşkil



etməklə yanaşı Paşaya göndərdiyi səmimi məktubunda yazmışdı: **«Paşam, qardaş qardaşa borc verməz, əl tutar».**

Türkiyə Böyük Millət Məclisi 1923-cü ilin 13 oktyabrında Türkiyə Cümhuriyyətini elan etdi.

Müasir Türkiyənin XX əsrin əvvəlində xilaskarı olmuş lideri Mustafa Kamal paşa **«dünyada sülh, cahanda sülh»** şüarı ilə çıxış etmişdir və qəhrəman türk xalqı bu məfkurəyə həmişə sadiq olmuşdur.

Türkiyənin II dünya müharibəsində iştirak etməməsi bunun bariz sübutudur.Yaddan çıxarmaq olmaz ki, Türkiyənin II dünya müharibəsində iştirakı Qafqaz xalqları və xüsusilə Azərbaycan xalqı üçün əlavə itgilərlə nəticələnə bilərdi.

Türkiyə xalqı özünün 85 illik Cümhuriyyət quruculuğu dövründə həmişə qardaş Azərbaycan xalqının milli maraqlarına tərəfdar olmuşdur.

Böyük öndər Mustafa Kamal paşa Azərbaycan xalqına müstəqilliyi uğrunda mübarizədə həmişə dayaq olmuş, lazım gəldikdə köməyini əsirgəməmişdir. Türkiyənin xarici siyasət və hərbi xidmət məmurlarına verdiyi göstərişlərin birində o, demişdir: **«Azərbaycanın tamamilə və həqiqətən müstəqil dövlət halına düşməsinin tərəfdarıyıq və bunun üçün ... təşəbbüs göstəriləcəkdir»[1].**

Türkiyə dövlətinin inadlı təklifləri nəticəsində Türkiyə və Rusiya arasında **1921-ci ildə bağlanmış Qars müqaviləsində Naxçıvanın Azərbaycana mənsubiyyəti haqqında ayrıca bir maddə yazılmışdır və sonrakı hadisələr** göstərdi ki, bu təklif Azərbaycanın dövlət müstəqilliyi istiqamətində atılmış **dahiyanə uzaqgörənlik rolunu oynadı.**

1933-cü ildə etdiyi çıxışların birində Mustafa Kamal Paşa demişdir: **«Az zamanda çox böyük işlər gördük... Bu işlərin ən böyüyü, təməli türk qəhrəmanlığı və yüksək türk mədəniyyəti olan Türkiyə Respublikasıdır».[2]**

Beynəlxalq siyasətdə Türkiyə dostluq və əmin-amanlıq prinsipinə həmişə sadiq olmuşdur. 1937-ci ilin martında etdiyi çıxışların birində Mustafa Kamal paşa demişdir: «Bütün

---

[1] Atatürkin xarici siyasəti. 1919 – 1920-ci illər. Ankara, 1981, s.201.
[2] Utkan Qocatürk. Atatürk, B., 1991, s.112.

bəşəriyyəti bütöv bir bədənə, ayrı-ayrı millətləri isə bu bədənin üzvlərinə bənzətmək olar. Bədəndə barmağın birinin ağrıması bütün vücudda hiss olunur». Təsadüfü deyil ki, Türkiyə dövləti 1934-cü ildə Millətlər Cəmiyyətinə üzv qəbul olunmuşdu.

Dünyanın ən güclü ordularından biri olan Türkiyə ordusunun yaradılmasında Mustafa Kamal paşanın müstəsna xidmətləri olmuşdur. 1937-ci ildə etdiyi çıxışların birində o demişdir: «Türkiyə ordusunun bu şərəfli adı hamımızın ürəklərini iftixar hissi ilə doldurur... **Türkiyə ordusu türklərin polad birliyinin təcəssümüdür**».

1923 – 1938-ci illərdə Türkiyədə həyata keçirilmiş bütün inqilabi dəyişikliklərin memarı və həyata keçirilməsinin təşkilatçısı Mustafa Kamal paşa olmuşdur. Bütün bunları nəzərə alaraq Türkiyənin Böyük Millət Məclisi 1934-cü ildə böyük xilaskar Qazı Mustafa Kamal paşaya «Atatürk» soyadı verdi. M.Atatürk yeni qurulan Türkiyə Cümhuriyyətini köhnəlmiş osmanlı üsul-idarəsindən azad etdi: qiyafə inqilabı, əlifba inqilabı (latın qrafikasına keçid), yeni təqvimə keçid, ləqəblərdən soy adına keçilməsi, qadın hüququnun tanınması, mədəniyyət-məişət sahəsində aparılmış digər çoxsaylı islahatlar Türkiyəni müasir və güclü dünyəvi dövlətə çevirdi.

Azərbaycan prezidenti Heydər Əliyev 1999-cu ilin 6 aprelində verdiyi müsahibəsində demişdir: «**Mustafa Kamal Atatürkün şəxsiyyəti bir də ona görə qiymətlidir ki, həm Türkiyə xalqı üçün, həm bütün Türk dünyası üçün, həm də bütün dünya üçün o, qurub-yartdığı Cümhuriyyətini yaşada bilibdir**».

Müasir Türkiyə Cümhuriyyəti türk dünyasının böyük və güclü dövlətlərindən biridir. Hələ 1920-ci ildə M.Atatürk demişdi: «Millətimizin mənəvi keyfiyyəti çox yüksəkdir». 1928-ci ilin avqustunda etdiyi çıxışında isə bu fikrini davam etdirərək o, böyük qürur hissi ilə qeyd etmişdir: «**Bizim millətimiz utanmaq üçün yaranmamışdır. O, fəxr etmək üçün yaranmışdır. Öz tarixində o, dəfələrlə möhtəşəm uğurlar əldə etmişdir**».



## TÜRKÜN BAYRAĞI

*Sözləri* – **Əhməd Cavad**
*Musiqisi* – **Üzeyir Hacıbəyov**

**Çırpınırdın Qara dəniz**
**Baxıb türkyn bayrağına.**
**«Ah» deyirdin heç ölməzdim,**
**Düşə bilsəm ayağına!**

***

**Ayrı düşmüş dəst elindən**
**İllər var ki, çarpar şinən...**
**Vəfalıdır gəldi, gedən**
**Yol ver Türkün Bayrağına!**

***

**İncilər tök, gəl yoluna**
**Sırmalar düz sağ-soluna**
**Fırtınalar dursun yana**
**Salam Türkün Bayrağına!**

***

**Hanı deyə o türk çağın**
**Heç birinin bitməz sanı**
**«Kazbek» olsun ilk qurbanı**
**Salam Türkün Bayrağına!**

***

**Dost elindən əsən yerlər**
**Bana şer... salam söylər**
**Olsun bizim bütün ellər**
**Qurban Türkün Bayrağına!**

## IV Fəsil.

## BİRİNCİ BEYNƏLXALQ TÜRKOLOJİ QURULTAY

XX əsrdə dünyanın türkdilli xalqlarının həyatında mühüm siyasi tədbirlər sırasında Şərq xalqlarının Bakıda 1920-ci ilin sentyabrında keçirilmiş qurultayından az sonra yenə də Bakıda 1926-cı ildə çağırılmış I Beynəlxalq türkoloji qurultayı olmuşdur. Bu qurultayların Bakıda çağrılması Azərbaycanın Şərqə açılan bir qapı rolunu oynaması və Azərbaycan xalqının mədəni həyatda müəyyən nailiyyətləri ilə əlaqədar idi.

Şərq xalqlarının birinci qurultayının çağrılması Sovet Rusiyası üçün sırf siyası məqsədlər daşıyırdı. Bununla belə Şərq xalqları nümayəndələrinin Bakıda görüşməsi mənasında bu qurultay onlar üçün də əlamətdar oldu.

Bakıda çağırılmış ikinci qurultayın əsas məsələləri isə türkdilli xalqların mədəni həyatı ilə bilavasitə əlaqədar idi. Birinci beynəlxalq türkoloji qurultay* 1926-cı ilin 26 fevralı – 5 mart arası Bakıda keçirilmişdi və dünyanın türkdilli xalqlarının mədəniyyətinə aid məsələlərinin müzakirəsi istiqamətində ilk və mühüm bir addım oldu.

Qurultayın işində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi sədri Səmədağa Ağamalı oğlu (qurultayın sədri), Cəmaləddin Qorxmazov (Dağıstan), prof. Mehmet Fuad Körpülzadə (Türkiyə), Umar Əliyev (Şimali Qafqaz), prof. Bəkir Çobanzadə və prof. Əlıbəy Hüseynzadə, Azərbaycan Respublikası rəhbərlərindən Ruhulla Axundov, Mustafa Quliyev, Cəlil Məmmədquluzadə, Soltan Məcid Əfəndiyev. Həbib Cəbiyev, Əhməd Baytursun (Qazaxstan), Həlimcan İbrahimov (Tataristan), Kərım İdelnüjin (Başqırdıstan), Abdul Cabbarov, İ.Nahamov (Özbəkistan), Qasım Tınıstanov (Qırğızıstan), Bekki Berdiyev (Türkmənistan), Hüseyn Akçokrakli (Krım), Vasili Vladimiroviç Bartold (akademik,

* Rəsmi ədəbiyyatda bu qurultay "I Ümumiittifaq Türkoloji Qurultay" adlanırdı, lakin onun işində SSRİ-dən başqa digər dövlətlərin nümayəndələri də iştirak etmişdir, və deməlı, beynəlxalq əhəmiyyət kəsb edir.



Leninqrad) Sergey Fyodoroviç Oldenburq (akademik, Leninqrad), Mixayıl Pavloviç (Moskva), Aleksandr Nikolayeviç Samoyloviç (professor, Leninqrad), İsidor Baraxov (Yakutiya), Teodor Mentsel (professor, Almaniya), Meysoroş (Macarıstan) və digərləri iştirak etmişlər. Qurultayda cəmisi 130 nümayəndə və 100 nəfər qonaq iştirak etmişdi.

Qurultayın türkdilli xalqların mədəni inkişafı istiqamətində çoxsaylı məsələləri müzakirə etməsilə yanaşı, əsas və mühüm vəzifəsi yazıda çox çətin olan ərəb əlifbasından latın qrafikası əsasında yeni türk əlifbasına keçidin məqsədyönlüyü məsələsini müzakirə etmək idi.

Qurultayın həmin məsələ üzrə qəbul etdiyi qərarda (qətnamə) qeyd edildi ki, yeni əlifdaya keçid müsbət bir tədbirdir; Ərəb əlifbasından yeni türk əlifbasına (latın qrafikalı əlifbaya) keçid hər bir türk-tatar respublikası və vilayətinin, bu ərazilərdə yaşayan hər bir xalqın özünün işidir.

Qurultayda qərar qəbul edildi ki, ikinci türkoloji qurultaya qədər bütün şərq respublikalarında arxeoloji ekspedisiyalar təşkil edilsin və onların materialları nəşr edilsin. Bu və digər sahələrdə müəyyən işlər görülsə də, Sovet hakimiyyətinin sonrakı 65 ilində ikinci türkoloji qurultay çağrılmadı. Görünür, Sovet rəhbərliyi üçün türkdilli xalqların nümayəndələrinin hər hansı bir toplanışı arzu edilməz idi.

Türk yazı dili 2500 illik tarixə malikdir. Alma-Ata şəhərinin 50 km yaxınlığında tapılmış Esik kurqanındakı məzarın üstündündəki oksidləşmiş gümüş tabağın üzərindəki 2 sətirlik yazı, həmin məzardan 1250 il sonra tikilmiş «Orxon» abidələrindəki Göy türk yazısı hərfləri ilə yazılmış yazının eynidir və deməli, bu yazı e.ə. V əsrə aiddir.

XI əsrdə yaşamış və Türk xalqlarının dilləri üzrə ilk görkəmli Türk alimi olan Mahmud Kaşqari məşhur «Divan»ında 26 türk dilindən nümunələr toplamış və türk dillərinin ilk tədqiqatçısı hesab edilir.

Mahmud Kaşqarinin «Divanı luğət turk» əsəri 1072-74-cü illərdə müəllifin ana dili olan xaqaniyyə türkcəsində yazılmışdır. Əsərin türk dilində ilk nəşri Türkiyədə 1223-cü ildə həyata keçirilmişdir. Kitabda çap olunan dünya

xəritəsində[1] bütün türk ellərinin yerdəri göstərilmişdir. «Divan»da 20 türk elinin adı və məkanları da göstərilir: bunların içərisində indi də öz adlarını daşıyan başqırdlar, qırğızlar, tatarlar, uyğurlar və digərləri vardır. Burada eləcə də oğuz elinin 22 qəbiləsi haqqında yazılmışdır; bunlardan: Bayandır, Afşar, Bəkdili, Bayat, İqdır və s. Məlumdur ki, Məhəmməd Füzulinin atası Bayat qəbiləsindən Kərbəlaya köçmüşdür, Məhəmməd Füzuli də orada dünyaya göz açmış və orada da dəfn edilmişdir. Kərkükdə yaşayan türklərin əksərləri Bayat türkləridir.

M.Kaşqari göstərir ki, türk ləhcələrinin ən asanı öğuz ləhcəsi, ən aydını və incəsi xaqaniyyə ləhcəsidir (dövlətin rəsmi dili olmuşdur) və o dövrdə kitabların əksəriyyəti bu ləhcədə yazılmışdır və bir müddət Orta Asiyada müştərək (ortaq) dil olmuşdur. Müasir Mərkəzi (Orta) Asiya türklərinin dilləri orta əsrlərdə Kaşqar türkçəsi (XI-XII əsrdə), Xarəzm türkçəsi (XIII-XIV əsrlər) Çığatay türkçəsi əsasında geniş işlənmişdir. Bu sonuncu (Çığatay) ləhcə XI əsrin əvvəlində formalaşmış, və şair Əlişir Nəvainin əsərləri bu ləhcədə yazılmışdır. Bundan sonra isə özbək ədəbi dili formalaşmışdır.

Məhəmməd Füzuli Azərbaycan dilinin, Əlişir Nəvai isə özbək dilinin (Çığatay türkcəsi) fəal təbliğatçıları olmuşlar. Əlişir Nəvainin yazdığı əsərlərin yarısı türkçə (digər yarısı farsça) yazılmışdır. Şair Əhməd Yəsəvi (?-1166) Türküstanda ədəbi-bədii və dini fəaliyyət göstərmişdir.

Türk müəllifi Fuad Köprülzadə 1918-ci ildə İstanbulda nəşr etdiyi «Türk ədəbiyyatında ilk sufilər» kitabında Şeyx Əhməd Yəsəvi haqqında geniş məlumat vermişdir.

Elmi ədəbiyyatda türkdili xalqlar formalaşmaları dövrlərinə görə 3 dövrə bölünürlər:

**Qədim türklər** – oğuzlar, tuvinlər, xakaslar, şorlar və s.

**Yeni türklər** – azərbaycanlılar, qaqauzlar, qıpçaqlar, peçeneqlər, poloveslər, salarlar, türkmənlər, özbəklər, çığataylar və s.

[1] Həmin xəritə Bakıda M.F.Axundov adına Milli kitabxanadakı nüsxəsindən cırılıb götürülmüşdür.



**Ən yeni türklər** başqırdlar, qazaxlar, qaraqalpaklar, qırğızlar, qumıklar, noqaylar, tatarlar, oyrotlar və s[1].

Birinci beynəlxalq Türkoloji qurultayda (1926) akademik A.N.Samoyloviç «Türk dillərinin təsnifinə dair məsələlər» adlı məruzə ilə çıxış etmişdir. Türk xalqları dillərinin təsnifi və öyrənilməsi ilə sonrakı illərdə professor Bəkir Çobanzadə, T.Banqu oğlu, professor Ə.Dəmirçizadə, akademik M.Şirəliyev, professor F.Zeynalov, professor A.Qurbanov, eləcə də çoxsaylı rus və Avropa dilçi alimləri məşğul olmuşlar[2].

XX əsrin 20-ci illərində türkdilli xalqların mədəni həyatında ən böyük tədbirlərdən biri yazının ərəb əlifbasından yeni əlifbaya keçirilməsi olmuşdur. Bu möhtəşəm tədbirdə Azərbaycan türklərinin böyük xidməti danılmazdır. Belə ki, Azərbaycan xalqının da istifadə etdiyi çətin ərəb əlifbasından yeni əlifbaya keçilməsinin vacibliyini sübut etmək üçün hələ XIX əsrin ortalarında böyük mütəfəkkirimiz Mirzə Fətəli Axundov latın qrafikası əsasında tərtib etdiyi Azərbaycan əlifbasını Türkiyə elmi dairələrinin köməyi ilə həyata keçirmək üzrə təşəbbüs göstərmişdi: lakin bu təşəbbüs XIX əsrdə uğur qazanmadı.

Azərbaycan Xalq Cümhuriyyətinin qısa ömrü ərzində (1918-1920-ci illər) bu tədbirə başlamağa imkan olmadı.

Sovet quruluşunun ilk illərində Nəriman Nərimanov (1871-1925), Səmədağa Ağamalı oğlu (1867-1930) və digər ictimai və elm xadimlərinin təşəbbüsü ilə konkret təkliflər irəli sürüldü.

Səmədağa Aqamalı oğlu yazırdı: «Müasir mədəniyyətin, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafında və mürəkkəb texniki məsələlərin həllində ərəb əlifbası böyük maneçilik

[1] Akademik V.Radlov türkdilli xalqların təsnifini belə verir:
**Şərq qrupu** – yakutlar, Sibir tatarları, qaşqarlar, dunqanlar;
**Mərkəzi qrup** – tatarlar, qırqızlar, özbəklər, başqırdlar, çuvaşlar, türkmənlər, azərbaycanlılar (qafqaz tatarları) Osmanlı türkləri.

[2] Bu məsələ üzrə daha geniş məlumat almaq üçün bax: Buludxan Xəlilov, Birinci beynəlxalq türkoloji qurultay. Bakı, Elm. 1999, s.25-34.

törədir. Böyük məqsədimizə çatmaq üçün bizə yeni əlifba hava və su kimi lazımdır»[1].

Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun 1921-ci ilin martında imzaladığı sərəncam əsasında respublikanın bütün idarələrində kərgüzarlıq işlərinin türk dilinə keçirilməsinə başlamaq üçün Xalq Maarif Komissarı Dadaş Bünyatzadənin rəhbərliyi altında fövqaladə Komitə yaradıldı. Eyni zamanda ərəb əlifbasının islahı üzrə yaradılmış komissiya da fəaliyyətdə idi. Latın əlifbası üzrə yeni yazıya keçmək üçün təkliflə yanaşı, istifadədə olan ərəb əlifbasını sadələşdirib saxlamaq haqda da təkliflər edilirdi. Lakin eyni zamanda qeyd edilirdi ki, deyilən sadələşdirici təkliflər ərəb əlifbasının öyrənilməsinin çətinliklərini aradan qaldırmır. Belə ki, ərəb əlifbasında hər bir hərfin üç təsvir formasının mövcudluğu (sözün əvvəli, ortası və sonunda), çoxsaylı nöqtələrin olması bu yazı ilə savadlanmanı çətinləşdirir.

Geniş müzakirələrdən sonra Azərbaycanda 1922-ci ilin martında qərara alındı ki, yeni əlifba latın əlifbası əsasında tərtib edilsin. Həmin ilin aprelində «Yeni türk əlifbası Komitəsi» yaradıldı və onun mətbuat orqanı «Yeni yol» qəzeti (redaktoru görkəmli yazıçı Cəlil Məmmədquluzadə idi) nəşr olunmağa başlandı.

Azərbaycanda yaranmış «Yeni türk əlifbası Komitəsi» həmin komitənin Orta Asiyanın və Şimalı Qafqazın respublika və vilayətlərində şöbələrini yaratmaq üçün oraya öz nümayəndələrini göndərməyə başladı və bu iş geniş miqyasda aparıldı.

Görülmüş tədbirlər nəticəsində 1926-cı ildə Bakıda çağrılmış I Beynəlxalq Türkoloji Qurultayda yeni əlifbaya keçid üzrə məsələni geniş müzakirə etmək və münasib qərar qəbul etmək üçün şərait yarandı. Qurultayda dinlənilən və müzakirə edilən 60-a qədər elmi və metodik məruzələrin əksəriyyəti yeni əlifbaya keçid məsələsi ilə bilavasitə əlaqədar idi.

---

[1] С.Агамалы оглы. В защиту нового тюркского алфавита. Баку, 1927, с.60.



Birinci Türkoloji qurultay latın əlifbası əsasında yaradılmış yeni türk əlifbasına keçid təklifinə üstünlük verdi, onu bəyəndi və türkdilli respublikalarda qəbulunu təklif etdi.

Beləliklə latın qrafikası əsasında qəbul edilmiş türk əlifbası ayrı-ayrı xalqların dillərinin fonetik xüsusiyyətlərindən asılı olan fərqlər istisna olmaqla ümumi, ortaq əlifba kimi qəbul edildi. Bu yeni və ortaq əlifbaya keçid SSRİ-də yaşayan bütün türkdilli xalqların qarşılıqlı mədəni əlaqələri üçün böyük imkanlar yaratmağa xidmət edən mühüm tədbir idi.

I Türkoloji qurultayın tövsiyəsi ilə 1927-ci ilin 28 fevralında mərkəzi Bakıda olmaq şərtilə Ümumiittifaq Yeni (türk) Əlifba Komitəsi yaradıldı və komitənin sədrliyinə Azərbaycan Respublikası Mərkəzi İcraiyyə Komitəsi sədri Səmədağa Ağamalı oğlu təsdiq edildi.

Azərbaycanda yeni əlifbaya keçid 1927-ci ildən həyata keçirildi.

SSRİ-nin digər türkdilli respublika və vilayətlərində isə latın qrafikası əsasında tərtib edilmiş əlifbaya keçid 1928-ci ildən başlandı.

Türkiyədə ərəb əlifbasından latın qrafikası əsasında yeni yazıya keçilməsi 1928-ci ildə həyata keçirildi. Türkiyə Respublikasının prezidenti, böyük öndər Mustafa Kamal paşa 1928-ci ilin 8 avqustunda etdiyi çıxışında bu tədbirləri «inqilab» adlandırdı və qısa müddətdə geniş miqyasda öyrənilməsi vəsifəsini qarşıya qoydu. Sədri Maqsudi Arsal adlı müəllifin yeni əlifba ilə tərtib etdiyi «Türk dili» kitabına yazdığı «Ön söz»ündə Mustafa Kamal paşa böyük qururla qeyd etmişdi: **«Türk dili, dillərin ən zənginlərindəndir»** və bu dildə savada bütün xalq nail olmalıdır[1].

Sovetlər İttifaqında yaşayan türkdilli müsəlman xalqları latın qrafikası əsasında qəbul etdikləri yeni əlifba ilə təxminən 10 il ərzində yaşlı nəslin savadsızlığını ləğv etdilər və ümumi içbari ibtidai təhsilə keçid əsasən həyata keçirildi ki, bu da çox böyük nailiyyət idi.

---

[1] Həmzə Erbol. Paşanın həyat hekayəsi (türkcədən tərcümə). Bakı, 1992, s.38.

Azərbaycanda yaranmış «Yeni türk əlifbası Komitəsi» həmin komitənin Orta Asiyanın və Şimalı Qafqazın respublika və vilayətlərində öz höbələrini yaratmaq üçün oraya öz nümayəndələrint göndərməyə başladı və bu iş geniş miqyasda aparıldı.

Görülmüş tədbirlər nəticəsində 1926-cı ildə Bakıda çağrılmış I Beynəlxalq Türkoloji Qurultayda yeni əlifbaya keçid üzrə məsələni geniş müzakirə etmək və münasib qərar qəbul etmək üçün şərait yarandı. Qurultayda dinlənilən və müzakirə edilən 60-a qədər elmi və metodiki məruzələrin əksəriyyəti yeni əlifbaya keçid məsələsi ilə bilavasitə əlaqədar idi.

Birinci Türkoloji qurultay latın əlifbası əsasında yaradılmış yeni türk əlifbasına keçid təklifinə üstünlük verdi, onu bəyəndi və türkdilli respublikalarda qəbulunu təklif etdi.

Beləliklə latın qrafikası əsasında qəbul edilmiş türk əlifbası ayrı-ayrı xalqların dillərinin fonetik xüsusiyyətlərindən asılı olan fərqlər istisna olmaqla ümumi, ortaq əlifba kimi qəbulu türkdilli xalqların qarşılıqlı mədəni əlaqələri üçün böyük imkanlar yaratmağa xidmət edən mühüm tədbir tdt.

I Türkoloji qurultayın tövsiyəsi ilə 1927-ci ilin 28 fevralında Mərkəzi Bakıda olmaq şərtilə Ümumiittifaq Yeni (türk) Əlifba Komitəsi yaradıldı və komitənin sədrliyinə Azərbaycan Respublikası Mərkəzi İcraiyyə Komitəsi sədri Səmədağa Ağamalı oğlu təsdiq edildi.

Sovetlər İttifaqında yaşayan türkdilli müsəlman xalqları latın qrafikası əsasında qəbul etdikləri yeni əlifba ilə təxminən 10 il ərzində yaşlı nəslin savadsızlığını ləğv etdilər və ümumi içbari ibtidai təhsilə keçid əsasən həyata keçirildi ki, bu da çox böyük nailiyyət idi.

Lakin az sonra Sovet dövlətinin siyasi rəhbərliyi bu yazıdan «Kiril» qrafikası əsasında yeni yazıya keçirilməsinin vacibliyini qarşıya qoydu. Bu rəsmi tədbirdə əsas məqsəd belə izah edilirdi ki, bu keçid ölkənin qeyri rus xalqlarının mədəniyyətlərinin rus xalqı mədəniyyəti ilə sıx əlaqəsini təmin edəcək və rus dilini öyrənməyi asanlaşdırmaq üçün lazımdır. Lakin rus qrafikli yazıya keçid ermənilərə və gürcülərə şamil edilmədi. Aydındır ki, SSRİ-də yaşayan türkdilli müsəlman xalqlarının başına gətirilən bu «əlifba oyunu» (10 ildə əlifbanın iki dəfə dəyişməsi) siyasi məqsədlərə xidmət edirdi. Burada əsas məqsəd türkdilli xalqları qədim şərq, islam mədəniyyətindən ayırmaq, bu mədəniyyətin zəngin xəzinələrindən ayırmaq idi. Bu mənfi siyasətin nəticəsi onunla qurtardı ki, Türkoloji qurultayın nümayəndələrindən heç kəs 30-cu illərin bolşevik repressiyasından sağ çıxmadılar.



Azərbaycanda və SSRİ-nin digər türkdilli respublika və vilayətlərində rus qrafikası əsasında yeni əlifbaya keçid 1939/40-cı ildən başlandı. SSRİ-nin bütün ərazilərində 1937-ci ildə həyata keçirilmiş «sinfi düşmən» axtarışı və represiyalar türkologiya elminə və irsinə böyük zərbə vurdu. Minlərlə görkəmli türkoloqlar bu dövrdə məhv edildilər və pantürkist damğası ilə sürgünlərə göndərildilər.

SSRİ-nin siyasi həyatında İ.V.Stalinin vəfatından sonrakı dövrdə baş vermiş bəzi siyasi islahatlar və zahiri «demokratikləşmə prosesi» dil siyasəti məsələləri üzrə bəzi tədbirlərin keçirilməsinə imkan verdi.

Belə ki, 70-ci illərin əvvəllərindən başlayaraq Sovetlər İttifaqında türkdilli xalqların problemlərinin elmi təhlili üzrə bir sıra tədbirlər görüldü: 1970-ci ildən başlayaraq Bakıda «Sovet türkşünaslığı» («Sovetskaya Törkologiya») jurnalı nəşr olunmağa başlandı. 1984-cü ildə həmin jurnalın tirajı 3300 nüsxəyə çatmışdı.

1976-cı ildə II türkoloji konfrans (Alma-Atada), sonrakı illərdə III türkoloji konfrans (Daşkənddə) və IV türkoloji konfrans (Aşqabadda) keçirildisə də, bunlar SSRİ-də yaşayan türkdilli xalqların ortaq problemlərinin həllinə əsaslı təsir edə bilmədi.

V Fəsil.

# TÜRK DÜNYASININ XX ƏSRİN I YARISINDA GÖRKƏMLİ DÖVLƏT XADİMLƏRİ

## §1. MUSTAFA KAMAL PAŞA ATATÜRK


Mustafa Kamal Paşa Atatürk (1981-1938)

Dünyanın ən yüksək siyası şəxsiyətlərindən biri səviyyəsinə yüksəlmiş, Türk dünyasının ən böyük öndəri Mustafa Əli Rza Əfəndi oğlu 1881-ci ilin mayında Salonikidə (Türkiyənin o zaman Makedoniya adlanan Avropa hissəsi) dünyaya göz açmışdır. Qərb mədəniyyətinə meyilli atası dünyasını tez dəyişmiş və gənc Mustafa iradəli və tələbkar anası Zibeydə xanımın himayəsində böyümüşdür. 12 yaşında Salonikidə hərbi məktəbə daxil olmuş və iki il sonra öz xahişi ilə hərbi litseyə keçirilmişdir. Yaxşı oxuduğuna görə riyaziyyat müəllimi kapitan Mustafa bəy onun adına ikinci bir ad – Kamal əlavə etmiş və bundan sonra o, Mustafa Kamal çağırılardı. Hərbi litseyi bitirdikdən sonra Mustafa Kamal 1899-cu ildə Ali hərbi məktəbə (İstanbul) daxil olmuş və onu leytenant rütbəsi ilə bitirərək, hərbi akademiyada təhsilə başlamışdır. Mustafa Kamal Akademiyanı 1905-ci ildə kapitan rütbəsi ilə bitirərək, Ordunun Baş Ştabında işə göndərildi. Lakin azadlıq fikirli bir jurnalın nəşrində iştirak etdiyi üçün həbs edilərək, bir neçə ay həbsxanada saxlanıldıqdan sonra uzaq Suriyaya hərbi xidmətə göndərildi. Həmin illərdə o, Osmanlı imperiyasının siyasi çürüklüyünü daha aydın hiss edirdi və 1906-cı ildə Dəməşqdə (Suriya)



«Vətən və azadlıq» adlı gizli təşkilat yaratmışdı. 1907-ci ildə Mustafa Kamal Salonikidə yerləşən ordu korpusunda xidmətə qaytardılar.

Mustafa Kamal 1911-ci ildə minbaşı (mayor) rütbəsini alır və Sofiyada Türkiyənin hərbi attaşesi təyin olunur (1913). 1914-cü ildə ona podpolkovnik rütbəsi verilmişdi.

Birinci dünya müharibəsi başlandığı vaxt Mustafa Kamal Türkiyənin hərbi naziri Ənvər paşaya göndərdiyi məktubda yazmışdı: «Arkadaşlarım ön cəbhədə bulunurkən mən Sofiyada hərbi attaşe ola bilmərəm».

Az sonra o, Çanaqqalada yerləşən doqquzuncu diviziyaya komandir təyin olundu. İlk döyüşlərin birində əskərlərin bir bölüyünün, «döyüş sursatımız qurtardı» deyərək geri çəkildiyini gördükdə onlara «sursatımız yoxsa, süngümüz var» deyərək «Süngünü tax!» əmrini verdi və dəstənin önündə hücuma keçərək, düşmən üzərində qələbəni təmin etdi.

1915-ci ildə polkovnik Mustafa Kamalın diviziyası Dardanel cəbhəsində, Çanaqqala rayonunda ingilis və fransız ordu hissələrini darmadağın etdi; Ədirnə və Diyarbəkirdə uğurlu döyüşlər apardı. Bu qələbələrə görə ona general rütbəsi (1916) və paşa adı verildi.

Sonrakı illərdə Mustafa Kamal Paşa Qafqaz cəbhəsində (2-ci orduda) və Fələstində (7-ci orduda) döyüşən ordulara komandanlıq etmişdir. 1918-ci ilin əvvəllərində, o. Sultanın Fəxri adyutantı təyin olunur, Türkiyə prinsi Vahidəddini Türkiyənin müttəfiqi olan Almaniyanın cəbhələrini gəzərkən müşaiyət etmişdir.

Sultan Türkiyəsi I dünya müharibəsində məğlub olan Almaniya ittifaqına mənsub olduğu üçün Türkiyənin ərazilərinin böyük bir hissəsi (İzmir, Bursa, Əski şəhər, Adana, Frakiya və s.) Antanta qüvvələri və Yunanistan tərəfindən zəbt edilmişdi. Mudros müqaviləsi (30/X-18) Türkiyənin ərazilərinin işğalını qanunlaşdırmışdı. Türkiyə öz xilaskarını gözləyirdi.

Belə bir şəraitdə Mustafa Kamal paşa ölkənin müdafiəsini təşkil edə bilməyən hökümətdə hərbi xidmətdən istefa verərək,1919-cu ilin mayında ölkənin şərq vilayətlərindən olan Samsuna (Anadoludadır) gedir və ölkəni fəlakətdən xilas etmək üçün sağlam qüvvələrdən hərbi dəstələr

yaratmaq işinə başlayır. Həmin dövrdə keçmiş Qafqaz cəbhəsinə mənsub dörd diviziya da burada idi. 1919-cu ilin sentyabrında Mustafa Kamal paşanın başçılığı ilə Sivasda imperialist qüvvələrə qarşı Milli azadlıq, müqavimət hərəkatı iştirakçılarının konqresi keçirildi və Mustafa Kamal paşanın rəhbərliyi altında Komitə seçildi. Bu komitə faktiki olaraq yeni Türkiyənin müvəqqəti hökuməti vəzifələrini ifa etməyə başladı. 1919-cu ilin dekabrında Komitə Sivasdan Ankaraya köçürüldü və milli-azadlıq hərəkatı ölkəni əhatə etməklə daha da genişləndi.

Antanta ittifaqına qəhbərlik edən İngiltərənin silahlı qüvvələri 1920-ci ilin 16 martında İstanbulu zəbt edərək, ölkə parlamanın qovmuşdu. Buna cavab olaraq Mustafa Kamal paşa Ankarada Böyük Millət Məclisini çağırdı və ölkəyə rəhbərlik həmin Məclisə tapşırıldı. Bununla da Türkiyədə yeni bir dövlətin qurulmasına başlandı.

Az sonra Mustafa Kamal paşa Böyük Millət Məclisi tərəfindən Türkiyə ordusunun Ali Baş komandanı təyin edildi.

Türkiyə sultanı düşmən qüvvələrlə birləşərək öz hakimiyyətini saxlamağa çalışırdı. Odur ki, 1920-ci ilin 4 mayında Mustafa Kamal paşaya və onun yaxın silahdaşlarına ölüm cəzası elan etmişdi.

İzmirin yunanlar, Adananın fransızlar, Urfanın ingilislər tərəfindən zəbt edilməsi bütün xalqı mübarizəyə qaldırdı. Həmin dövrdə ermənilər şərqi Anadoluya göz tikmişdi. Türkiyə İmamının **«əsir bir məmləkətdə cümə namazı qılınmaz»** deməsi xalqı daha da coşdurdu. Düşmənlə qanlı döyüşlərə başlandı və Mustafa Kamal paşanın liderliyi ilə uğurlar qazanılmağa başlandı.

1920-ci ilin sentyabrın sonlarında general Kazım Qarabəkirin ordu hissələri Sarıqamış, Qars və Qumrunu erməni hərbi dəstələrindən azad etdi.

1920-ci ilin avqustunun sonundan yunan ordusunun hücumları bir-birini əvəz edirdi. Mustafa Kamal paşanın rəhbərliyi ilə Sarkaya çöllərində 1920-ci ilin avqustu – 13 sentyabrı arasıkəsilmədən keçirilmiş 22 günlük savaş nəticəsində düşmən üzərində böyük qələbə əldə edildi və bu qələbəyə görə Mustafa Kamal paşaya Qazı titulu verildi.



Bundan sonrakı döyüşlər də Türk ordusunun qələbəsi ilə nəticələndi və 1922-ci ilin 9 sentyabrında İzmir, 11 sentyabrında Bursa azad edildi. Bununla da 1919-cu ilin 19 mayında başlayan savaşlar qələbə ilə qurtardı. Bütün bu qələbələrə görə Mustafa Kamal paşaya marşal rütbəsi verildi.

1921 – 1922-ci illərdə Mustafa Kamal paşa Azərbaycan, Əfqanistan, Buxara respublikalarının, İran dövlətinin diplomatik nümayəndələrini qəbul etdi.

1921-ci ilin 18 oktyabrında Ankarada Azərbaycan Şura Respublikasının səlahiyyətli nümayəndəliyinin binasının açılışı münasibətilə səfir İbrahim Əbilov Mustafa Kamal paşanı bu açılışa dəvət etdi və ondan xahiş etdi ki, Azərbaycan bayrağını səfirliyin üstünə qaldırsın. Bu təklifdən şərəf hissi duyduğunu vurğulayan Mustafa Kamal paşa həmin açılışda demişdi: ***«Azərbaycan və Türkiyə arasında mövcüd olan qardaşlıq əlaqələri və bu əlaqələrin səmimiliy özü –özlüyündə qiymətli olmaqla yanaşı, həm də ona görə qiymətlidir ki, Azərbaycan vasitəsilə biz digər dost ölkələrlə əlaqələrimizi həyata keçiririk»***[1].

Səfir İbrahim Əbilov ilə müsahibələrinin birində Mustafa Kamal paşa demişdir: ***«Bizim Azərbaycanlı qardaşlarımızın kədəri və sevinci bizim şəxsi kədərimizin və sevincimizin mənasıdır».*** **Bu sözlər qısa olaraq aforizm şəklində** ***«Azərbaycanın sevinci bizim sevincimizdir, qəmi bizim qəmimizdir»*** kimi də işlənir.

1922-24-cü illərdə Mustafa Kamal paşanın həyata keçirdiyi islahatlar (Sultanlığın və Xəlifəliyin ləğvi, Türkiyənin respublika elən edilməsi) həmin dövr üçün böyük hünər tələb edənçox ciddi və mütərəqqi tədbirlər idi.

Mustafa Kamal paşanın Türk dünyası qarşısında ən böyük xidməti ondan ibarətdir ki, 700 il dövran sürmüş möhtəşəm Osmanlı imperiyasının yeni dövrdə yaşaya bilməyəcəyini bəlkə də hamından əvvəl hiss etmiş və onun əvəzinə özünün altı dövlətçilik prinsipi əsasında müasir dünyəvi Türkiyə respublikası dövlətinin yaratdı və Türkiyə Cumhuriyyətini elan etdi. Bu hadisə 1923-cü ilin 23 noyabrında 101 topdan yaylım atəşi ilə qeyd edildi.

---

[1] Камал Ататюрк. Избранные речи и выступления. М, 1996, с.169.

Müasir Türkiyə dövlətinin əsasını təşkil edən bu altı prinsip aşağıdakılardır:

1) *Respublikaçılıq* (Türkiyə Respublika elan olundu);
2) *Millətçilik* (Milli vəzifələri başa düşmək mənasında);
3) *Xalqçılıq* (xalq vahiddir; cəmiyyətin siniflərə bölünməsi və sinfi mübarizə qəbul olunmur).

Mustafa Kamal paşa hesab edir ki, cəmiyyəti siniflərə bölmək onu parçalayır və zəifədir. Cəmiyyət əsasən insanların iş peşələri üzrə bölünə bilər və xalq birliyi əsasdır.

4) *Laisizm* (dünyəvilik, mülki idarəçilik);
5) *Etatizm* (dövlətçilik): Dövlətin və qanunların dinin təsirindən çıxarılması.

Dünyəvi Türkiyə dövləti yaradarkən Mustafa Kamal paşa müsəlmanlar üçün mənəvi-əxlaqi dünyagörüşün əsası olan İslam dininin böyük rolunu həmişə qiymətləndirilmiş və bu əqidəyə sadiq qalmışdır.

6) *İnqilabçılıq* (Milli müstəqilliyə nail olmaq uğrunda mübarizə mənasında).

Türkçülüyə əməli sahədə ilk dəfə üğür gətirən dövlət xadimi şübhəsiz ki, Mustafa Kamal paşa olmuşdur. Bu fəaliyyət ən əvvəl Türkiyə Cümhuriyyətinin yaradılması ilə bilavasitə əlaqədardır. Azərbaycan Prezidenti Heydər Əliyev 1999-cu ilin 6 aprelində Türkiyə professoru Özər Ozankayaya verdiyi müsahibəsində demişdir: «Mustafa Kamal Atatürkün şəxsiyyəti bir də ona görə qiymətidir ki, həm Türkiyə xalqı üçün, həm bütün Türk dünyası üçün, həm də bütün dünya üçün o, qurub-yaratdığı cümhuriyəti yaşada bilibdir».

Mustafa Kamal paşa Türkiyə xalqının milli qurtuluş və azadlıq mübarizəsində və bu azadlığın qorunub saxlanılmasında Türkiyə ordusunun qəhrəmanlığına böyük qiymət vermişdir. 1927-ci ilin okyabrında Xalq-Respublikaçılar partiyasının konqresində Mustafa Kamal paşa Türkiyə xalqının Milli-azadlıq hərəkətinin uğurları haqqında Konqresin altı iclasında (15-20 oktyabr) dinlənilən 36 saat məruzə ilə çıxış etdi.

Türkiyə Böyük Məclisinin 5-ci çağırışının 3-cü sessiyasının açılışındakı (1936) nitqində Atatürk demişdi: ***«Ordunuz Türkiyənin polad birliyinin, Türkiyənin gücünün, türk vətənpərliyinin təcəssümüdür...»***. Türkiyə ordusunu bu



qələbələrə aparmış Mustafa Kamal paşa eyni zamanda demişdir: ***«Biz heç kimin düşməni deyilik. Yalnız insanlığın düşməni olanların düşməniyik»***.

Öz millətinin lideri səviyyəsinə yüksəlmiş Mustafa Kamal paşa liderlik haqqında belə demişdir: «Lider yalnız millətinə güvənməli və təşkilatçı olmalıdır. Ələlxüsus, müstəqillik və keçid dövrlərində liderin güvənliyi yeganə qüvvət qaynağı milləti olmalıdır». Eyni zamanda o, qeyd etmişdir ki, **«birinci sima böyüklük iddiasında olmamalıdır»**.

Türkiyənin Böyük Millət Məclisi 1934-cü ildə hər bir Türkün soy adı daşıması haqqında qanun qəbul etmişdir. Bununla əlaqədar olaraq böyük xilaskar Qazi Mustafa Kamal paşaya «Atatürk» soy adı verildi. Bu, millətin öz xilaskarına sevgisinin ifadəsi idi.

Mustafa Kamal paşa, Türkiyə xalqının həyatında baş vermiş böyük inqilabi çevrilişin lideridir. Bu inqilab, milli azadlıq və müstəqillik uğrunda mübarizədir. Bu mübarizə cəbhərəldə xarici işğalçılara, daxildə sultan üsul-idarəsinə qarşı aparıldı.

Xarici ölkələrin hərbi hücumlarının qarşısı alınaraq, Türkiyənin ərazi bütövlüyünü və müstəqilliyini saxlamağa qadir milli ordu yaradıldıqdan sonra Mustafa Kamal paşa ölkənin daxilində inqilabi dəyişikliklər məzmununda islahatlara başladı. Lakin bu islahatları nəzəri cəhətcə heç kəs hazırlamamışdı; Bunları Atatürk həm nəzəri planda, həm də əməli işində eyni zamanda yerinə yetirdi. Professor Həmzə Erbol yazır ki, «Türk inqilabının əsas vəzifəsi tənəzzül etməkdə olan Osmanlı imperatorluğunun yerində azad və müstəqil yeni bir dövlət yaratmaq idi...».

Böyük Atatürk vətən torpaqlarını işğalçıların zəbtindən xilas etmək ilə kifayətlənməyib, yeni qurulan Türkiyə Cümhuriyyətini köhnəlmiş Osmanlı idarə üsulundan qorumaq, Türk cəmiyyətini qərb dünyasında qəbul edilmiş sosial və mədəni məziyyətlərlə qovuşdurmaq, yeni əsaslarla təchiz etmək istəyir». Bu (birinci) xüsusiyyətlə yanaşı Türk inqilabının ikinci xüsusiyyəti onun daha geniş miqyasda aparılmasıdır[1].

---

[1] Həmzə Erbol. Paşanın həyat hekayəsi (*Türkcədən tərcümə)*. B., 1992, s.29-30.

Atatürkün həyata keçirdiyi qiyafə inqilabı, əlifba inqilabı, yeni təqvimə keçid, ləqəblərin aradan götürülərək soy adına keçilməsi, hüquqin dünyəviləşdirilməsi, qadın haqqının tanınması və mədəniyyət-məişət sahəsinə aid digər islahatların aparılması bu inqilabın daha genişliyinin sübutudur.

1922-ci ilin noyabrının əvvəlində Türkiyədə Osmanlı hökmdarının sultan-xəlifə olaraq ikili vəzifəsinə (həm baş imam, həm də dövlət başçısı) son qoyuldu. Sultan ölkəni tərk edib Maltaya getdi. Türkiyə dövləti dünyəvi dövlət olaraq dini azadlığı və hər bir vətəndaşın vicdan azadlığını qoruduğunu bəyan etdi.

Konstitusiyada olan «Dövlətin dini İslam dinidir» müddəası əsas qanundan (Ana Yaşadan) çıxarıldı. 1925-ci ilin 25 noyabrında qəbul edilmiş papaq qanunu ilə çübbə geyinmək və çalma bağlamaq ləğv edildi; 1926-ci ildə vətəndaşlıq qanunu ilə qadınlara bərabərlik hüququ verildi. 1928-ci ilin noyabrında ərəb əlifbasından latın əlifbasına keçildi.

Mustafa Kamal paşa eləcə də Türk millətinin tarixi haqqında son dərəcə qiymətli fikirlər və tədbirlər həyata keçirdi: o, qeyd etdi ki, Türk millətinin tarixi yalnız Osmanlı tarixindən ibarət deyildir, daha çox qədimdir. Türk millətinin öz adını daşıyan tarixinə (türk tarixinə) qovuşması onun özünə inamını daha da artırdı, milli şüurunu gücləndirdi. Atatürk xarici siyasətdə **«yurdda sülh, cahanda sülh»** şuarı ilə çıxış etmişdir. Müasirləri olan bəzi diplomatlar onu «əzəli düşmən tanımayan insan» kimi səciyyələndirilmişlər.

Rumıniyanın Xarici İşlər Naziri ilə 1937-ci ilin 17 martında etdiyi söhbətində Atatürk demişdir: «Bütün bəşəriyyəti bütöv bir bədənə, ayrı-ayrı millətləri isə bu bədənin üzvlərinə bənzətmək olar. Bədəndə barmağın ucunun ağrıması bütün vücudda hiss olunur». Atatürkün prezidentliyi dövrü, 1934-cü ildə Türkiyə Millətlər Cəmiyyətinə üzv qəbul edildi.

Atatürk qardaş Azərbaycan xalqına öz müstəqilliyi uğrunda mübarizədə həmişə arxa olmuşdur. Xarici siyasət sahəsində verdiyi göstərişlərin birində Atatürk bildirmişdi: «Azərbaycanın təmamilə və həqiqətən müstəqil dövlət halına düşməsinin tərəfdarıyıq və bunun üçün seçilmiş təşəbbüs göstərəcəyik»



Atatürk 1923-1938-ci illərdə dalbadal 4 dəfə Türkiyənin ilk prezidenti olmuşdur. Bu illər o, həmçinin ölkənin iqtisadi inkişafı üzrə də böyük tədbirlərin memarı olmuş, **«milli müstəqillik iqtisadi müstəqilliklə mümkün olur»** müddəasını irəli sürmüş və ona sadiq qalmışdır».

Türkiyə xalqının xilaskarı və böyük oğlu Mustafa Kamal paşa əlli yeddi il yarım ömr sürmüş və qara ciyər sirrozu xəstəliyindən 1938-ci ilin 10 noyabrında dünyasını dəyişmişdir. Atatürkün bu xəstəliyi on il əvvəl başlamışdı. Görünür ağır müharibə illəri öz işini görmüşdü və 1936-cı ildə xəstəlik ciyərlərə qan toplanması və qaraciyərin şişməsi ilə şiddətlənmişdi.

Böyük öndər Atatürkün ölümü haqqında hökümətin rəsmi məlumatında deyilirdi: ***«Bu acı hadisə ilə Türk vətəni böyük yapıcısını, Türk millətı ulu rəhbərini, insanlıq böyük evladını itirdi».***

Atatürkün cəsədinin mumiyalanması Gülhanə xəstəxanasının Patoloji-anatomiya şöbəsində icra edildikdən sonra xalqın onunla vidalaşması İstanbulda (sonra isə oradan kreyserlə İzmirə və oradan da qatarla Ankaraya aparıldı) və Ankarada təşkil edildi: Dəfn günü 22 noyabr saat 16-da bütün ölkə 3 dəqiqəlik süküta daldı.

Atatürk dünyasını dəyişdiyi günlərdə Türkiyənin 17 milyon əhalisi hönkür-hönkür ağladı, on yeddi milyon türk bir gündə atadan yetim qaldı.

Atatürkün dəfnində iştirak edən Əfqanistan kralının əmisi Marşal Vəli xan demişdi: ***«Atatürk türklərin olduğu qədər, Şərqin də atası olmuşdur».***

Türkiyənin Böyük Millət məclisinin seçdiyi yeni prezident İsmət İnenyü həmin günlərdə türk millətinə xitabən demişdi: ***«Dövlətimizin banisi və millətimizin fədakər, sadiq xadimi, insanlıq idealının aşiq və mumtaz siması, misilsiz qəhrəman Atatürk...***

***Vətən sənə minnətdardır.***

***Bütün ömrünü həsr etdiyin türk milləti ilə bərabər sənin hüzurunda təzim ilə əyilirik. Ruhundakı atəşdən bizə can verdin. Əmin ol, əziz xatirən sönməz məşəl olaraq ruhumuzu daima atəşli və ayıq tutacaqdır».***

## §2. NƏRİMAN NƏRİMANOV
### (1871 – 1925)



XX əsrin əvvəllərində geniş siyasi fəaliyyətini davam etdirən Nəriman Nərimanov müsəlman şərqinin görkəmli dövlət xadimlərindən biri olmuşdur və indii də bu nufuzu saxlayır.

N.Nərimanov Azərbaycanın gələcək inkişafını Rusiya ilə azad və bərabər hüquqlu idtifaqda görürdü. 1924-cü ilin mayında Stalinə yazdığı «Ucqarlarda inqilabımızın tarixinə dair» məktubunda, nəzərdə tutduğu siyasi görüşlərin reallaşmasının çətinliyini, bunun üçün müvafiq şəraitin olmadığını göstərərək, taleindən şikayətlənmişdir.

Qori seminariyasında təhsil aldıqdan (1882-90) sonra ədəbi fəaliyyətə başlamış Nəriman Nərimanov ictimai problemlərə aid bir sıra bədii əsərlər («Nadanlıq», «Şadman bəy», «Nadir şah» və s.) yazmışdı, əsrin əvvəlində isə siyasi fəaliyyətə də meyl edirdi.

1905-ci ildən sosial-demokrat hərəkatına qoşulan N.Nərimanov həmin il «Hümmət» təşkilatına daxil olmuşdu və bu təşkilatla əməkdaşlığı fasilələrlə 1918-ci ilə qədər davam etmişdir.

N.Nərimanovun siyasi fəaliyyətini şərti olaraq üç dövrə bölmək ola: 1) 1918-20-ci illərin daxilində Bakı kommunası dövrü, 2) 1920-22-ci illərdə Azərbaycan Sovet Respublikası dövrü, 3) SSRİ təşkil edildikdən sonrakı illərdə (1923 – 1925-ci illər) dövlətçilik fəaliyyəti dövrü.

1918-ci ilin aprelində Bakıda yaradılmış Xalq Komissalar Sovetinin (Bakı Kommunası) tərkibinə daxil edilmiş



N.Nərimanova şəhər təsərrüfatı komissarı vəzifəsi tapşırılmışdı. **Yalnız Bakı və ətraf kəndləri əhatə edən Bakı kommunasının təşkilini N.Nərimanov siyasi əsası olmayan uğursuz bir tədbir hesab edirdi** və bu qurum az sonra iflasa uğradı. N.Nərimanov bu qurumda cəmisi iki ay işləmişdir[1].

Azərbaycanda Xalq Cumhuriyyəti yaradılması və fəaliyyəti dövrü (28/V-18-28/IV-20) N.Nərimanov əsasən Rusiyada diplomatik xidmətdə olmuşdur. Həmin dövrdə Rusiya dövləti başçısı Leninin rəğbətini qazanmış N.Nərimanov Rusiyanın digər müsəlman ölkələri ilə (Türkiyə, Əfqanistan, İran və digərləri) diplomatik əlaqələrində mühüm və mənfəətli rol oynamışdır.

N.Nərimanovun Azərbaycan Sovet Respublikasında ilk hökümətin başçısı olduğu dövr (may 1920 – mart 1922) Azərbaycan Respublikası nisbi müstəqilliyə malik idi. Belə ki, hələ Zaqafqaziyə federasiyası və SSRİ yaradılmamışdı. Lakin Rusiyanın XI ordusunun Azərbaycanda olması bu müstəqilliyi çox məhdudlaşdırırdı. Bütün bunlara baxmayaraq N.Nərimanov Naxçıvan, Dağlıq Qarabağ və Zəngəzur ərazilərinin Azərbaycana mənsubiyyəti məsələlərində həmişə Azərbaycanın Milli mənafei mövqeini müdafiə etmişdir.

Azərbaycan İnqilab Komitəsi sədri N.Nərimanov və digər şəxslərin imzası ilə 1920-ci ilin 10 iyulunda RK(b)P MK-nə göndərilmiş teleqramda Qarabağ və Zəngəzurun Azərbaycan tərkibində qalması bir daha əsaslandırılmışdı.

N.Nərimanovun Rusiya K(b)P Qafqaz bürosunun 1920-ci ilin 4-5 iyulunda çağrılmış plenumunda Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması ilə bağlı tutduğu möhkəm mövqe sayəsində bu məsələ Azərbaycanın xeyrinə həll edildi (məlumdur ki, birinci gün keçirilən səsvermədə bir səs çoxluğu ilə bu məsələ Ermənistanın xeyrinə həll edilmişdi və erməni tarixçiləri həmişə bu qərarı əsas hesab edirlər).

Lakin az sonra Ermənistan Respublikası yaradılarkən Zəngəzur Moskva tərəfindən Ermənistana verildi. Dağlıq Qarabağ isə 1923-cü ildə Azərbaycanın tərkibində muxtar vilayət kimi saxlanıldı.

---

[1] *Bax:* İ.Z.İsmayılov. Azərbaycanda dövlətçilik fikri oçerkləri. B, 1996, s.80.

Ümumiyyətlə, rəsmi və faktiki sənədlər göstərir ki, 1920-ci ildən sonrakı dövrdə Zaqafqaziyaya aid ərazi məsələləri Moskvada, 3-4 nəfərin iştirakı ilə həll edilirdi (Stalin,Orconikidze, Çiçerin) və bu tərkibə heç bir azərbaycanlı daxil deyildi. Hətta Zaqafqaziya respublikaları arasında ərazi məsələləri üzrə aparılan danışıqlarda nümayəndə heyətinə Azərbaycandan bir nəfər də olsun azərbaycanlı daxil edilməmişdi. Zəngəzur, Dilican, Göyçə mahalları Ermənistana Rusiyanın XI ordusunun Ermənistana daxil olmasından üç gün sonra, yəni 1920-ci ilin 1 dekabrında verilmişdi və Azərbaycanda yaradılmış Sovet hökuməti buna müqavimət göstərə bilməzdi. Az sonra Borçalının da Gürcüstana verilməsi rəsmiləşdirildi.

Azərbaycanın göbəyində Muxtar Dağlıq Qarabağ vilayətinin yaradılması və Qarabağla Naxçıvan arasında olan Zəngəzurun Ermənistana verilməsi daşnaqların gələcək işğalçılıq planlarını asanlaşdırmaq üçün edilmişdir. Burada ilk növbədə Naxçıvanı Ermənistana gələcəkdə asanlıqla birləşdirmək nəzərdə tutulurdu. Göstərilən erməni dəhlizi də bunun üçün yaradılmışdı.

Azərbaycanda N.Nərimanovun sədrliyi ilə yaradılmış ilk Sovet hökuməti tərkibində heç bir erməni və ya başqa bir millətin nümayəndəsi yox idi. Cəsarətlə demək olar ki, Nəriman Nərimanovun bacarığı və hörməti sayəsində Azərbaycan ağır və təhlükəli 1920-22-ci illərdə vətəndaş müharibəsindən öz yaxasını qurtara bilmişdi.

1920-ci ilin oktyabrın birinci yarısında N.Nərimanov 15 gün ərzində respublikanın əksər rayonlarına səfər etdi, əhalinin iqtisadi tələblərinin ödənilməsi ilə bilavasitə məşğul oldu.Görkəmli mühacir Əhməd bəy Ağayev 1922-ci ilin mayında müvəqqəti olaraq həbsdə saxlanıldığı Malta adalarından N.Nərimanova göndərdiyi məktubunda yazmışdı: **«Sizin kimi doğru və səmimi bir şəxsin bütün Türk aləminin və xüsusən türk mühitinin keçirməkdə olduğu fərqi böhran zamanı Azərbaycanın başında olması bütün türk aləmi üçün xeyirli bir ələmətdir»**[1].

---

[1] *Bu haqda daha geniş, bax:* İ.Z.İsmayılov. Azərbaycanda dövlətçilik fikri oçerkləri. B, 1996. s.78-89.



N.Nərimanov Azərbaycan Respublikasının silahlı qüvvələrinin yaradılmasına xüsusi diqqət yetirmişdir. Məlumdur ki, onun şəxsi təşəbbüsü və zəmanəti ilə 1920-ci ilin avqustunun əvvəlində iki generalımız - Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarov Moskvaya müvəqqəti ezamiyyətdən sonra Bakıya qaytarıldı və yaradılan Azərbaycan ordusuna böyük xidmət göstərdilər. N.Nərimanov eləcə də məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin ömrünün sonuna qədər (1925-ci il) toxunulmazlığını təmin etmək kimi böyük bir xidmətin sahibidir.

N.Nərimanovun 1921-ci il 8 fevral dekreti ilə Azərbaycanda kargüzarlıq işlərinin üç ay müddətində türk dilində aparılmasına keçidin başlanılması haqqında qərar qəbul edilmişdi.

1921-ci ilin 26 aprelində Mustafa Kamal paşaya göndərdiyi teleqramda N.Nərimanov onu və Türkiyə xalqını Antanta silahlı qüvvələri üzərində qələbəyə görə təbrik etmişdi. 1921-ci ildə Türkiyə hökumətinin nümayəndəsi Rza Nuri Moskvaya gedərkən yolüstü Bakıda bir neçə gün N.Nərimanovun qonağı olmuşdu və o, öz xatirələrində yazır ki, doktor N.Nərimanov söhbətlərin birində dedi: «Biz türkük. Milli hisslərlə yaşayırıq».

N.Nərimanov 1918-1919-cu illərdə Stepan Şaumyan, Anastas Mikoyan, Sergey Kirov, bəzi hallarda hətta Serqo Orconikidze ilə qarşılaşmada demək olar ki, tək qalmışdı[1]. V.İ.Leninə 1918-ci ilin aprelində göndərdiyi məktubunda N.Nərimanov Şaumyan- - Mikoyan qrupunun rəhbərliyi ilə Bakıda daşnakların yaratdığı kütləvi müsəlman (Azərbaycanlı)qırğınını nəzərdə tutaraq yazırdı: «Daşnak partiyası bolşevizm ideyasına, bizim hamımıza dərin quyu qazdı»[2].

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra, N.Nərimanov 1920-ci ilin iyununda Moskvaya göndərildiyi teleqramında yazmışdı: «Azərbaycanı köhnə sərhədlərində saxlaya bilməməsi müsəlman kütlələri tərəfindən Sovet haki-

---

[1] *Bax:* İ.Z.İsmayılov. Azərbaycanda dövlətçilik siyasəti məsələləri, B, 1995, s.37-41.

[2] N.Nərimanov. Seçilmiş əsərləri, II cild. B. 1989. s.23 *(rus dilində)*.

miyyətinin xəyanəti, ermənipərəstliyi və yaxud da zəifliyi hesab ediləcəkdir»[1].

Göründüyü kimi, N.Nərimanov Rusiya Sovet hökümətinin ermənipərəst siyasətini acıqçasına tənqid etməkdən çəkinməmişdir.

Bununla belə Azərbaycana aid bir çox məsələlər Moskvada N.Nərimanovla hesablaşmadan həll edilirdi. Məsələn, Azneft sindikat idarəsi 1922-ci ilin 16 avqustunda Moskvada bu tərkibdə təsdiq edilmişdi: sədr Serebrovski A.P., üzvləri – Barinov A.V., Taqianosov S.S., Oparin İ.N., Yakovlev A.İ., Surekman B.Q. və Çingiz İldırım[2]). Həmin Ç.İldrım isə neft işində səriştəsi olmayan adam idi.

Bütün çətinliklərə baxmayaraq, N.Nərimanov var qüvvəsilə Azərbaycanın inkişaf problemlərinin həllinə vaxt tapır və əhalinin geniş təbəqələri ilə təmasda olurdu.

1921-ci ilin 30 dekabrında Nəriman Nərimanov yeni əlifbaya keçid məsələsi üzrə Bakı Dövlət Universitetində keçirilmiş I konfransda məruzə ilə çıxış edərək, ərəb əlifbasından latın qrafikalı əlifbaya keçilməsi zəruriliyini əsaslandırmışdı. Həmin məruzəsində N.Nərimanov demişdi: «Bizə deyirlər ki, yeni əlifbanı qəbul ediriksə, sədilərimizin, möllayi-Rumilərimizin yazdıqları puç olacaq. Lakin biz əlifbamızı bu gün düzəltməsək, on il bundan sonra bu inqilabı edəcəklər. O vaxt nəinki biz, hətta bizim uşaqlarımız da Sədini, Möllayi-Rumini, Vaqifləri və başqalarını asanlıqla oxuyacaqlar».

1922-ci ilin 12 martında Zaqafqaziya respublikalarının ittifaqı (federasiya şəklində) yaradıldı və ittifaqın üç sədrindən biri N.Nərimanov seçildi. N.Nərimanov 1922-ci ili aprel-mayında keçirilmiş Beynəlxalq Geniya konfransında (İtaliyada) iştirak etmiş və həmin konfransda Bakı neft' və tərksilah məsələləri mövzusunda çıxış etmişdi.

1922-ci ilin 30 dekabrında Moskvada çağrılmış Birinci Sovet Qurultayında N.Nərimanov SSRİ Mərkəzi İcraiyyə Komitəsinin (MİK) dörd sədrindən biri (Zaqafqaziya federasiyasından) olaraq seçilmişdi və o, SSRİ MİK Rəyasət Heyətinin iclaslarına növbə ilə (ildə üç ay ərzində) sədrlik edirdi.

[1] N.Nərimanov. Seçilmiş əsərləri, II cild. B. 1989, s.311.
[2] Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, Fond 1610, siyahı 13, iş 4. vərəq 3.



Əsrin əvvəllərində, xüsusilə 1920-25-ci illərdə Azərbaycan xalqının maariflənməsi sahəsində N.Nərimanovun xidmətləri çox geniş və təsirli olmuşdur. O, islam dininə və onun dəyərlərinə həmişə böyük ehtiramla yanaşmış, nadanlıq və avamlığı, sünnü və şiə məzhəb ayrılığını tənqid etmişdir.

Nəriman Nərimanovun Azərbaycanda rəhbərlik etdiyi iki illik (1920-22) dövr, həm onun özü, həm də Azərbaycan üçün çox ağır bir dövr olmuşdur. O, Azərbaycana bu vəzifəyə "Yaşasın müstəqil Azərbaycan" şuari ilə gəlmişdi.

Nəriman Nərimanovun 1920-ci ilin mayında Azərbaycanda təşkil etdiyi hökümətin tərkibi yalnız azərbaycan türklərindən ibarət idi. Həmin dövrdə ölkə əhalisinin yalnız 10%-i savadlı olması kəskin fəsad idi. Buna görə də N.Nərimanov Azərbaycan hökümət başçısı olduğu dövrdə, həm də sonralar SSRİ Mərkəzi İcraiyyə Komitəsinin dörd sədrindən biri (növbə ilə) olduğu dövrdə Azərbaycanda xalq maarifinin inkişafına xüsusi qayğı göstərməsi təsadüfü deyildi.

N.Nərimanov Azərbaycan dövlətinə başçılıq etdiyi iki ildə (1920-1922) onun fərmanı ilə Bakıda 1921-ci ilin avqustunda yaradılmış indiki Musiqi Akademiyası bütün şərqdə ilk ali musiqi məktəbi idi. N.Nərimanovun 1920-ci ilin 13 noyabrında imzaladığı dekret ilə Bakıda Politexnik İnstitut da (indiki Azərbacan Dövlət Neft Akademiyası) yaradıldı.

N.Nərimanov Moskvada SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 15 avqust tarixli iclasına sədrlik edərkən Bakıda açılmış Politexnik İnstituta Rusiya Federasiyasının bir texnikumunun avadanlığının verilməsi məsələsi qərara alındı.

Nəriman Nərimanovun 1923-cü ildə Moskvadan Azərbaycan Xalq Komissarları Şurası sədri Qəzənfər Musabəyova yazdığı məktubunda deyilirdi: "Yoldaş Musabəyov! Məncə fikrim aydındır, neftin əvəzinə alınan vəsait Azərbaycanın yalnız maarif və səhəyyəsinə xərclənməlidir"[1].

[1] *Bax*, "Azərbaycan müəllimi" qəzeti, 14 sentyabr 1977.

1920-24-cü illərdə Azərbaycanda Rusiyanın XI ordusunun süngüləri gücünə yaradılmış Sovet sisteminə qarşı 64 iri silahlı üsyan baş vermişdi[1]. Rəsmi məlumatlara görə bu üsyanların yatrılması zamanı Rusiya ordusundan 850 nəfər öldürülmüşdü. 1920-ci ilin 25 mayında Gəncədə üsyan, Zakatala-Nuxa (Şəki), Qarabağ, Lənkəran, Quba və digər ərazilərdəki üsyanlar daha geniş miqyaslı olmuşdur.

N.Nərimanov Şərq xalqlarının mədəni inkişafına mane olan despotizm, monarxiya üsul-idarəsini pisləmiş, bunların xalqın siyasi mədəniyyətinin inkişafına əngəl törətdiyini geniş təbliq etmişdir. Moskvada işlədiyi illərdə N.Nərimanov Şərqşünaslıq İnstitutunda mühazirələr oxumuşdur.

Nəriman Nərimanov Bakının erməniləşdirilməsi, onun mərkəzi idarələrinin əksəriyyətinə erməni və rus millətçilərinin doldurulmasına qarşı ardıcıl mübarizə aparmışdır. Məlumdur ki, Bakıda özlərinə yuva salmış daşnak liderləri bəzi rus millətçiləri ilə birlikdə Bakısız Azərbaycan planı üzərində gizli iş aparırdılar. Bu cür xəyanətlərin qarşısını alan N.Nərimanovun xidməti qədirbilən xalqı tərəfindən həmişə böyük ehtiramla yad edilir və ediləcəkdir.

## §3. MƏMMƏD ƏMİN RƏSULZADƏ (1884-1955)

XX əsrin birinci yarısında Azərbaycan milli azadlıq hərəkatının görkəmli nümayəndələrindən biri olan Məmməd Əmin Rəsulzadə Bakı ətrafındakı Novxanı kəndində dünyaya göz açmış, Bakıda texniki məktəbi bitirmişdir.

Gənclik illərində M.Ə. Rəsulzadə «Musavat» partiyası və «Hümmət» təşkilatında fəaliyyət göstərmiş, sonralar isə siyasi fəaliyyətini əsasən «Musavat» partiyasında davam etdirmişdir.

[1] *Bax*, "Zerkala" qəzeti, 17 may, 2008-ci il.





Məmməd Əmin Rəsulzadə

Məmməd Əmin Rəsulzadənin 1913-1917-ci illərdə siyasi görüşlərinin formalaşmasında müasir Türk dünyasının görkəmli filosofları Ziya Köyalp və şeyx Gəmallədin Əfqanının böyük təsiri olmuşdur. M.Ə.Rəsulzadə 1909-cu ildə İrana getmiş və Təbrizdə Səttarxan ilə görüşmüşdür. İranda olarkən o, «İran türkləri» adlı əsər yazmışdır.

Rusiyada Müəssislər Məclisi (bolşeviklər tərəfindən) 1918-ci ilin yanvarında qovulduqdan sonra həmin Məclisə Zaqafqaziyadan seçilmiş deputatlar Tiflisdə Zaqafqaziya Seymini yaratmışdılar.

Seymin 44 nəfərdən ibarət müsəlman (Azərbaycanlı) deputatı «Müsəlman fraksiyası» təşkil etmişdi və M.Ə.Rəsulzadə həmin fraksiyanın başçısı seçilmişdi.

1918-ci ilin 26 mayında Gürcüstandan seçilmiş deputatlar fraksiyası Zaqafqaziya seymindən çıxdıqda Müsəlman fraksiyası da seymdən çıxaraq, özünü Azərbaycan Milli Şurası elan etdi və M.Ə. Rəsulzadə Milli Şurasının sədri kimi fəaliyyətə başladı.

1918-ci ilin 28 mayında Milli Şuranın İclasının I saylı qərarı ilə «İstiqlal Bəyannaməsi» qəbul edildi və Müstəqillik haqqında qəbul edilmiş bu akt Azərbaycan Xalq Cümmuriyyəti dövlətinin yaradılmasının elan edilməsi idi.

Həmin gün Milli Şuranın 2 saylı qərarı ilə Azərbaycan Xalq Cümhuriyyətinin birinci Müvəqqəti hökuməti yaradıldı (Bu birinci hökumətin sədri Fətəli xan Xoyski seçildi).

Azərbaycan Milli Şurası Tiflisdən (7/VI-18) Gəncəyə, oradan da (1918-ci ilin 15 sentyabrında erməni-daşnak hərbi qüvvələri Türkiyə-Azərbaycan hərbi hissələrinin birgə zərbəsi

ilə Bakıdan qovulduqdan sonra) 17/IX-18 tarixdə Bakıya köçdü.

1918-ci ilin 7 dekabrında Bakıda Azərbaycan Parlamanın ilk iclası keçirildi (Parlaman Milli Şuranın 44 üzvü əsasında yaradılmışdı və gələcəkdə 120 nəfərdən ibarət olması nəzərdə tutulurdu). Parlamanın ilk iclasında 97 nəfər deputat iştirak etmişdi (göstərilən 44 nəfərdən əlavə, «Musavat» partiyasından 38 nəfər, «İttihad» partiyasından 13 nəfər, «Hümmət» təşkilatından 13 nəfər) və Parlamanın ilk iclasını (7/XI-1918) açarkən etdiyi nitqində M.Ə.Rəsulzadə demişdi: **«Bir dəfə yüksələn bayraq, bir daha enməz!»**. Məmməd Əmin Rəsulzadə həmin nitqində eləcə də göstərmişdi ki, «Biz azərbaycanlılar bütün mövcudiyyətimizlə öz müqəddəratımızı, öz istiqlalımızı müdafiə və mühafizədə israr edər, səbat və mətanət göstərirsək, heç şübhəsiz ki, Azərbaycan Cümhuriyyəti paydar olur. Fəqət bunun üçün, təkrar ediyorum, səbat, mətanət, fədakarlıq istər. İstər ki, biz özümüzün istiqlalə layiq olduğumuzu isbat edəlim»[1].

M.Ə.Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti Parlamanın birinci iclasındakı nitqində bildirdi ki, **«Türküstan, Qırğızıstan, Başqırdıstan, Volqaboyu və Krım türkləri üçün müxtariyyət tələbimiz öz qüvvəsində qalır»**[2].

Azərbaycan parlamanının 1920-ci ili 27 apreli gecəsindəki sonuncu iclasında M.Ə.Rəsulzadənin çıxışı Rusiya ordusunun Azərbaycana daxil olması məsələsinə aid idi. O, bu çıxışında demişdi: « bizi sormadan hüdüdümüzu keçən hər hansı bir qüvvət, dostumuz deyil, düşmənimizdir».

M.Ə.Rəsulzadə 1951-ci ildə Türkiyədə yazdığ «Çağdaş Azərbaycanın tarixi» kitabında «mübarizə hələ bitməmişdir» sözlərini böyük inamla qeyd etmişdi. O, eyni zamanda Azərbaycanda milli-azadlıq hərəkatının tarixi inkişafı haqqında da müəyyən fikirlər söyləmişdir.

Məsələn, 1925-ci ildə Türkiyədə Azərbaycanın mühacir gəncləri qarşısında etdiyi «İstiqlal məfkurəsi və gənclik» adlı çıxışında o, söyləmişdi ki, Azərbaycanımızda istiqlalçılıq fikri

---

[1] «Azərbaycan» qəzeti, 9 dekabr, 1918.
[2] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlamenti (stenoqrafik hesabatlar). I cild. B, 1998, s.51.



və hərəkatı çox gəncdir və gec formalaşmışdır. Bununla belə, Azərbaycanda milli-azadlıq hərəkatı qələbə çaldıqdan sonra M.Ə.Rəsulzadə «Azərbaycan» qəzetinin 1919-cu il 28 may sayında (1918-ci il 28 may istiqlalının birinci ildönümü münasibətilə) yazmışdı: **«Mən Azərbaycanın həyat qabiliyyətinə inanıram. Öz təbiətinə və potensial sərvətlərinə görə bənzərsiz olan bu diyar yerin təkində fəvvarələr və alovlar saxladığı kimi, öz vətəndaşlarının qəlblərinin ən dərin guşələrində də elə bir yaradıcılıq ruhu yaşadır ki, bu yaradıcılıq ruhu türk xalqının azad inkişafı şəraitində, mənim dərin əqidəmə görə, dünyaya orijinal bir mədəniyyət nümunəsi bəxş edəcəkdir...».**

Həmin qəzetin növbəti 29 may (1919-cu il) sayında M.Ə.Rəsulzadə böyük qürur hissi ilə qeyd etmişdi ki, **Azərbaycan Şərqdə «ilk türk dövləti və ilk müsəlman cümhuriyyətidir».**

M.Ə.Rəsulzadənin Azərbaycanda fəaliyyətinin ən dolğun dövrü 1918-ci ilin dekabrından 1920-ci ilin may arası olmuşdur. Həmin ilyarımlıq dövr Azərbaycan Xalq Cümhuriyyətinin geniş fəaliyyət göstərdiyi dövr idi. Azərbaycan xalqının 1918-1920-ci illərdə ağır şəraitdə öz müstəqil dövlətçiliyini yaratmasının tarixi əhəmiyyətini nəzərdə tutaraq, Azərbaycan Respublikası prezidenti Heydər Əliyev demişdir: **«Azərbaycan Demokratik Respublikası qısa bir müddətdə böyük işlər görmüş və Azərbaycanın gələcdə də müstəqil olması üçün mühüm zəmin yaratmışdır»**.

Azərbacan Xalq Cymhuriyyəti Rusiyanın XI ordusu tərəfindən işğal edildikdən (28 aprel 1920) sonra M.Ə.Rəsulzadə Bakıda həbs edilmişdi.

1920-ci ilin noyabrında Şimali Qafqazdan Bakıya gəlmiş köhnə dostu İ.Stalin (M.Ə.Rəsulzadə 1905-ci ildə İ.Stalinin Bakının Bayıl həbsxanasından qaçırılmasında iştirak etmiş və öz qohumlarının evlərində 2 ay gizlədilməsini təşkil etmişdir) onu özü ilə Moskvaya aparmış və iki il sonra xaricə mühacirət etməsinə kömək etmişdir[1].

M.Ə.Rəsulzadə Türkiyədə «Yeni Qafqaziya» jurnalının (1923-1927-ci illər) «Azəri türkü» (1928-1931); «Odlu yurt»

---

[1] *Bu haqda daha ətraflı, bax:* İsmayılov İ.Z. Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri. B. 1995, s.35-36.

(1928-30) qəzetlərinin nəşrini təşkil etmiş, «Əsrimizin səyavuşu» (1923); «Rusiyada siyasi vəziyyət» (1926), «Qafqaziya türkləri» (1928); «Çağdaş Azərbaycan ədəbiyyatı» (1936), «İki Leyli və Məcnun» (1941), «Azərbaycan şairi Nizami» (1949); «Çağdaş Azərbaycan tarixi» (1951) adlı əsərlərini nəşr etdirmişdir. II dünya müharibəsi illərində M.Ə.Rəsulzadə Türkiyədən Rumıniyaya, Almaniyaya və Polşaya gedərək, Avropa ölkələrindəki hərbi əsirlər düşərgələrində əsirlikdə olan Azərbaycanlılar və digər türk əsirlərin böyük bir hissəsinin Türkiyəyə gətirilməsinə və orada məskünlaşmalarına köməklik etmişdir.

M.Ə.Rəsulzadənin Türkiyəyə ikinci müraciəti İ.V.Stalinin köməyi ilə 1922-ci ildə olmuşdur, və o, Türkiyə ilə yanaşı eləcə də qısa müddətlərdə Polşa, Almaniya və Rumıniyada olması nəzərə alınmaqla ömrünün sonunadək Türkiyədə yaşamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması uğrunda mübarizə dövrünü və Cümhuriyyətin fəaliyyəti dövrünü işıqlandıran «Əsrimizin Səyavuşu» əsərini M.Ə.Rəsulzadə doğma Basqal kəndində 1920-21-ci illərdə yazmış və 1923-cü ildə Türkiyədə nəşr etdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının tarixi, fəaliyyəti və işğal edilməsi M.Ə.Rəsulzadənin «Azərbaycan Cümhuriyyəti» əsərində daha geniş işıqlandırılmışdır və bu əsərə görə ona 1932-ci ildə Atatürk mükafatı verilmişdir[1].

Sovet hökümətinin tələbi ilə Azərbaycan mühacirləri 1932-ci ildə Türkiyədən çıxarıldıqda, həmin mühacirlər Polşaya (Varşavaya), köçməli oldular. Polşanın Almaniya tərəfindən işğal edilməsi (1939) ilə əlaqədar olaraq, onlar əvvəlcə Almaniyaya, sonra isə oradan da Türkiyəyə köçdülər.

M.Ə.Rəsulzadə Türkiyədə (Ankarada) dəfn edilmişdir.

[1] Beynəlxalq Atatürk sülh mükafatı 1986-cı ildə təsis edilmişdir.



## §4. İSMƏT İNENYÜ (1883-1973)

Atatürkün prezidentliyi dövründə, 1923-1937-ci illərdə (arada 5 ay fasiləsi ilə) Türkiyənin Baş Naziri olmuş və 1938-ci ilin noyabrında ölkənin ikinci prezidenti seçilərək, bu vəzifəni 1950-cı ilin noyabrında tərk etmişdir. O, 1961-65-ci illərdə yenə də Türkiyənin Baş Naziri vəzifəsində işləmişdir.

Böyük öndər Atatürkün silahdaşı olan İsmət İnenyünün Türkiyə xalqı qarşısında ən böyük xidməti öz ölkəsini II dünya müharibəsinə cəlb olunmaqdan qoruması olmuşdur. Əgər Türkiyə bu müharibəyə cəlb edilsə idi, həm Türkiyə xalqı üçün. həm də Qafqaz xalqları üçün böyük itgilərin və dağıntıların olacağı şübhəsizdir.

1905-1910-cu illərdə Mustafa Kamal paşa Türkiyədə osmanlı imperatorluğundan əl çəkərək dünyəvi dövlət yaradılmasına keçmək planını tətbiq edərkən onun ətrafında İsmət paşa (İnenyu). Ənvər paşa, Kazım Qarabəkir paşa kimi görkəmli şəxsiyyətlər də geniş fəaliyyətdə idilər.

## §5. SEYİDCƏFƏR PİŞƏVƏRİ (1892-1947)

Cənubi Azərbaycanın Xalxal vilayətində (Təbrizin yaxınlığında) dünyaya göz açmış Seyidcəfər Seyidcavad oğlu (Cavadzadə) 12 yaşında ikən atası ilə Bakıya gəlmiş və 1918-ci ildə burada «Ədalət» adlı sosial-demokrat partiyası sıralarına daxil olmuşdur.

Bu partiyada əsasən Cənubi Azərbaycandan Bakıya iş dalınca gəlmiş fəhlələr birləşmişdi, və təşkilat Cənubi Azərbaycanın demokratik qüvvələri ilə əlaqə saxlayırdı.

1918-ci ilin sentyabrında Bakıda yerləşmiş ingilis hərbi dəstələri Ənzəli limanına geriyə çəkilmişdilər və az sonra Cənubi Azərbaycan demokratik qüvvələrinin hücumları nəticəsində bütün Gilan vilayətini tərk etməli oldular. 1920-ci ilin 4 iyununda Gilan Respublikası elan edilmişdi (mərkəzi Rəşt şəhəri) və S.Pişəvəri Gilan Respublikasının hökümətinin Xarici İşlər Naziri təyin olundu. Bu respublika 1921-ci ilin noyabrında məğlub edildi.

Cənubi Azərbaycan xalqına müstəqillik uğrunda mübarizə üçün ikinci dəfə belə imkan 1945-1946-cı illərdə yarandı[1]. 1941-ci ilini avqustunda Sovet ordusu hissələri ilə birlikdə Azərbaycan milli diviziyalarının da İran ərazisində (Cənubi Azərbaycanda) müvəqqəti yerləşdiyi dövrdə burada güclənən demokratik hərəkat qələbə çaldı və 1945-ci ilin 12 dekabrında Cənubi Azərbaycan Milli hökuməti yaradıldı. Həmin hökumətin başçısı seçilən S.Pişəvəri geniş islahatlar həyata keçirərək, Cənubi Azərbaycanı İran şahına tabelikdən çıxara bildi. Lakin Sovet Ordu hissələri İrandan çıxarıldıqdan az sonra 1946-cı ilin noyabrında İran şahına sadiq qalan fars ordusu Cənubi Azərbaycan Milli hökumətinin silahlı qüvvələrini amansızcasına tərksilah etdi. Şimali Azərbaycana pənah gətirmiş S.Pişəvəri az sonra müəmmalı şəkildə yol qəzası nəticəsində həlak oldu.

[1] Bu haqda kitabın sonrakı səhifələrinə bax.



# VI Fəsil.

# XX ƏSRİN II YARISINDA TÜRK DÜNYASININ GÖRKƏMLİ DÖVLƏT XADİMLƏRİ VƏ PREZİDENTLƏRİ

*«Rəhbəri Heydər Əliyev olan xalq xoşbəxtdir»*
**İslam Kərimov**
(Özbəkistan Respublikasının Prezidenti)

## §1. GÖRKƏMLİ DÖVLƏT XADİMİ HEYDƏR ƏLİYEV



Heydər Əliyev özünün SSRİ kimi böyük və super dövlətdə 1982-1987-ci illərdə ən yüksək partiya və dövlət vəzifələrində (siyasi Büro üzvü və hökumət başçısının I müavini) işləməsini **«Azərbaycan xalqı üçün, bütün dünya müsəlmanları, bütün dünya türkləri üçün də böyük bir hadisə idi»** demişdir.

XX əsrin ikinci yarısında türk-müsəlman dünyasının ən tanınmış lideri Heydər Əliyev tarixi şəxsiyyət adına layiq görülmüş dövlət başçısı, nadir və müdrik islahatçı olan dövlət xadimi kimi tanınılır. Bu fəaliyyətdə Heydər Əliyevi türk dünyasında yalnız böyük Mustafa Kamal Atatürk ilə müqaisə etmək olar.

1967-ci ildə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Komitəsi sədri vəzifəsinə təyin edilmiş Əliyev (göstərilən vaxta qədər həmin vəzifəyə heç bir Azərbaycan türkü təyin edilməmişdir) sonrakı bütün həyatı boyu özünə doğma olan türk-Azərbaycan xalqının bütün sevinc və kədərlərini bölüşdürən, onun taleyinə şərik olan unudulmaz ümummilli

liderdir. 1992-ci ildə Naxçıvanda Türkiyə jurnalisti İrfan Ülkiyə verdiyi müsahibəsində Heydər Əliyev demişdir: **«DTK-da şərəf və namusla işləmişəm. İşlədiyim müddətdə öz millətimə, bir dəfə də olsun xəyanət etməmişəm. Bu mənada vicdanım rahatdır»**[1].

1969-cu ildə Heydər Əliyev Azərbaycan Respublikasının rəhbəri vəzifəsinə seçildi və bu vəzifədə uğurlarla işlədi.

Amerika azərbaycanşünası, Masaçuzets universitetinin professoru, xanım Oldri Armsadt «Azərbaycan türkləri Dövlət və fərd rus hakimiyyəti illərində» (1992) adlı əsərində Azərbaycanın 1969-1987-ci illərini **«Heydər Əliyev erası»** adlandırmışdır. O, yazmışdır: **«Bütün güclü siyasi şəxsiyyətlər kimi Heydər Əliyev də hamını arxasınca apara bilirdi. O, son dərəcə işgüzar və ziyalı bir rəhbər kimi zəifləmiş iqtisadiyyata yeni nəfəs gətirdi. Azərbaycanın nüfuzunu yüksəltməyə nail oldu»**. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin bu birinci dövründə Cənubi Azərbaycan ilə (İran dövlətinin tərkibində) əlaqələr hiss ediləcək dərəcədə genişlənmişdir.

Türkdilli xalqların qatı düşməni olan Mixayıl Qorbaçov tərəfindən 1990-cı ilin 20 yanvarında, heç bir əsas olmadan Bakıda fövqəladə vəziyyət rejimi yaradılması və iri miqyaslı ordu hissələrinin əli ilə burada vəhşi hərbi əməliyyatlar aparılması ilə əlaqədar olaraq dünya miqyasında ilk dəfə bu şovinizmə qarşı öz ifşaedici səsini qorxmadan Moskvadan ucaldan Heydər Əliyev oldu.

Yüksək partiya və dövlət vəzifələrindən azad edildikdən sonra Moskvada qalmaq Heydər Əliyev üçün qeyri-mümkün olduğundan o, Azərbaycana gəlməli oldu və Bakı təyyarə meydanından birbaşa 1990-cı ilin yanvar faciəsindən sonra yaradılmış Şəhidlər Xiyabanına gedərək, bütün şəhidlərin xatirəsinə öz ehtiramını bildirdi.

Müstəqil Azərbaycana rəhbərlik etdiyi ikinci dövrdə-on illik fəaliyyəti zamanı (1993-2003) Heydər Əliyev yeni tipli dövlət başçısı, müstəqil Azərbaycan dövlətinin islahatçı xadimi və başçısı kimi 500-dən çox yeni qanunun qəbul edilməsini təmin etdi.

[1] İrfan Ülkü, Qızıl Ulduzdan Hilala doğru (Heydər Əliyevin fırtınalı həyatı), türkcədən tərcümə. B, 1994, s.18.



Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə geniş fəaliyyəti və atalıq qayğısı «Böyük ömrün anları» və «Azərbaycan üçün yaşanan tale» adlı televiziya filmlərində geniş şərh edilmişdir.

Heydər Əliyev Azərbaycandan kənarda yerləşən türk-müsəlman xalqlarına və dövlətlərinə münasibətdə də görkəmli və ədalətli siyasi xadim kimi böyük hörmət qazanmışdır.

Türk dünyasının iftixar ölkəsi olan müasir Türkiyə dövlətlərinin yaradıcısı və ilk prezidenti olmuş böyük öndər Mustafa Kamal paşa Atatürkə Heydər Əliyevin böyük ehtiramı onun bütün çıxışlarında xüsusi olaraq qeyd edilmişdir. O, demişdir: **«Mustafa Kamal Atatürkün ən böyük xidməti Türkiyə Cümhuriyyətini yaratmaqdır**... Türkiyənin Osmanlı imperatorlarının 700 illik fəaliyyəti şəraitində, onun təsiri altında yaşamış insanlarını **Cümhuriyyət qurmağa zövq etmək, cəlb etmək və bu Cümhuriyyəti qurmaq, yaratmaq və onu yaşatmaq Mustafa Kamal Atatürkün çox böyük xidmətidir, demək olar ki, tarixi xidmətidir»...** Zaman, əsrlər keçəcək, türk xalqı, türkköklü, türkdilli xalqlar, türk dünyası bunu heç vaxt unutmayacaqdır[1].

**Türk müsəlman birliyinin rəmzi olan İslam konfransı iştirakçısı dövlətlərin başçılarının görüşlərinin birində Heydər Əliyev bu birliyin xarici müdaxilədən birgə müdafiəsi ideyasını ilk dəfə ortaya atmışdı.**

Türk dünyasının böyük öndəri Heydər Əliyev Azərbaycandan keçən qədim «Böyük ipək yolu»nun bərpasının təşəbbüskarı və bu plan üzrə həyata keçirilmiş Avropa-Qafqaz-Asiya (Traseka) nəqliyyat dəhlizinin yaradılmasının ilhamçısıdır.

Türkiyə Respublikasının 9-cu prezidenti Süleyman Dəmirəl demişdir: «...Azərbaycan dünyanın əsas cazibə mərkəzlərindən birinə çevrilməkdədir... Azərbaycanın bugünkü səviyyəyə gəlib çatmasında böyük dövlət adamı ... prezident Heydər Əliyevin müdrik rəhbərliyinin mühüm rol oynadığı şübhəsizdir».

[1] Düzəliş – XXI əsr, aprel 2001, №4 (438), s.5.

İstanbullu şairə Müyəssər Hilal Çakor **«Bir millət, iki dövlət»** şerində Heydər Əliyevi bütün türk dünyasının «Azəri Atatürkü» adlandırmışdır:

**Səni seviyoruz biz,**
**Biz türkiyəli türklər.**
**Sən böyük türk-**
**Azəri Atatürk.**

Heydər Əliyev bütün dünya ictimaiyyəti qarşısında Ermənistanın terrorçu bir dövlət olduğunu, türkdilli və müsəlman xalqlarına münasibətdə həmişə şovinist və separatçı mövqe tutduğunu faktlarla açıb göstərmişdir. Türkiyə və Azərbaycan türklərinə qarşı aparılmış soyqırımlar erməni vandalizminin tərkib hissəsidir. Heydər Əliyev eyni zamanda dahi uzaqgörənliklə göstərmişdir ki, **erməni terroruna qarşı uğurlu mübarizə üçün türkdilli və ümumiyyətlə müsəlman xalqlarının birliyinə böyük ehtiyac vardır.**

Heydər Əliyev Birləşmiş Ərəb Əmirliklərində dövlət başçıları, diplomat və jurnalistlərlə görüşündə erməni şovinizminə və terrorçuluğuna qarşı birgə mübarizənin vacibliyini nəzərdə tutaraq yarı zarafat, yarı gerçək demişdir: «Siz VII əsrdə bizə müsəlmanlığı hədiyyə verdiniz, indi isə bizi tək qoyubsunuz» və bu sözlər görüş iştirakçılarının alqışları ilə qarşılandı.

Siyasi fəaliyyətinin bütün dövrlərində Heydər Əliyev özünə məxsus xüsusi çeviklik və uzaqgörənliklə türk-müsəlman dünyasına yönəlmiş ədalətsizlilərə qarşı qəti çıxışlar etmişdir. Hələ Azərbaycana rəhbərlik etdiyi birinci dövrün sonlarında Moskvada Siyasi Büronun üzvlüyünə namizəd olan Heydər Əliyev partiya xətti ilə müsəlman Yəmən Demokratik Respublikasında baş vermiş gərgin siyasi vəziyyətlə əlaqədar olaraq oraya müddətli işgüzar səfərə göndərilmişdi və bu səfər böyük uğurla nəticələnmişdi.

Qazaxstan Respublikasının birinci katibi Dinmuhəmməd Kunayevdən sonra onun yerinə Mixail Qorbaçov tərəfindən Gürcüstan Partiya Təşkilatında II katibi işləmiş rus Kolbinin göndərilməsinə qarşı Siyasi Büroda etiraz etmiş yeganə lider Heydər Əliyev olmuşdur. Heydər Əliyev eləcə də



Bolqaristan rəhbəri Todor Jivkovun orada yaşayan 1 milyona yaxın türklərin əleyhinə apardığı şovinist siyasətə qarşı qəti etirazlarını bildirməkdən çəkinməmişdir.

Heydər Əliyevin çoxsahəli siyasi və beynəlxalq miqyaslı fəaliyyəti ona sağlığında böyük hörmət qazandırmışdır: Sovet ittifaqı Xarici işlər Naziri, Partiya Siyasi Bürosunun üzvü **Andrey Qromıko demişdir:** «O, MK üzvlərinin əksəriyyətinə xaş olan ... həyasızlıq, yüngülxasiyyətlilikdən uzaq idi... Öz-özümə düşündüm: Sovet İttifaqını idarə etmək üçün məhz belə cavan və enerjili rəhbər gərəkdir. **Bu keyfiyyətlər Heydər Əliyevdə var». Bu sözlər Heydər Əliyevin dünya miqyaslı siyasi xadim olduğunu çox aydın göstərir.**

Atatürkün dünyada sülhün qorunması işinə verdiyi böyük əhəmiyyəti nəzərə alaraq, Türkiyə dövlətində 1986-cı ildə «Beynəlxalq Atatürk Sülh mükafatı» təsis edilmişdir. Bu mükafat 1999-cu ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə verilmişdir. Bu mükafatın 1999-cu ilin noyabrında təqdim edilməsi münasibətilə Türkiyəyə gəlmiş Heydər Əliyev özü ilə apardığı Azərbaycan torpağını Mustafa Kamal Atatürkün məzarının yanına qoydu. Türkiyənin bütün vilayətlərindən gətirilmiş torpaqlar Atatürkün məzarının yanına qoyulmuşdur. Azərbaycan torpağı Türkiyənin xaricindən gətirilərək Atatürkün məzarına qoyulmuş ilk torpaqdır. **Heydər Əliyev bu mərasimdə demişdir: «Türkiyənin bütün torpaqları kimi, bütün vilayətləri kimi, Azərbaycan Türkiyə ilə bağlıdır və Mustafa Kamal Atatürkü özünün öndəri, özünün qəhrəmanı, özünün müdrik şəxsiyyəti hesab edir».**

Dünyanın türkdilli xalqları tarixin VII əsrində müqəddəs islam dinini qəbul edərək, onun ədalətli və əxlaqi dəyərləri ilə bəhrələnərək özlərinin həyat və düşüncə tərzlərini kifayət qədər zənginləşdirmiş və bu dəyərləri qoruyub saxlaya bilmişlər.

İslam dini türk dilli xalqların milli birliklərinin qorunması və inkişafında da çox mühüm rol oynamışdır.

1994-cü ilin martın ortalarında Mərakeşdə keçirilmiş İslam konfransı təşkilatına üzv olan ölkələrin dövlət başçılarının görüşündəki çıxışında Azərbaycan Dövlətinin Prezidenti Heydər Əliyev demişdir: **«Biz haqlı olaraq fəxr edə bilərik ki, islam dünyası ümumbəşəri sivilizasiyaya öz layiqli töhfəsini**

**vermişdir və neçə əsrlərdir ki, onun mənəvi inkişafına və təkmilləşməsinə kömək edir».** Məlumdur ki, həmin toplantıda yekun sözü demək şəfəninə də Heydər Əliyev layiq görülmüşdü.

Heydər Əliyev 1995-ci ilin mayında Məkkə və Mədinəyə Həcc ziyarətindən qayıtmış 500 nəfər zəvvarla görüş münasibətilə nitqində demişdi: «Azərbaycan dövlətinin həyatında çox əlamətdar haldır ki, xalqımız dininə öz münasibətini sərbəst ifadə edir ... İslam bu dinə itaət edənləri həmişə mənəvi saflığa, ədalətə, düzlüyə, bütün müsbət keyfiyyətləri özündə toplamağa dəvət edir»[1].

Dünya dinləri içərisində ən humanist və demokratik olan islam dini öz əxlaqi dəyərləri, sosial ədalətliliyi, insani ləyaqətə hörmət və xeyirxaqlıqı ilə seçilir. Buna görə də İslam hətta digər dünyəvi dinlərə sitaiş edənlərin də rəğbətini qazanmışdır.

Azərbaycan xalqının islami dəyərlərə münasibətini çox gözəl bilən Heydər Əliyev 1998-ci ilin 22 yanvarında Azərbaycanda ölüm cəzasının ləğv olunması haqda bəyanatı ilə bütün Şərq üçün tarixi və nümunəvi addım atdı.

Heydər Əliyev 1997-ci ilin noyabrında etdiyi çıxışlarının birində demişdi: «Mən xoşbəxtəm ki, bizim üzərimizə, şəxsən mənim üzərimə bu gün Azərbaycanın müstəqilliyini qorumaq, saxlamaq, inkişaf etdirmək və xalqımızın gələcək nəsillərinə xoşbəxt firavan, sülh şəraitində olan bir həyat yaratmaq üçün belə bir missiya düşmüşdür».

Azərbaycan xalqının milli mədəniyyətinin inkişafı qayğısını Heydər Əliyev, hər şeydən əvvəl özünün milli dilin öyrənilməsinə münasibətini dəyişilməsindən başladı. Sovet sisteminin tələblərinə baxmayaraq Heydər Əliyev Azərbaycana rəhbərliyə gəldikdən (1969-cu ilin yayı) bir neçə ay sonra Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində (1970) çıxışını Azərbaycan dilində və çox sərbəst etdi.

Bu cürətli addımın xüsusi əhəmiyyəti ondan ibarət idi ki, həmin yubiley iclasında Moskvanın mərkəzi partiya aparatından, SSRİ Ali və Orta ixtisas təhsili nazirliyindən, bütün İttifaq respublikalarından, Yaxın Şərq ölkələrindən nümayəndələr gəlmişdir. Rus dili millətlər arası əlaqələr vasitəsi kimi

---

[1] Dirçəliş – XXI əsr, 2001, №4, s.5.



qəbul edilmiş Sovetlər İttifaqı üçün belə bir milli tədbir qeyri adi görünürdü.

Heydər Əliyev özünün bu strateji kursunu Azərbaycan ziyalılarının X qurultayında latın qrafikalı əlifbaya keçid haqda danışarkən də davam etdirdi. Azərbaycanın müstəqilliyini bərpa edildikdən sonra isə bu siyasət milli mədəniyyətə sədaqətə əsaslanan milli proqramının əsasını təşkil etdi.

XX əsrin 70-ci illərinin ikinci yarısında SSRİ İttifaq respublikaları konstitusiyalarına müəyyən dəyişiklər edilməsi imkan olduqda, 1978-ci ildə Azərbaycan konstitusiyasının 73-cü maddəsinə, Moskvanın bütün müqavimətinə baxmayaraq, Azərbaycan dilinin dövlət dili olması haqqında müddəa əlavə edildi.

XX əsrin 70-ci illərində Azərbaycanda Heydər Əliyevin digər mühüm siyasi fəaliyyəti istiqamətlərindən biri milli hərbi kadrların yaradılması olmuşdur[1]. Böyük tələbkarlıq şəraitində həyata keçirilmiş bütün tədbirlər nəticəsində 70-ci illərdə Azərbaycandan SSRİ-nin ali hərbi məktəblərinə hər il 800-1000 tələbə təhsilə göndərilirdi və bunların 92-97 %-i azərbaycan-türkləri olurdu.

***

XX əsrin sonuncu onilliyinin əvvəlində SSRİ-nin dağılması zəminində Azərbaycanın öz müstəqilliyini bərpa etməsi tarixi əhəmiyyətli bir fürsət oldu və bu fürsətin böyük əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan həmin əsrin 20-ci ilinin yazında itirdiyi müstəqilliyini bərpa etdi. Belə uğurlu şans keçmiş SSRİ tərkibində olmuş xalqların hamısına qismət olmamışdır.

Buna görə də **Heydər Əliyev bərpa edilmiş müstəqilliyin qorunub saxlanması məsələsinə xüsusi əhəmiyyət verərək demişdir: «Azərbaycanın XX əsrin ərzində ikinci dəfə istiqlaliyyət alması, ancaq birincidən fərqli olaraq, bu dəfə, istiqlaliyyəti qoruyub saxlaması Azərbaycan xalqı üçün tarixi bir hadisədir».**

Heydər Əliyev bu münasibətlə demişdi: **«Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir».** Onun rəhbərliyə ikinci dəfə

---

[1] Bu haqda daha geniş bax: İsrafil İsmayılov. Azərbaycan ziyalıları XX əsrdə. B, 2008, s.146-147.

xalqın böyük istəyi ilə gəlməsindən sonrakı dövrlərdə, xüsusilə 1993-1994-cü illərdə cərəyan edən bütün siyası hadisələrin təhlili onu deməyə əsas verir ki, **Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə yönəlmiş bütün tədbirlər həllini yalnız Heydər Əliyev kimi görkəmli şəxsiyyətin rəhbərliyi altında reallaşa bilərdi**. Göstərilən dövrü yaşamış bütün yaşlı ziyalıları xatırlayırlar ki, həmin günlərdə Heydər Əliyevin adından yazılaraq Bakının küçələrinin divarlarına vurulmuş «Xalqı nicat yoluna çıxarmağa mən qadirəm» sözləri xalq üçün böyük inam mənbəi oldu və həmin ağır günlərdə xalq öz ulu liderinə böyük inam göstərdi.

***

Əksəriyyəti müsəlman şərqində yaşayan türkdilli xalqların həyatında və xüsusilə keçmiş SSRİ tərkibində XX əsrin çərçivəsində 70 il yaşamış türkdilli xalqların dövlət müstəqilliklərini qazanmaları həmin xalqların Türk müsəlman ailəsinə qayıtmaları tarixi bir hadisə və nailiyyətdir, qızıl hərflərlə yazılmalı tarixi hadisədir.

Dağılmış SSRİ-nin tərkibində yaşamış türkdilli xalqlardan beşinin (Azərbaycan, Qazaxıstan, Qırqıstan, Özbəkistan, Türkmənistan) dövlət müstəqilliklərini qazanmaları həmin xalqların Turk-müsəlman ailəsinə qayıtmaları mənasında da tarixi bir hadisədir. Yalnız bundan sonra İslam Konfransı Təşkilatı və türk müsəlman xalqları birliyi özünün güclənməsi üçün əlavə imkanlar əldə etdi.

Hazırda dünyada mədəni inkişaf üzrə üç mərkəz liderlik edir. Qərb, Çin, müsəlman dünyası (dünyada müsəlmanların miqdarı 1 milyarddır) və türk dünyası onun tərkib hissəsidir.

II dünya müharibəsindən sonrakı dövrdə dünya birgütblü dünya (ABŞ-ın liderliyi ilə) olmuşdur. Siyasi güc də bu liderə məxsus idi.

Zəmanəmizin görkəmli dövlət xadimi, Heydər Əliyev dünya miqyasında başlanmış qloballaşma prosesinin yaratmaqda olduğu ziddiyyətli vəziyyəti nəzərdə tutaraq göstərmişdir ki, «**dünya inkişafının indiki mərhələsinin başlıca meylləri inteqrasiya və qloballaşmadır.** Əgər bəşəriyyət XX əsri elmi inkişafın nəaliyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdısa, **qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin



perspektivləri hamımızı düşündürür**»[1].

Qloballaşma prosesi iqtisadi sahədə zəif inkişaf etmiş ölkələr və xalqlar üçün müsbət nəticələr verə bilər. Lakin mədəniyyət sahəsində bu proses milli mədəniyyətlərin öz milli kökləri üzərində inkişafına maneçilik də törədə bilər və nəticədə milli mədəniyyət, millətçilik ideyalarına doğru istiqamətlənə bilər. Bu isə, nəticədə bəşəriyyətin ayrı-ayrı hissələrində (millət və xalqlarında, ölkələrdə) milli mədəniyyətlərin öz milliliyini itirməsi ilə nəticələnə bilər.

Birləşmiş Millətlər Təşkilatında Təhsil, Elm və Mədəniyyət məsələləri ilə məşğul olan hökümətlərarası «Yunesko» təşkilatı 2005-ci ili **planetar düşüncə** ili adlandırmışdır. Daha yaxşı olar ki, bu düşüncə milli-planetar düşüncə istiqamətində inkişaf etsin. Hər bir ölkə və xalq öz ölkəsindən «beyin axınının» qarşısını almağa çalışır. Qlobollaşma prosesi bu axına yol açmaqla, bir tərəfdən ümumi inkişafa yol açırsa, digər tərəfdən zəif inkişaf etmiş ölkələri daha da zəiflədə bilər.

Qlobollaşma prosesinin səciyyəvi xüsusiyyəti modernləşmədir. Əlbəttə, bu proses əsasən iqtisadiyyata aiddir. İqtisadiyyat sahəsində qlobollaşma geridə qalmış xalqların iqtisadiyyatının sürətlə inkişafına kömək edə bilər. Bütövlükdə isə bu prosesdə əsas söhbət Qərb dəyərlərinin vesternizasiyasından (Şərqə köçürülməsi) gedir.

Xalqların mənəvi mədəniyyətləri isə əsasən öz milli kökləri üzərində inkişaf edir və bu istiqamətdə yeni, daha yüksək nailiyyətlər əldə edilərək, bəşər mədəniyyəti daha da zənginləşdirilir.

---

[1] «Azərbaycan» qəzeti, 30 dekabr, 2000.

### İKİ ATATÜRK

Azəri, Osmanlı türk ellərində
Tarix yetişdirdi iki nər oğlu.
İyirminci əsrin gur sellərində
İki türk oğlu oldu bəşər oğlu.

***

Əsrin yarısı, Mustafa qisməti
Digər yarısı Heydər ünsiyyəti
Hər ikisi ucaldı dahiliyə
Əməlləri nümunə müdrikliyə.

***

Mustafa Atatürk türkü ucaltdı
Türkiyəni örnək ölkəsi etdi.
Heydər Atatürk Azərbaycanın
Müstəqilliyini əbədi etdi.

***

Bir güclü millət, iki qardaş dövlət,
Türkün dünyasında qazandı hörmət.
Türk birliyi sabahı uğurludur,
İui Atatürk bayrağı nurludur.

***



## §2. TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ TURQUT ÖZAL (1927-1993)



XX əsrin 80-cı illərində dünyada «iqtisadi möcüzələr atası» kimi tanınmış Turqut Özal 1927-ci ilin 21 oktyabrında Şərqi Türkiyənin Malatya şəhərində dünyaya göz açmışdır.

Atası Mehmet kişini tez itirən Turqut, anası Hafizə xanımın himayəsində böyümüşdür.

Konya şəhərində litseyi bitirdikdən sonra İstanbul Texniki Universitetində mühəndis-elektirik ixtisası üzrə təhsil almış T.Özal magistr elmi dərəcəsinə layiq görülmüş, ixtisasını 1972-1973-cü illərdə ABŞ-da artırmışdır. O, Amerikanın Texas Universitetinın fəxri professorudur; iqtisadiyyat və texnika sahəsində bir neçə elmi əsərin müəllifidir. Turqut Özal 1983-cü ilın fevralında İslam İnkişaf Bankının Orta Şərq üzrə baş əlaqələndiricisi olmuşdur.

1983-cü ildə Türkiyədə Ana Vətən partiyasını yaratdı.

Türkiyənin Ana Vətən partiyasında 1983-cü ilin ikinci yarısında baş sədr vəzifəsini icra edən T.Özal həmin partiya Böyük Millət Məclisi seçkilərində qələbə çaldığı üçün 1983-cü ilin dekabrında hökumətin Baş Naziri seçilmişdi. Bu hökumətin tərkibində 6 mühəndis və 5 iqtisadçı var idi. 1987-ci ildə Ana Vətən partiyası seçkilərdə yenidən qələbə çaldıcğı üçün T.Özal ikinci dəfə Türkiyə hökumətinin başçısı təyin edilmişdi. 1989-cu ildə T.Özal Türkiyə Respublikasının səkkizinci prezidenti seçildi. O, Türkiyə mülki şəxslərindən seçilmiş ikinci prezident idi. Prezident T.Özalın sosial proqramının

əsasını sosial ədalət prinsipi təşkil edirdi. Atatürkün dövlətçilik prinsiplərindən biri olan Laisizm (dünyəvilik) prinsipini qəbul edən T.Özal qeyd edir ki, biz «laisizmi, mənəvi dəyərlərin qorunmasında, vicdan, dinə inam və ibadət azadlıqlarının həyata keçirilməsində və habelə dini mədəniyyətin inkişaf etdirilməsində məhdudlaşdırıcı ünsür hesab etmirik».

Prezident T.Özalın 80-cı illərdə Turkiyədə tətbiq etdiyi iqtisadi siyasət və bu siyasətin strategiyası «Özal modeli» kimi məşhurdur. T.Özalin prezidentliyi ərəfəsində 70-ci illərin sonları-80-cı illərin əvvəllərində Türkiyə iqtisadiyyatı ağır böhran keçirirdi: 70-ci illərdə ölkə hiperinfilyasıya səviyyəsinə düşmüşdü. Türkiyə lirəsinin qiymətdən düşməsi davam edirdi.

T.Özalın tətbiq etdiyi yeni iqtisadi siyasətin əsasını aqrar xarakterli qapalı iqtisadiyyatın strukturunu dəyişmək, daxili tələbatın ödənilməsinə yönəlmiş sənayeləşmə modelini «açıq iqtisadiyyat» strategiyası ilə əvəz etmək təşkil etmişdir. Bunun üçün «təcili tədbirlər paketi» hazırlandı. Burada təşəbbüskarlıq azadlıcı, büdcə məsrəflərinin məhdudlaşdırlması, dövlət aparatının ixtisarı, yerli istehsalçıların məhsullarının daxili və xarici bazarlarda rəqabət qabiliyyətinin artırılması, islam ölkələri ilə ticarət-iqtisadi əlaqələrin sürətlə genişləndirilməsi, ticarətdə tələb ilə təklif arasındakı uyğunsuzluğun aradan qaldırılması, zərərlə işləyəndövlət müəssisələrinə büdcə yardımından imtina edilməsi, vergi gəlirlərinin artırılması və s. əsas tədbirlərdən idi.

Görülən tədbirlər nəticəsində Türkiyə ixracatı 1988-ci ildə 11,6 milyard dollara çatdı ki, bu da 1980-cı ilə nisbətən dörd dəfə çox idi. Digər tərəfdən T.Özalın göstərilən tədbirləri qaçaqmalçıların gəlir mənbəyini məhdudlaşdırdı. Bunv görə də ehtimal edilirdi ki, Turqut Özala qarşı 1988-ci ildə Ankarada Ana Vətən partiyası konqresində çıxış etdiyi vaxt edilən sui-qəsd onlar tərəfindən edilmişdi: qolundan yaralanan T.Özal yaranı sarıtdıraraq, çıxışını davam etdirmişdi. Göründüyü kimi, T.Özal böyük iradəli şəxs olmuşdur və çıxışlarında yazılı mətndən istifadə etməmişdir. Turqut Özal 1989-cu ilin noyabrında Türkiyənin Prezidenti seçilmişdir. Prezident olduğu illərdə cümə namazlarına səliqə ilə getməkdə davam etmişdir.



**Prezident T.Özal 1991-ci ilin martında Azərbaycanda rəsmi səfərdə olmuşdur**. Bu səfərin yekunlarına həsr olunmuş mətbuat konfransında T.Özal verilmiş suala cavabında demişdi: «Erməni Kəlbəcərdən çıxmazsa, çıxarılacaqdır».

Həmin mətbuat konfransında Türkiyə jurnalistlərindən biri Prezident T.Özalın bu səfərində Türkiyə ilə Azərbaycanın müştərək mudafiə müqaviləsi imzalayacağının gözlənildiyini söylərkən (diqqət edin: bu sualı Türkiyə jurnalisti verdi) ona (T.Özala) macal vermədən Azərbaycan prezidenti Əbülfəz Elçibəy belə cavab vermişdi: «Hərbi ittifaq bağlamaq o qədər də asan məsələ deyil... Hələ ki, bu sahədə bir addım atmamışıq»[1].

Deməli, son dərəcədə lazım olan və hamının gözlədiyi belə (hərbi) müqavilənin imzalanması ona görə baş tutmayıb ki, Azərbaycan rəhbərliyi bu məqsədlə «bir addım atmayıb».

Təəssüflər olsun ki, belə bir təkliflə Azərbaycan tərəfi sonralar da çıxış etmədi.

Məlumdur ki, Ermənistan dövləti Rusiya ilə hərbi müqavilə imzalanmasına 1997-ci ilin avqustunda nail oldu. Deməli, işğalçı tərəfi öz mövqeyini möhkəmlətmək üçün digər dövlət ilə hərbi müqavilə bağladı, Azərbaycan isə 1991-1992-ci illərdə, əraziləri zəbt edildiyi dövrdə qardaş dövlət Türkiyə ilə belə bir müqavilə bağlamaq haqqında «addım atmadı». Fikrimizcə, Türkiyə ilə belə bir müqavilə imzalansa idi «Qarabağ müharibəsi» deyilən müharibə Dağlıq Qarabağın ermənilər yaşayan ərazilərindən kənara bəlkə də çıxmazdı.

1991-ci ilin payızında Türkiyədə keçirilən parlaman seçkilərində T.Özalın mənsub olduğu Ana Vətən partiyası məğlubiyyətə uğramışdı: görünür bu da prezidentin sonrakı fəaliyyətinə mənfi təsir etməyə bilməzdi.

Prezident Turqut Özal 1993-cü ilin 17 aprelində iş başında qəflətən dünyasını dəyişmişdir.

---

[1] «Xalq qəzeti», 15 aprel 1993-cü il.

## §3. TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL

Görkəmli dövlət xadimi Süleyman Dəmirəl 1924-cü ilin 1 noyabrında Türkiyənin İsparta şəhərində dünyaya göz açmışdır. 1949-cu ildə İstanbul texniki universitetinin mühəndis-hidrotexnik ixtisası üzrə bitirmişdir. «Ədalət» partiyasına 1965-ci ildə sədr seçilən Süleyman Dəmirəl 1965-ci il seçkilərində partiyanın qələbəsinə uyğun olaraq Türkiyə respublikasının Baş naziri (hökümət başçısı) seçildi və bu vəzifəni 1965-69 və 1975-80-ci illərdə ifa etmişdir.

1983-cü ildə «Ədalət» partiyası zəminində «Doğru yol» partiyası yaradılmışdı və Süleyman Dəmirəl 1987-ci ildə bu partiyanın sədri seçilmişdi. 1991-ci ildə Süleyman Dəmirəl Türkiyə respublikasının yenidən baş naziri seçildi. Ümumiyyətlə Süleyman Dəmirəl Türkiyə hökümətinə yeddi dəfə baş nazir seçilmişdir.

1993-cü ilin 16 mayında Süleyman Dəmirəl Türkiyə Respublikasının yeddi illiyə predidenti (Cümhuriyyət Başkanı) seçildi.

Çox güclü ənənəvi tarixi düşmənləri olan Türkiyədə 45 il yüksək siyasi və dövlət idarəçiliyində fəaliyyət göstərən Süleyman Dəmirəl iradəli bir şəxsiyyətdir.

Böyük Atatürk kimi Türkiyədə və dünyada türklər tərəfindən sevilən rəhbərlərdən biri olmaq etibarilə Süleyman Dəmirəl beynəlxalq aləmdə də hörmətli dövlət xadimlərindən biri olmuşdur.

Türkdilli ölkələrin xalqlarının birliyinin möhkəmlənməsində Süleyman Dəmirəlin xüsusi xidmətini qeyd edərək, Heydər Əliyev demişdir: «**Adriatik dənizindən Çin səddinə qədər türkdilli dövlətlər dünyası var və gələcəkdə də olacaqdır... Bu pantürkizm, panislamizm deyildir. Bu odur ki, bir kökdən, bir mədəniyyətdən, bir dindən, bir adət-ənənədən olmuş bu xalqlar bir-biri ilə daha da yaxınlaşmalıdırlar. Məhz bu məqsədlə hörmətli Süleyman Dəmirəlin təşəbbüsü ilə 1992-ci ildə yenicə müstəqillik, istiqlaliyyət qazanmış türkdilli ölkələrin dövlət başçılarının İstanbulda toplantısı keçirilmişdi. Burada bu təşkilatın əsası qoyulubdur**». Azərbaycan Prezidenti Heydər Əliyev Süleyman Dəmirəli müasir türk dünyasının lideri və ağsaqqalı adlandırmışdır.





**İlk sırada Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyənin IX Prezidenti Süleyman Dəmirəl.**

Azərbaycan xalqı öz respublikasının müstəqilliyini elan etdiyi günlərdə (1991-ci ilin 18 oktyabrı) Süleyman Dəmirəl Türkiyənin hökümət başçısı idi. Həmin günlərdə Azərbaycanın dövlət müstəqilliyini dünyada hamıdan əvvəl tanıyan və təbrik edən dövlət Türkiyə Respublikası olmuşdur. Süleyman Dəmirəl Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana 1991-1992-ci illərdə, onun üçün ən ağır bir dövrdə hərtərəfli yardımı təşkil etmişdir. Arxada qalmış sonrakı səkkiz il ərzində

Süleyman dəmirəl, Türkiyənin hökümət və dövlət başçısı kimi həmişə dost və qardaş Azərbaycan xalqına dayaq olmuşdur.

Prezident Süleyman Dəmirəl «Nezavisimaya» qəzetinin baş redaktorunun müavini A.Qoqiaya 1994-cü ilin yazında verdiyi müsahibəsində demişdi: «Biz Avropa ölkələrinin rəhbərlərinə bəyanət vermişik ki, əgər Qərb dövlətləri Ermənistanı rəsmi və açıq şəkildə müdafiə edəcəklərsə, müsəlman ölkələri isə Azərbaycana köməyə gələcəklərsə, onda Qafqazda müsəlman-xristian müharibəsi başlayacaq. Biz Azərbaycanın dostlarıyıq».

Süleyman Dəmirəl 1999-cu ilin noyabrında «Arena» qəzetinin (Azərbaycan) baş redaktoruna verdiyi müsahibəsində demişdir: «Türkiyə müstəqilliyini elan etdiyi tarixdən etibarən Azərbaycana hər bir məsələsində onun yanında yer almış, dəstək vermişdir. Bu həmrəylik gələcəkdə də davam edəcəkdir».

## §4. TÜRKİYƏ HÖKÜMƏTİNİN BAŞÇISI BÜLƏND ECEVİT

Bülənd Ecevit 1925-ci ilin mayında İnstanbulda dünyaya göz açmışdır. Burada kolleci (ədəbiyyat ixtisası üzrə) bitirdikdən (1944) sonra beş il Londonda Türkiyənin səfirliyində mətbuat attaşesi katibliyində işləmişdir. Sonrakı illərdə də mətbuatda işləmiş və 1957-ci ildə Böyük Millət Məclisinə deputat seçilmiş, Türkiyə hökümətində Əmək naziri (1961-1965) olmuşdur.

B.Ecevit 1951-ci ildən Türkiyə Xalq Cümhuriyyət Partiyasının rəhbərliyində fəaliyyət göstərmiş, 1966-72-ci illərdə həmin partiyanın Baş katibi, 1972-ci ildən Baş sədri olmuşdur.

Bülənd Ecevit 1974-cü ilin yanvar-noyabrında, 1978-1979-cu illərdə Türkiyə hökümətinin başçısı olmuşdur. Kiprin türklər yaşayan şimal hissəsinin Yunanıstan ağalığından azad edilərək (iyun 1974) özünü müstəqil Kıbrıs Türk Cümhuriyyəti elan etməsi dövrü Türkiyənin hökümət başçısı Bülənt Ecevit idi, və bu məsələdə onun tərəfindən atılmış çox cevik addımlar diqqətə layiqdir.



Görkəmli dövlət xadimi Bülənd Ecevid zəngin dövlətçilik təcrübəsinə malik dövlət xadimidir və əvvəllər olduğu kimi sonralar da böyük inamla Türkiyə hökümətinə başçılıq etmişdir. Terrorçu kürd partiyası başçısı Abdulla Ocalanın yaxalanmasında da B.Ecevitin xidməti böyükdür.

Türkiyə dövlətinin Baş Naziri Bülənd Ecevit Vaşinqton səfəri zamanı (1999) jurnalistlərin suallarına cavab verərkən demişdir: «Ermənistanla Türkiyə əlaqələri yalnız Azərbaycan torpaqları azad edildikdən sonra mümkün ola bilər».

## §5. ÖZBƏKİSTANIN PARTİYA RƏHBƏRİ VƏ İÇTİMAİ XADİMİ ŞƏRƏF RƏŞİDOV (1917 – 1983)

Şərəf Rəşid oğlu Rəşidov 1917-ci ilin noyabrında Özbəkistanın Cizak şəhərində dünyaya göz açmışdır. 1941-42-ci illərdə İkinci dünya müharibəsinin iştirakçısı olmuşdur. Müharibədən sonrakı illərdə, 30 il ərzində Özbəkistanda rəhbər vəzifələrdə işləmiş, bundan 20 ilini respublikaya rəhbərlik etmişdir. Şərəf Rəşidov 1961-81-ci illərdə Sovet partiya sisteminin ən yuxarı mərtəbəsi olan Siyası büro üzvlüyünə namizəd seçilmişdir.

Şərəf Rəşidovun Özbəkistana rəhbərlik etdiyi illərdə respublikanın sənayesi və kənd təsərrüfatı, elm və mədəniyyəti xeyli inkişaf etmiş, xüsusilə pambıqçılığın inkişafında böyük nailiyyətlər əldə edilmişdir.

Sovetlər İttifaqı şəraitindəTürk-müsəlman xalqlarına qənim kəsilmiş bəzi erməni şovinistləri Ş.Rəşidovun respublikaya uğurla rəhbərlik etdiyi 80-ci illərin əvvələrində mərkəzi (Moskva) inzibatı orqanlar xəttilə düzəlmiş uydurma «pambıq işi» ilə (güya böyük yeyintilər olması bəhanəsilə) özbəklərdən xeyli vətəndaş həbs etdildi şəxsi mülkiyyətlərini müsadirə edərək həbsxanalara saldılar. Az sonra bütün bunların saxta sənədlərlə quraşdırıldığı aşkar edildi.

Göstərilən uydurma «pambıq işi» ilə əlaqədar olaraq, heç bir əsas olmadan yüksək vəzifədən azad edilən Ş.Rəşidov 1983-cü ilin oktyabrında dünyasını dəyişdi.

Şərəf Rəşidov eyni zamanda görkəmli yazıçı və içtimai xadim olmuşdur. II dünya müharibəsinin iştirakçısı olan Ş.Rəşidov «Güclü dalqa» romanında xalqın müharibə illərindəki qəhrəmanlığının bədii təsfirini vermişdir. Yazıçının «Qaliblər», «Borandan güclü», «Tarixin hökmü», «Dostluq bayramı», «Ürəyin hökmü ilə», «Kəşmir mahnısı» və digər əsərlərində dövrünün aktual məsələləri ustalıqla qələmə alınmışdır.

## §6. ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOV

İslam Abdulqəni oğlu Kərimov 1938-ci ildə Özbəkistanda anadan olmuşdur. 1960-ci ildə Orta Asiya Politexnik İnstitutunu bitirmiş və sonrakı illərdə Özbəkistan respublikası Plan Komitəsində məsul vəzifələrdə çalışmışdır.



**Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti İslam Kərimovun təkbətək görüşü**
(Bakı, sentyabr, 2008)



1989-cu ildə Özbəkistan Kommunist partiyasının başçısı olan İslam Kərimov 1990-cı ilin martında Özbəkistan respublikasının prezidenti seçilmişdir. Hazırda ölkədə əsas partiya sayılan Xalq demokratik partiyasının sədridir. Prezident İ.Kərimov 1994-cü ilin əvvəlində yeni iqtisadi islahatlar proqrammı ilə çıxış etmiş və ölkəyə xarici investisiya axını üçün şərait yaratmışdır.

Prezident İ.Kərimov eyni zamanda ölkədə yüksək səviyyəli milli mütəxəssislərin yaradılmasına xüsusi fikir verir. Onun şəxsi təşəbbüsü ilə Daşkənddə açılmış «Dünya iqtisadiyyatı və diplomatiya» universitetində min nəfərə qədər tələbə oxuyur və burada mühazirələrin oxunmasına Qərb siyasətşunasları da dəvət edilirlər.

Özbəkistanda əhalinin 70%-dən çoxunu özbəklər təşkil edir və buna görə də Prezident İ.Kərimov idarəetmə aparatlarında kərgüzarlığın özbək dilində aparılmasına xüsusi əhəmiyyət verir.

İslam Kərimov müstəqil Özbəkistan dövlətinin ilk prezidenti vəzifəsində türk dünyası xalqlarının birliyi və həmrəyliyi məsələlərinə xüsusi əhəmiyyət verir. İslam Kərimov 2000-ci ilin yanvarında yenidən Özbəkistan Respublikası prezidenti seçilmişdir və indi də bu vəzifədədir.

## §7. QAZAXSTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV

Nursultan Abiş oğlu Nazarbayev 1940-cı ildə Qazaxstanın Alma-Ata vilayətinin Çemolqan kəndində anadan olmuşdur.

Dnepropetrovsk (Ukraynadadır) metalurji institutunda təhsildən sonra, Qaraqanda dağ-metalurji kombinatında mühəndis işləmiş, az sonra həmin kombinatda partiya komitəsi katibi vəzifəsinə irəli çəkilmişdir.



**Azərbaycan Prezidenti Heydər Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev**

1980-cı ildə Qazaxstan partiya təşkilatı mərkəzi komitəsində katib seçilmiş N.Nazarbayev 1889-cu ilin iyununda Qazaxıstanın partiya təşkilatının rəhbəri səviyyəsinə yüksəlmişdir. SSRİ-nin dağılması ərəvəsi Qazaxıstanın prezidenti seçilmiş N.Nazarbayev iqtisadiyyat elmləri doktorudur və 120 millət və xalqdan ibarət əhalinin yaşadığı müstəqil Qazaxıstan dövlətinin indi də prezidentidir.

N.Nazarbayev Dağlıq Qarabağ ilə bağlı olaraq başlanan Azərbaycan-Ermənistan konfliktinə biganə qalmayaraq, onun dinc yolla həllinə təşəbbüs göstərdisə də, bu təşəbbüs nəticə vermədi. Prezident Nursultan Nazarbayev eyni zamanda Qazaxıstan Xalqları Assambleyasının sədridir.

Hazırda Qazaxıstanda yaşayan azərbaycanlıların sayı 110 min nəfərdir və Almatıda «Turan» adlı Azərbaycan mədəniyyət mərkəzi vardır.



N.Nazarbayev Qazaxıstanın neft sərvətlərinin istehsalı və xarici ölkələrdə satışı üçün nəql edilməsi məsələsində türkdilli xalqlarla əməkdaşlığa xüsusi əhəmiyyət verir.

1999-cu ilin 18 noyabrında ATƏT-in İstanbul zirvə görüşündə Bakı-Tibilisi-Ceyhan əsas ixrac neft boru kəməri vasitəsi ilə xam neftin nəql edilməsi haqqında sazışın imzalanması mərasimindəki çıxışında prezident Nursultan Nazarbayev demişdir: «Xəzər neftinin nəqli üçün etibarlı, ekoloji cəhətdən təhlükəsiz, kommersiya baxımından sərfəli marşrutun çəkilməsi ən əvvəl müstəqilliyimizin, Xəzər bölqəsi ölkələrinin iqtisadi sərbəstliyinin möhkəmlənməsinə, xalqlarımızın rifahının yaxşılaşmasına xidmət edəcəkdir».

## §8 AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV

İlham Heydər oğlu Əliyev 1961-ci ildə Bakıda anadan olmuşdur. Moskvada Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda qurtardıqdan sonra həmin institutda müəllim saxlanmış və dissertasiya yazaraq tarix elmləri namizədi elmi dərəcəsi almışdır. Hazırda siyasi elmlər doktorudur.

İlham Əliyev elmi fəaliyyəti əvvəlində Strabonun çoxcildli «Coğrafiya» əsərinin XI cildin №1, 2, 3, 4, 5 paraqraflarının izahını (şərhini) vermişdir.

1994-2003-cü illərdə Azərbaycan Dövlət Neft Şirkətinin vitse prezidenti və birinci vitse-prezidenti vəzifəsində çalışmışdır.

1995-ci ildə və 2000-ci ildə Azərbaycan dövlətinin Milli Məclisinin (parlamanına) üzv seçilmişdir.

İlham Əliyev 2001-2002-ci illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə başçılıq etmişdir. 2003-cü ilin yanvarında İlham Əliyev Avropa Parlament Assambleyasının(AŞPA)sədr müavini və büro üzvü seçilmiş, 2004-cü ilin aprelində isə AŞPA-nın fəxri üzvü medalı və diplomu ilə təltif edilmişdir.

İlham Əliyev 2003-cü ilin 4 avqustunda Azərbaycan Respublikasının Baş naziri təyin olunmuş və həmin ilin 15 oktyabrında Azərbaycan Respublikasının prezidenti seçilmişdir.



Azərbaycan Respublikasının Prezidenti
**İLHAM ƏLİYEV**

İlham Əliyev 2008-ci ildə ikinci dəfə Azərbaycan Prezidenti seçilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev neft sənayesi və Azərbacanın iqtisadiyyatına həsr olunmuş bir sıra kitabların müəllifidir.

Prezident İlham Əliyev ana dili ilə yanaşı ingilis, fransız və türk dillərini sərbəst bilir.

## §9. TÜRKİYƏNİN CÜMHURİYYƏT BAŞQANI (PREZİDENTİ) ABDULLAH GÜL

Abdullah Gül 1950-ci ilin 29 oktyabrında Türkiyənin Kayseri şəhərində dünyaya göz açmışdır.

Dörd il Türkiyənin Xarici İşlər naziri işləmiş, qısa müddət ölkənini Baş naziri olmuşdur.

2007-ci ilin 28 avqustunda Abdullah Gül Türkiyənin Cümhuriyyət başqanı seçilmişdir. Həmin vəzifəyə onun seçilməsinə Türkiyənin Milli Məclisində çoxluq təşkil edən Ədalət və İnkişaf Partiyası dəstək vermişdir.

Prezident Abdullah Gül 2008-ci ilin noyabrında Azərbaycanda rəsmi səfərdə olmuşdur. Həmin səfər zamanı türkdilli dövlətlərdən üçünün (Azərbaycan, Türkiyə, Türkmənistan) birgə görüşü olmuş və uğurla keçmişdir.

Prezident Abdullah Gül sonrakı illərdə də Azərbaycana rəsmi səfərlər etmişdir. Abdullah Gül ingilis və ərəb dillərini bilir.

## §10. TÜRKİYƏ HÖKUMƏTİNİN BAŞÇISI RƏCƏB ƏRDOĞAN

Rəcəb Tayyib Ərdoğan 1954-cü ilin 26 fevralında Türkiyənin Riza şəhərində anadan olmuşdur. O, 1994-1998-ci illərdə İstanbul şəhərinin meri (başçısı) olmuşdur.

Əvvəllər Rifah partiyasında fəaliyyət göstərmiş R.Ərdoğanın başçılığı altında yeni bir partiya-Ədalət və İnkişaf partiyası yaradılmışdır.



**Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə hökuməti başçısı Rəcəb Ərdoğan**

Rəcəb Ərdoğan 2003-cü ilin 14 martında Türkiyə hökuməti başçısı vəzifəsinə seçilmişdir. Təkrarən həmin vəzifəyə o, 2007-ci ilin 22 iyununda (ikinci dəfə) seçilmişdir.

Rəcəb Ərdocan türkdilli dövlətlər arasında birliyin genişlənməsinə və möhkəmlənməsinə xüsusi əhəmiyyət verərək, bu dövlətlərlə iqtisadi əlaqələrin möhkəmlənməsini təmin etmək üçün həmin ölkələrə tez-tez səfərlər edir.

Rəcəb Ərdocan ingilis dilini bilir.



## §11. TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOV

Qurbanqulu Məlikqulu oğlu Berdiməhəmmədov 1957-ci ilin iyununda Aşğabad vilayətinin Babaraq kəndində anadan olmuşdur.

2000-2007-ci illərdə Türkmənistan dövlətinin Nazirlər kabinetinin sədr müavini vəzifəsində işləmişdir.

Qurbanqulu Berdiməhəmmədov 2007-ci ilin 11 fevralında Türkmənistan dövlətinin prezidenti seçilmişdir.



**Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin üçtərəfli görüşü.**

*Soldan sağa:* **Azərbaycan Prezidenti İlham Əliyev, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov və Türkiyə Prezidenti Abdullah Gül.**

*(29 noyabr 2008, Bakı)*

Türkmənistan karbohidrogen yanacağa kifayət qədər malik olan ölkələrdəndir. 2008-ci ilin noyabrın sonunda Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin Bakıda keçirilmiş üçtərəfli görüşündə Transkaspi qaz kəmərinin çəkilməsinin sürətləndirilməsi haqqında razılıq əldə edilmişdir.

## §12. QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ KURBANBEK BAKIYEV

Kurbanbek Bakiyev 1949-cu ilin 1 avqustunda Cəlilabad vilayətinin Suzan rayonunun Masadan kəndində anadan olmuşdur.

2000-ci ilin dekabrından Qırğızıstan hökumətinin Baş Naziri təyin olunmuşdur. Sonrakı 2003-2005-ci illərdə o, Parlamentin aşağı palatasının deputatı olmuş, 2004-cü ildən başlayaraq Qırğızıstan xalq hərəkatına başçılıq etmişdir.

Kurbanbek Bakiyev 2005-ci ilin 10 iyunundan Qırğızıstan Respublikasının prezidenti seçilmişdir.

Mərkəzi Asiyanın digər respublikaları kimi Qırğızıstan da çoxmillətli dövlətdir və burada Milli münasibətlərin tənzim edilməsinə xüsusi diqqət yetirilir.

## §13. ŞİMALİ KİPR (KİPRİS) TÜRK CUMHÜRİYYƏTİ PREZİDENTİ RAUF DENKTAŞ

Şimali Kiprdə türklər toplu olaraq XVI əsrdən bəri yaşayırlar. Lakin adanın əhalisi içərisində yunanlar çoxluq təşkil edirdi. 1963-74-cü illərdə Kiprin şimalında yaşayan türklərə qarşı yunanlar tərəfindən soyqırımı keçirildi. On minlərlə türk adanı tərk etməyə məcbur oldu.

1975-ci ilin 13 fevralında Kiprdə yunanlardan və türklərdən ibarət federal dövlət yaradıldı. Sonrakı hadisələr göstərdi ki, əhalinin çoxluğunu təşkil edən yunanlar burada unitar yunan dövləti yaratmağı planlaşdırırlar.

1974-cü ildə Yunanıstan dövləti hərbi qüvvə ilə Kiprin bütün ərazilərində öz ağalığını yaratdı. 1975-ci ildə Kipris türkləri içərisində müqavimət hərəkatı yarandı.



1974-cü ilin əvvəlinlə Türkiyə dövlətinin qoşun hissələri adanın türklər yaşayan şimal hissəsini yunanlardan azad etdilər.

1983-cü ilin 15 noyabrında Kibris türk xalqı öz müstəqil dövlətini –Kibris Türk Cümhuriyyətini elan etdi.

Kibris Türk Cümhuriyyətinin ərazisi 3335 kvadrat kilometr, əhalisi isə 265 min nəfərdir. Ölkənin paytaxtı Lefkoşa şəhəridir. Ölkənin konstitusiyası (Ana Yaşa) 1985-ci ildə qəbul olunmuşdur).

Cümhuriyyətin ilk prezidenti Rauf Denktaş olmuşdur. 2005-ci ildən ölkə prezidenti Mehmet Ali Talat seçilmişdir. Prezident 5 il müddətinə seçilir.

Kibris türkləri təhsil sistemində 1940-cı ildə latın əlifbasını qəbul etmişlər. Hazırda geniş miqyasda olan ibtidai və orta məktəblərlə yanaşı ölkədə 8 özəl universitet və bir polis məktəbi vardır.

Ölkənin özəl iqlim şəraiti burada müalicəvi turizmi geniş inkişaf etdirməyə imkan verir, Kipris türkləri Türkiyə dövlətinin hərtərəfli yardımına arxalanaraq, öz müstəqilliyini möhkəmləndirirlər.

Kibris Türk Cümhuriyyəti özünün beynəlxalq əlaqələrini genişləndirməkdə davam edir.

Şimali Kipr cumhüriyyəti Prezidenti Rauf Denktaş 1924-cü ilin 27 yanvarında Kipris (Kipr) adasında həkim Mehmet Rauf Əfəndinin ailəsində dünyaya göz açmışdır. İbtidai Təhsilini İstanbulda davam etdirmiş, ali hüquq təhsilini İngiltərədə Linkoln İnn institutunda almışdır. İngilis və yunan dillərini də sərbəst bilir.

Rauf Denktaş Kipr adasının türk icmasının Milli-azadlıq hərəkatına 1958-ci ildə qoşulmuşdur. 1960-cı ildə adada türk və yunan ortaq cümhuriyyəti yaradılmışdı.

Yunanıstan 1963-cü ildə başladığı hərbi əməliyyat bütün Kipri zəbt etmək məqsədini güdürdü və bunun qarşısını almaq üçün Türkiyənin silahlı qüvvələri 1974-cü ilin iyulunda adanın türklər yaşayan ərazilərində yerləşdirdi.

Rauf Denktaş 1975-ci ilin 13 fevralında Şimali Kipr Türk Cümhuriyyətinin yaradılması haqqında bəyanat verdi və uğurla başlanan hərəkatın lideri oldu.

1983-cü ilin 15 noyabrında Şimali Kipr (Kibris) Türk Cümhuriyyəti elan olundu və buradakı türk icmalarının lideri Rauf Denktaş dövlətin başçısı seçildi. O, sonrakı seçkilərdə (1990, 1995, 2000 illərdə) Şimali Kiprin prezidenti vəzifəsinə təkrarən seçilmişdir.

Şimali Kipr Türk Cümhuriyyəti dünya birliyi tərəfindən tanınmasa da, o, ayrı-ayrı dövlətlərin parlamentləri ilə əməkdaşlıq edir.

Kiçik ölkənin güclü iqtisadiyyatı və xüsusilə xarici turistlərin səyahəti üçün əlverişli mövqeyi onun iqtisadi vəziyyətinin sabitliyi üçün təminatdır.

## §14. ŞİMALİ KİPR (KİPRİS) CÜMHURİYYƏTİ İKİNCİ PREZİDENTİ MEHMET ALİ TALAT

Mehmet Ali Talat 1952-ci ilin 6 iyununda adanın Kireniya şəhərində anadan olmuşdur.

2004-2005-ci ildə ölkənin Baş Naziri vəzifəsində işləmiş və Cümhuriyyətçi Türk partiyasının sol qanadının lideri olmuşdur.



**Azərbaycan Prezidenti İlham Əliyev Şimali Kipr türklərinin lideri, cümhuriyyət başqanı Mehmet Əli Taləb ilə görüşmüşdür.**



2005-ci ilin 17 aprelində Cümhuriyyətçi prezidenti seçilmişdir.

Şimali Kipr Türk Cümhuriyyəti dünya birliyi tərəfindən hələlik tanınmasa da, o, ayrı-ayrı dövlətlərin parlamentləri ilə əməkdaşlıq edir.

Azərbaycan Respublikası Şimali Kipr Türk Cümhuriyyəti ilə iqtisadi və mədəni əlaqələrinin genişlənməsinə qayğı göstərir.

## §15. TATARISTAN MUXTAR RESPUBLİKASININ (RUSİYA TƏRKİBİNDƏ) PREZİDENTİ MİNTEMER ŞAYMİYEV

Mintemer Şərip oğlu Şaymiyev 1937-ci ilin yanvarında Tatarıstanın indiki Aktanış rayonunda kəndli ailəsində dünyaya göz açmışdır. Qazan Kənd Təsərrüfat İnstitutunu (1954-1959) bitirdikdən sonra rayon təmir-texniki stansiyasında mühəndis və baş mühəndis vəzifələrində işləmişdir. Sonrakı illərdə M.Şaymiyev təsərrüfat, sovet və partiya aparatlarında uğurla işləmiş, Meliorasiya və Su təsərrüfatı naziri təyin edilmişdir. M.Şaymiyev sonralar Tatarıstan Muxtar Respublikasının Nazirlər Sovetində sədr müavini və sədri, Muxtar Respublika Partiya Komitəmində 1 katib vəzifələrində uğurla işləmişdir. Bütün bu vəzifələrdə işlədiyi dövrdə o, Muxtar Respublikanın «muxtariyyət»inin yalnız kağızda olduğunu açıq-aydın görürdü. Çünki bütün tədbirlərin həyata keçirilməsi üçün lazımi vəsaiti yalnız Moskvanın icazəsi ilə çox çətinliklə almaq mümkün olurdu.

1990-cı ilin 30 avqustunda Tatarıstan Ali Soveti (sədr M.Şaymiyev idi) Tatarıstanın dövlət suverenliyi haqqında «Bəyannamə» qəbul etdi. Bu, SSRİ dağılmazdan əvvəl idi.

M.Şaymiyev Tatarıstan Respublikası prezidenti seçildiyi vaxt (1991-ci ilin sonu) eyni zamanda Rusiya Federasiyası prezidenti seçkiləri də keçirildi. Bu ikinci seçkidə Tatarıstanda könüllü olaraq seçicilərin yalnız 35% -i iştirak etmişdi. Bu isə Tatarıstanın suverenliyinin möhkəmləndirilməsinin başlanğıcı idi.

1993-cü ilin aprelində Moskvada nəşr edilən «Nezavisimaya» qəzetinin «Rusiyanın 100 aparıcı siyasətçisi» mövzu-

sunda apardığı sosioloji sorğunun yekununda M.Şaymiyev 34-cü yerdə idi, həmin ilin sentyabrında isə onun reytinqi 2-ci yerə qalxdı.

Tatarıstan Respublikasında iki dövlət dili (tatar və rus dilləri) qəbul edilmişdir (tatarlar respublikada əhalinin-48%-ni, ruslar-43% təşkil edirlər).

1991-ci ilin avqustunda Tatarıstanda dövlət çevrilişi cəhdi (prezident Şaymiyevə qarşı) ləğv edildi. Həmin günlərdə M.Şaymiyevi «Moskva agenti» və ya millətçi, «islam təməlçisi» adlandıranlar da var idi.

Rusiya Federasiyası ilə qarşılıqlı münasibətlərin məzmununu nəzərdə tutaraq prezident M.Şaymiyev deyir: «Biz yalnız bir şeyi tələb edirik: Özümüzün sərvətləri özümüzün sərəncamımızda olmalıdır. Bununla belə Rusiya ilə mədəni və dost münasibətlər yaradılmışdır. Biz Rusiyadan asılı vəziyyətdə olmaq istəmirik»[1].

1992-ci ilin iyununda Qazan şəhərində tatarların ümumdünya konqresi keçirilmişdir. Konqresdə etdiyi məruzədə prezident M.Şaymiyev tatar millətinin tarixinin mürəkkəb və faciəli olduğunu qeyd edərək, «biz bu yaraların üstünə düz səpmək istəmirik» demişdi. O, eyni zamanda qeyd etdi ki, böyük qəhrəmanlıqlar tarixinə malik olan tatarlarda dövlət müstəqilliyi ideyası heç bir zaman ölməmişdir. Həmin konqresdə dünyanın 40 ölkəsindən nümayəndələr iştirak etmişdir.

Mintimer Şaymiyev haqqında Moskvada və Qazanda «Şaymiyev fenomeni» adlı şöhrət də mövcuddur. Böyük təcrübəyə və real vəziyyətə arxalanan prezident M.Şaymiyev Tatarıstanın Rusiya Federasiyası ilə 1994-cü il «Müqavilə»si əsasında suveren dövlət kimi yaşaması yolunda fəaliyyət göstərir və bu fəaliyyətində uğurlar qazanmaqdadır.

---

[1] Mustafin R.A., Qasanov A.X., Mintimer Şaymiev – Pervıy Prezident Tatarstana. Kazan, 1995, s.95.



## VII Fəsil.
## TÜRK DÜNYASININ GÖRKƏMLİ HƏRBİ SƏRKƏRDƏLƏRİ

### §1-2. ƏNVƏR PAŞA (1881-1922) və NURU PAŞA (1889-1949)

Qafqaz və Orta (Mərkəzi) Asiyanın türkdilli xalqlarının milli azadlıq hərəkatlarina öz iştirakları ilə kömək etmiş bu iki Türkiyə generalı İstanbulda Hacı Əhməd Əfəndinin ailəsində dünyaya göz açmışlar Ənvər Əhməd Paşa oğlu Türkiyədə 1908-ci ildə başlanmış gənc türkçülər hərəkatında iştirak etmişdi, qardaşı Nuru Paşa isə 1918-ci ildə polkovnik rütbəsində hərbi xidmətdə idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci ilin 4 iyununda Batum şəhərində Azərbaycan və Türkiyə dövlətləri arasında dostluq və qardaşlıq yardımı haqqında müqavilə imzalamışdı və həmin müqavilənin 4-cü maddəsində qarşılıqlı hərbi yardım da nəzərdə tutulurdu.

Türkiyə dövlətinin hərbi naziri Ənvər Paşa 1918-ci ilin 28 mayında öz müstəqilliyini elan etmiş Azərbaycanın paytaxtı Bakını daşnak-bolşevik qüvvələrindən azad etmək üçün Qafqaz İslam ordusu yaratmaq qərarına gələrək, qardaşı general Nuru Paşanı həmin ordunun komandanı təyin etmişdi.

Qafqaz İslam ordusu 1918-ci ilin 17 iyulunda Bakıya doğru yürüşə başladı. Bu ordu ilə yanaşı Bakının daşnak-bolşevik hərbi qüvvələrindən azad edilməsinə kömək etmək üçün Türkiyənin 5-ci Qafqaz diviziyası da (komandiri Mürsəl Paşa idi) Azərbaycana göndərildi.

Gəncədən Bakıya doğru hərəkət edən bu ordu hissələri, Göyçay ətrafında Bakı kommunasının rəhbəri S.Şaumyanın göndərdiyi hərbi dəstələri darmadağın edərək sentyabrın 13-də Bakının yaxınlığına çatdılar. Sentyabrın 13-15 arası keçirilmiş ağır döyüşlərin nəticəsində Bakı düşmən qüvvələrindən azad edildi və Azərbaycan milli hökuməti Gəncədən Bakıya köçdü.

Bakının düşmən qüvvələrindən azad edilməsində Azərbaycanın milli hərbi hissələri də geniş miqyasda rəşadətlə iştirak etmiş və böyük itkilər vermişdi.

Mudros sülh müqaviləsinə (oktyabr 1918) əsasən Türkiyə ordu hissələri Azərbaycandan geri çəkildikdə Nuru Paşa bir müddət Azərbaycanda qalaraq, milli ordunun yaradılmasına kömək etmişdir.

Sovet Rusiyasının XI ordusu Azərbaycanı zəbt etdiyi (1920-ci ilin aprelin sonu) günlərdə Nuru Paşa bir qrupp türk zabiti ilə Dağıstandan keçərək Şuşaya gəlmiş və Qarabağ zonasında (o cümlədən Gəncədə) rus-daşnak hərbi qüvvələrinə qarşı xalqın müqavimət hərəkatında iştirak etmişdir. Müqavimət hərəkatında iştirak etmiş azərbaycanlı əsgərlər Türkiyə ərazisinə keçə bilmişdilər.

Göründüyü kimi Nuru Paşa qorxu bilməz, cəngavər hərbi sərkərdə olmuşdur. Buna görə də həmin illərdə bəzi mənbələrdə onun adının əvvəlinə "Şərqin Napaleonu" titulu əlavə edilirdi.

Ənvər Paşa 1920-ci ilin sentyabrında Bakıda keçirilmiş Şərq xalqlarının I qurultayında iştirak etmişdir. 1921-ci ilin yazında Ənvər Paşa Orta Asiya Respublikaları ərazisində Sovet rejiminə qarşı başlanmış xalq hərəkatında (Sovet ədəbiyyatında «Basmaçı hərəkatı» adlanırdı) iştirak etmiş və keçmiş Buxara əmirliyi ərazisində gedən ağır döyüşlərin birində, 1922-ci ilin 4 iyulunda həlak olmuşdur.

General leytenant Nuru Paşa 1923-cü ilin sentyabrında Türkiyədə təqaüdə çıxmış və bir hərbi zavodun sahibkarı olmuşdur. O, 1949-cu ildə sahibkarı olduğu hərbi zavodda partlayış zamanı həlak olmuşdur.

Bakıda, M.F.Axundov adına mərkəzi kitabxananın «Azərbaycan kitabı» şöbəsində Seyidağa Axundzadə tərəfindən 1919-cu ildə yazılmış «1918-ci ilin mart hadisəsi və yaxud Nuru Paşa ordusu tərəfindən Bakının işğalı» adlı 3 hissədən ibarət yazının I hissəsi (16 səhifə) saxlanılır.



## §3. KAZIM QARABƏKİR PAŞA (1882-1946)

Kazım Məmməd Əmin Paşa oğlu İstanbulda dünyaya göz açmışdır. Orta təhsilini əsgəri məktəbdə tamamlamış və 1902-ci ildə hərbi akademiyaya daxil olmuşdu və təhsilini qurtardıqda yüzbaşı rütbəsində xidmətə başladı, rum və bolqar hərbi hissələrilə döyüşlərdə uğurlar qazandı və Ədirnədə Erkani hərbiyəsində daha yüksək vəzifəyə göndərildi, 1912-ci ildə Ədirnədə minbaşı rütbəsində rəis vəkili təyin edildi. 1914-cü ildən başlayaraq I dünya müharibəsi döyüşlərinə qatıldı və 1918-ci ildə Ərzincandakı Birinci Qafqaz artilleriya ordusunda komandan təyin edildi. Ərzincan və Ərzurum torpaqlarında erməni hərbi hissələrin qətliyan və talanlarına qarşı uğurlu əməliyyatlar həyata keçirdi. Ona general-mayor rütbəsi verildi.

I dünya müharibəsinin sonlarında Ərzurumda 15-ci artilleriya komandalığına rəis təyin edildi və Mustafa Kamal Paşanın silahdaşlarından biri olaraq hörmət qazandı.

Qarabəkir paşa Sarıqamış və Qarsda erməni hərbi hissələrini darmadağın edərək "Qumru müqaviləsi"nə əsasən Ardahan, Artivin və Qars ərazilərininTürkiyə mənsub olduğunu rəsmi olaraq təmin etdi. 1918-ci ildə o, general-polkovnik rütbəsində idi və 1919-cu ildə Ərzurumda yerləşən 5-ci türk ordusunun komandiri oldu və 1920-ci ildə Türkiyənin Şimali-şərq vilayətini erməni işğallından azad edərək Naxçıvanın təhlükəsizliyini təmin etdi.

Qarabəkir paşa 1921-ci ilin 13 okyabrında Türkiyə, Rusiya, Ukrayna, Azərbaycan, Gürcüstan və Ermənistan arasında bağlanmış müqaviləyə Türkiyə dövləti tərəfindən imza etmişdir. Beləliklə, Türkiyənin SSRİ-nin Qafqaz Respublikaları ilə sərhəddi məsələsi üzrə münaqişələrə son qoyuldu. Qarabəkir paşa Türkiyə Millət Məclisinə Ədirnədən (1920-ci ildə) İstanbuldan (1923) millət vəkili seçilmişdir. O, 1924-38-ci illərdə partiya işində fəaliyyət ilə məşğul olduqdan sonra 1938-ci ildə siyasi fəaliyyətə qayıtmış və İsmət paşanın təklifini qəbul edərək Millət vəkili seçilməsinə razılıq vermiş və 1946-cı ildə Milli Məclisdə rəhbər vəzifəyə dəvət edilmişdi.

General Kazım Qarabəkir paşanın hərbi xidmətləri general-polkovnik rütbəsinə bərabərdir.

Azərbaycan xalqı, o cümlədən Naxçıvanda yaşayan azəri-türkləri arasında Qarabəkir paşanın 1918-1921-ci illərdə erməni işğalı və talanlarına qarşı aparılmış hərbi döyüşlərdə onun qardaşlıq köməyi haqqında xatirələr nəsildən-nəslə keçməkdə davam edir.

## §4. GENERAL-POLKOVNİK SƏMƏD AĞA MEHMANDAROV (1857-1931)

Lənkəranda dünyaya göz açmış və Bakıda gimnaziyada təhsil almış Səməd Sadiq-bəy oğlu Mehmandarov Peterburqda artilleriya məktəbini bitirmişdir.

S.Mehmandarov 1904-cü ildə Rusiya-Yaponiya müharibəsində iştirak etmişdir. 1908-ci ildə ona tam artilleriya genaralı rütbəsi verilmişdir, bu da genarl-polkovnik rütbəsinə bərabərdir.

1914-cü ilin 2 noyabrında Rusiya Türkiyəyə qarşı müharibə elan etdiyi zaman azərbaycanlı general Səməd-bəy Mehmandarov Rusiyanın 21-ci piyada diviziyasının komandiri idi və həmin diviziya Qərb cəbhəsində Lodz şəhəri istiqamətində Almaniya generalı Makenzonun ordusuna qarşı uğurlu döyüşlər aparırdı.

1915-ci ildə general Mehmandarov korpus komandiri təyin edildi.

Rusiyada 1917-ci ilin fevral burjua-demokratik inqilabından sonra general S.Mehmandarov hərbi xidmətdən sonra istefaya çıxaraq Azərbaycana qayıtmışdır.

Həmin dövrdə Azərbaycan müstəqilliyini elan etmişdi və Xalq Cümhuriyyəti hökuməti yaradılmışdı. General Mehmandarov Azərbaycan Xalq Cümhuriyyəti hökümətində hərbi nazir vəzifəsinə təyin edildi və ölkədə 30 minlik ordu yaradılması işinə uğurla başlandı.

1920-ci ilin aprelinin sonunda Azərbaycan dövlətinin ərazisi Sovet Rusiyasının XI ordusu tərəfindən işğal edildikdən sonra S.Mehmandarov Azərbaycan Sovet dövlətinin başçısı Nəriman Nərimanovun zəmanəti və məsləhəti ilə Azərbaycanda yaradılan hərbi komandirlər məktəbində 1921-1928-ci illərdə müəllimlik etmişdir. General S.Mehmandarov 1928-ci ildə sərhətinə görə hərbi xidmətdən tərxis edilmişdir.



## §5. GENERAL LEYTENANT ƏLİAĞA ŞIXLİNSKİ (1865 – 1943)

Azərbaycanın Qazax mahalında dünyaya göz açmış Əliağa İsmayıl oğlu Peterburq artilleriya məktəbini bitirdikdən (1886) sonra Rusiya-Yaponiya müharibəsində (1904) iştirak etmiş və Port Arturun müdafiəsində igidlik göstərdiyinə görə qızıl qılıncla mükafatlandırılmışdı. Ona 1912-ci ildə general-mayor rütbəsi verilmişdir.

General Ə.Şixlinski hərb elmində artilleriyada "Şixlinski üçbucağı" adı ilə məşhur olan ixtiranın müəllifidir.

Port-Arturun müdafiəsində general S.Mehmandarov və general Ə.Şixlinskidən başqa azərbaycanlı generaldan Hüseyn xan Naxçıvanski, Mirzə Qacar, yüksək rütbəli zabitlərdən Əsəd bəy Talışxanov, Feyzulla Mirzə Qacar, Əliqulu Mirzə Qacar, İlyas bəy Ağalarov, Gəray bəy Vəkilov və digərləri fəal iştirak etmişlər.

Birinci dünya müharibəsinin əvvəlində Petroqradın artilleriya müdafiəsi Ə.Şixlinskiyə tapşırmışdı. 1915-16-cı illərdə o, Qərb cəbhəsi artilleriya qoşunları rəisi, 1917-ci ildə isə Rusiyanın X ordusunun kamandanı olmuşdur.

1920-ci ildə Rusiyanın XI ordusu tərəfindən Azərbaycan əraziləri işğal edildikdən sonra general-leytenant Ə.Şixlinski də general S.Mehmandarov kimi Azərbaycana – vətənə qayıtmış və Xalq Cümhuriyyəti hökümətində Müdafiə Nazirliyində genaral Mehmandarovun müavini olmuşdur. O, 1924-28-ci illərdə Azərbaycan hərbi məktəblərin birində rəis müavini işləmiş və "Rusca-Azərbaycanca qısa hərbi lüğət" kitabını tərtib etmişdir.

1929-cu ildə hərbi xidmətdən istefaya çıxmışı və hərbi-pubblisist əsərlər yazmaqla məşğul olmuşdur. Onun yazdığı "Xatirələrim" adlı kitab 1944-cü ildə akademik Heydər

Hüseynov tərəfindən nəşr edilmişdir. General haqqında Azərbaycanda iki kitab yazılmış və nəşr edilmişdir.

Xalq yazıçısı Qulman Musayevin (Qulman İlkin) "General" povesti Ə.Şixlinskiyə həsr edilmişdir.

## §6. GENERAL-MAYOR, İKİ DƏFƏ SOVET İTTİFAQI QƏHRƏMANI HƏZİ ASLANOV (1910-1945)

Kapitan Həzi Aslanov Sovet-Finlandiya müharibəsində iştirak etmişdir.

Faşist Almaniyasına qarşı aparılmış döyüşlərə Həzi Aslanov 1941-ci ildə Moskvanın müdafiəsindən başlamışdır və ona podpolkovnik rütbəsi verilmişdir.

1942-ci ildə Stalinqradın müdafiəsində fəal iştirak edən 55-ci tank alayı komandiri Həzi Aslanova həmin ilin dekabrında Sovet İttifaqi Qəhrəmanı fəxri adı verilmişdi.

Həzi Aslanov tank vuruşlarında «cinahlardan zərbə vurmaq taktikası»nın mahir ustası kimi şöhrət qazanmış və 1944-cü ildə General-mayor hərbi rütbəsinə layiq görülmüşdür.

General Həzi Aslanov ikinci dəfə Sovet İttifaqı qəhrəmanı adına 1944-cü ildə layiq görülmüş və bu təltifat 1991-ci ildə onun ailəsinə çatdırılmışdır.

General Həzi Aslanov 1945-ci ilin 24 yanvarında döyüşdə həlak olmuş və Bakıda Dağüstü parkda dəfn edilmişdir. Həmin parkda onun şərəfinə büst qoyulmuşdur və Faşizm üzərində qələbə günü olan 9 mayda hər il onun büstü qarşısında müharibə veteranlarının Azərbaycan Prezidenti ilə görüşü və rəsmi keçid mərasimi keçirilir.

Görkəmli hərbi xadimi 11 döyüş ordeni və bir sıra döyüş metalları ilə təltif edilmişdir.

2010-cu ilin yanvarında görkəmli hərbi sərkərdə, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun anadan olmasının 100 illik yubileyi keçiriləcəkdir.



# VIII Fəsil.

# TÜRK DİLLİ XALQLARA QARŞI XX ƏSRDƏ ƏDAVƏTLƏR VƏ SOYQIRIMLAR

Türklərin böyük əksəriyyətinin yaşadıqları məkanlar çar Rusiyası və XX əsrdə onun varisi olmuş Sovet İttifaqının nəzarətinə keçmişdir. Hər iki dövlət aparatının ideoloji idarəetmə prinsipi məxfi "Parçala və hökm sür!" planına əsaslanırdı. Hər iki imperiyanın – çar Rusiyası və SSRİ-nin ərazisində türklər yaşayırdı və əhalisinin böyük hissəsini türklər təşkil etmişlər.

## §1. Azərbaycan və Türkiyə ərazilərində türklərə qarşı soyqırımlar

Qafqazda yaşayan xalqların mentalitetinə və dininə heç bir yaxınlığı və oxşarlığı olmayan Qafqaza köçürülən ermənilərin mənşəyi haqqında dəqiq elmi məlumatlar yoxdur. Ermənilər Qafqazın köklü əhalisi deyildirlər. Almaniyada və Türkiyədə aparılmış tədqiqatlar əsasında bu nəticəyə gəlmişlər ki, ermənilərin əcdadları Qafqaza Afrikadan, Fərat və Dəclə çaylarının vadilərindən Van gölü ətrafına gəlmiş, sonra isə Qafqazda məskunlaşmışlar. Moldaviyanın Yassa kilsəsindəki bir sənəddə göstərilir ki, «ermənilər 1321-ci ildə axışıb Moldaviyaya gəlməyə başlayıblar». Erməni alimi Manuk Abekyan yazır ki, «erməni xalqının əsli nədir, necə və nə vaxt, haradan və hansı yollarda buraya gəlməsi haqqında bizim əlimizdə aydın və dəqiq dəlillər yoxdur[1]».

Rusiya imperatoru Birinci Pyotr (1672-1725) Konstantinopolu (İstanbulu) zəbt edə bilmədiyi üçün bu vəzifəni yerinə yetirməyi Rusiyanın sonrakı çarlarına vəsiyyət etmişdi.

Beləliklə, ermənilərin Qafqazda «Böyük Ermənistan» dövləti yaratmaq planı ilə rusların İstanbulu zəbt etmək planı üst-üstə düşdü. Bu isə o deməkdir ki, Rusiya imperatoru I Pyotrun Xəzərsahili vilayətlərə 1722-23-cü illərdə yürüşləri, Dərbənd və Bakını zəbt etməsindən sonrakı təxminən 300 illik dövr Azərbaycan-türk xalqına və Anadolu türklərinə qarşı

[1] История армянской литературы. Ереван, 1975, с.11.

ermənilərin başladığı soyqırımı siyasətinin başlanğıcı olmuşdur[1].

Ermənilər Türkiyə ərazilərində də məskunlaşmışdılar. və 1894-cü ildə Sasunda, 1896-cı ildə Vanda türklərə qarşı qırğınlar təşkil etmişlər.

Azərbaycanın Rusiya ilə İran arasında bölünməsindən (1813-1828-ci illər) sonra Rusiya çarizmi Türkiyəyə qarşı Qafqazda əsas istinad qüvvəsi kimi erməniləri Şimali Azərbaycanda toplamağa başladı. I dünya müharibəsi illərində Türkiyə Rusiyanın da daxil olduğu Antanta İttifaqına qarşı vuruşan və məğlub olan Almaniyanın başçılıq etdiyi ittifaqa daxil olduğu üçün, ermənilər bu ittifaqda Türkiyə dövlətinin məğlub olmasında maraqlı idilər və Qafqaz cəbhəsindəki döyüşlərdə erməni könüllüləri həmişə rus ordusuna kömək edirdilər. Bunun nəticəsində 1914-cü ildə Türkiyənin Trabzon, Ərzrum, Ərzinçan, Van və Bitlis əyalətlərindən yüzminlərlə türk əhalisi qovuldu və qaçqına çevrildi. Birinci dünya müharibəsi illərində erməni hərbi dəstələri Anadoluda 1,5 milyondan çox türkü məhv etmişlər.

Rusiya Sovet hökümətinin ilk diplomatik sənədlərində «Türkiyə Ermənistanı» adı tez-tez çəkilirdi və bu istiqamətdə iddialar da təkrar olunurdu.

Böyük öndər Atatürkün komandanlığı altında əldə edilmiş hərbi qələbələrdən və Türkiyənin 1923-cü ildə Respublika elan edilməsindən sonra Rusiya (eləcə də ermənilər) Türkiyəyə qarşı ərazi iddialarının nəticəsiz olacağını bilərək, bu tələbi nisbətən zəif olan Azərbaycan hesabına ödəmək üçün işə başladılar. Belə ki, 1920-ci ilin noyabrında Rusiyanın XI ordusu Ermənistan adlandırılmış əraziyə daxil olaraq, oranı sovetləşdirdikdə, Azərbaycanın Zəngəzur[2] və Göycə mahalları həmin Ermənistana birləşdirildi və Ermaemstan Respublikası yaradıldı. 1920-ci ilin noyabrında Ermənistanın ərazisi 11 min kv.km idi. 70 ildən sonra, 1991-ci ilin sonunda Ermənistanın ərazisi 29,8 min kv.km. təşkil etmişdir, yəni üç

---

[1] Bu haqda daha geniş bax: İsrafil İsmayılov. Azərbaycan xalqının siyasi mədəniyyəti. B, 2002, s.159-171, Azərbaycan vətənpərvərliyi XX əsrdə (uğurlar və problemlər), B, 2003, s.101-113.

[2] Zəngəzur indiki Sisyan, Meqri və Qafan rayonlarının ərazilərini birləşdirirdi.



dəfəyə yaxın genişləndirilmişdir. Bu genişlənmə əsasən Azərbaycan xalqının qədim əraziləri hesabına edilmişdir.

Ermənistanın sovetləşdirildiyi 1920-ci ilin noyabrında Rusiyanın XI ordusunun orada olmasından istifadə edərək, ermənilərə «bəxş» edilən Zəngəzur və Göycə mahallarından əlavə, 1938-ci, 1955-ci, 1969-cu illərdə ayrı-ayrı qeyri qanuni protokollar əsasında Azərbaycanın digər əraziləri də Ermənistana birləşdirilmişdir. Halbu ki, digər xalqa verilən ərazilər Azərbvycanda rəy sorğusu əsasında edilməli idi.

Azərbaycanın indiki yaşlı nəslinin yadındadır: onların valideynləri söyləyirdilər ki, 1918-20-ci illərdə Azərbaycanın əksəriyyət rayonlarında, xüsusilə Ermənistana və Dağlıq Qarabağa sərhəd rayonlarda ermənilər dəhşət doğuran vəhşiliklərlə azərbaycanlıları öz doğma kəndlərində qətlə yetirmişdilər: qadın və kişilərin çılpaq bellərinə qaynayan samovarlar bağlamışlar, körpə uşaqları süngüyə taxaraq xəndəklərə atmışlar. Ermənilər götürdükləri əsirlərin başlarını kəsməkdən həzz alır, türklərin qanlı bədənlərindən çəpər düzəldirdilər və s.

Azərbaycanda bütün bu vəhşiliklər haqqında danışmaq Sovet hakimiyyəti illərində qadağan edildi, xalqın düşüncəsindən silindirildi; erməni-daşnaqlar isə öz dığalarını «türklər bizim tarixi və əbədi düşmənimizdir» ruhunda tərbiyə etməkdə davam etdilər.

Bütün bu və bunlara oxşar daşnak tədbirlər Sovet Rusiyanın bilavasitə siyasi və diplomatik köməyi ilə həyata keçirilmişdir.

İndiki Ermənistanın ərazisinin böyük bir hissəsi Azərbaycan türklərinin qədim vətəni olmuşdur. Son 200 il ərzində (1801-ci ildən başlayaraq) Ermənistan adlanan ərazidə 2 minə yaxın azərbaycanlı yaşayış məskanı zorla boşaltdırılmış, onların qədim adları əvəzinə erməniləşdirilmiş adlar verilmişdir.

Türkmənçay müqaviləsindən (1828) sonrakı dövrdə İran və Türkiyədən Azərbaycana köçürülən bir milyon ermənini yerləşdirmək üçün Azərbaycanın Zəngəzur mahalı və keçmiş İrəvan xanlığı ərazilərində yaşayan azərbaycanlılar öz doğma yurdlarından qovuldular və bu ərazilərin adları erməniləşdirildi. Bundan əlavə Azərbaycanın Yelizavetpol (Gəncə) quberniyasının dağlıq zonalarında erməni icmaları yerləşdi-

rildi (Şəkidə, keçmiş Vartaşen kəndində). Belə erməni icmaları hətta Azərbaycanın şimal bölgələrində də yerləşirdi.

Görkəmli publisist-yazıçı Həşim bəy Vəzirov (1868-1916) 1907-ci ildə «Təzə həyat» qəzetində yazmışdı: «daşnaqsaqanlar illər uzunu Qafqazı qan dəryasına döndərdilər».

Türkiyənin Naxçıvana yaxın olan İqdır şəhəri və ətrafında 1915-1920-ci illərdə erməni-rus silahlı dəstələri 80 mindən çox türkü qətlə yetirmişlər. Qədim Azərbaycan torpaqları olan Göycədə və Basarkeçərdə də ermənilər 1918-1919-cu illərdə dəhşətli faciələr törətmişdir. Ermənistanda daşnak hakimiyyəti dövrü (1918-1920-ci illər) və Ermənistanın sovetləşməsinin ilk aylarında (XI-XII 1920) yarım milyon azərbaycanla öz tarixi torpaqlarından qovuldular və Ermənistanda cəmisi 12 min azərbaycanlı qalmışdı. Vəziyyət o qədər gərginləşmişdir ki, 1921-1922-ci illərdə Sovet Rusiyasının köməyi ilə, XI ordunun hissələrinin Azərbaycanda və Ermənistanda olduğu şəraitdə yüz minə yaxın azərbaycanlının Erəmnistana, öz ata-baba yurdlarına qayıtması üçün şərait yaratmağa məcbur oldular. Bu isə müvəqqəti, aldadıcı tədbir idi.

Sovet siyası sisteminin sonrakı illərində azərbaycanlıların Ermənistandan çıxarılması davam etdi: 1948-ci ildə ermənilərin xarici ölkələrdən Ermənistana qayıtmaq istəməsi bəhanəsi ilə Ermənistanda yaşayan azərbaycanlıların böyük bir hissəsi öz ata-baba yurdularından Azərbaycanın düzən rayonlarına köçürüldülər. Həmişə dağətəyi ərazilərdə yaşayan bu azərbaycanlılar isti iqlim şəraitində yaşaya bilmədikləri üçün böyük itkilər verdilər və əziyyətlər çəkdilər. Sonrakı illərdə Azərbaycanın ayrı-ayrı sərhəd rayonlarındakı ərazilər SSRİ rəhbrliyi tərəfindən Ermənistana «bağışlandı».

Sovetlər İttifaqının son illərində ölkəyə rəhbərlik etmiş ermənipərəst Mixayıl Qorbaçovun gizli razılığı ilə 1988-ci ilin noyabrının ortalarında bir neçə gün ərzində Ermənistanda qalmış bütün azərbaycanlılar ölkədən zorla, yenə də vəhşicəsinə qovuldular[1].

Qədim Azərbaycan torpaqları olan Ermənistandan azərbaycanlıların kütləvi olaraq deportasiyasının geniş

---

[1] Vəlizadə İ., Muradov B. Ermənistan azərbaycanlılarının soyqırmı, B, 1996.



miqyası və ağır nəticələri Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin 1998-ci ildə elan etdiyi iki fərmanda geniş şərh edilmişdir. Azərbaycan Respublikası prezidentinin 1998-ci il 26 mart tarixli fərmanı ilə ermənilərin 1918-ci ilin 31 martından başlayaraq Bakıda törətdikləri üç günlük dəhşətli qırğın və sonrakı soyqırımları nəzərə alınaraq, matəm günü kimi **31 mart günü Azərbaycanlıların soyqırım günü elan edilmişdir.**

Həmin fərmanda eləcə də deyilir ki, «1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu, Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı...» Fərmanda eləcə də deyilir ki, Azərbaycan xalqının qədim torpaqları olan İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər Rusiyanın köməyi ilə Ermənistan dövləti yaratdılar. Həmin ermənilər 1905-1907-ci illərdə də azərbaycanlılara qarşı geniş miqyaslı qanlı aksiyalar həyata keçirmişdilər. 1918-ci ilin martında isə millətçi şovinist erməni Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunasının silahlı daşnak dəstələrinin əli ilə Bakıda və Azərbaycanın bir neçə rayonlarında geniş soyqırım təşkil edildi, 15 mindən çox azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Həmişə olduğu kimi, bütün bu dövrlərdə Azərbaycan xalqının zəif də olsa etiraz səsləri Ermənistan şovinistləri və xarici ölkələrdəki erməni diasporu tərəfindən həyasızcasına hücumlarla qarşılandı.

Dünya erməniləri özlərinin türklərə qarşı apardığı geniş soyqırımı ört-basdır etmək üçün Türkiyə tərəfindən guya 1915-ci ildə ermənilərə qarşı genosid (soyqırım) edilməsi haqqında geniş təbliğat kompaniyasını aparmaqla davam edirlər.

ABŞ və İngiltərənin bir sıra tədqiqatçıları (Stenford Ezzel Şoy, Casti Makkarti, Karolin Makkarti, Bernard Devis) bu nəticəyə gəlmişlər ki, 1915-ci ildə erməni soyqırımı olmamışdır. Əksinə 1915-ci ilin əvvəlində Rusiya qoşunlarının Şərqi Anadoluya hücum etdiyi dövrdə erməni dəstələri də türklərə qarşı hərbi əməliyyatlara başlayaraq birlikdə 2 milliyona qədər türkü məhv etmişlər. Bu əməliyyatlarda ermənilərdən isə 200 min nəfər həlak olmuşdur.

ABŞ prezidenti V.Vilson 1919-cu ildə Avropada Paris sülh konfransında olarkən Qafqaz hadisələri ilə tanış olduqdan sonra general Harvoda tapşırıq vermişdi ki, erməni soyqırımı məsələsini tədqiq etsin. General Harvord ABŞ senatına təqdim etdiyi sənəddə yazmışdı: «Ermənilərin iddia etdikləri soyqırımından kiçik bir iz belə yoxdur. Bunun əksinə olaraq ermənilər İrəvan və Qars bölgələrində, Güney Anadoluda türklərə qarşı soyqırımı və köçürmə siyasətini həyata keçirmişdir...» Fransa publisisti Jorj de Malevil «1915-ci il erməni faciəsi» adlı kitabında yazır ki, «Avropa üçün gələcəkdə çox ağır nəticələrə səbəb olan biləcək erməni təbliğatının özbaşınalığını dayandırmaq üçün sağlam fikirli adamların reaksiyası vacibdir».

Tarixi faktlar göstərir ki, erməni soyqırımı yox, ermənilər tərəfindən vəhşiliklərlə dəfələrlə törədilmiş türklərə qarşı soyqırımlar olmuşdur.

Erməni terrorçusu Hakop Ter-Hakopyan (Şahan Natan) 1912-ci ildə ABŞ-da nəşr olunan «Hayrenik» adlı erməni məcmuəsində çap etdiyi «Türklər və biz» adlı məqaləsində yazmışdı: «Erməninin türkdən başqa düşməni yoxdur». Bu sözlər türklər tərəfindən ermənilərə qarşı güya 1915-ci ildə edilmiş soyqırımdan üç il əvvəl yazılmışdır. Belə təbliğatın nəticəsində sonrakı illərdə də, xüsusən 1918-1921-ci illərdə Azərbaycanda və Türkiyədə erməni-daşnak hərbi dəstələri dəfələrlə kütləvi qırğınlar törətmişlər.

1918-1919-cu illərdə Qarsda yerləşmiş rus ordusu alayının zabiti olmuş Ovanes Apresyan etiraf etmişdir ki, «biz ermənilər bacardağımız qədər türkləri qırdıq. Ancaq bu elə bir sonsuz kin və intiqam zənciridir ki, get-gedə daha dərin şəkildə insanın varlığına hakim kəsilir»[1].

Türklərə qarşı erməni soyqırımının tərkib hissəsini geniş terror əməliyyatları təşkil edir. Azərbaycan Xalq Cümhuriyyəti Rusiyanın XI ordusu tərəfindən işğal edildikdən (1920) sonra onun dövlət başçılarına, general və zabitlərinə qarşı erməni terroru geniş dairədə həyata keçirildi. Arxiv sənədləri təsdiq edir ki, Azərbaycan türklərinə qarşı bu kütləvi terrorun icraçılarının əksəriyyəti ermənilər olmuşdur.

---

[1] Bax» «Xalq qəzeti», 29 aprel 1997.



1920-ci ilin aprelində XI ordu Bakıya daxil olduğu gün Anastas Mikoyanın göstərişilə şəhərdə «qarət həftəsi» başlandı. Varlı müsəlman-türklər həbs edildi, evləri talan edildi. Azərbaycanın sovetləşdirilməsinin ilk günlərində Milli ordumuzun general və zabitlərinə qarşı terror başlandı. İyulun 16-da daşnaklar Bakının yaxınlığındakı Nargin adasında 12 nəfər general və çoxsaylı zabitimizi güllələdilər.

1920-ci ilin mayının əvvəlindən 1921-ci ilin avqustun sonunadək terror yolu ilə Azərbaycan milli ordusunun 12 generalı, 27 polkovnik və podpolkovniki, 460 zabiti məhv edilmişdir.

Erməni millətçilərinin türklərin əraziləri hesabına «Böyük Ermənistan» yaratmaq cəhdlərinin növbəti mərhələsini Dağlıq Qarabağı Azərbaycandan qopararaq Ermənistana birləşdirmək planı təşkil edir. Ermənilər bu sahədə əməli işə 1951-ci ildə başlamışlar. Həmin ildə Lozanna (İsveçrədə) şəhərində «Daşnaksutyun» və «Qnçaq» partiyalarının nümayəndələrinin birgə toplantısında bu vəzifə Ermənistandan xaricdə (əsasən Livan və Suriyədə) təşkil edilmiş «Asala» adlı terrorçu erməni ordu hissələrinə, Ermənistanın özündə isə gizli şəkildə yaradılmış milli hərbi dəstələrə tapşırılmışdır.

SSRİ-nin sonuncu rəhbəri millətçi Mixayıl Qorbaçov Moskvada özünə yuva salmış erməni elitasının təsiri altında düşdü. Həmin elita qərara gəldi ki, Qorbaçovun başladığı «Yenidənqurma» kompaniyası onların çoxdan hazırladığı Dağlıq Qarabağın Azərbaycandan qoparmaq məsələsini həll etmək üçün ən yaxşı məqamdır. Mixayıl Qorbaçovun ölkənin müsəlman xalqlarına mənfi münasibətini ermənilər 1986-cı ildə Alma-Ata qırğınında açıqcasına hiss etmişdilər. (Qazaxstanın partiya rəhbəri D.Kunayevin əvəzinə rus Kolbinin göndərilməsinə qarşı Qazaxıstan paytaxtının gəncləri çıxış etdikdə və bu gənclərdən 86 nəfəri meydancada Sovet Ordusunun gücü ilə məhv edildilər.)

Bunun ardınca 1988-ci ildə Rus-erməni xəfiyyəsi Azərbaycanda fevralın 28-də Sumqayıt qırğınını törətdi[1]. Bir casus ermənin əli ilə milli nifaq törədildi, bu qırğında 32 nəfər hə-

---

[1] Bu haqda bax: Z.M.Bunyatov, «Niyə Sumqayıt?» «Elm» qəzeti, №19, 13/V-89.

lak oldu, 414 nəfər azərbaycanlı həbs edildi və Rusiyada mühakimə edilərək həbsxanalara salındı. Və, nəhayət, 1990-ci il yanvarın ortalarında Bakıda bir neçə erməninin evlərinin talan edilməsinin təşkil edilməsini bəhanə edərək, yanvarın 20-nə keçən geçən gecə şəhərdə böyük faciə törədildi.

Belə hadisənin baş verməsi adi şəraitdə mümkün deyildi. Deyilən vaxta isə Moskva rəhbərliyi, onun Bakıdakı Dövlət Təhlükəsizliyi orqanları bütün bunları sükutla sezirdi ki, Azərbaycan xalqının Dağlıq Qarabağı müdafiə əzmini qırmaq və lazım gələrsə bu xalqa divan tutmağa bəraət üçün istifadə etsinlər. Belə də edildi.

1990-cı ilin 20 yanvar faciəsi zamanı Azərbaycan xalqının 137 nəfər çəsur oğlu və qızı tankların və zirehli maşınların tırtılları altında qaldı və atılmış zəhərli güllələrdən can verdilər.

Rusiya yazıçısı Yuri Papreyev «Qarabağın qanlı kirdabı» (1994) kitabında belə yazır: «Mən, rus ədibi, Xocalı qırğınından düz bir ay öncə anlayırdım ki, 1990-cı ilin yanvarında olduğu kimi Azərbaycanda yenə də kütləvi qırğın törədiləcək, qan axıdılacaqdır. Radio, TV, bir çox qəzetlər hər gün Azərbaycan əleyhinə ehtirasları qızışdırırdılar».

SSRI dağıldıqda (1991-ci ilin sonu) respublikalar arasında silahların bölünməsində də ədalətsizliyə yol verildi. Bu məsələ üzrə Daşkənd müqaviləsinə (1992-ci il) əsasən, üç Zaqafqaziya respublikasına bərabər miqdarda silah verilməli idi. Halbuki, Azərbaycanın ərazisi, sərhədlərinin uzunluğu və əhalisinin sayı Ermənistandan və Gürcüstandan xeyli artıqdır. Rusiya tərəfindən müsəlman Türkiyəyə və Azərbaycana qarşı Ermənistanın müasir silahlarla silahlandırılması XX əsrin son 10 ilində heç də gizlədilmədən, böyük həyasızlıqla həyata keçirildi. Əlbəttə Rusiya tərəfindən Ermənistana hərbi kömək edilməsəydi ermənilər Azərbaycan torpaqlarınını 20%-ni işğal edərək, 1 milyon əhalini öz doğma yurd-yuvasından qova bilməzdilər. Xocalı soyqırımda rus ordusunun 366-cı motoatıcı alayı geniş iştirak etmişdir. Yuxarıda adı çəkilən yazıçı Yuri Pampeyev eləcə də yazır ki, «Qarabağın dörd ildən bəri dolmaqda olan qan gölməçəsini daşdıran son damla isə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinin yatmış sakinlərinə divan tutulması oldu. Xatın və Sonqmi ilə heç bir



müqayisə yerinə düşmür...», «Xocalıda təkcə ölülər qalıb» deyən «Moskovskie novosti» dünyaya qalibanə tərzdə car çəkmişdi. Deyəsən, Allah bu zülmü görmürdü!».

Təxminən 7000 nəfər əhalisi olan Xocalı şəhərində ermənilərin törətdikləri genosid nəticəsində 613 nəfər dinc sakin vəhşiliklərlə məhv edildilər, 1275 nəfər dinc sakin isə əsir götürüldü ki, bunlardan da 487 nəfər şikəst edilmişdi. Hər il 26 fevral günü Azərbaycanda «Xocalı soyqırımı günü» kimi hüznlə qeyd edilir.

Sovetlər İttifaqının dağılması əsasında Cənubi Qafqazın üç respublikası dövlət müstəqilliyinə nail olduqdan sonra, Rusiya hökuməti bu regionda öz təsirini saxlamaq üçün Ermənistanla hərbi ittifaq bağladı və Azərbaycan-türk xalqını Rusiyanın təsir dairəsinə qaytarmaq üçün başlanmış Qarabağ müharibəsində Ermənistana hərtərəfli hərbi və diplomatik köməkliyi açıqcasına davam etdirir. Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi və bu düyünün açılmamasının əsas səbəbi də bundan ibarətdir.

Göründüyü kimi, XX əsrin son on ili Azərbaycan türkləri üçün çox ağır və faciəli olmuşdur. Azərbaycan Prezidenti ümumi milli lider Heydər Əliyev bu dövrü belə şərh edir: ***«XX əsrin sonuncu onilliyi Azərbaycan tarixində xüsusi yer tutur*. Bu dövrdə Azərbaycan xalqının həyatında faciələr baş vermiş, xalqımız böyük itgilərə məruz qalmış, torpaqlarımızın bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, işğal edilən torpaqlardan soydaşlarımız zorla çıxarılmış və bir neçə ildir ki, ağır vəziyyətdə yaşayırlar».**

Ermənistanın millətçi hakim dairələri Dağlıq Qarabağı Ermənistana birləşdirmək xülyasi ilə iqtisadi cəhətdən zəif olan ölkəsinin mövcud vəsaitlərini Dağlıq Qarabağdakı ermənilərə hərbi kömək üçün istifadə edir, yerli əhali isə iqtisadi sarsıntılar üzündən ölkədən keçməkdə davam edir. Parisdə çıxan «Fiqaro» qəzeti 1999-cu ilin 6-8 dekabr tarixli sayında Ermənistan haqqında belə yazmışdır: «Ölkədən köçüb getmək halları kütləvi xarakter daşıyır. 1993-cü ildən bəri üç milyon əhalinin üçdə biri, əsasən orta təbəqənin nümayəndələri ölkəni tərk etmişlər. Bir neçə ildən sonra burada uzağı 600 min sakin qalacaqdır, bunlar da onlarca mafioz dəstənin idarəsi altında olacaqlar. Bəs ölkənin rəhbərləri xalqa nə təklif edirlər? Yox-

sulluq içində, amma erməni kimi ölməkdən savayı, ayrı heç nə».

Göründüyü kimi, Ermənistanın şovinist qüvvələri öz milləti üçün də fəlakətlər yaratmışdır.

Ermənistanın hakim dairələri beynəlxalq ictimaiyyətdən getdikcə daha çox təcrid olunurlar. Ermənilərin zəbt etdikləri Azərbaycan ərazilərində törətdikləri vəhşiliklər, bütün əhalini öz doğma torpaqlarından qəddarlıqla qovmaları, zəbt edilən ərazilərdə bütün sərvətlərin dağılması və talan edilməsi müsəlman dünyası xalqları tərəfindən lənətlənir.

1999-cu ilin 28 iyun – 2 iyul arası Burkino-Faso dövlətinin paytaxtı Uqanda şəhərində keçirilmiş İslam Konfransı təşkilatı (İKT) dövlətlərinin XXVI konfransında «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında» qətnamə qəbul edilmişdir. Qətnamədə İslam abidələrinin dağıdılması və talan edilməsi vandalizmin təzahürü kimi qəti surətdə pislənmişdir.

Erməni terrorçuluğuna qarşı beynəlxalq miqyasda «yox» deyilməli və tədbirlər götürülməlidir. Məlumdur ki, Azərbaycan ilə Ermənistan arasında 17 ildir ki, davam edən qarşıdurmanın əsasında ermənilərin Dağlıq Qarabağa Azərbaycandan ayrılmaq tələbi durur. Lakin Dağlıq Qarabağ Azərbaycan Milli Məclisinin 1991-ci ilin 25 noyabrında xüsusi qərar ilə ləğv edilmişdir. Ermənistan və Azərbaycan ərazilərində yaşayan ermənilər indi hətta Dağlıq Qarabağa geniş muxtariyyət verilməsinə də razı olmayaraq, ayrılmaq hüququ tələb edirlər.

Dünya Birliyi bilməlidir ki, erməni terrorçuluğuna və separatçılığına qarşı çox kəsgin «yox» cavabı verilməlidir.

## §2. Cənubi Azərbaycanda azəri türklərinin milli azadlıq hərəkatının boğulması (1945 – 1946-cı illər)

XX əsrdə Cənubi Azərbaycanda xalqın milli-azadlıq hərəkatına qarşı qanlı tədbirlərin ilk dalğası 1905-11-ci illərdə olmuşdur. Həmin dövrdə Rusiyanın ordu hissələrinin İranda



olmasından istifadə edən erməni-daşnak hərbi dəstələri İranda Urmiya gölü ətrafında hərbi alaylarını yerləşdirmişdilər və onlar Urmiya-Xoy ətrafında yerləşən Cənubi azərbaycanlıları kütləvi sürətdə qırdılar. Bu qanlı hadisələr «Urmiya bəlası» adı ilə xalqın yaddaşında qalmışdır[1].

Almaniya faşist ordusunun SSRİ-yə qəflətən hücum etdiyi (22/VI-1941) ərəfədə Hitler Almaniyası İranda 4 minə yaxın alman xəfiyyəsi yerləşdirmişdi. Bu təxribatın qarşısını almaq üsün antihitler İttifaqı dövlətləri ((SSRİ, ABŞ, Böyük Britaniya) İran ərazisinə (Rusiya ilə İran arasında 1921-ci ilin 26 fevralında başlanmış müqaviləyə uyğun olaraq) İranın şimalından (SSRİ-dən) və cənubundan (İngiltərə hərbi qüvvələri) ordu hissələri yeritməyi qərara aldılar.

Beləliklə Sovet hərbi hissələri 1941-ci ilin 25 avqustundan başlayaraq Cənubi Azərbaycana (İrana) daxil oldular. II dünya müharibəsi illərində Sovet Dövlətinin ordu hissələrinin Cənubi Azərbaycanda olması burada demokratik hərəkatın genişlənməsi üçün müəyyən şərait yaratdı. 1942-ci ilin yazından başlayaraq Təbrizdə İran Xalq Partiyasının yerli komitələri müstəqil demokratik partiya (firqə) kimi təşkil edilməyə başlandı.

Cənubi Azərbaycan demokratik firqəsi 1945-ci ilin 5 sentyabrında «Bizim şuarlarımız» adlı proqram sənədi qəbul etdi. 12 maddədən ibarət bu sənəddə ana (Azərbaycan) dilində təhsil, seçki hüququ, İran parlamanında təmsilçiliyin əhalinin milli tərkibinə uyğun olaraq həyata keçirilməsi və digər demokratik tələblər irəli sürülmüşdü. Xalqın geniş müdafiəsinə arxalanan bu hərəkat Cənubi Azərbaycan tarixində 1945-ci il «İyirmi bir Azər hərəkatı»adı ilə məşhurdur.

1945-ci ilin 12 dekabrında Təbrizdə çağrılmış Cənubi Azərbaycan Milli Məclisi hökümətin tərkibini təsdiq etdi: Seyid Cəfər Pişəvəri Milli hökümətin başçısı təyin edildi. Dekabrın 20-də Cənubi Azərbaycanda bütün hakimiyyət Milli hökümətin əlinə keçdi, şahlıq rejiminə tabeçilik dayandırıldı. Qısa müddətdə ölkədə 325 ibtidai və 82 orta məktəbdə ana dilində dərslər başlandı. Təbrizdə hərbi məktəb açıldı, Milli or-

[1] Bu haqda daha geniş bax: İsrafil İsmayılov, Azərbaycan – İran mədəni əlaqələri XX əsrdə, B, 2006, səh. 26-33.

dunun baş qərargahı yaradıldı. Təxminən bir il ərzində 100-ə qədər demokratik qanun qəbul edildi.

Sovet qoşunlarının İrana daxil olması haqqında SSRİ, Böyük Britaniya və İran arasında 1942-ci ilin 29 yanvarında imzalanmış müqaviləyə əsasən, bu ordu hissələri Almaniya ilə müharibə qurtardıqdan ən geci 6 ay sonra İrandan çıxarılmalı idi.

Azərbaycan Demokratik firqəsinin başçılıq etdiyi «İyirmi bir Azər hərəkatı» ikinci dünya müharibəsi illərində nüfuzlu bir təşkilata çevrilmişdi və bünün nəticəsi olaraq 1945-ci ilin dekabrında Cənubi Azərbaycanda Milli hökumət hakimiyyətə gəldi (başçısı Seyid Cəfər Pişəvəri). Hökumətin həyata keçirdiyi demokratik tədbirlər sırasına feodal torpaqlarının müsadirə edilərək kəndlilərə paylanması, məktəblərdə dərslərin Azərbaycan dilində keçirilməsi, yaşlı əhalinin savadsızlığının ləğvinə başlanması, nizami ordunun yaradılmasına başlanması, Təbrizdə hərbi məktəbin açılması və s. daxil idi. Milli hökumət 1946-cı ilin noyabrının axırlarınadək hakimiyyətdə oldu.

Sovet ordu hissələri İran ərazisindən çıxarılmağa başlandıqda bundan istifadə edən İran şahının ordu hissələri 1946-ci ilin noyabrında Cənubi Azərbaycanın milli ordusuna qarşı hüsumi keçdi. İranın fars ordusu iki gün ərzində 25 min azərbaycanlı döyüşçülərini qətlə yetirdi.

Cənubi Azərbaycanın külli miqdarda demokratik fikirli üzvləri və vətəndaşları Şimali Azərbaycana köçməyə, Avropaya mühacirət etməyə məcbur oldular.

İran hakimiyyətinin fars rəhbərliyinin sovinist siyasət nəticəsində fars ordusu Cənubi Azərbaycanın Milli hökumət qüvvələrinə qarşı hücuma keçərək, xalq hakimiyyətini qana boyadı. Fars ordusunun vəhşiliklərini həmin dövrdə Cənubi Azərbaycanda olmuş Amerikalı jurnalist Uilyam Duqlas «Yad torpaqlar və dost xalq» adlı kitabında belə təsvir etmişdir: «Fars ordusu Azərbaycana qayıdanda özü ilə qorxu və dəhşət gətirdi. Əsgərlər özbaşınalıq edir ..., camaatı soyub talayır, istədiklərini götürürdülər...».

İranda 1966 və 1976-cı illərdə keçirilmiş əhalinin siyahıya alınmasında milli tərkib haqqında sorğu qəsdən göstərilməmişdir. 1979-cu ildə verilmiş məlumatda isə İranda



Azərbaycanlıların sayının 18 milyon nəfər olması göstərilir. Halbuki, digər mənbələrdə İranda 35-40 milyon azərbaycanlı-türk olduğu haqqında məlumatlar verilmişdir.

İranda yaşayan bütün azərbaycanlıların yarıdan çoxu Cənubi Azərbaycandan kənarda yaşayırlar. Təkcə paytaxt Tehranda əhalinin 40%-ə qədəri azərbaycanlıdır.

Fars millətçiləri «Vahid İran milləti» şüarı altında Azərbaycan türklərinin milli tələblərini boğmağa çalışırlar və boğurlar.

Bu sahədə fars şovinizminin banisi Seyid Əhməd Kəsrəvinin müasir davamçıları bu gün də azərbaycanlıların fars köklü olmaları kimi cəfəng fikirləri təkrar edirlər. İranın hakim dairələri isə Cənubi Azərbaycanda yaşayan təxminən 35 milyon türkü doğma ana dilində təhsil almaq hüququndan məhrum etmişlər. Onları azərbaycan dilində kitab və qəzet nəşrindən də məhrum etmişlər. Cənubi Azərbaycanda yaşayan professor Məhəmməd Tağı Zehtabi «İran türklərinin əski tarixi» kitabında fars şovinistlərinin qeyri tarixi və qeyri elmi müddəalarını ifşa etmişdir.

### §3. Ahısqa türklərinin faciəsi

Türkdilli xalqların qədim boylarından biri də Ahısqa (Mesheti) türkləridir. Onlar Qafqazda IV-V əsrlərdən məskunlaşmışlar və 1944-cü ilə qədər Gürcüstanın cənubunda Mesheti-Çavaheti adlanan ərazidə, bir hissəsi isə Qara dəniz sahillərində yaşamışlar. Sovet hakimiyyəti dövründə Ahısqa türkləri də 1937-ci ildən başlayaraq, soyqırıma məruz qaldılar. Belə ki, əvvəlcə bu xalqın Ömər Faiq Nemanzadə, Əhməd Pepinov və digər görkəmli ziyalılarını 1937-ci ildə «xalq düşməni» adi ilə güllələdilər. 1944-cü ilin noyabrında Cənubi Gürcüstanın 6 rayonu ərazisində yerləşən 220 min Ahısqa türkü Orta Asiya və Qazaxstana sürgün edildilər. Bu köçürmə 116 min nəfəri əhatə etdi və onlardan 17 mindən çoxu yollarda məhv oldular. 1941-1945-ci illər müharibəsi cəbhələrində döyüşən 42 min Ahısqa türkündən 25 mindən çoxi cəbhələrdə həlak oldu. 1945-47-ci illərdə daha 37 min Ahısqa türkü aclıqdan, xəstəlikdən və dərd-qəmdən həlak oldu. Müharibədən sonra əsasən Özbəkistanda toplaşa bilmiş bu türklər orada

1989-cu ilə qədər yaşaya bildilər. Həmən il onlara qarşı talanlar təşkil edildi və Özbəkistandan da qovuldular və Rusiyanın Avropa hissəsində, Azərbaycanda özlərinə məskən saldılar. Azərbaycanda yerləşən Ahısqa türkləri Saatlı, Sabirabad, Beyləqan, Şamaxı, Şəmkir, Gəncə və Xaçmaz bölgələrində səpələnmişdir. Doğma ərazilərinə (Gürcüstan) isə çox az miqdarda ahısqa türkü qayıda bilmişdir. Ahısqa türklərinin «Vətən» cəmiyyəti (sədri Xalid Taştanov) bu istiqamətdə işini davam etdirir. Onların sayı hazırda 30 minə qədərdir.

## §4. Krım tatarlarının faciəsi

Krımda Tatar-feodal dövlətinin tarixi XIII əsrdə buranın monqol-tatarların işğalı ilə başlanmışdır. 1438-cü ildə müstəqil Krım xanlığı yaranmışdı və xanlıq 30 il sonra Türkiyənin təsiri altına düşdü.

Lakin 300 ildən sonra, 1783-cü ildə Krım Rusiyaya birləşdirildi.

Sovet imperiyasının antitürk siyasətinin bir zərbəsi də Krım tatarlarına dəydi. Böyük Vətən müharibəsi illərində almanlarla Krımda gedən şiddətli döyüşlər ərəfəsi yerli tatar-müsəlman əhalisi Özbəkistana və Qazaxstana sürgün edildi.

Müharibədən sonrakı dövrdə, Stalinin ölümündən sonra Nikita Xruşovun SSRİ-yə rəhbərlik etdiyi illərdə Krım Rusiyanın tərkibindən çıxarılaraq, Ukrayına respublikasına birləşdirildi. Şimali Qafqazın Qazaxıstana sürgün edilmiş müsəlman xalqları ilə birlikdə Krım tatarlarına da 60-cı illərin əvvəllərində bəraət verildi və öz doğma torpaqlarına qayıtma hüququnu əldə etdilər. Lakin hələ də Krım tatarlarının hamısı öz doğma torpaqlarına qayıda bilməmişlər və bu yolda onlar cürbəcür maneələrə rast gəlirlər.

Tatar xalqının bir qolu da Rusiyanın ərazisində Volqa boyunda yaşayan Kazan tatarlarıdır (indiki Tataristan Muxtar Respublikasının paytaxtı Kazan şəhərinin adı ilə belə adlanırlar). Volqaboyu Tatarların lideri Mirsəid Sultanqaliyev XX əsrin 20-ci illərinin sonu tatarlar üçün muxtariyyət tələbi ilə çıxış etmişdi. Stalinin milli siyasətini tənqid etdiyi üçün o,«xalq düşməni» damğası ilə məhv edildi.



## §5. Bolqarıstanda yaşayan türklərə qarşı milli ədalət

Bolqaristanda yaşayan 1 milyonluq türk əhalisinə qarşı XX əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq milli ayrıseçilik siyasəti geniş tətbiq edilməyə başlanmışdı. Sovetlər İttifaqının həmin dövrdəki rusofil şovinist rəhbərliyinin müdafiəsinə arxalanan Bolqaristanın o zamanki rəhbəri millətçi Todor Jivkov 80-cı illərin ortalarında burada yaşayan bütün türklərin ad və soyadlarının zorla bolqarlaşdırılması kimi şovinist bir tədbirə əl atdı və bu zəmində 300 mindən çox türk əhalisi Bolqaristanı tərk edərək, qonşu Türkiyəyə mühacirət etdi. Ölkədə qalmış türklərin əksəriyyəti isə tutduqları vəzifələrdən qovuldular.

Bu şərtlərin müəllifi 70-ci illərin sonunda Bolqaristandan Bakıya təhsilə göndərilmiş (həyat yoldaşı bolqar qadını olan) türk Əhməd Arunovu qonaq kimi qəbul etmişdir. (Əhməd Arunov digər 8 Bolqaristan türkü ilə birlikdə 1959-cu ildə Bakı Ali Partiya məktəbini bitirmişdi və Bolqaristanda mərkəzi partiya aparatında milli azlıqlarla iş üzrə şöbə müdirinin müavini işləyirdi. Göstərilən 9 nəfər Bakıda, Ali Partiya məktəbində təhsil alan zaman bu sərtlərin müəllifi həmin məktəbin direktoru olmuşdur).

Bolqarıstan rəhbərliyi çalışırdı ki, orada yaşayan türklərin qonşu Türkiyə ilə heç bir tarixi əlaqələrinin olmadığını elmi (etnoqrafiya) əsaslarla təsdiq edilsin. Əhməd Arunov mənim köməyimlə Azərbaycanlı dilşünas akademik Məmmədağa Şirəliyev ilə görüşdü. Akademik M.Şirəliyev söylədi ki, onun ezamiyyət xərci ödənilərsə, bu məsələni İngiltərənin arxivlərində araşdıra bilər.

Bolqaristan türkləri haqqında mövcud elmi ədəbiyyatda göstərilir ki, indiki Bolqaristanda yaşayan türklər 688-ci ildə Balkanlara şərqdən köçən oğuz türklərinin davamçılarıdırlar. Bunlara əvvəllər Bulqar türkləri də deyirdilər[1].

---

[1] Bax: Rafik Özdək. Türkün Qızıl Kitabı, (Ikitab), B, 1992, s.175, 179.

## §6. Şimali Kiprdə yaşayan türklərin milli-müstəqillik uğrunda mübarizəsi

Şimali Kiprdə türklər toplu olaraq XVI-əsrdən bəri yaşayırlar. Lakin adanın əhalisi içərisində yunanlar çoxluq təşkil edir. 1963-74-cü illərdə Kiprin şimalında yaşayan türklərə qarşı yunanlar tərəfindən soyqırım keçirildi. On minlərlə türk adanı tərk etməyə məcbür oldu.

1974-cü ildə Yunanıstan dövləti hərbi qüvvə ilə Kiprin bütün ərazisində öz ağalığını yaratdı. Lakin həmin ilin 20 iyulunda Türkiyə dövlətinin qoşun hissələri adanın türklər yaşayan şimal hissəsini yunanlardan azad etdi.

1983-cü ilin noyabrında Kipridə yaşayan türk xalqı öz müstəqil dövlətini – Kıbrız Türk Cümhuriyyətini elan etdi. Ölkənin gözəl iqlim şəraiti burada müalicəvi turizmi geniş inkişaf etdirməyə imkan verir. Kıbrıs türkləri Türkiyə dövlətinin hərtərəfli yardımına arxalanaraq, öz müstəqilliyini möhkəmləndirirlər.



# IX Fəsil.

# XX ƏSRİN SONUNCU ONİLLİYİNDƏ TÜRK DÜNYASINDA YENİ MÜSTƏQİL DÖVLƏTLƏRİN ƏMƏLƏ GƏLMƏSİ

SSRİ-nin dağılması zəminində 1991-ci ildə türkdilli xalqların müstəqil Azərbaycan, Qazaxstan, Qırğızstan, Türkmənistan və Özbəkistan (tərkibində türkdilli qaraqalpaklar da yaşayır) dövlətlərini yaratdılar.

Göstərilən türkdilli xalqların 1991-ci ilin sonunda öz müstəqil dövlətlərini yaratmaları aşağıdakı tarixlərdə qeyd edilir.

Özbəkistan - 1 sentyabr;
Qırğızıstan - 2 sentyabr;
Azərbaycan - 18 oktyabr;
Türkmənistan - 26 oktyabr;
Qazaxstan - 16 dekabr.

Bu dövlətlərin müstəqilliyini dünyanın 150-dən çox dövləti tanımışdır.

Təxminən 70 illik Sovet sosialist siyasi quruculuğu şəraitində yuxarıda göstərilən türkdilli xalqların siyası, iqtisadi və mədəni həyatı çox ziddiyyətli olmuşdur. Sovet siyasi sisteminin xalqa qəbul etdirilməsi illərinin əvvəlində həyata keçirilmiş silahlı əməliyyatlar və digər cəza tədbirləri nəticəsində çoxsaylı insan itgiləri və sürgünlər, xarici ölkələrə müharicətlər olmuşdur. Məsələn, yalnız kənd təsərrüfatının kollektivləşdirilməsi illərində (1928-1938) Azərbaycandan Qazaxstana və Özbəkistana sürgün edilmişlər hesabına hətta XX əsrin sonunda Qazaxstanda 40 min nəfər, Özbəkistanda isə 25 mindən çox azərbaycanlı yaşayırdı[1].

Sovetlər İttifaqının təsərrüfat sisteminin sonuncu statistik portreti (1991-ci il üzrə) yuxarıda göstərilən türkdilli respublikalarda sənaye və kənd təsərrüfatı üzrə milli gəlirin hər adam başına tam həcmini müəyyən etməyə imkan vermir. Çünki Sovet iqtisadi sistemində istehsal edilən məhsulun əksəriyyəti İttifaq (SSRİ) nazirlikləri nəzarəti altında olduğundan, həmin məhsul respublikaların iqtisadiyyatı

[1] Dirçəliş – XXI əsr. 2008, №120-121, s.255, 258.

çərçivəsindən kənarda hesablanırdı, yəni İttifaq büdcəsinin formalaşmasına xidmət edirdi. Məsələn, 1998-ci ilin məlumatına görə Azərbaycan sənaye müəssisələrininin 93%-i ittifaq (SSRİ) və ittifaq-respublika nazirlikləri tabeliyində idi. Müqayisə üçün qeyd edək ki, bu göstərici Rusiya Federasiyası üzrə 72% idi («İzvestiya» qəzeti, 2 sentyabr 1998-ci il). Eyni zamanda, Azərbaycanda istehsal edilən məhsulun 53%-i ondan kənara xammal kimi göndərilirdi.

Yuxarıda göstərilən vəziyyəti nəzərə almaqla 1991-ci ildə (SSRİ-nin sonuncu ili) sənaye məhsullarının bütün ölkə üzrə həcmində respublikaların payı aşağıdakı nisbətdə olmuşdur: RSFSR-61,8%, Ukrayna-17,2%, Belorusiya-4,3%, Qazaxıstan-4%, Özbəkistan-2,9%, Azərbaycan-1,5%, Litva-1,5%, Gürcüstan-1,2%, Latviya-1,2%, Moldaviya-1%, Ermənistan-0,7%, Estoniya-0,7%, Qırğızıstan-0,7%, Tacikistan-0,5%, Türkmənistan-0,4%[1].

Halbuki, SSRİ tərkibində olan türkdilli respublikaların əksəriyyətinin əraziləri neft və digər təbii sərvətlərlə zəngindir. Məsələn, yeraltı təbii sərvətlərə görə Qazaxstan dünyada doqquzuncu yerdədir. Bu sözləri Azərbaycan və Türkmənistan haqqında da demək olar.

Qazaxstanın 2008-ci ildə neft istehsalı 70 milyon ton olmuşdur və Qazaxstan neftinin Xəzər dənizi vasitəsilə Qərbi Avropaya nəqli ildə 20 milyon ton nəzərdə tutulur. Belə bir imkan Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Türkmənistan üçün də reallıqdır. Eyni sözləri Şərqdən Qərbə doğru uzadılacaq qaz kəmərləri haqqında da demək olar.

Bakıda 2008-ci ilin noyabrında keçirilmiş IV Enerji Sammitində dünyanın 21 ölkəsinin nümayəndələri və diplomatları iştirak etmişlər. Həmin Sammitdə iştirak edən ABŞ-in energetika naziri Samuel Bodman bildirmişdir ki, Xəzər dövlətlərinin neft hasılatı dünya bazarlarında Opek ilə yanaşı, böyük təchizat mənbəyinə çevrilmişdir[2]. Bu dövlətlərdən Azərbaycan, Qazaxstan və Türkmənistan türkdilli dövlətlərdir.

[1] Dirçəliş – XXI əsr, 1998, №1, səh.54.
[2] «Azərbaycan» qəzeti, 16 noyabr, 2008-ci il.



## §1. Türkdilli dövlətlər başçılarının zirvə görüşləri

Türkdilli dövlət başçılarının I zirvə toplantısı 1992-ci ilin 30-31 oktyabrında Ankarada keçirildi. Bu zirvə toplantıları sonrakı illərlə İstanbulda (1993), Bişkekdə (1995), Daşkəndə (1996) və Astanada (1998) keçirilmişdir[1].

Növbəti VI zirvə toplantısı 2000-ci ilin 4 iyununda Bakıda keçirildi və bu toplantıda «Kitabi Dədə Qorqud» dastanının 1300 illiyi bayramına hazırlıq məsələsi də müzakirə olundu.

Dünya mədəniyyətinin ən qədim mirası Şumer mədəniyyəti hesab edilir. Onun 22 min illik tarixinin ortalarında «Bilqamis» dastanı durur. Bundan sonra «Manas», daha sonra «Kitabi Dədə Qorqud» dastanı gəlir. Sonuncunun 1300 yaşı vardır və əsasən Oğuz tayfalarının qəhrəmanlıq dastanıdır. Azərbaycan yazıçısı Anarın tərtib etdiyi «Min beş yüz ilin Oğuz şeri» antalogiyası türkdilli xalqların Şeir antalogiyalarından geniş istifadə edildiyi üçün bu əsər Türk dünyasında mədəni əlaqələrin möhkəmlənməsinə xidmət edir. (Türk dillərinin Oğuz qrupuna Anadolu türkçəsi, Azərbaycan, Türkmən və qaqauz dilləri daxildir).
Türkdilli xalqların tarixi abidəsi olan «Kitabi-Dədə Qorqud» haqqında təhriflər və qadağalar Sovet hakimiyyətinin 70 illik tarixi boyu hökm sürmüşdür. Bu işdə rəsmi Moskva ilə yanaşı erməni şovinistləri də geniş fəaliyyət göstərmişlər.

«Kitabi-Dədə Qorqud»un XX əsrin 20-30-cu illərində tədqiqatçısı olan Əmin Abid pantürkist kimi aradan götürüldü. Çünki o, «Kitabi-Dədə Qorqud»u «Oğuznamə»nin bir hissəsi hesab edirdi.

1951-1952-ci illərdə bu tarixi abidəmiz Azərbaycan xalqına yad əsər kimi bədnam edilmişdi. Onun haqqında araşdırmalar aparan professor Əbdüləzəl Dəmirçizadə, Həmid Araslı və digərləri şiddətli tənqid edilmişdilər. Ə.Dəmirçizadə Dədə-Qorqud dastanını VIII əsrin abidəsi

[1] Bütün Zirvə görüşlərinin keçirildiyi ölkələr: I-(1992)-Ankara (Türkiyə), II-(1993)-İstanbul (Türkiyə), III-(1995)-Buşkek (Qırğızıstan), IV-(1996)-Daşkənd (Özbəkistan), V-(1998)-Astana (Qazaxstan), VI-(2000)-Bakı (Azərbaycan), VII-(2000) Bakı (Azərbaycan), VIII-(2001) İstanbul (Türkiyə).

hesab edirdi. Professor Ə.Dəmirçizadənin 1957-ci ildə nəşr etdirdiyi «Azəri ədəbi dili tarixi» kitabı Azəri üslubuna görə də tənqid edilmişdi. Türkiyə alimi Mehmet Kaplan Dədə Qorqud boylarını İslamdan əvvəlki dövrün (VI əsr) məhsulu olduğunu iddia edir.

Bəzi tədqiqatçılar Dədə-Qorqudun Məhəmməd peyğəmbərin müasiri olduğu qərarına gəlir və onun da peyğəmbər olduğunu söyləyirlər. Belə hesab edilir ki, Dədə-Qorqud Məhəmməd peyğəmbərin hüzuruna gedərək, İslamı qəbul etmişdir. Buradan aydın olur ki, Dədə-Qorqud bəlkə də tarixi şəxsiyyətdir.

Dədə-Qorqud dastanının müqəddimə hissəsində deyilir: «Rəsul Əleyhissalam zamanına yaxın Bayat boyundan Qorqud-Ata derlər, bir ər qopdi. Ol kişi oğuzun təmam bilicisi idi. Nə deyirdi olurdu, qayibdən dürlü xəbər söylərdi. Həqq Təala onun könülünə ilham verdi...».

Dastanın həmin giriş hissəsində «Tanrı dostu, din başçısı Məhəmməd peyğəmbər, böyük xəlifələr Əbubəkr, Osman, Ömər, Həzrəti Əli, peyğəmbərin qardaşı qızı Aişə, qızı Fatimə... və nəhayət Tanrı elmi olan «Quran»dan söhbət açılır.

2000-ci ilin aprelində Bakı şəhərində dünyanın türkdilli xalqlarının dövlət başçılarının və elm-mədəniyyət xadimlərinin geniş iştirakı ilə «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi keçirildi. Yubiley təntənələrində söylənmiş elmi fikirlər Dastanın böyük mənəvi gücə malik abidə və bütün türkdilli xalqların ümumi sərvəti olduğunu bir daha sübut etdi.

Dünyanın türkdilli xalqlarının ümumi mənəvi sərvətlərindən biri də Novruz bayramıdır. Qoca Şərqdə qədimdən yeni ilin gəlişi kimi bayram edilən «Novruz»u qeyd etmək Sovet hakimiyyəti illərində müsəlman xalqları üçün qadağan edilmişdi.

Azarbaycanda bu qadağanı pozaraq «Novruz»u xalqa qaytarmaqda görkəmli ictimai xadim və dramaturq Şixəli Qurbanovun (1925-1967) xidməti xüsusi olaraq qeyd edilməlidir.

1966-cı ildə Azərbaycanda ideoloji işlərə rəhbərliyə seçilən Ş.Qurbanov (Partiya Mərkəzi Komitəsində katib



səviyyəsində) 1967-ci ilin 20 martında «Novruz»un respublikada bayram kimi martın 21-də keçirilməsi haqqında göstəriş verdi və «Pravda» qəzetində onun keçirilməsi haqqında məlumat, «İzvestiya» qəzetində isə «Novruz»un dini bayram olmaması haqqında yazı dərc olunmasına nail oldu. Şixəli Qurbanovun faciəvi ölümündən (1967) sonra «Novruz»un Azərbaycanda bayram kimi keçirilməsi yenə də qadağan edildi. Onun yenidən həyata vəsiqə alması isə 1991-ci ildə, Azərbaycan xalqının öz müstəqil dövlətini elan etməsindən sonra həyata keçirildi.

Türkdilli dövlətlərin I iqtisadi toplantısı 1998-ci ilin mayında İstanbulda keçirilmişdir. İkinci belə toplantı 1999-cu ilin oktyabrın 5-7-cə yenə də Türkiyədə keçirildi və buraya Avrasiyanın digər dövlətləri nümayəndələri də dəvət edilmişdilər. Bu toplantının keçirilməsi tarixi Osmanlı dövlətinin 700 illiyi yubileyi ərafəsinə təsadüf etdi.

1998-ci ilin 7-8 sentyabrında Bakıda Avropa Birliyinin[1] himayəsi ilə Qədim İpək yolunun bərpası ilə əlaqədar olaraq Beynəlxalq konfrans və Zirvə görüşü keçirildi. Dünyanın 34 dövlətinin nümayəndələrinin iştirak etdiyi həmin konfransdakı çıxışında Azərbaycan prezidenti Heydər Əliyev göstərdi ki, Böyük İpək yolu «bir çox ölkələrin və xalqların minillik tarixini, Çinin qədim mədəniyyətini, avropalıların böyük coğrafi kəşflərini, Orta əsr müsəlman intibahının nailiyyətlərini və bir sıra digər cəhətdəri ehtiva etmiş qlobal, nadir hadisə»[2] olmuşdur. Heydər Əliyev eləcə də qeyd etdi ki: «Böyük İpək yolu keçmişdən başlansa da, gələcəyə doğru gedən yoldur».

Çindən Şimali Afrika və İspaniyaya qədər uzanan Böyük İpək yolu eramızdan əvvəlki II əsrin sonralarından əsrimizin XIV yüzilliyinə qədər mövcud olmuş və 33 ölkənin ərazisindən keçmişdir.

Qədim tarixə malik «Böyük ipək yolu» bəşər tarixində ilk transkontinental ticarət və diplomatiya yolu hesab edilir. Bu yolun açılması Çində eramızdan əvvəl hökm sürmüş Xan

---

[1] Avropa Birliyi Komissiyası 1993-cü ilin mayında Brüsseldə TRASEKA (Avropa-Qafqaz-Asiya nəqliyyat dənizi) proqramını qəbul etmişdir.

[2] "Xalq" qəzeti, 9 sentyabr, 1998-ci il.

imperiyasının Udin adlı hökmdarı dövründə (140-86-cı illər) olmuşdur.

Haqqında danışdığımız bu qədim dövrdə dünyada dörd qüdrətli imperiya mövcud idi. Roma, Parfiya (İran), Küşan və Çin (Xan) imperiyaları. Kuşan imperiyası Çin dövlətinə ən yaxını idi.

Qədim ipək yolu hər şeydən əvvəl Çin ipəyini Qərb bazarlarına çıxarmaq üçün lazım idi və bu yol Xan imperiyasının paytaxtı Çanan şəhərindən başlayırdı. Həmin yol Dunxuanda iki qola ayrılırdı: 1) Şimal qolu (Pamir dağlarından keçib Fərqanəyə və indiki Qazaxıstan çöllərinə doğru; 2) Cənub qolu – Pamir dağlarının cənub hissəsi ilə Baktriyaya (Mərkəzi Asiyaya), oradan da Parfiya – Hindistan istiqamətində, Roma əyalətlərinə doğru. Böyük ipək yolunun bir qolu da Səmərqənd, Təbriz, Bağdad, Bərdə, Konstantinopol (indiki İstanbul) istiqamətini əhatə edirdi. Qədim «İpək yolu»nun keçdiyi Orta və Qərbi Asiyada ipəkçilik sənəti meydana çıxmışdı və Azərbaycan da həmin yolun üstündədir. Bu yol ilə Çin Qərbə eləcə də dəmir, nikel, əlvan metallar, kağız, lak və digər sənətkarlıq məhsulları daşınırdı. Qərbdən isə Çinə şüşə, ətriyyat və s. aparılırdı.

1498-ci ildə Afrikadan Hindistana birbaşa dəniz yolunun açılması ilə, dünya ticarət yollarının istiqaməti dəyişildi. Bu yeni yol İspanların və portəkizlərin əllərinə keçdiyi üçün tarixən yaranmış quru ipək yolunun işləməsi getcikdə zəiflədi. Bunun əvəzinə Şərq-Qərb ticarət əlaqələri əsasən Volqa-Xəzər su yolu vasitəsilə davam etməyə başladı. Hazırda işə salınan «Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi» (TRASEKA), Asiyadan Avropaya Rusiyadan keçən yoldan 2000 km qısadır və həm də bu yol ilboyu istifadə edilən yoldur. İqtisadi cəhətdən isə təxminən yarı miqdarda ucuz yoldur. Bu yol ilə neft və qazın da dünya bazarlarına çıxarılması asandır və əlverişlidir.

1999-cu ilin may-iyununda Daşkənddə «Asiya-Avropa nəqliyyat körpüsünün inkişaf problemləri» mövzusunda beynəlxalq konfrans keçirildi.

Konfransda 30-dan artıq ölkənin nümayəndələri iştirak etmişdir.



TRASEKA proqramı şərq ölkələrini Dunay-Main_reyn su sistemi vasitəsilə Mərkəzi və Qərbi Avropa ölkələri ilə əlaqələndirir.

Türk dünyası ölkələri xalqları üçün mühüm əhəmiyyət kəsb edən ortaq tətbirlərdən biri də _ortaq dil_ və _əlifba_ məsələsidır. Ortaq türk dili məxrəcinə gəlmək türkdilli xalqların yazılı ədəbiyyatının tərcüməsiz olaraq oxunması və anlaşılması kimi böyük bır tədbir üçün şərait yaradardı. Bunun üçün, görünür, ortaq əlifbaya nail olmaq və yazı ıslahatından başlamaq lazımdır.

Məşhur dilçi mütəxəssis professor S.Y.Malov türk dillərinin təsnifini ən qədim, yeni və ən yeni qruplar dairəsində şərh etmişdir. Bununla belə, bu dillərin mənşəi və əsas lüğət fondu ümumidir və buna görə də bir dil qrupuna daxildirlər.

Türkdılli xalqların ortaq problemlərinin şərhinə həsr olunmuş ədəbiyyat hələlik məhduddur. 1959-cu ildə professor F.Zeynalovun Azərbaycan Dövlət Universiteti nəşriyyatında «Türk dillərinin müqayısəli qrammatikasına dair oçerklər» kıtabı nəşr olunmuşdur. Müəllif həm fiologiya, həm də tarix elmləri üzrə ali təhsilə malik olduğu üçün, belə çətin bir mövzu haqqında müəyyən ümumiləşdirmələrə əsaslanan oçerk yazmışdır.

Türkdilli xalqlar üçün ilk ortaq tədbirlərdən biri ortaq əlifba ola bilər.

Türkıyədə 1928-ci ildə qəbul edilmiş latın qrafikalı əlifba fasiləsiz olaraq işlənir. Azərbaycanda və mərkəzi (Orta) Asiya respublikalarında (Qırğıstan, Özbəkistan, Türkmənistan və Qazaxıstan) 30-cu illərin sonunda latın qarfikasından kirill qrafikasına (Sovet rəhbərliyinin şovinist siyasəti nəticəsində) keçilsə də təxminən 10 il ərzində latın qrafikası, adı çəkilən respublikaların xalqlarının mədəni həyatına müsbət təsir etmişdir və yaşlı nəslin ahıl təbəqəsi hələ də latın qrafikasını unutmamışdır.

Bundan əlavə Sovet hakimiyyəti illərində tədris edilən xarici dillərin əksəriyyəti latın qrafikası (əlifbası) əsasında olan dillərdir.

Azərbaycanda latın qrafikası əsasında yazıya qayıdılması haqqında qərar 1992-ci ildə verilmişdir və nəzərdə

tutulduğu kimi bu keçid qısa bir müddətdə həyata keçirilmişdir.

2000-ci ilə qədərki dövrdə Azərbaycanda gündəlik mətbuatın müəyyən səhifələri latın qrafikasında çap olunurdu. Bundan əlavə «Müstəqilliyimiz əbədidir» kitabının (5000 tirajla) 8 cildi, «Molla Nəsrəddin» məcmuəsinin (12 cildlik) birinci cildi, B.Vahabzadənin «Zaman və mən» kitabı və bir neçə digər, həcm etibarı ilə, xırda kitablar bu qrafikada buraxılmışdır. Bunlardan əlavə «Dünya türkləri» seriyasından «Qaqauzlar» (müəllifi Güllü Yoloqlu, 1996) «Ahıska türkləri» (Əliapaşa Ənsərov, 1996), «Uyğurlar» (Əbülfəz Rəcəbov, 1996) adlı kitablar da latın qrafikasında nəşr edilmişdir. Bu sahədə «Gənclik» nəşriyyatının uğurları daha çoxdur. Eyni sözləri «Azərbaycan Ensiklopediyası» nəşriyyatı haqqında da demək olar. Məsələn, burada, M.Füzulinin iki cildliyi, «Azərbaycanın tarix xəritələri» və digər kitablar latın qrafikasında buraxılmışdır.

«Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyiilə əlaqədar olaraq bu mövzuda buraxılmış kitabların əksəriyyəti də latın qrafikasındadır.

Azərbaycanda nəşr olunan «Ədəbiyyat qəzeti» redaksiyası tərkibində Türkiyədə, İraqda, İranda, Özbəkistanda, ABŞ-da, Almaniyada, İngiltərədə, Rusiyada və Fransada yaşayan azərbaycanşünasların (türkşünasların) olması da diqqətəlayiqdir.

Türk xalqları vahid ümumi mənşəyə malik qohum xalqlardır. Buna görə də onların dillərindəki lüğət fondunda güclü yaxınlıq mövcuddur və deməli vahid lüğət fondu yaradılması haqqında da fikir yürütməyə əsas verir. Görkəmli Azərbaycan mütəfəkkiri professor Əlibəy Hüseynzadə «Türklər kimdir və kimlərdən ibarətdir?» (ilk dəfə 1905-1906-ci illərdə nəşr olunmuşdur) əsərində yazır ki, «Türklərin ən qədim xətt və əlifbaları run denilən bir xətdir və özləri tərəfindən ixtira olunub». Bu xətt Orxan-Yenisey əlifbasının əsasını təşkil edir. Müəllif eyni zamanda qeyd edir ki, türklər islamı ərəblərdən olduğu kimi qəbul etsələr də «əsla ərəbləşmədilər». Bunun səbəbini Ə.Hüseynzadə belə izah edir: «Hər lisan lüğət və qəvaiddən ibarət bulunduğu halda, türk lisanı başlıca qəvaiddən ibarətdir... Yəni türk dili lüğətə



əhəmiyyət verməz, hər lisandan bəyəndiyi kəlməyi alıb öz malı kimi asanlıqla öz...nəhviyyəsinə tətbiqən təsrif edər...[1]»

Burada onu da demək yerinə düşər ki, ərəblər İslam dünyasına Quranı bəxş ediblərsə, islam mədəniyyətini türklər daha güclü inkişaf etdirmişlər.

Azərbaycan dili öz zənginliyi, üslub və səs təmizliyinə görə bütün türkdilli dillərindən seçilir. İstanbul Universitetinin İtalyan dili və ədəbiyyatı müəllimi xanım Betul Parlaq (bir neçə dildə sərbəst danışır) deyir: **«Azərbaycan dili çağlayan bir bulaqdır. Nə qədər danışırsan danış, düzümü, şirinliyi , ədəbiliyi öz-özünə süzülüb gəlir. Bu dili başa düşənlər, incəliyini duyanlar ona vurulmaya bilməzlər»**[2].

İngiltərə dilşunası Maks Müller demişdir: «Azərbaycan dili öz zənginliyinə görə budaqları barlı-bəhərli meyvə ağacını xatırladır» [3]

Azərbaycan dilının bütün Yaxın Şərqdə ünsiyyət vasitəsi kimi yararlı olduğunu hələ XIX əsrdə İ.Höte, A.S Puşkın, M.Lermontov, A.Düma və digər görkəmli ədiblər söyləmişdir.

Azərbaycan, türkmən, uyğur, tatar, qazax, özbək və məshət türkləri dillərində «Ə» fonemi mövcuddur, lakin digər türk dillərində bu fonemi «e» saiti əvəz edir. «Ö» fonemi özbək, tatar, başqırd və çuvaş dillərində işlənmir. Özbəklər özlərinə Üzbek deyirlər. Anadolu türkləri dilində «ə» saiti, «x» və «k» samitləri yoxdur.

Türk dillərinin cənub qrupuna daxil olan Azərbaycan və Anadolu türklərinin dillərində oxşarlıq daha çoxdur. Böyük şair Mirzə Ələkbər Sabir 1910-cu ildə yazmışdı: «Osmanlıcadan tərcümə türkə, nə deməkdir?».

Türkdilli xalqların dillərində olan əsas fonetik xüsusiyyətlərin bir neçəsinə nəzər salaq:

---

[1] Əli bəy Hüseynzadə. Türklər kimdir və kimlərdən ibarətdir? B., 1997, s.224-226.

[2] «Xalq» qəzeti, 21 avqust, 1999.

[3] Bax, «Xalq» qəzeti, 24 dekabr 2008, s.3

| № | Dillər | Xüsusiyyətlər |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1 | Azərbaycan dili | «ə» saitinin varlığı |
| 2 | Tatar dili | «ə» əvəzinə «i» saiti işlənir |
| 3 | Qazax dili | «ş» samiti «s» samitinə keçir<br>məs.: tanış-tanıș |
| 4 | Qırqız dili | «y»-«j»-ya keçır<br>məs.: yer-jer, yaz-jaz |
| 5 | Özbək dili | «a» və «o» saitləri arasında ortaq tələffüz fonemi (a/o) vardır.<br>məs.: Ota-ata, boş-baş, odam-adam «ə» əvəzinə «e» və ya «a» işlədilir: mən-men, şəkil-şekil, məzmun-mazmun |

Son illərdə türkdilli xalqların gənc ədəbiyyatçıları arasında əlaqələrin genişlənməsi istiqamətində müəyyən tədbirlər görülmüşdür: 1998-ci ilin sentyabrında Qazaxıstanın Türkistan şəhərində Türk dünyası gənclərinin VII qurultayı keçirilmişdir və «Dünya Gənc Türk Yazarlar Birliyi» yaradılmışdır. 1999-cu ilin 9-15 sentyabrında Çeboksarı şəhərində (Çuvaşistanın paytaxtı) IX Türk Dünyası Gənclik günləri və Qurultayı keçirilmişdir. Türk dünyası gənclərinin növbəti qurultayı 2000-ci ilin sentyabrında Bakıda keçirildi.

2000-ci ilin sonlarında «Avesta»nın 2700 illiyi geniş miqyasda keçirilmişdir. Kitabın müəllifi hesab edilən Zərdüşt qədim Türkdilli xalqların nümayəndəsidir.



## §2. Müstəqilliyini XX əsrin sonunda qazanmış dövlətlərin türkdilli əhalisinin islama qayıdışının başlanması

Dünyada mövcud olan 40-a yaxın türkdilli xalqların yarıdan çoxu ərazicə keçmiş SSRİ tərkibində idi (yalnız Anadolu türkləri və Kıbrısda yaşayan türklər, albanlar, kərkük türkləri, Balkan türkləri bu ərazidən kənarda yaşayır). SSRİ-nin dağılması ilə onun tərkibində olan türkdilli xalqlardan beşi öz müstəqil dövlətlərini yaratdılar. (Azərbaycanlılar, qazaxlar, qırğızlar, türkmənlər, özbəklər. Qaraqalpaklar Özbəkistanın tərkibindədirlər). Digər türkdilli xalqlar Rusiyanın, Gürcüstanın (açarlar) və Moldaviyanın (qaqauzlar) tərkibində yerləşirlər.

Sovet siyasi sisteminin 70 ili ərzində bütün dinlər və xüsusilə islam dini kəskin nəzarət və qadağa tədbirləri altında idi. Müsəlman xalqları isə «İslam təməlçiliyi qorxusu» bəhanəsi ilə ikiqat nəzarətə məruz qalmışdı.

Sovet usul idarəçiliyi dövründə müsəlmanların dini xidmət idarələrinin, demək olar ki, hamısı dağıdıldı. Xarici ölkələrdən SSRİ-yə rəsmi gələn müsəlmanların dini ibadətlərinin icrası üçün yalnız iri şəhərlərdə məscidlər saxlanmışdı. XX əsrin əvvəlində bütün Qafqazda 2000-ə yaxın məscid və ziyarətgah var idisə, Sovet hakimiyyətinin son illərində (80-ci illərin sonu) burada məscidlərdən yalnız 25-i qalmışdı. Bütün SSRİ-də yalnız dörd yerdə müsəlman ruhani idarəsi saxlanılmışdı (Daşkənd, Bakı, Buynaksk, Ufa).

Bütün bunlara baxmayaraq SSRİ tərkibində olmuş ərazilərdə İslam dini öz təsir qüvvəsini saxlaya bildi.[1]

Görkəmli müsəlman alimi Mövlanə Əbülhəsən Nadvi (Hindistan) «İslam və Dünya» əsərində (1950) Sovet Rusiyası kommunistlərinin dinə münasibətini nəzərdə tutaraq yazır ki, Qərbin bu dinə qarşı etmək istədiyini Sovet kommunistləri sürətlə həyata keçirdilər. SSRİ-nin dağılması bu mənfur prosesin qarşısını aldı.

[1] Bu haqda daha geniş bax: İsrafil İsmayılov. Azərbaycan xalqının siyasi mədəniyyəti. B; 2002

Misirin məşhur din xadimi prof. Səyid Kütb, Mövlanə Əbülhəsən Nadvinin yuxarıda göstərilən kitabına 1993-cü ildə yazdığı təqdimatnamədə göstərir ki, ərəb dilində əsərin 6 nəşri olmuşdur. Əsər türk, fars, ingilis, rus və digər dillərə tərcümə olunmuş, onun müəllifi 1957-ci ildə Suriyanın humanitar elmlər Akademiyasının üzvü seçilmişdir.

Mövlanə Əli Nadvi bu kitabında Karl Marksın sinfi mübarizə nəzəriyyəsini tənqid edərək yazır ki, o, (K.Marks) bununla sübut etmək istəyir ki, bütün tarix yalnız intisadi şərait uğrunda mübarizə tarixidir. Beləliklə dinin, əxlaqın, hətta intellektin insan həyatında rolu inkar edilir. Bütün müharibələrin də başlanması səbəblərini Marks iqtisadi mənafedə görürdü. Müəllif yazır ki, «bu iqtisadi panteizm» dinlə əlaqədar olan müqəddəs müharibələri, dini səyləri, mənəvi hərəkatları qəbul etmir»[1].

Müəllif buradaca daha irəliyə gedərək yazır ki, Qərbin materialistləri insan üçün ən yüksək neməti iqtisadi mövcüdiyyətdə görürlər. Bu onunla əlaqədardır ki, indi insanın canavar xisləti haqqında iddialar qərbdə hər tərəfdən eşidilməkdədir. Hazırda qərbdə insan vəhşiliyi mövzusunda çəkilən kinofilmlərin getdikcə artması müəllifin dərin müşahidəçi olduğunu təsdiq edir.

Müəllif eləcə də göstərir ki, insanlar və xalqlar nifrət və ya qorxu qarşısında birləşirlər. Bu isə son mənada millətçiliyə gedən yoldur. İslam isə millətçiliyi qəbul etmir, ədaləti qəbul edir. İslama görə bəşəriyyət iki hissəyə bölünür: 1) Allahın qulları və ədalətin müdafiəçiləri; 2) Şeytanın davamçıları və şər işin müdafiəçiləri.Əsərin sonunda müəllif bu nəticəyə gəlir: «Müsəlmanlar bəşəriyyətin mənəvi müdafiəçiləridir...» O, eyni zamanda qeyd edir ki, İslam imperiyaları özünün ən yüksək inkişaf dövründə belə, maddi nemətlər bolluğunu mənəvi və əxlaqi tərəqqidən üstün tutmamışdır. Buna görədir ki, İslam dünyasında cinayət işləri nisbətən az olmuşdur və indii də azdır.

Digər tərəfdən dünya dinlərindən heç biri elmi tərəqqiyə islam dini qədər şərait yaratmamış və müsbət təsir

[1] Mövlanə Abülhəsən An Nadvi. İslam və Dünya, (Ikitab), s.131 (rus dilində).



etməmişdir. Digər dinlər bütün elmi tərəqqiyə böyük meaneçiliklər etmişlər. Kopernik, Qaliley və digər alimlərin Qərbdə öz doğru elmi ixtiralarına görə din xadimlərinin fitvası ilə məhv edilmələri bu müddəaya tutarlı sübütdur.

İncəsənət sahəsində də Qərbin islama qarşı ifratçılığına baxmayaraq, islam incəsənətin inkişafına heç bir maneçilik etməmiş, əksinə, onun inkişafına təkan vermişdir. Müsəlman Şərqində ilk opera teatrı 1869-cu ildə Qahirədə tikilmişdir.(Süveyş kanalının istifadəyə verilməsi şərəfinə) və həmin opera teatrında 1871-ci ildə Cüzeppe Verdinin «Aida» operası tamaşaya qoyulmuşdur.

Müsəlman Şərqində ilk Milli operanın müəllifi isə azərbaycanlı bəstəkar Üzeyir Hacıbəyovdur. Onun yazdığı «Leyli və Məcnun» operası (dahi Azərbaycan şairi Füzulinin eyni adlı əsəri əsasında) 1908-ci ilin yanvarında Bakıda (Qahirədə qoyulmuş ilk tamaşadan 37 il sonra) Hacı Zeynalabdin Гağıyevin tikdirdiyi teatrda tamaşaya qoyulmuşdur.

İslam dini başqa dinlərə nisbətən onlara münasibətdə də ən demokratik və dözümlü dindir. Eyni zamanda, İslam ölkələrində başqa xalqların mədəniyyətlərinə də maraq yüksək olmuşdur. Məsələn, Mirzə Fətəli Axundov islam dəyərlərini ən gözəl bilən şəxsiyyətlərdən biri olmuşdur. Lakin o, eyni zamanda Azərbaycanın milli-mənəvi dəyərlərini ümumbəşəri dəyərlər ilə zənginləşdirmişdir.

Beləliklə, islam ölkələrində də elmin, mədəniyyətin və incəsənətin sərhəd tanınmaması prinsipinə daim əməl edilir və edilmişdir.

Bütün bu deyilən faktların müqabilində Rusiyanın və Qərbin mürtəce dairələrində «islam təməlçiliyi» haqqında arası kəsilmədən aparılan təbliğatın və cəza tədbirlərinin (güya terrorçuluğa qarşı) davam etməsi təəssüf və nifrət doğurur.

1996-cı il oktyabrın ortalarında islamşunaslığa aid Bakıda keçirilmiş Beynəlxalq Konfransda nitqində Azərbaycan Prezidenti Heydər Əliyev demişdi: **«İnsanpərvərlik, sülhsevərlik, məzlumlara, ağır vəziyyətdə olanlara qayğı, yardım etmək; həyatda çətinliklərlə üzləşənlərə,**

**nicat yolu axtaranlara yol göstərmək prinsiplərini islam özünün əsas prinsipləri edibdir»**[1].

İslami dəyərlər dövlətçilik və qanunvericilik sahəsində daha demokratik və konkretdir. Bu dəyərlərin son 15 ildə müstəqillik qazanmış türkdilli xalqların dövlətlərinin möhkəmlənməsinə böyük təsiri olmuşdur. Müassir dövrdə islami dəyərlər, islam mədəniyyəti müsəlman-türk xalqlarını birləşdirmək işinə yaxşı xidmət edə bilər və etməkdədir.

İslam Konfransı Təşkilatı (1969-cu ildə Mərakeşin paytaxta Rabatda təsis edilmişdir) tərkibində hazırda 57 dövlət təmsil olunur. Azərbaycan dövləti bu beynəlxalq təşkilata 1991-ci ilin dekabrında qəbul olunmuşdur. IX Beynəlxalq İslam Konfransı (Qahirə, iyul 1997) «İslam və Qərb: keçmişi, bu günü və gələcəyi» mövzusuna həsr olunmuşdu və onun işində 80 ölkənin nümayəndələri iştirak etmişdi.

İslam Konfransı təşkilatının Elmi Tədqiqat Mərkəzi İstanbulda yerləşir.

Azərbaycan dövlətinin paytaxtında son illərdə islama dair bir neçə beynəlxalq tədbirlər keçirilmişdir: 1998-ci ilin 30 sentyabrında «Muasirlik və dini-mənəvi dəyərlər» mövzusunda konfrans, 1998-ci ilin 9-11 dekabrında «İslam sivilizasiyası Qafqazda» adlı beynəlxalq simpozium bu fəallığın təsdiqi və islamşünaslığa töhfədir.

Ulu öndər Heydər Əliyev türk-müsəlman dünyasının ən tanınmış liderlərindən biridir. Onun prezidentliyi dövründə Azərbaycanda ölüm cazasının ləğvi bütün müsəlman şərqində hamıdan əvvəl xüsusi fərmanla qəbul edilmişdir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra qəbul etdiyi ilk Konstitusiyasında (1994) ən yüksək dövləti hüquqi olan «yaşamaq hüququ»nu yazdı. Qeyd etmək yerinə düşər ki, bu hüquq SSRİ-də qəbul edilmiş 3 konstitusiyanın heç birində qəbul edilməmişdir.

Həmin humanist hüququn əhəmiyyəti Qərbin bütün ölkələrinin hamısında da qəbul edilməmişdir. İtaliya dövləti ölüm cəzasının ləğv etməyi 2009-cu ilin martında qəbul etmişdir.

---
[1] «Xalq» qəzeti, 17 oktyabr, 1996-cı il.



Son illər müstəqillik qazanmış türkdilli ölkələrdə islama qayıdış həmin ölkələrdə məsçidlərin tikilməsində xalqın fəyallığı, həcc ziyarətinə gedənlərin xeyli artması ilə müşahidə edilir.

Türk Xalqları Assambleyasında hazırda 40-a yaxın türk xalqı təmsil olunur (təşkilatın mərkəzi Türkıyə Respublikasında yerləşir). Assambleyanın başqanı İlmi Ömər oğlu 1998-ci ilin avqustunda Azərbaycanda olmuşdur.

İslam dini müsəlmanlar üçün təkcə din deyil, eyni zamanda həyat tərzidir. Deməli, bu dində müsəlmanların təkcə mənəvi həyatı yox, eləcədə maddi və fiziki, əxlaqi və intellektual, sosial və şəxsi həyatlarının məzmunu geniş əhatə edilir.

İsmam konfransı Təşkilatına daxil olan dövlətlərin mədəniyyət nazirlikləri 2007-ci ilin 21-23 noyabrında Tripoli (Liviya) şəhərində keçirilmiş V konfransında Bakının İslam Mədəniyyətinin 2009-cu ildə paytaxtı olması haqqında qərar qəbul etmişdir. Bu böyük tədbirin 2009-cu ildə keçirilməsinə başlanmışdər.

Azərbaycan Prezidenti İlham Əliyev 2009-cu ilin 18 fevralında «Bakı İslam mədəniyyətinin paytaxtı – 2009» mədəniyyət ilinin təntənəli açılışı mərasimində çıxışında demişdir: «Siyasi müstəvidə, beynəlxalq təşkilatlarda, Birləşmiş Millətlər Təşkilatında islam ölkələrinin birliyi, həmrəyliyi çox böyük əhəmiyyət daşıyır. Avropa ilə islam dünyası arasında münasibətlərin möhkəmlənməsi bizim maraqlarımıza cavab verir».[1]

İslamın banisi Məhəmməd (Əlehissalam) türk-islam dünyasının gələcəkdə böyük gücə malik olacağını söyləmişdir.

Məlumdur ki, ilk böyük türk-islam dövlətini qaraxanlılar Türküstanda (Kaşqar-Balasağunda) X əsrin əvvəllərində yaratmışlar. Bu haqda qaraxanlılar mədəniyyətinə aid «Satuq Buğra xan dastanı» (həcmi 135 s.) da mövcuddur. Dastanda deyilir: «Allahın Rəsulu Həzrəti Məhəmməd meraca çıxdığı gecə peyğəmbərlərin arasında tanımadığı bir sifəti görür. Onun da peyğəmbər olduğunu sanaraq, Həzrət Cəbrayıldan soruşur ki, «bu hansı peyğəmbərdir?» Həzrət Cəbrayıl

---
[1] «Xalq» qəzeti, 19 fevral 2009-cu il

ona belə cavab verir: «bu peyğəmbər deyildir, 333 il bundan sonra Türküstanı dinimizə gətirəcək Satuq Buğra xanın ruhudur». Həzrəti peyğəmbər böyük bir sevinc içində yerə enərək, türklər arasında islam dinini yüksəldəcək və yaymalı olacaq Buğra xana dua edir... 333 il sonra Satuq Buğra xan bir gecə röyasında göydən bir insanın endiyini və ona «müsəlman ol, dünya və axirətini qurtar» dediyini eşidir və o yuxudan duran kimi müsəlman olur...»

Son illərdə türkdilli xalqların ziyalıları tərəfindən müqəddəs islamın təbliği yolunda xeyli işlər görülmüşdür: islamın əsas kitabı olan «Qurani Kərim» bu xalqların dillərində nəşr edilmişdir.

## §3. Türksoy və onun fəaliyyəti

Beynəlxalq təşkilat olan Türksoy türk dünyasında cərəyan edən mədəni proseslərin inkişafına xidmət edən bir qurumdur. O, 1992-ci ilin oktyabrında Türkiyənin paytaxtı Ankarada çağrılmış türkdilli xalqların dövlət başçılarının birinci zirvə görüşündə yaradılmış və onun ilk sədri Azərbaycan döalətinin mədəniyyət naziri Polad Bülbül oğlu olmuşdur (2006-cı ilə qədər). Nazirdə Türksoyun baş direktoru ixtisasca musiqiçi olan Düsen Kaseinovdur (Qazaxıstan Respublikasının mədəniyyət naziri).

Türksoyun tərkibində 6 müstəqil dövlət (Türkiyə, Azərbaycan, Qazaxstan, Özbəkistan, Qırğızıstan, Kibris Türk Cümhuriyyəti), Rusiya Federasiyasının dövlətinin 6 muxtar subyekti (Tatarıstan, Başırdıstan, Saxa və Yakutiya, Tuva, Xakasiya və Altay), Qaqauziya, cəmisi 14 dövlət və muxtar dövlətçilik vahidi daxildir.

Türksoy beynəlxalq təşkilatı Türkiyədə yerləşir və təşkilatın «Türksoy» adlı jurnalı türk dilində nəşr olunur. Hazırda həmin jurnalın ingilis və rus dillərində nəşri üzrə də hazırlıq işi aparılır. Təşkilat Birləşmiş Millətlər Təşkilatını «Yunesko» təşkilatı ilə sıx əməkdaşlıq edir.

Türksoy Qazaxıstanda və Qırğızıstanda özünün mədəniyyat fondunu yaratmışdır və belə fond Azərbaycanda



da yaradılacaqdır. Hələlik Türksoyun əksəriyyət tədbirləri türkdilli xalqların mədəniyyət və incəsənət incilərinin geniş təbliğinə yönəldilmişdir. Məsələn, böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının 100 illiyini Türksoy tərəfindən də geniş təbliğ edilmişdir.

X Fəsil.

## TÜRKDİLLİ XALQLARIN XX ƏSRDƏ YETİŞDİRDİKLƏRİ GÖRKƏMLİ MƏDƏNİYYƏT XADİMLƏRİ

### §1. Üzeyir Hacıbəyov (1885-1948)

Şərqdə böyük bəstəkar olaraq tanınan Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov Azərbaycanın Şuşa qəzasının Ağcəbədi kəndində 1885-ci ildə anadan olmuşdur.

1899-1904-cü illərdə Qori müəllimlər semenariyasının Azərbaycan şöbəsini bitirmişdir. Onun ilk musiqi müəllimi Azərbaycan musiqisinin gözəl bilicisi olan dayısı Ağası Əliverdibəyov olmuşdur.

Uzeyir Hacıbəyovun 1907-ci ildə yazdığı «Leyli və Məcnun» operası Şərqdə ilk milli (Azərbaycan) operasıdır.

Bu operaya xüsusi əhəmiyyət verən hal ondan ibarətdir ki, həmin opera müsəlman Şərqində geniş yayılmış muğam əsasında yazılmışdır.

«Leyli və Məcnun» operasının tamaşaya qoyulmasının 100 illiyi 2008-ci ildə Azərbaycanda, Türkiyədə, Türkmənistanda və digər ölkələrdə geniş qeyd edildi. Həmin ilin 11-14 sentyabrında Türkiyədə Türksoy xəttilə keçirilən tədbirlərdə Qazaxıstan, Qırğızıstan, Tatarıstan, Başqırdıstan, Şimali Kipr (Kıprıs) və Xakasiyadan geniş nümayəndə heyətləri iştirak etdilər.

Dahi bəstəkar Üzeyir Hacıbəyov «Leyli və Məcnun»dan sonra yazdığı «Şeyx Sənan» (1909), «Rüstəm və Zöhrab» (1910), «Şah Abbas və Xurşidbani» (1912), «Əsli və Kərəm» (1912), «Harun və Leyla» (1915) operaları ilə Azərbaycan musiqisini dünya musiqi mədəniyyəti inciləri səviyyəsinə qaldırılmışdır.

Görkəmli bəstəkar Üzeyir Hacıbəyov eləcə də bir neçə musiqili komediyanın müəllifidir: «Ər və arvad» (1909), «O olmasın, bu olsun» (1910), «Arşın mal alan» (1913) operaları da klassik incəsənət nümunələridir. «Arşın mal alan» musiqili komediyası dünya xalqlarının 66-nın



dilində (o, cümlədən Amerika Birləşmiş Ştatlarında) səsləndirilmişdir. Məşhur rus bəstəkarı Qlazunov «Arşın mal alan»ı bütün dünyanın ilk məşhur operattası adlandırılmışdır. Həmin operatta 4 dəfə kinoya çəkilmişdir.

Üzəyir Hacıbəyovun məşhur qəhrəmanlıq operası olan «Koroğlu» operası (1937) 1937-ci ildə Moskvada Böyük Teatrda tamaşaya qoyulmuş və müəllifinə böyük şöhrət qazandırmışdır.

Azərbaycan Dövlət Konservatoriyası da Üzeyir Hacıbəyovun rəhbərliyi altında yaradılmış və o, Müsəlman Şərqinin ali musiqi ocağının ilk rektoru (indi Musiqi Akademiyası adlanır) olmuşdur.

Azərbaycan Respublikasının 1919-cu ildə və 1945-ci ildə tərtib edilmiş himninin musiqisini də Üzeyir Hacıbəyov yazmışdır.

Üzeyir Hacıbəyov professional Şərq musiqisinin atası sayılır. O, eyni zamanda görkəmli ictimai xadimi kimi tanınır.

Böyük bəstəkar II dünya müharibəsi illərində «Cəngi» (1941), «Vətən və cəbhə» (1942) kantatalarını, onlarla vətənpərvər ruhlu mahnıları yazmışdır. Onun «Sənsiz» (1941) və «Sevgili canan» romansları çox məşhurdur.

Üzeyir Hacıbəyov «Azərbaycan Xalq musiqisinin əsasları» (1945) adlı kitabının müəllifidir. Onun əsərləri 10 cild həcmində nəşr edilmiş, «Üzeyir Hacıbəyov» ensiklopediyası isə 1996-cı ildə çapdan çıxmışdır.

Dahi bəstəkarın cənazəsi Bakıda (1948-ci il) «Fəxri xiyaban»a qədər çiyinlərdə aparılmışdır.

Sonrakı illərdə Azərbaycanda yetişmiş görkəmli bəstəkarlar dəstəsi – Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Sultan Hacıbəyov, Arif Məlikov kimi məşhur bəstəkarlar dahi bəstəkar Üzeyir Hacıbəyov məktəbinin və irsinin yetişdirmələridirlər. Bu yetişdirmələr içərisində Azərbaycan milli musiqisinin inkişafında və xüsusilə muğamın sinfoniya ilə birləşdirilməsində Fikrət Əmirovun və Niyazinin xidmətləri çox olmuşdur.

## §2. Görkəmli türk şairi Nazim Hikmət

Türk dünyasının görkəmli şairi Nazim Hikmət 1902-ci ilin 20 yanvarında (bəzi mənbələrə görə 15 yanvarında) Salonikdə dünyaya göz açmışdır.

1927-ci ildə yazdığı «Yolçu, yolun Şərqə isə» şerində Nazim Hikmət qoca Şərqə böyük ehtiram hissi ilə yazmışdı:

*Yolçu, Şərqə isə yolun, onda sən*
*Hər daşı müqəddəs xərabəyə bax!*
*O yerdə son damla qanını tökən*
*Yaralı igidlər vuruşur, qoçaq.*

Nazim Hikmət ilk dəfə Azərbaycanda 1927-ci ildə olmuşdur. 1928-ci ildə Bakıda Nazim Hikmətin ilk kitabı olan «Günəşi içənlərin türküsü» əsəri nəşr olunmuşdur. 1930-cu ildə isə o, «Bəhri xəzər» şerini yazmışdır. Səməd Vurğun 1929-cu ildə Nazim Hikmətə «Hərəkət» şerini ithaf etmişdir.

Nazim Hikmət 1959-cu ilin mayında «Ədəbiyyat və incəsənət» qəzetində çap etdirdiyi yazısında **«mən bir qədər azərbaycanlıyam»** deyə özünü təqdim etmişdi.

Azərbaycanda Nazim Hikmət XX əsrin 30-cu illərinin sonlarından başlayaraq geniş tanındı. Onun «Kərəm kimi» şerinin

*Mən yanmasam,*
*sən yanmasan,*
*biz yanmasaq*
*Necə çıxar*
*qaranlıqlar aydınlığa...*

misraları milli marş kimi hər yerdə səslənmişdir.

Sonrakı illərdə Nazim Hikmətin «Şöhrət və ya unudulan Adam» (1935) pyesi, «Alman faşizmi və irqçiliyi» (1936) kitabı, «Şeyx Bədrəddin dastanı» (1936) Türkiyədə nəşr olunmuşdur. Siyasi baxışlarına görə 1938-50-ci illərdə həbsdə olan şair «Memleketimdə insan menzereleri» əsərini, «Hebsxanadan məktublar» silsiləsini, «Məhəbbət əfsanəsi» və «Yusif və Züleyxa» pyeslərini yazmışdır.

Nazim Hikmətin əsərlərinin süjetləri əsasında «Eyni məhəlləli iki oğlan» (1957), «Yaşamaq gözel şeydir,



kardeşim» (1966), «Məhəbbətim, kədərim mənim» (1978) və digər adlarda kino və baletlərə musiqini görkəmli Azərbaycan bəstəkarı Arif Məlikov yazmışdır.

Nazim Hikmət Ümumdünya Sülh Şurası Rəyasət heyətinin və Bürosunun üzvü olmuşdur.

Qonşu Türkiyə dövlətinə düşmənçilik siyasəti yeridən Sovet dövləti rəhbərliyi Nazim Hikmətə Türkiyə xalqının məhəbbətini düzğün qiymətləndirə bilməmişdir: xüsusilə onun sağlığında və hətta 60-80-cı illərdə Türkiyədə onun əsərlərinin qadağan edilməsi haqqında Sovet mətbuatında tez-tez təkrarlanan məlumatlar əsassız idi. Həmin illərdə SSRİ-nin türkdilli xalqlarının ziyalıları üçün Türkiyəyə səfər etməyə qarşı da müxtəlif əngəllər və bəzi hallarda qadağalar həyata keçirilirdi.

Keçmiş Sovetlər İttifaqının dağılması əsasında müstəqillik qazanmış türkdilli xalqlar indii qardaş Türkiyə dövləti ilə hərtərəfli əlaqələrini genişləndirirlər.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən (1991) sonrakı illərdə Azərbaycan-Türkiyə siyasi əlaqələri xeyli güclənmiş və genişlənmişdir. Burada, onu da demək yerinə düşər ki, Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkə Türkiyə oldu.

Nazim Hikmət şərəfli bir həyat və yaradıcılıq yolu keçmişdir. O, Amerikada çap olunmuş «XX əsrin ən böyük şairləri» kitabına daxil edilmiş 25 şairdən biridir. Bu böyük şərəf Türk dünyasından yalnız Nazim Hikmətə qismət olmuşdur.

Bəzi siyasi səbəblərə görə Türkiyədə bir neçə il həbsxanada qalmış böyük şair 1951-ci ilin iyununda motorlu qayıqla Rumıniya gəmisinə çataraq SSRİ-yə mühacirət etdi.

Vətənini tərk etmək məcburiyyətində qalan Nazim Hikmət Türkiyənin XX əsrdə yetişdirdiyi ən böyük şairlərdən biridir. Ömrünün son vaxtlarında deyərmiş:

«Ölümdən sonra millətimlə mənim aramda bir barışıq başlayacaq»[1].

Nazim Hikmətin «Qəribə Adam» (1956) pyesi müəyyən mənada özünün siyasi həyatına həsr olunmuşdur. Əsərin əsas ideyası budur: insan xalqından ayrılarsa tək qalar, qabiliyyətini göstərə bilməz. Əsərin qəhrəmanı Əhməd Rza kommunist deyildir, lakin namuslu olması onu kommunistlərin sırasına gətirib çıxarmışdır.

«Qəribə Adam» əsərinin tamaşasının musiqisini dünyanın görkəmli bəstəkarlarından biri olan azərbaycanlı Qara Qarayev yazmışdır.

Azərbaycana ilk gəlişindən 30 il sonra Nazim Hikmət 1957-ci ilin noyabrında təkrarən Bakıya gəlmiş və Azərbaycanda təxminən bir ay qalmışdır. Nazim Hikmətin yazdığı «Eyni məhəlləli iki oğlan» əsəri əsasında Əjdər İbrahimov 1956-cı ildə Azərbaycanda film çəkmişdir və bu filmə baxışda Nazim Hikmət iştirak etmişdir.

Nazim Hikmətin «Bakıya gedirəm» adı ilə sonralar nəşr edilmiş kitabına (1984) «Bakıya gedirəm» (1957) məqaləsi də daxil edilmişdir. Azərbaycana bu gəlişi günlərində böyük şair Gəncə və Qazaxda ziyalılarla görüşmüşdür. Bu görüşlərdə o, Azərbaycan xalqının şerə və şairə böyük ehtiramını məmnunluqla qeyd etmişdir. O, yazmışdır: «Burada mən hara getdimsə, Səmədə (Səməd Vurğun nəzərdə tutulur) rast gəldim. Hər şəhərdə, hər kənddə, hər məktəbdə, hər klubda, neft buruqlarının yanında, pambıq tarlalarında, hər evdə Səmədlə üz-üzə gəldim. Hər süfrədə qədəhimi onun qədəhi ilə doqquşdurdum, hər narı, hər üzüm salxımını Səmədlə bölüşdürdüm...»[2].

1951-1963-cü illərdə Nazim Hikmət SSRİ-də yaşamışdır. Həmin illərdə onun Azərbaycan ilə əlaqələrinin genişlənməsinə və möhkəmlənməsinə Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rüstəm, Arif

[1] Nazim Hikmətin Türkiyə vətəndaşlığı, 2009-cü ilin yanvarın əvvəlində bərpa edilmişdir.

[2] Bakıya gedirəm. «N.Hikmət və Azərbaycan» kitabında, B, 1984, 45.



Məlikov, Qara Qarayev, Aqşın Babayev, türkoloq Əkbər Babayev, İslam İbrahimov və digər mədəniyyət xadimləri xidmətlər göstərmişlər. Aqşın Babayev «Nazim Hikmət və Azərbaycan» adlı məqaləsində yazmışdır. «Nazim Hikmət Azərbaycana və azərbaycanlılara son dərəcə böyük rəğbət bəsləyirdi. Nazim Hikmət görüşlərinin birində demişdi: «Canım, gözüm bakılılar! Bakıya gəldim, dünyalar mənim oldu! İnanın, həmişə sizi xatırlayıram. Bakı, Azərbaycan bilirsizmi mənə nə qədər əzizdir? Mənim gələcəyim də, qocalığım da Bakıya bağlıdır»[1]. Böyük şair Bakıda görkəmli Azərbaycanın mədəniyyət xadimlərinin əksəriyyəti ilə ünsiyyətdə olmuşdur.

Nazim Hikmətin «Bakıya gedirəm» kitabında toplanmış «Neftə doğru (yol dəftərindən)»: «Günəşi içənlərin türküsü», «Arpa çayının iki yanı», «Xəzər dənizi», «Bakıya gedirəm» (1957), «Otuz il sonra» (1957), «Səməd Vurğuna» (1957), «M.Rəfiliyə» (1958), «Gecə vaxtı Bakı», (1960) şerləri böyük şairin Azərbaycana və onun xalqına dərin sevgisini tərənnüm edir.

Nazim Hikmət yazmışdır: «Azərbaycan musiqisi ulu bir çinar kimidir. Kökləri Azərbaycan torpağının, xalqının dərinliklərindədir, qövdəsi dostluq, nikbinlik, ümud kimi sağlam, yekəpərdir. Budaqları bir-birindən sıx, qol-qol, ayrı-ayrı tərəflərdən eyni göy üzünə yüksəlir»[2].

Nazim Hikməti Azərbaycanda çox sevirdilər və indi də sevirlər. 1957-ci ildə bir aya qədər Azərbaycanda olarkən onu Bakıda 40-dan çox evə qonaq çağırmışdılar və bəzən bir gündə üç yerdə qonaq olurdu[3].

Nazim Hikmət Azərbaycanda 1957-ci ildə olarkən Gəncə Dövlət Dram teatrında özünün «Kəllə» pyesinin tamaşasına baxmışdır. Bu əsərin radio tamaşası 1953-ci ildə Bakıda lentəə yazılmışdır. (Dalbanezo rolunda məşhur səhnə ustası Ələsgər Ələkbərov çıxış etmişdir). Bu əsər İstanbulda da tamaşaya qoyulmuş, bir çox dillərə (ingilis,

[1] «Qobustan» jurlanı, 1982, №2.

[2] Bakıya gedirəm, N.Hiymət və Azərbaycan, s.48.

[3] Abuzər İsmayılov, Nazim Hikmət (Həyat və yaradıcılıq salnaməsi) Bakı, 1990, s. 110-111.

italyan, rus, alman, rumın, çex, ərəb, polyak və s.) tərcümə edilmişdir[1].

Nazim Hikmət vətəni Türkiyəni həddsiz dərəcədə sevirdi. Moskvada keçirilmiş beynəlxalq konqreslərin birində Türkiyədən gəlmiş nümayəndə heyəti ilə hər gün görüşürdü. Belə şam yeməyi görüşlərinin birində Türkiyədən gəlmiş qonaqların heç birinin barmağında üzük olmadığını gördükdə, Nazim Hikmət soruşdu: «xayır ola, artıq Türkiyədə üzük taxmırlarmı?». Ona cavab verdilər ki, «Türkiyədə 27 may çevrilişindən sonra xəzinəyə yardım kompaniyası keçirildi və bu zaman qadınlar öz zinət şeylərini, kişilər də üzüklərini xəzinəyə bağışladılar». Nazim Hikmət öz barmağındakı üzüyü çıxararaq professor Fahir İzə verdi və xahiş etdi ki, Türkiyəyə qayıdarkən xəzinəyə versin. Lakin professor söylədi ki, bu üzüyü gömrükdən keçirmək mümkün olmayacaqdır, çünki, biz «gömrükxanadan keçərkən üzüksüz keçdik, indi dönərkən bir üzüklə keçsək, başımız bəla çəkər»[2]. Bu həyacanlı söhbət Nazim Hikmətə və türkiyəli qonaqlara ağır təsir etdisə də, Nazim Hikmətin böyüklüyünü bir daha göstərdi.

Nazim Hikmət Azərbaycanda üçüncü dəfə 1960-cı ildə olmuşdur.

Böyük şairin əsərləri Azərbaycanda 50-ci illərdə və sonra «Seçilmiş əsərlər» (1952), «Şerlər» (1952), «Seçilmiş əsərlər» (1 cild 1961, II cild 1963), «Azərbaycan haqqında şerləri» (1984) adları ilə nəşr edilmişdir.

Azərbaycan teatrı səhnələrində Nazim Hikmətin «Türkiyədə» (1953), «Qəribə adam» (1956), «Kəllə»

---

[1] Böyük şair Nazim Hikmətlə 1957-ci ildə Bakıda görüşmüşəm. Noyabrın 6-sı axşamı M.F.Axundov adına Opera və Balet teatrında bəstəkar Fikrət Əmirovun «Sevil» operası tamaşaya qoyulmuşdu. Bakıda qonaq olan böyük şairə hərtərəfli xidmət etmək Bakı şəhərinin meri Nəcməddin Əhmədova tapşırılmışdı (Nəcməddin Əhmədov Ali Partiya məktəbində oxuyarkən mənim tələbəm olmuşdur). Tamaşanın bir fasiləsində təsədüfən rastlaşdıq və şəhərin meri məni böyük şairə təqdim etdi. Qısa söhbət etdik. 55 yaşlı Nazim Hikmət Türkiyədə sonralar gördüyüm uca boylu, şux və qıvraq kişilərdən bəlkə də ən cazibədarı idi.

[2] Əbuzər İsmayılov, Nazim Hikmət (Həyat və yaradıcılıq salnaməsi) Bakı, 1990, s.114-115.



(1957), «Domoki qılıncı» (1960), «Şöhrət və ya unudulmuş adam» (1961) pyesləri tamaşaya qoyulmuşdur.

Nazim Hikmət «Literaturnaya qəzetanın 1960-cı il 11 iyun nömrəsində «Mən Bakını gəzirəm» adlı məqalə ilə çıxış etmişdi: Həmin məqalədə Bakıda Azərbaycan şairi Xurşud Banu Natəvanın abidəsinin açılışındakı özünün çıxışında o, bildirdi ki, bu abidə Şərqdə ilk qadın-şair abidəsidir.

Ölümündən bir qədər əvvəl yaxdığı «Yaşamaq gözəl şeydir, kardeşim» romanında Nazim Hikmət özü haqqında çox şeyləri söylədi. Fəqət, hamısını yox!

Rəsul Rza 1970-ci ildə «Nazimlə görüş» adlı şerini yazmışdır.

Görkəmli şairə Nigar Rəfibəyli Nazim Hikmətin ölümünə həsr etdiyi «Bəşər oğlu» şeyrində ona «qardaş» deyə müraciət edərək, 1963-cü ilin 6 iyununda yazmışdı:

*İstəyin – insan fənalığını*
*təmizləmək*
*Əzilən bəşəriyyət üçün*
*Döyünürdü sinəndəki*
*böyük ürək ...*

Azərbaycan şairi Teymur Elçinin 1974-cü ildə yazdığı «Bu dünyadan Nazim keçdi» şerinə məşhur bəstəkar Fikrət Əmirov musiqi bəstələdi və Zeynəb Xanlarova məşhur Niyazinin dirijorluğu ilə bu mahnını 1976-cı ildə ifa etdi.

Böyük bəstəkar Niyazi Hacıbəyov 1977-ci ildə «Ədəbiyyat və incəsənət» qəzetində «Nazım. Bu günün, gələcəyin şairi» adlı məqaləsində yazmışdı: «Moskvada ilk dəfə türk sinfonik musiqi səslənəndə Nazim böyük fərəh hissi keçirirdi. Türk bəstəkarlarından Adnan Sayqunun və Ülvi Camal Erkinin sinfoniyalarını konservatoriyanın böyük salonunda Moskva musiqisevərlərinə ilk dəfə mən tanıtdırdım. Yadımdadır, hər fasilə zamanı o, «Mənim arslanım» deyə sevinclə məni bağrına basmışdı.

Leninqradda Opera və Balet teatrında Nazimlə birgə keçirdiyim həyacanlar indii də qəlbini üşüdür... Bəstəkar Arif Məlikovun musiqi böyük müvəffəqiyyət qazanmışdı...

Balet («Məhəbbət əfsanəsi» baletinin librettosunu Nazim Hikmət özünün «Bir eşq masalı» əsəri əsasında yazmışdır) doğrudan da əsil sənət bayramına çevrilmişdi...».

Türkiyənin görkəmli ictimai xadimi Yaşar Kamal 1969-cu ilin 3 iyununda nəşr edilmiş «And» adlı məcmuədə çap etdirdiyi «Nazim Hikmət və xalq» adlı məqalədə ürək yanğısı ilə yazmışdır: «Nazim Hikməti sevmək, ona heyran olmaq, yəni onu öyrənmək, onu başa düşmək deməkdir. İşin pis cəhəti orasındadır ki, N.Hikmətin həyatını orta səviyyəli bir rus yazıçısı yazır və biz onu türkcəyə çevirmək məcburiyyətində qalırıq. Belə olmaz...»[1].

## §3. Hüseyn Cavid (1882-1941)

Hüseyn Abdulla oğlu Rəsizadə (Cavid) ilk şerlərini klassik üslubda yazmışdır. O, 1899-1903-cü illərdə Cənubi Azərbaycanda yaşayaraq, Təbriz mədrəsəsində təhsilini davam etdirmiş, 1909-cu ildə İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirdikdən sonra Naxçıvanda, Gəncədə, Tiflisdə və Bakıda müəllimlik etmişdir.

Azərbaycan romantizminin banisi olan Hüseyn Cavid eyni zamanda burada ilk mənzum faciə və dram əsərlərinin də banisidir. Onun yazdığı «Ana» (1910) pyesində, «Maral» (1913) və «İblis» (1918) əsərlərində, «Şeyx Sənan» (1914) faciəsi və «Şeyda» (1917) dramında şəxsiyyət problemləri və qadın azadlığının ideyaları verilir. Bu əsərlərdə eləcə də «İyirminci əsrin «mədəni şəhşilikləri» olan imperialist və müharibəgir qüvvələrin iblis surəti lənətlənir, xalqlara sülh və bərabərlik, maarif və mədəniyyət gərəkliyi təbliğ edilir.

H.Cavidin tarixi mövzuda yazdığı dram əsərləri: «Peyğəmbər» (1922), «Topal Teymur» (1925), «Səyavuş» (1933), «Xəyyam» (1935), «İblisin intiqamı» (1936), dram əsərləri tarixi şəxsiyyətlər fəaliyyətinə müəllifin baxışı və

[1] Ədəbiyyat və incəsənət qəzeti, 22 yanvar, 1977.



azad fikirliyi mövqeyindən çox qiymətlidir. Onun yazdığı 118 dram əsərindən beşi itmişdir.

İranda «Şahənşahlıq» dövründə Cənubi Azərbaycanlıların insan hüquqlarından məhrum edilməsi faktı vətənpərvər ədibi düşündürmüş və bu mövzuda o, «Telli saz» (1930) dramını yazmışdır.

Bir çox görkəmli şəxsiyyətlər kimi Hüseyn Cavid də XX əsrin 30-cu illərinin ortalarında həyata keçirmiş represiya qurbanı olaraq Rusiyanın Uzaq şərqinə sürgün edilmiş və orada həlak olmuşdur.

Hüseyn Cavidin 100 illik yubileyi (1982) ərafəsində görkəmli dövlət xadimi Ümummilli Lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Hüseyn Cavidin cəsədinin qalıqları İrkutsk vilayətindən Haxçıvana gətirilərək vətəndə dəfn edilmişdir. «Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir» (Heydər Əliyev).

## §4. Səməd Vurğun (1906-1956)

Şərq mədəniyyətinə xas olan fəlsəfi dərinliklərə ruhən vurğun olan böyük şair dünya hadisələrini rəmzi mənada «tamaşa» adlandıraraq yazmışdı:

*Bir də görürsən ki, açılan solur*
*Düşünən bir bəyin bir torpaq olur*
*Bir yandan boşalır, bir yandan dolur*
*Sirrini verməyir sirdaşa dünya.*

Səməd Vurğun çoxsaylı türkdilli xalqların da tərkibinə daxil olduğu böyük Sovetlər İttifaqı yazıçılarının 1954-cü ildə çağrılmış qurultayında «Sovet poeziyası haqqında» əsas məruzəçi olmuş və bütün dünya ədəbi ziyalıları qarşısında parlaq ideyalarla dolu hesabat vermişdir.

Böyük ədib hələ XX əsrin 30-40-cı illərində «Vaqif» (1937), «Fərhad və Şirin» (1941), «İnsan» (1945), «Muğan» (1948), «Aygün» (1951) və digər çox saylı və iri həcmli roman və romantik (mənzun) poemaların müəllifidir.

Yaradıcılığının erkən dövründən başlayaraq Səməd Vurğunu bölüşdürülmüş Azərbaycan ideyası həmişə narahat etmişdir.

Vətənin nə vaxtsa birləşəcəyinə inanan böyük şair yazmışdır:

*Bizim ki, atamız, anamız birdir*
*Qəlbimiz, eşqimiz ayrı deyildir*
*Düşdü qılınc kimi ortadan Araz...*
*Fəqət yanan günün ömrü çox olmaz.*

Xalq şairi və akademik Səməd Vurğun yeddi il (1941-1948) Azərbaycan Yazıçılar İttifaqının sədri, Azərbaycan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti (1954-1956) olmuşdur.

Yüksək dərəcədə vətənpərvər və türk dünyasının vurğunu olan şair hələ əsrin 30-cu illərində qadağan edilmiş «türk» sözünü işlətməkdən çəkinməyərək, «Rəhbərə salam» şerində yazmışdı:

*Bakının sayrışan ulduzlarından*
*Çadrasız, boylamsız türk qızlarından*
*Salam gətirmişəm hüzuruna mən*
*Bu gündən, gələcək qərinələrdən.*

Səməd Vurğun yüksək səviyyədə insanpərvər, humanist bir şairdir. Onun insanlığa dair ümumi bəşəri ideyaları faşizmə qarşı çıxışlarında, «Ölüm kürsüsü» və «Zəncinin arzuları» şeirlərində geniş tərənnüm edilmişdir.

Böyük şairin «Azərbaycan» şerri mübariz himni kimi səslənir və Azərbaycan xalqının milli varlığını gözəl tərənnüm edir.

Səməd Vurğun ideyaca öz dövrünü qabaqlayan dahi şəxsiyyətlər sırasına daxildir. Cəmisi 50 il ömr yaşamış böyük mütəfəkkir «Şair, nə tez qocaldın sən» (1953) şerində özünün 8 il əvvəl yazdığı «İnsan» mənzum poemasında yaratdığı professor Şuhbaz obrazının gözəl məziyyətlərini təbliğ etməklə Şərqin dərin mənalı ideyalarını yada saldı.



## §5. Məhəmməd Şəhriyar (1906-1988)

Türk dünyasında Şəhriyar adı ilə tanınan Cənubi Azərbaycanın məhşur şair[1] Məhəmməd Hüseyn Şəhriyarın atası Hacı Mirzə ağa Cənubi Azərbaycanın Xoşqinabı qəsəbəsinin (Təbriz ətrafındadır) Heydər Baba kəndinin vəkilliklə məşğul olmuş şeyidlərindəndir.

Şairliklə məşhur olan Şəhriyar son dərəcə həssas qəlbə malik bir şəxsiyyət olmuşdur və yazdığı şeyrlər də çox incə və gözəldir. Şəhriyar özünə məxsus incə şivədə və xalqın danışıq dilində yazdığı «Heydərbabaya salam» poeması mənzuməsi bu deyilənlərin təsdiqidir.

*Heydər baba, kəkliklərin uçanda*
*Kol dibindən dövşan qalxıb qaçanda*
*Bizdən də bir mümkün olsa yad-eylə*
*Açılmayan ürəkləri şad eylə*

***

*Xəzan yeli yarpaqları tökəndə*
*Bulud dağdan yenib kəndə çökəndə*
*Şeyxul-İslam gözəl səsin çekəndə*
*Nisgilli söz ürəklərə dəyərdi*
*Ağaclar da Allaha baş əyərdit.*

Cənubi Azərbaycanda fars dilinin hökmran vəziyyəti şairi də əsərlərinin əksəriyyətini fars dilində yazmağa məcbur etmişdir[1].

Eyni zamanda Şəhriyar doğma türk dilində də incilər yetişdirmişdir.

«Türkün dili» haqqunda şerində:

*Türkün dilitək sevgili ehcazlı dil olmaz*
*Ayrı dilə qatsan ədəbiyyat əsil olmaz*
*Öz ləfzini farsa, ərəbə qatmasa şair*
*Şerini oxuyarlar, eşidənlər kəsl olmaz.*

---

[1] Cənubi Azərbaycan ədəbiyyatı müntəxəbat. İkinci cild, B, 1988, s.126.

Ustad şair Şəhriyar Şimali Azərbaycan şairlərinə böyük hörmətini bildirərək, «Süleyman Rüstəmə cavab» şerində yazmışdı:

*Qardaşların gözündən öp*
*Bəxtiyarın üzündən öp*
*Səmədin də sözündən öp*
*Mən də təkəm, Sizə qurban*
*Tək canım hamı(nı)za qurban.*

«Şəhriyar bütün müsəlman dünyasının qüdrətli bir şairidir» (Heydər Əliyev).

## §6. Mustafa Topçubaşov (1898-1981)

Dünya şöhrətli cərrah Mustafa Ağabəy oğlu Topçubaşov təbabət alimi və fitri istedada malik cərrah kimi özünə məxsus müalicə üsulları müəllifidir. Dünyada geniş istifadə edilən analgeziya üsulunu o kəşf etmiş (1937) və ilk dəfə özü istifadə etmişdir.

1941-45-ci illər müharibəsi illərində Sovetlər İttifaqı müalicəxanalarında yaralı döyüşçülərin müalicəsində misilsiz xidmətlər etmişdir. Onun ixtira etdiyi apart yaralı döyüşçülərin bədəninə pərçim olmuş və irinləmə prosesi yaradan qəlpələrin yerini və tərkibini müəyyən etməklə cərrahiyyə əməliyyatlarını xeyli asanlaşdırmışdır. Bütün bu xidmətlərinə görə akademik (1945) M.Topçubaşov Beynəlxalq Cərrahlar Assosiasiyasının fəxri üzvü (1950) seçilmişdir.

Görəkmli elm və içtimai xadim olan M.Topçubaşov Azərbaycan Respublikası Ali Sovetinə 10 il sədrlik etmiş, Azərbaycan Respublikasının Elmlər Akademiyasının 20 ilə yaxın vitse-prezidenti olmuşdur.

Akademik M.Topçubaşov Azərbaycanda böyük bir cərrahlar məktəbi yaratmışdar.

Akademik M.Topçubaşovun Azərbaycan klassik musiqinin banisi haqqında fikirləri də çox qiymətlidir. O, demişdir: «Mən Üzeyir bəyi (Hacıbəyovu) Avropa bəstəkarlıq məktəbinin Bax, Verdi, Motsart, Bethoven,



Şestakoviç kimi nümayəndələri ilə müqayisə etmək istəyirəm... Hacıbəyov özü ayrıca bir məktəb idi».

## §7. Rəşid Behbudov (1915-1990)

Azərbaycan mahnılarına dünyada geniş yol açan lirik tenor Rəşid Behbudov müasir vokal sənətinin görkəmli nümayəndəsidir. Gözəl səsi və yüksək ifaçılıq maherəti ilə dünyanın əksəriyyət ölkələrinin səhnələrində Azərbaycan və digər xalqların mahnılarını yüksək səviyyədə təbliğ etmişdir. Onun İslam Səfərlinin sözlərinə yazılmış «Anna» mahnısını ifa etməsi xüsusilə uğurlu və yaddaqalan olmuşdur.

Rəşid Behbudov görkəmli müğənni Fikrət Əmirovun «Sevil» operasında Balaş və dahi bəstəkar Üzeyir Hacıbəyovun «Arşın mal alan» operettasında Əsgər rollarını böyük ustalıqla ifa etmişdir. O, Azərbaycanda mahnı teatrının yaradıcısıdır. Həmin teatr dünyada ilk mahnı teatrıdır.

Rəşid Behbudovun 1953-cü ildə ABŞ-da buraxılmış valı bütün dünyada geniş yayılmışdır.

Görkəmli müğənni özü də bir neçə yadda qalan mahnı bəstələmişdir: «Səni tərənnüm edirəm doğma Azərbaycanım» mahnılar silsiləsi bu qəbildəndir. «Biz fəxr edirik ki, bizim Rəşid Behbudov kimi müğənnimiz olmuşdur» (Heydər Əliyev).

## §8. Şövkət Ələkbərova (1922-1993)

Azərbaycan xalq mahnılarının gözəl və mahir ifaçısı Şövkət xanım Feyzulla qızı Ələkbərova öz məlahətli səsi və ifaçılıq ustalığı ilə xalqın böyük sevgisini qazanmışdır.

Cavan yaşlarında xalq artisti adına layiq görülmüş Şövkət xanım geniş ifaçılıq proqrammı ilə yaxın və orta şərq xalqlarının mahnılarından nadir ifaçısıdır.

Xalq artisti Şövkət Ələkbərova türkdilli xalqlar yaşayan ölkələrdə, eləcə də Şərqin və Qərbin bir çox ölkələrində böyük uğurlarla çıxışlar etmişdir.

Bakıda 1990-cı il 20 yanvar faciəsini sevimli müğənni Almaniyada müalicədə olarkən eşitmiş və Hamburq şəhərində Almaniyada yaşayan həmyerlilərinin xahişi ilə özünün son müsamirəsini (konsertini) vermişdir.

Azərbaycanın görkəmli musiqi xadimləri və istedadlı gənc mahnısevərləri Şövkət Ələkbərovanı özlərinin əvəz olunmaz müəllimi hesab edirlər.

## §9. Rəşad Nuri Güntəkin (1892-1956)

XX əsr Türkiyə ədəbiyyatının görkəmli nümayəndəsi, roman janrının mahir ustası Rəşad Nuri Güntəkin eyni zamanda fəal ictimai xadim olmuşdur. O, türk dilinin ərəb və fars sözlərindən təmizlənməsi və Türkiyədə latın əlifbasına keçmək üzrə yaradılmış komisiyanın işində fəal iştirak etmişdir.

On doqquz romanın və çoxsaylı hekayələrin müəllifi olan R.N.Güntəkinin birinci romanı «Çalı quşu» 1922-ci ildə nəşr olunmuşdur. Müəllifin «Çalı quşu», «Damğa», «Dodaqdan qəlbə» və digər romanları XX əsrin 30-cu illərindən başlayaraq Azərbaycan oxucusununda diqqətini cəlb etmişdi. Əsər rus dilinə də tərcümə olunduğu üçün SSRİ-də yaşayan türkdilli xalqlar arasında geniş yayılmışdır.

«Çalı quşu» romanının əsas mövzusu Türkiyədə maarif sisteminin vəziyyəti və çatışmayan cəhətlərinini təsviridir. Müəllif azadlıq axtaran gəncləri (romanda qızları) azadlıq axtaran qəfəsdəki quşlara bənzədir.

Rəşad Nuri Guntəkinin digər romanlarında «Yarpaq tökümü» (1930), «Dəyirman» (1944)də cəmiyyətdə sadə insanların həyat şəraitinə qarşı süni maneçiliklər yaradan, ədalətsizliklər törədənlərin, məişət xidmətindəki çatışmazlıqlarının bədi təsviri verilmişdir. Rəşad Nuri Güntəkin türkdilli Azərbaycanda da ən çox oxunan yazarlardan biridir.



## §10. Məqsud Şeyxzadə (1908-1967)

Azərbaycanda dünyaya göz açmış Məqsud Məsim oğlu Şeyxzadə 1925-ci ildə Bakı Müəllimlər İnstitutunu bitirmiş və 1927-ci ildə Nəriman Nərimanova həsr etdiyi «Nəriman haqqında Şərq masalı» poemasını yazdıqdan sonra öz həyatını Özəbistanla bağlayaraq orada yaşamış və özbək dilində yaradıcılığını davam etdirmişdir.

Məhsuldar şair bir-birinin ardınca «On şeir» (1932), «Respublika» (1935), «Vətən şerləri» (1948) kitablarını, «Ağsaqqal» (1943), «Daşkəndnamə» (1988) poemaların «Cəlaləddin» (1941) pyesini, «Mirzə Uluqbəy» (1964) faciəvi dramını yazmış və oxucular tərəfindən böyük ehtiramla qarşılanmışdır.

Özbəkistanın xalq şiari adına layiq görülmüş Məqsud Şeyxzadə Nizaminin, Füzulinin və Mirzə Fətəli Axundovun bir sıra əsərlərini özbək dilinə tərcümə edərək, nəşr etdirmişdir. Azərbaycanın xalq şairi Xəlil Rza öz doktorluq dissertasiyasını M.Şeyxzadənin yaradıcılığına həsr etmişdir.

M.Şeyxzadənin seçilmiş əsərləri 6 cild həcmində Daşkənddə nəşr olunmuşdur.

## §11. Bəxtiyar Vahabzadə (1925-2009)

Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi Bəxtiyar Vahabzadə hələ 1964-cü ildə nəşr etdirdiyi «İnsan və zaman» kitabında, (nəşrinə ön sözü məşhur yazıçısı Çingiz Aytmatov yazmışdır), «Axı dünya fırlanır» şerlər kitabında (1987) dünyanın «təzadları içərisində narahat həyat yaşayan» şairdir və öz filosof qələmi ilə bu təzadların mənbələrini açmaq bacarığına malik olduğunu göstərmişdir.

Sonrakı illərdə nəşr etdirdiyi «Dərin qatlara işıq» (1986) adlı kitabındakı məqalələrində, «Gəlin açıq danışaq» məqalələr toplusunda (1989) şairin görüş dairəsi daha geniş, ictimai görüşləri və millətsevərliyi daha konkretdir. Məşhur «Bəsdir» şerində isə şair «keçmişin kölgəsində...

yatmaq» xəstəliyinə tutulmuşlara «kölgədə yatanların öz kölgəsi yox olur» tövsiyəsini verir.

XX əsrin 80-ci illərinin sonralarından başlayaraq xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılıqğında ictimai motivlər milli vətənpərvərlik hissləri, millətin birliyi ideyası üstünlük təşkil edir. Şairin «Şəhidlər» poemasında (1990), «Şənbə gecəsinə gedən yol» (1991) şerində 1987-ci ildən başlayaraq Mərkəzi Sovet rəhbərliyinin (M.Qorbaçov) Azərbaycan-türk xalqına düşmənçilik siyasəti ifşa edilir, ermənipərəst «prezident» Mixayıl Qorbaçovun Qarabağda başlanan qanlı qarşıdurmada bilavasitə iştirakçı olması lənətlənir.

1988-90-cı illərdə Azərbaycan xalqına qarşı yönəldilmiş bütün təxribatlar dövrü, 1990-cı ilin yanvar faciəsi dövrü Azərbaycan Respublikasının Ali Sovetinin (Milli Məclisin) deputatı olan xalq şairi Bəxtiyar Vahabzadə özü kimi ağsaqqallar ilə birlikdə (İmam Mustafayev, İsmayıl Şıxlı və s.) xalqa doğru yol göstərənlərdən biri olmuşdur.

Xalq şairi Bəxtiyar Vahabzadə 1975-ci ildə böyük «Üzeyir Hacıbəyovun xatirəsinə» yazdığı «Bəlkə» şerində Azərbaycan xalqının qədim və zəngin muğam mədəniyyətinə onun ayrı-ayrı güşələrinə öz münasibətin oxucuya məsləhət verir ki, şərh etməyə başlarkən əvvəlcə **tarın için-için naləsinin həzin səsinin atəşinə**

«qulağınla qulaq asma
ürəyində sən qulaq as»

Azərbaycan muğamlarının ayrı-ayrı dəstgahlarının məzmunun və fəlsəfi gücünü nəzərdə tutaraq şair deyir:

Bu dünyanın ağrıları, acıları
Necə sığır cahargahın
Bəstənigar pərdəsinə,

Böyük şair möhtəşəm tarın səs gücünün müqayisəsinə keçərək, deyir:

Qırqovulun döşündəki səslər nədir?
O rənglərdə muğamdakı
Əlvan-əlvan pərdələri
Prıl-prıl səsləri gör.



***

Dinlə tarı, dinlə neyi
O keçmişdən
Asta-asta söhbət açan
Səs muzyi
O danışan, həm də bizi danşdıran canlı muzeyi

Dinlə □ala
Öz qəlbini sənə aan
Hər kəlməsi □ala saçan
Tarix yaşlı □alan kimi
Gözü yaşlı anan kimi

Muğamat qəsrinin gözəl gəlini
Şövkəti şahıdır Bayatı-şiraz

***

Daş ürəklərdə yanıb daşları sındırdı muğam
Haqqa düşmən olanı haqqa tapındırdı muğam

Dəli edin siz məni Zabul segahı mayəsində
Deyirəm, bəlkə, məni bir gün oyandırdı muğam

Çox kitablar oxudum, zənn elədim bəxtiyaram
Mənə çox mətləb ahəstəcə qandırdı muğam[1]

1995-ci ildə şairin 70 illiyinə «Azərbaycanın Bəxtiyarı» adlı məqalələr toplusu nəşr edilmişdir və topluda Azərbaycan, Türkiyə, Orta Asiya Respublikaları və Rusiya müəllifləri tərəfindən yazılmış çoxsaylı məqalələr və yubilyara həsr edilmiş ithaflar istiqlal şairi olan Bəxtiyar Vahabzadənin böyük nüfuzunun bir daha təsdiqi oldu. Bu da bir həqiqətdir ki, müstəqil Azərbaycanın ən yüksək dövlət mükafatı olan «İstiqlal» ordeni müasir şair və yazıçılar içərisində hamıdan əvvəl Bəxtiyar Vahabzadəyə verilmişdir.

---

[1] Bəxtiyar Vahabzadə, Seçilmiş əsərləri, II cild, Bakı, 2004, səh.175-211.

## §12. Xəlil Rza Ulutürk (1933-1995)

Şair Xəlil Rza Ulutürk 60-cı illərin əvvəllərindən başlayaraq doğma Azərbaycanın müstəqilliyi uğrunda düşüncələrini 1994-cü ildə nəşr etdirdiyi «Uzun sürən gənclik» kitabındakı bir sıra şerlərində vermişdir. Həmin illərdə üsyankar şair Musa Cəlilin məşhur «Moabit dəftəri»ni Azərbaycan dilinə təcrümə etmiş (1979-cu ildə nəşr olunmuşdur), xalq şairi Bəxtiyar Vahabzadəni özünə ustad seçmişdir.

Az sonra yazdığı şerlər «Hara gedir bu dünya» (1983-cü il) və «Davam edir 37» (1992-ci ildə nəşr edilmişdir) adlı kitablarda toplanmışdır.

Xəlil Rzanın sonrakı fəaliyyəti Azərbaycanda xalq hərəkatının güclənməsi dövrünə təsadüf edir. Sovet siyasi sisteminin dağılması dövrünə təsadüf edən bu hərəkatda bilavasitə iştirak edən vətənpərvər şair Milli istiqlal savaşının ön cərgəsində idi.

Bakıda, ermənipərəst xain Mixayıl Qorbaçovun bilavasitə göstərişi ilə, törədilmiş 1900-cı ilin 20 yanvar faciəsindən bir həftə sonra həbs edilərək Moskvaya aparılmış Xəlil Rza doqquz ay Lefortovo zindanında saxlanılırsa da, məhkəmədə bəraət almışdır.

Məhbusluqdan sonra dövr Xəlil Rza Ulutürkün ədəbi fəaliyyətində və siyasi mübarizəsində daha məhsuldar dövr olmuşdur. 1995-ci ildə nəşr etdirdiyi «Bağışla, ey Vətən» kitabında üsyankar şair istiqlal carçısı kimi odlu şerlərlə çıxış etmişdir[1].

Xəlil Rza Ulutürk Azərbaycan xalqının həyatının XX əsrin son rübü kəsiyində «İstiqlal şairi» adını şərəflə daşımışdır və daşıyır.

---

[1] *Bu haqda daha geniş bax:* İ.Z.İsmayılov. Dünya azərbaycanlıları XX əsrdə. B, 1977, s.133-134.



## §13. Oljas Süleymenov

Oljas Süleymenov 1936-cı ildə Qazaxstanın Alma-Ata şəhərində dünyaya göz açmışdır. Onun həyatında ədəbi-bədii yaradıcılıqla ictimai fəaliyyət ayrılmaz vəhdət təşkil edir.

Görkəmli şair Oljas Süleymenovun poetik yaradıcılıq mövzularının əsasını fəlsəfi düşüncələr, sosial-emosional problemlər təşkil edir. İlk şeirlər kitabları olan «Yel qanadlı atlar» (1961), və «Nurlu gecələr»dən (1962) sonra «Kil kitab» (1969), «Dəyirmi ulduz» (1975) «Səhraların nəfəsi» (1984) və digər çoxsaylı şeyrlər kitablarını nəşr etdirmişdir.

Oljas Süleymenovun 1973-cü ildə Alma-Atada nəşr etdirdiyi «Az və ya» kitabı müəllif tərəfindən "«Xoş niyyətli oxucu»nun kitabı" kimi təqdim edilsə də, həmin kitab az sonra mərkəzi Sovet siyasi rəhbərliyinin göstərişi ilə «həbs olundu» və 1973-cü ildən sonra müəllifə hücumlar başlandı.

Müəllifin bu əsərinin başlanğıc hissəsi rusların XII əsrə aid «İqor polku haqqında söz» (dostan) əsərinə həsr olunmuşdur. Əsərin ikinci hissəsində isə əsasən «Şumernamə»dən bəhs edilir.

Kitabın müzakirəsində Sovet rəhbərliyinin göstərişi ilə onu ruslar əleyhinə əsər kimi qiymətləndirdilər. Halbuki, «Az və Ya» kitabı sözün(sözlərin) genezisi haqqındadır.

Oljas Suleymenov bu və digər əsərləri ilə özünün müstəqil bir tədqiqatçı olduğunu göstərdi və sübut etdi ki, imperiya iddiası nadanlıqdır.

Müəllif, əsərinin müzakirəsi ilə əlaqədar yazılarının birində rus dilinin rolu məsələsinə də toxunmuşdur. O, yazır: «Rus dili mərkəzdən uzaq əyalətlərə Puşkinin dililə və güllənin səsi ilə ayaq açdı. Ayaq açmaqla da təkcə mədəniyyət gətirmədi, və həm də imperiya iştahı gətirdi, əsarət düşərgələri yaratdı. Təbii ki, rus dili yerli dillərə kömək etdiyi kimi onları sıxışdırmağı da qarşısına məqsəd qoymuşdu, mədəniyyəti də eləcə o kökə saldı». Müəllif hesab edir ki, bütün bunlarla yanaşı milli mədəniyyətlər öz «mənini» də qorumağı yaddan çıxartmamalıdır. O, yazır:

«İndi daha insaflı bir model düşünmək olar – itirmədən götürmək...».

O.Süleymenov 1989-cu ildə nəşr olunmuş «Yanvardan aprelə qədər» adlı şerlər kitabına «Müəllifdən» adlanan bir səhifəlik yazıda göstərir ki, onun kitaba verdiyi adda olan şeri («Yanvardan apreledək») əvvəllər senzura tərəfindən çapa buraxmırdılar (Şer 1963-cü ildə yazılmışdır). Görünür səbəb də o idi ki, «Lenin yanvarda ölmüş, apreldə isə anadan olmuşdur». Şerdə deyilir ki, «Bəziləri Leninin sifətində və nitqində yəhudi və kalmık əlamətləri olduğunu deyirlər. Şerin son misrasında isə müəllif yazmışdır: «Dahilər əsri keçib gedir...»

Ədəbi yaradıcılıqla yanaşı Oljas Süleymenov 1981-ci ildən sonra Qazaxstan Respublikasında Yazıçılar və Kinematoqrafçılar ittifaqlarında rəhbər vəzifələrdə olmuşdur.

Oljas Süleymenov SSRİ Ali Sovetinin (II-ci çağırış) deputatı olmuş və Bakıda 1990-cı ilin qanlı yanvar faciəsi gününün səhəri buraya SSRİ Ali Sovetinin deputatı kimi gələrək, özünün yüksək insanlıq və deputatlıq borcunu ifa etmişdir. O yazır ki, Mixayıl Qorbaçovun göstərişi ilə Bakıda erməni-rus hərbçilərinin törətdikləri müdhiş vəhşiliklər cinayətdir və dünya ictimaiyyətinə çatdırılmalıdır, və bu işdə şəxsən fəaliyət də göstərdi.

Qazaxıstan müstəqillik qazandıqdan sonrakı çıxışların birində Oljas Süleymenov demişdir ki, «Cavan Qazaxıstan dövləti indi varlı sponsorlar axtarırsa, qədim Qazaxıstan ölkəsi indi qardaş xalqlar ilə öz tarixi əlaqələrini bərpa edir. Bizim hamımızda ümumi cəhətlər çoxdur, nəinki fərdi xüsusiyyətlər...»[1]

[1] «Casrian» jurnalı, Alma-Ata, 1995, №1, s.141. (rus dilində).



## §14. Çingiz Aytmatov (1928 – 2008)

Müasir dünyanın ən görkəmli yazıçılarından biri olan Çingiz Aytmatov Qırğızıstanın keçmiş Kirov rayonunun Şərkər qışlaq kəndində 1928-ci ilin dekabrında dünyaya göz açmışdır. Milli yazıçılıq fəaliyyəti (1952-ci ildən) ilə yanaşı Çingiz Aytmatov SSRİ Yazıçılar İttifaqı İdarə heyətində katib (1976-dan) işləmiş, Qırğızıstanda bir sıra ictimai-siyasi təşkilatlarda fəaliyyət göstərmişdir.

Görkəmli yazıçı kimi Çingiz Aytmatovun əsas mövzusunu insan və cəmiyyət, mənəvi-əxlaqi problemlər, islam dini ilə bağlı etik-fəlsəfi baxışlar təşkil edir.

Onun «Anna tarla» (1963), «Əlvida Gülsarı» (1967), «Ağ gəmi» (1970), «Qiyamət» (1991), «Gün var əsrə bərabər», «Çingiz xanın ağ buludu», «Cəmilə», «İlk müəllim», «Qırmızı yaylıqlı qovağım mənim» və digər povest və romanları dünya xalqlarının dillərinə tərcümə edilərək, geniş yayılmışdır. «Gün var əsrə bərabər» («Əsrdən uzun gün» kimi də tərcümə edilir) romanında müəllif tarix və tarixi yaddaşın qorunması problemini ön plana çəkmişdir. Müəllif göstərir ki, hər hansı bir xalqın içərisində «manqurtlar» çoxaldıqda, xalq getdikcə mübarizliyini itirərək kölə vəziyyətinə düşür.

## §15. İsmayıl Şıxlı (1919-1996)

Türkdilli xalqların ziyalıları içərisində XX əsrin sonuncu onilliyində müstəqillik uğrunda kəskin mübarizəyə qatılmış vətənpərvər ziyalılar qrupuna Azərbaycandan daxil olanlar içərisində İsmayıl Şıxlı xüsusi yer tutur.

II dünya müharibəsinin iştirakçısı olmuş İsmayıl Şıxlı Azərbaycanın şairlər diyarı olan Qazax rayonunun Şıxlı kəndində dünyaya göz açmışdır. Müharibədən sonra qaynar ziyalı həyatına başlamış İ.Şıxlı bir neçə hekayələrdən sonra məşhur «Dəli Kür» romanını yazmış və eyni adda çəkilmiş kinofilm ilə Azərbaycan kinosunun qızıl fondunu zənginləşdirmişdir.

İsmayıl Şıxlıda zəngin ziyalılıq ilə mahir səmimilik bir vəhdət təşkil edirdi. XX əsrin 80-ci illərinin sonlarında Sovet

siyasi sistemi rəhbərliyi tərəfindən milli münasibətlər məsələsində buraxılmış səhvlər onu çox narahat edirdi.

Son əsəri olan «Mənim ölmüş dünyam» romanını İsmayıl Şıxlı ağır xəstəliyin əzabları şəraitində yazıb qurtardı və həmin əsərində insanları insafa və vicdanlığa çağırdı, vicdan əzabından çəkinməyə dəvət etdi.

Türklüyün və müsəlmançılığın gözəl keyfiyyətlərini özündə təcəssüm edən İsmayıl Şıxlı onu tanıyanların hafizəsində daima yaşayacaqdır.

## §16. Ziya Bünyadov (1923-1997)

Türklüyə xas olan qorxmazlıq və cəngəvərlik keyfiyyətləri ilə elmi istedad keyfiyyətlərini özündə birləşdirən Ziya Bünyadov müsəlman şərqinə xas olan çoxşahəli istedada malik şəxsiyyət kimi yetişmişdir.

II dünya müharibəsinin odlu-alovlu cəbhələrində şəxsi qəhrəmanlıq nümunəsi göstərərək Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüş Ziya Bünyadov müharibədən sonrakı illərdə Azərbaycan tarixinin ən zəngin dövrlərinin mahir tədqiqatçısı olaraq akademik elmi rütbəsinə yüksəlmiş nadir şəxsiyyətdir.

Qəhrəman və fitri alim keyfiyyətləri ilə yanaşı Ziya Bünyadov «Qurani-Kərimi» Azərbaycan dilinə tərcümə edərək özünün ən güclü Şərqşünaslarından biri olduğunu sübut etdi.

Bütün bu uğurlar ilə Ziya Bünyadovu dünyanın ən görkəmli türkşünaslarından biridir.

İkinci dünya müharibəsinin tərkib hissəsi olan Böyük Vətən müharibəsində (1941-45) indi müstəqil milli dövlətlər kimi yaşayan türkdilli xalqlarının gəncləri geniş miqyasda iştirakı onlar üçün hərbi vətənpərvərlik tənbiyəsi məktəbi oldu.



SSRİ ərazisində yaşamış Türkdilli xalqlardan Böyük Vətən müharibəsi illərində (1944-45) Sovet İttifaqı Qəhrəmanı şərəfli adına layiq görülmüşlərin miqdarı[1]

| № | Xalqların adı | Cəmisi | İki dəfə Sovet İttifaqı Qəhrəmanı |
|---|---|---|---|
| 1 | tatarlar | 152 | 1 |
| 2 | qazaxlar | 96 | 1 |
| 3 | özbəklər | 69 | - |
| 4 | çuvaşlar | 43 | |
| 5 | azərbaycanlılar | 43 | 1 |
| 6 | başqırdlar | 39 | |
| 7 | türkmənlər | 18 | |
| 8 | qırqızlar | 12 | |
| 9 | yaqutlar | 3 | |
| 10 | çərkəzlər | 1 | |
| 11 | uyğurlar | 10 | |
| 12 | dunqanlar | 4 | |
| 13 | buryatlar | 3 | |
| 14 | xakaslar | 2 | |
| 15 | qaraçaylar | 2 | |
| 16 | kumıklar | 2 | |
| 17 | tuvinlər | 1 | |

Türkdilli Azərbaycan xalqı ermәni-daşnak seperatçılarının Azərbaycan xalqına qarşı 1988-ci ildə başladıqları və bəzi rus hərbi hissələrinin köməyilə geniş miqyasda apardıqları hərbi əməliyyatlarının qarşısını almaq işində Sovet ordusunda xidmət etmiş və ağır günlərdə Azərbaycanın müdafiəsinə (bir çox hallarda xidmət etdikləri hərbi hissələrdən icarəsiz gələn) gələn azərbaycanlıların da köməyi çox gərəkli oldü.

Hazırki dövrdə Mərkəzi Asiyada yaşayan türkdilli xalqların gənclərindən II dünya müharibəsi illərində qvardiya

[1] Герои Советского Сюза, М., 1984, стр. 28,64,93,125,156,177,231.

başleytenant Türkmən Mülki-Bayramov, qırqız Tahir Aslanov, özbək Sulqi Lutfillin, eləcə də başqırd serjant Həsən Qaysın, qvardiya starşina tatar Şərican Qazanbayev və yüzlərlə digər türk döyüşçüləri yüksək döyüş məharəti göstərərək Sovet İttifaqı qəhrəmanı adlarına layıq görülmüşdər və indi öz vətənlərində veteran kimi hərbi vətənpərvərlik işində fəal iştirak edirlər.

## §17. Mahir incəsənət xadimi Habil Əliyev

Müasir qloballaşmanın, xüsusilə mədəniyyət sahəsində milli mədəniyyətlərə vura biləcəyi zərbələr şəraitində milli mədəniyyətlərin, ilk növbədə milli musiqi mədəniyyətimizin öz kökü üzərində inkişafı və yad ünsürlərdən qorunması xüsusi qayğı tələb edir.

Türdilli Azərbaycan xalqının qədim musiqi mədəniyyətinin şah damarlarından biri olan kamança ifaçılığının mahir ustalığı mədəniyyətimizin çox əsrlik tarixinə XX əsrdə də Habil Əliyevə qismət olmuşdur.

Habil Əliyev Azərbaycanın qədim Ərəş mahalının Ağdaş rayonunun Ücqovaq kəndində 1927-ci ilin mayında dünyaya göz açmışdır. Musiqi sahəsində fitri istedada malik olan gənc Habil ilk musiqi təhsilindən sonra Bakıda Qurban Pirimov, Seyid Şuşunski, Soltan Hacıbəyov, Xan Şuşunski kimi mahir sənətkarların ölməz irslərindən bəhrələmiş və 1961-ci ildə televiziya ilə ilk müsamirəsini (konsertini) ifa etmişdir.

Böyük şairimiz Səməd Vurğunun «Segah muğamı» şerində kaman ifaçılığının çətinliyi və təsirliliyi haqqındakı sözlər sanki ilk növbədə Habil sənətkarlığına aiddir.

*Yenə «Zabul segah» yenə o nalə*
*Bir qaranlıq çökdü qəlbə, xəyalə*
*Nə qədər yaralı barmaqları var*
*Belədir sevdaya ducar olanlar*
*Bəzən də gecələr səhərə qədər*
*Dinib danışmadığı o sarı simlər*
*Xəyalə qərq olur bütün asiman*
*Böyük yaranmışdır əzəldən insan.*



Görkəmli şair Bəxtiyar Vahabzadə kaman sənətinin çox mahir ustası Habil Əliyevin ifasının «atəşsiz yandırmaq» qüvvəsinə malik olduğunu dilə gətirmişdir.

Məşhur şairə Mirvarid Dilbazi «Habil çalğısı» şerində

*Göydə buludlar çaxnaşdı,*
*Köylənlə dağları aşdı*
*Yadıma Koroğlu düşdü*
*Sən çalanda.......*
*deyir.*

Azərbaycan Respublikasının xalq artisti, bəstəkar professor Süleyman Ələsgərov deyir: «Biz fəxr edirik ki, «Habil Segah»ı Azərbaycanın sərhədlərini aşaraq qonşu respublikalarda, habelə bir çox Avropa və Şərq ölkələrində də dinləyicilərin dərin marağına səbəb olmuşdur.

Habil muğamları çalarkən heç kimi təqlid etmir. O, ifa etdiyi muğamlara yeni xallar, xırdalıqlar, guşələr gətirir. Onları yeni quruluşda, yeni formada – yeni məzmunda dinləyicilərə çatdırır».

Azərbaycan Respublikasının xalq rəssamı Toğrul Nərimanbəyov deyir: «Habilin istər ölkəmizdə, istərsə də xaricdə Şərq Musiqi həvəskarları və biliciləri arasında qazandığı silinməz uğurlar təsədüfi deyildir. O, öz ifası ilə insan qəlbinin ən incə tellərini ehtizaza gətirir. Bu nadir ustad qədim Azərbaycan musiqisini muğam üstə improvizə edərək kamança ifaçılığında yeni bir zirvə – Habil zirvəsi yaratmışdır».

Mahir muğam bilicisi, kaman ustası Habil Əliyev Azərbaycan televiziya ilə çıxışlarında təkrarən qeyd etmişdir ki, «Muğam ilahi bir musiqidir, onun incəliklərini fəth etmək çox çətindir, bəlkə də əlçatmazdır».

Bütün bu uğurlara cavab olaraq Azərbaycan dövlətinin ən yüksək mükafatı olan «İstiqlal» ordeni ilə təltif etməsi Habil Əliyevin fəaliyyətinə verilən böyük qiymətin təzahürüdür.

## §18. Ələsgər Lütfizadə

XX əsrin dünya şöhrətli alimi, məşhur qeyri – səlis məntiq (qarışıq təkrəqəmli çoxluqlar) nəzəriyyəsinin müəllifi və kibernetika sahəsində çoxsaylı ixtiraların əsasını qoymuş professor Lütfi (Lütvi) Ələsgərzadə 1924-cü ilin fevralında Bakıda jurnalist Rəhim Ələsgərzadənin ailəsində dünyaya göz açmışdır.

1941-ci ildə ABŞ-da namizədlik və 1949-cu ildə doktorluq dissertasiyalarını müdafiə etdikdən sonra Koliforniya Ştatındakı Berkli universitetində işləmiş və 1955-ci ildə qeyri-məntiq nəzəriyyəsini kəşf etmiş və bu nəzəriyyə əsasında istehsalatda 60 ixtira tətbiq edilmişdir. Onun qeyri səlis məntiq nəzəriyyəsinə Yaponiyada Honda mükafatı verilmişdir. O, bütövlükdə dünyada 5 elmi nəzəriyyənin ixtiraçısı və 2 zəka inqilabının (informasiya inqilabı və intellektual sistemlər inqilabı) istiqamətləndiricisidir.

Vətənindən xaricə təhsilə getdikdən sonra Bakıda ilk dəfə 1965-ci ildə olmuşdur. Bundan sonra da o, vətənini unutmayaraq bir neçə dəfə Bakıya gəlmişdir.

«Baktel-2008» XV Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisində iştirak etmək üçün həmyerli professorumuz 2008-ci ilin noyabrında Bakıya gəlmişdi və Prezident İlham Əliyev tərəfindən noyabrın 10-da qəbul edilmişdir. Professor Lütfizadə Bakı Dövlət Universitetinin fəxri doktoru seçilmişdir.

## §19. Krım tatarlarının görkəmli ziyalısı Çobanzadə Bəkir Vahab oğlu (1893-1937)

Krım tatarları xalqını görkəmli ziyalısı B.V.Çobanzadə 1893-cü ilin 15 mayında Krımda, Tavrida vilayətinin Simferopol qəzasının Qaraşbazar şəhərində anadan olmuşdur.

İbtidai təhsilini doğulduğu yerdə aldıqdan sonra Dini xeyrixahlar cəmiyyəti tərəfindən Türkiyyə Qalatasaray Litseyinin «Sultaniyyəsi»nə təhsili davam etdirməyə (1908-1918) göndərmişdir. İlk şerlərini və «Anan harda» poemasını tələbəlik dövründə yazmışdır. İstanbul Universiteti nəzdində



olan üçillik ali kursda ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Türkiyədə «Müstəqil Krım tatarları» ideyaları ilə yaşayan gənclərin Krım-tatar tələbə cəmiyyətinin rəhbərlərindən biri olmuşdur.

Budapeşt universitetində doktorluq dissertasiyasını müdafiə etmişdir. O, dünyada türkologiya sahəsində ilk elmlər doktorudur.

Krıma qayıtdıqdan sonra 1920-1922-ci illərdə Krım vilayəti Maarif Komissarlığında tatar lisaniyyatı və ədəbiyyatı şöbəsinin müdiri olmuşdur. Krım universitetində Şərq fakültəsinin əvvəl professoru vəzifəsində, sonra isə rektoru olmuşdur.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi sədri Səmədağa Ağamalı oğlu Yeni Türk (latın) əlifbasına keçid üzrə Ümumittifaq Mərkəzi Komitəsinin səri oluğu dövrdə həmin komitənin fəal üzvlərindən biri də B.Çobanzadə olmuş, 1 Ümumittifaq Türkoloji qurultayda (Bakı 1926) iştirak etmişdir.

Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində kafedra müdiri və dekan vəzifələrində işləmişdir (1924-1929). Moskvada Şərq Xalqları İnstitutun həqiqi üzvü (1928) və SSRİ EA Azərbaycan filialının həqiqi üzvü (1935) seçilmişdir, Paris Dilçilik Cəmiyyətinin üzvü olmuşdur.

Ensiklopedik biliklərə malik olan və fantastik dərəcədə məhsuldar olan Bəkir Çobanzadə 1937-ci ilin 28 yanvarında Kislovodsk şəhərinin «Qornyak» sanatoriyasında öz xanımı ilə istirahətdə olarkən həbs edilərək Pyatiqorsk türməsinə, oradan da Bakıya Daxili İşlər Nazirliyinin təcridxanasına gətirilmişdir. Həmin ilin 12 oktyabrında 15 dəqiqə davam edən məhkəmədən sonra sabahı günü ölüm hökmü icra edilmişir.

Professor Bəkir Çobanzadə «Türk dili və ədəbiyyatının tədrisi üsulu» (Bakı, 1926). «Türk qrameri» (Bakı, 1930), «Qumik dili və ədəbiyyatı» (Bakı, 1926), «Türk dili sərflərinin ümumi qüsurları» (Bakı, 1925), «Türk-tatar dialoktologiyası» (Bakı, 1927), «Türk-tatar lisamiyyatına mədxəl» (Bakı, 1924), «Krım-tatar ədəbiyyatında qurultayçılıq və millətçilik» (Bakı, 1932), «Elmi qramerin əsasları» (Bakı, 1932) və digər çoxsaylı əsərlərin müəllifidir.

Onun «Dədə Qorqudun dili», eləcə də Füzuli, Nəvai və Xətai haqqında əsərləri itirilmişdir.

## §20. Volqa boyu tatarları xalqının görkəmli ziyalısı Mirsəid Sultan-Qalıyev (1892-1940)

Mirsəid Heydərəli oğlu Sultan-Qalıyev Rusiyanın keçmiş Ufa quberniyasında Karmaskalı rayonunda dünyaya göz açmışdır.

1917-ci ilin mayında Moskvada keçirilmiş Ümumrusiya müsəlmanlarının qurultayında iştirak etmişdir.

1918-1923-cü illərdə Sovet Rusiyası hökümətinin Millətlər üzrə Komissarlığında (İ.Stalin rəhbərlik edirdi) rəhbər vəzifələrdə işləmiş və marksizmi islamilə birləşdirərək ideologiyasını təbliğ etmişdir.

M.Sultan-Qalıyev Rusiya Kommunistlərinin «Vahid və bölünməz Rusiya» siyasətini tənqid edirdi və Rusiyanı SSRİ tərkibində müvəqqəti siyasi qurum hesab edirdi. Onun fikrincə Rusiya Kommunistlərinin bu siyasəti Rusiyanın müsəlman ərazilərində yaşayan xalqların iqtisadi və mədəni tərəqqisinə mane olur.

M.Sultan-Qalıyev faktiki olaraq Müstəmləkə İnternasionalı yaratmaq ideyasını təbliğ edirdi. O, keçmiş müstəmləklərin Kommunist təşkilatlarının birləşərək yaradacaqları yeni İnternasional əsasında Rusiyada Turan Demokratik Federativ Xalq Respublikası yaradıla biləcəyini iddia edirdi.

Müvafiq müqavimətlərlə rastlaşan bu ideyanın müəllifi M.Sultan-Qalıyev 1924, 1928, 1937-ci illərdə həbslərə məruz qalmış, 1940-cı ildə isə sonuncu dəfə həbs və edam edilmiş və ölümündən sonra bəraət almışdır.

M.Sultan-Qalıyev Orta Asiyanın və Rusiyanın digər ərazilərinin bəzi kommunist liderləri ilə əlaqələrdə olmuşsa da təbliğ etdiyi ideologiyanı geniş yaya bilməmişdir.



# XI Fəsil.
# TÜRKDİLLİ AZƏRBAYCAN XALQININ XX ƏSR TARİXİNDƏN UYDURMA «26 BAKI KOMİSSARI» LƏKƏSİ SİLİNMƏLİDİR

Bakıda daşnaklar tərəfindən 1918-ci ilin martının sonunda S.Şaumyanın rəhbərliyi altında təşkil edilmiş azərbaycanlıların soyqrımında ən azı on iki min nəfərin məhv edilməsindən az sonra Bakıya Rusiya Sovet hökuməti başçısı Lenin tərəfindən göndərilmiş Qafqaz işləri üzrə Fövqalədə Komissar Stepan Şaumyanın rəhbərliyi altında bolşeviklərdən və daşnaklardan ibarət «Bakı Komunası» yaradıldı. Lakin bu «hakimiyyət» 1918-ci ilin iyulunda Bakı Sovetinə seçkilərdə eser-menşeviklərə uduzdu və Bakıda Sentro-Kaspi adı diktatura yaradıldı. Yeni hakimiyyət «Bakı Kommunası» rəhbərlərini həbs edərək Bakıdakı Bayıl türməsinə saldı.

Bakıda yaşayan rus bolşevikləri həbs edilənlərin həbsxanadan qaçırılmasını təşkil edərək onların gəmi ilə Həştərxana göndərilməsini təşkil etdilər. Lakin gəmidə olan ingilis zabitləri gəminin istiqamətinin dəyişdirərək Krassnovodskda Türkmənistan sahilinə yönəltdilər və Orta Asiya ağqvardiyaçıları ilə birlikdə yenidən onları həbs edərək güllələdilər.

Beləliklə, Azərbaycanın XX əsr tarixinə heç bir milli əsası olmayan «26 Bakı Komissarları» adlı uydurma «qəhrəmanlıq əfsanəsi» yazıldı və 70 il davam etdi.

Əksəriyyəti erməni terrorçularından ibarət olan bu dəstənin cəsədləri 1920-ci ilin sentyabrında Bakıda Şərq xalqlarının qurultayı keçirildiyi günlərdə Leninin təklifi ilə Bakıya gətirilərək şəhərin ortasındakı meydanda sentyabrın 10-da yenidən dəfn edildi.

Azərbaycan öz müstəqilliyini 1990-cı ilin sonunda bərpa etdikdən sonra, bu uydurma qurum haqqında şişirdilmiş əfsanənin ləğv edilməsi haqqında tədqiqat işlərinə başlandı.

2009-cu ilin ilk günlərində Bakıdakı həmin məzarlıq sökülərək cəsədlər başqa qəbristannlıqlara köçürüldü. Məzərlıq sökülərkən orada 26 deyil, 23 cəsəd tapıldı. Görünür 1920-ci ildə gətirilmiş tabutlardan 3-nün içi boş olaraq basdırılmışdır.

Cəsədlər üzərində aparılmış tibbi ekspertizada müəyyən edilmişdir ki, məzarlıqdan çıxarılan komissarların içərisində yalnız 2 nəfər azərbaycanlı olmuşdur: Məşədi Əzizbəyov və Mirhəsən Vəzirov. Qalanları erməni, rus, gürcü və yəhudilərdən ibarətdir[1].

Bakı Komissarları haqqında SSRİ-də yazılmış rəsmi sənədlərdə adətən göstərilirdi ki, Komissarlar içərisində Nəriman Nəriman da olmuşdur. Lakin o da məlumdur ki, Nəriman Nərimanova Kommuna tərkibində ciddi əhəmiyyəti olmayan Şəhər Təsərrüfatı Komissarı vəzifəsi verilmişdi. Bakı Kommunasında bütün əsas və hərbi vəzifələr erməni «komissarları»ın əlində idi. Hətta bu ikinci dərəcəli vəzifədə N.Nərimanov cəmisi iki ay işləmişdir. Sonra isə xəstələndiyinə görə Həştərxana göndərilmişdir.

Zaqafqaziyada XX əsrin əvvələrindən baş vermiş tarixi hadisələrdən məlumdur ki, Şaumyan özünə əvvəlcə Tiflisdə siyasi məskən yaratmaq istəmiş, lakin o, buna nail ola bilmədikdə erməni daşnakların yuva saldığı neft Baksına Leninin ezamiyyəti ilə gəlmiş və Bakı neftinə tezliklə sahib olmaq üçün Vladimir Lenin tərəfindən burada səlahiyyətli komissar vəzifəsinə göndərilmişdir[2].

Daşnak Şaumyan hesab edirdi ki, nefti ilə zəngin Bakını Rusiyaya birləşdirmək yolu ilə buraya əbədi olaraq sahib olmaq olar.

Nəriman Nərimanov 1919-cu ilin fevralında yazdığı «Qafqazın zəbt edilməsinə baxış» adlı məqaləsində xüsusi olaraq qeyd edirdi: «Yalnız Bakının alınması və orada möhkəmlənməklə işi bitmiş hesab etmək olmazdı...» O, 1921-ci ilin 23 avqustundakı çıxışında və həmin ilin 28 avqustunda yazdığı məktubunda da təkidlə qeyd edirdi: Bakı və Azərbaycan birlik təşkil edir və «Bakını Azərbaycansız öz arxamızca apara bilmərik[3].

Sovetlər İttifaqının dağılması ərəfəsində Azərbaycan mətbuatında Bakı Kommunası haqqında şübhələr doğuran

---

[1] Bu haqda daha geniş bax: Xalq qəzeti, 29 yanvar, 2009.
[2] Daha geniş bax: İsrafil İsmayılov, Azərbaycan nefti XX əsrdə (hərbi-siyasi baxış) B, 2007, səh.5-25.
[3] N.Nərimanov, Seçilmiş əsərləri II cild, Bakı, 1989, səh.185, 188, 189, 543, 548 (rus dilində).



tarixi faktlar haqqında yazılar nəşr olunurdu. Bu haqda akademik Ziya Bünyadovun yazıları daha geniş və təsirli olmuşdur.

Bu sətrlərin müəllifi 1988-ci ildə öz nəşrini davam etdirən «Azərbaycan Kommunisti» jurnalının 5-ci sayında «Bakı Kommunasının yaranması tarixinə dair» adlı məqaləsini «Redaksiyaya məktub» adı ilə həmin jurnalda nəşr etdirmişdir.

Azərbaycan müstəqilliyini elan etdikdən sonra isə Bakı Kommunası haqqında yazıların sayı getdikcə çoxaldı. Bu sətrlərin müəllifi «Xalq qəzeti»nin 1993-cü ilin 16 yanvar sayında «Bakı Kommunasının siyasi dərsləri» adlı məqalə ilə çıxış etmişdir.

***

Müstəqil Dövlətlər Birliyi Veteran təşkilatçılarının orqanı olan və Moskvada nəşr olunan «Veteran» qəzetinin 2008-ci il oktyabrında çıxan 38-ci sayında A.Jilenski adlı müəllifin «Bakı Kommunasının ilk sədri» adlı məqalə (Şaumyanın anadan olmasının 130-cu ildönümü münasibətilə) çap olunmuşdur. Həmin məqalədə müəllif Sovetlər İttifaqı dövründə Bakı Kommunası haqqında yazılmış bütün uydurmaları təkrar edərək, yazır ki, musavatçılar İranda yerləşmiş İngilis hərbi hissələrini Bakıya dəvət etdilər. Halbu ki, bu kitabın da əvvəlki səhifələrində deyildiyi kimi Bakıya gəlmiş həmin azsaylı ingilis hərbi dəstəsini Bakı Komissarlarını həbs etmiş Sentrokaspi hakimiyyəti dəvət etmişdi və bu tədbir heç bir nəticə vermədi.

Bu kitabın əvvəlindəki bölmələrdə şərh edildiyi kimi, Bakının bolşevi-daşnak terroçu dəstələrindən 1918-ci ilin 15 sentyabrında azad edilməsi Türkiyənin İslam ordusu və azərbaycanlılardan ibarət könüllü hərbi dəstələrin birgə hərbi əməliyyatları nəticəsində həyata keçirilmiş və bu həqiqi tarix Azərbaycanın XX əsr tarixinin tərkib hissəsidir.

Müasir dövrdə «Veteran» qəzetində tarixi faktları tamamilə təhrif edən belə saxta materiallar əsasında daşnak S.Şaumyanı təbliğ etmək isə müasir demokratikləşmə dövrünün ab-havasına tamamilə ziddir və belə bir məqalənin Rusiyada nəşri böyük təssüf doğurur.

## XII Fəsil.
## XX ƏSRİN ƏN DƏHŞƏTLİ XOCALI SOYQIRIMI

*«Xocalı faciəsi insanlığa qarşı çevrilmiş, öz qəddarlığına və amansızlığına görə misli görünməmiş genosid aktı kimi tarixdə qalacaqdır».*
HEYDƏR ƏLİYEV

1992-ci ilin 26 fevralında erməni faşistlərinin azəri-türk millətinə qarşı Xocalı şəhərində həyata keçirdikləri soyqırım XX əsrin ən dəhşətli vəhşiliyidir. **Faciənin sabahı günü lentə alınmış çoxsaylı şəhid cəsədlərinin tükürpərdici «mənzərələri» haqqında Azərbaycan jurnalisti Flora Kərimova belə yazmışdı: «İnsan adlanan bəşər övladı bu dərəcədə qəddarlığı necə bacarır? Təbiətdə yaşayan heyvanlar belə öz cinsinə qarşı amansız olmurlar. Bu səbəbdən də bəşər tarixində heç bir xeyirxah əməlin yiyəsi olmayan ermənilər haqqında pis fikirlər mövcuddur».**[1]

Erməni faşistlərinin 19912-ci ilin fevralın 25-dən 26-a keçən gecə Azərbaycan şəhəri Xocalıda törətdikləri dəhşətli qırğın nəticəsində 613 nəfər azərbaycanlı ( o cümlədən 63 uşaq, 106 qadın) qəddarlıqla öldürülmüş, 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 nəfər isə girov götürülərək dəhşətli təhqirlərə məruz qalmışlar. Erməni faşistləri öldürdükləri insanların başlarını kəsmiş, bədənlərindəki müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmışlar.

**Amerika jurnalisti Tomas Qolts** özünün **«Azərbaycan gündəliyi»** adlı kitabında öz gözləri ilə gördüyünü ,Xocalı soyqırımını **«bir gecədə min nəfərə yaxın adamın güllələboran edilərək qətlə yetirilməsini görünməmiş vəhşilik və etnik təmizləmə»** adlandırmışdır.

Xocalı soyqırımı haqqında həqiqətləri Azərbaycan soyqırımından sonrakı 15 ildə dünya ictimaiyyətinə kifayət

[1] «Azərbaycan» qəzeti, 24 fevral 2002.



qədər çatdıra bilmədi. 2002-ci ilin 22 fevralında Vaşinqtondakı Amerika-Azərbaycan Cəmiyyəti tərəfindən ABŞ Konqresində təşkil edilmiş toplantıda yuxarıda adı çəkilən Amerika jurnalisti Tomas Qots bu müdhiş hadisəni xatırlayaraq demişdir: «Mənim xarici mətbuata göndərdiyim xəbərlərə şübhə ilə yanaşdılar. Heç kim inana bilmirdi ki, bir gecədə həlak olanların sayı münaqişə qurbanlarının o günə qədərki rəsmi sayını üstələyə bilər».

Ermənistanın hərbi hissələrinin və onlara birlikdə Xocalı soyqırımda iştirak edən Xankəndindən gətirilmiş Rusiyanın 366-cı motoatıcı alayın əksəriyyəti ermənilərdən olan əsgərləri» və Qarabağ ermənilərinin ayrı-ayrı hərbi dəstələrinin həyata keçirdikləri bu qanlı vəhşiliklər insanı dəhşətə gətirir, 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Azərbaycan şəhəri Xocalı yerlə-yeksan edildiyi saatlarda erməni diğaları Xocalı sakini Əntiqə nənənin kiçik nəvəsi Xəzəngülün qarşısında onun atası Təvəkkül kişini diri-diri ona görə yandırdılar ki, atası və böyük bacısı həmin diğaların dedikləri bu sözləri təkrar etmədilər: «Deyin ki, bu yerlər Böyük Ermənistanın bir parçasıdır».[1] Digər Xocalı sakini Səriyyə Talıbova söyləyir: «Bizi erməni qəbristlanlığına gətirdilər... 4 nəfər gənc məshəti türkünü (əvvəllər Xocalıya Özbəkistandan gəlmişdilər) və 3 nəfər azərbaycanlını «erməni boyevikləri»nin qəbrləri üstündə qətlə yetirdilər. Bədbəxtlərin başlarını kəsdilər... Bu vəhşilər milli ordu formasında olan iki azərbaycanlı əsgəri gətirdilər və vintburanla onların gözlərini çıxartdılar».[2]

Belə vəhşilikləri görmüş digər bir azərbaycanlı qaçqın-didərgin «Xalq qəzeti»nə sonralar yazmışdır: «Bu azmış kimi, erməni cəlladları sonrakı günlər ölülərdən də qisas alırdılar. Onların başlarının dərisini soydular, kəllələrini çapdılar, bədənlərinin müxtəlif əzalarını kəsdilər. Bütün bunlar dünyaya televiziya vasitəsilə nümayiş etdirildi. Lakin vicdanı yatmış dünya oyanmadı, silkələnmədi. erməninin vəhşiliyi üzünə deyilmədi. Nə üçün?»[3]

[1] Bax, «Xalq» qəzeti, 18 noyabr 1992.
[2] Bax, «Azərbaycan» qəzeti, 11 noyabr 1992.
[3] Bax, «Xalq» qəzeti, 21 fevral 2001.

Xocalı soyqırımı günlərində Azərbaycanda olmuş Türkiyə Xalqçı partiyasının nümayəndəsi «Mahmud Orhan 1992-ci ilin martın əvvəlində demişdi: «Bir gənc qızın danışdıqları bizi dəhşətə gətirdi: gürov götürülmüş azəri türklərinin qəbristanlıqda necə də vəhşiliklə qətlə yetirilməsini qız gözləri ilə görmüşdü»[1]

Xocalıda törədilmiş dəhşətli vəhşiliklər 2003-cü ilin əvvəlində «Xocalı faciəsi» adlı sənədli romanda öz əksini tapmışdır (müəllifləri İnqilab Vəlizadə və Əliağa Cəfərli. Həcmi 350 səhifə).

1992-ci ilin 10 dekabrında Ermənistan ordusu Azərbaycanın Zəngilan rayonunu zəbt edərkən vəhşiləşmiş qəddar erməni dığaları azərbaycanlı müharibə veteranının başını kəsərək, oda atıb yandırmışlar.

Şuşa rayonunun Quşçular kənd sakini Niyaz Zeynalov «İki ay erməni əsirliyində» adlı kitabça nəşr etdirmişdir (Bakı, 2001-ci il). Müəllif yazır ki, erməni vəhşiləri onun gözü qarşısında doğma anasını diri-diri yandırdılar, cavan bir azərbaycanlı oğlanın başını kəsdilər, qadınların namusuna toxundular.

Azğınlaşmış vəhşi erməni diğaları müharibənin bütün gərginliyinə baxmayaraq, bəzən öz keflərindən də qalmırdılar. Buna görə də azərbaycanlı qadın və qızlar belə hallarda özlərini məhv etməyi üstün tuturdular. Azərbaycanın Kəlbəcər qəsəbəsi (rayon mərkəzi) az sonra ermənilər tərəfindən mühasirəyə alınarkən 40 nəfər qadın-qız namusları tapdalanmasın deyə əl-ələ tutaraq, uca bir qayanın başından uçuruma atılaraq özlərini öldürdülər. Yenə həmin Kəlbəcərdə 20 nəfərə yaxın qadın erməni cəlladların yaxınlaşdığını gördükdə özlərini coşğun dağ çayına ataraq, həlak olmağı üstün tutdular.

Erməni vandalizmi tarixdə olmuş bütün qəddarlıq nümunələrini kölgədə qoymuşdur. Azərbaycan Prezidenti Heydər Əliyev demişdir: «Azərbaycanda işğal olunmuş 20% ərazidə bir nəfər də olsa öz vətəndaşımız qalmayıb.....Faşistlər də belə vandalizmi etməmişdilər».[2]

[1] Bax, «Xalq» qəzeti, 14 mart 1992.
[2] Bax, «Xalq» qəzeti, 27 avqust 1994, «Respublieka» qəzeti, 28 avqust, 1994.





**Bakı şəhərində ucaldılmış «Xocalı harayı» kompleksi**

Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi 1946-cı ilin 11 dekabr tarixli 96 saylı qətnaməsində soyqırımın BMT-nin ruhuna və məqsədlərinə zidd cinayət elan etmişdir. Baş Məclis iki il sonra 1948-ci ilin 9 dekabrında «Soyqırımların qarşısının alınması haqqında» 260 saylı konvensiya qəbul etmişdir. Bu konvensiyada soyqırım cinayətinin qarşısının alınması və cinayətkarların cəzalandırılması haqqında tədbirlər nəzərdə tutulmuşdur. Faktiki olaraq 7000 nəfər əhalisi olan Xocalı şəhərinə qarşı bütövlükdə soyqırım edilmişdir. Həlak olanlardan başqa qalan əhalisi isə əsirlikdə, xəstəliklə məhv olmuş və ya ömürlük əlil vəziyyətinə düşmüşlər. Şuşa və digər zəbt edilmiş şəhərlərin də aqıbəti belə olmuşdur.

Hazırda Xocalı soyqırımından 17 il keçməsinə baxmayaraq cinayətkarlar haqqında bu vaxta qədər heç bir cəza tədbiri həyata keçirilməmişdir.

Ermənistanın şovinist və faşistləşmiş hakim dairələri qanlı terroru dövlət siyasəti səviyyəsində həyata keçirirlər. Azərbaycan Respublikasının Milli təhlükəsizlik Nazirliyinin məlumatına görə 1989-1994-cü illərdə erməni terrorçularının Azərbaycanda törətdikləri 29 terror və təxribat nəticəsində 2 mindən çox azərbaycanlı həlak olmuş və yaralanmışdır. Bundan əlavə 4928 nəfər itgin düşmüş (əsirliyə düşmüş) və onlardan 410 nəfəri öldürülmüşdür.[1]

1994-cü ilin 24 fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımı haqqında qərar və müraciət qəbul etmiş və 26 fevralı Xocalı soyqırımı günü elan etmişdir. 2009-cu il Xocalı soyqırımının beynəlxalq səviyyədə yad edilməsi ilə yadda qaldı. Bu sahədə H.Əliyev Fondunun Moskva filialının və onun rəhbəri Leyla Əliyevanın rolunu xüsusi qeyd etmək lazımdır.

Son vaxtlar Azərbaycan diplomatiyası və xüsusilə Avropa Şurasında olan Azərbaycan nümayəndə heyəti bu sahədə işlərini xeyli gücləndirmişdir.

Avropa Şurası PArlamenti Assambleyasının 2001-ci ilin 25 sentyabrında keçirilmiş iclasında Azərbaycan nümayəndə heyətinin o zamankı başçısı, millət vəkili **İlham Əliyev öz çıxışında demişdir: «Son 13 ildə, Ermənistanın təcavüzü baş-**

[1] «Günay» qəzeti, 27 avqust 1994, «Respublika» qəzeti, 28 avqust 1994.



**landığı andan erməni terrorçu qrupları tərəfindən Azərbaycana qarşı 32 terror aktı törədilmişdir. Bu terror aktları nəticəsində Azərbaycanda 2 min adam öldürülmüş, on minlərlə adam yaralanmışdır».**[1] Bu terror aktları qatarlarda, gəmilərdə, metroda, avtobuslarda edilir. Dağlıq Qarabağ ərazisi narkotik maddələrin daşınması üçün istifadə olunur və norkotiklərin istehsalından və daşınmasından əldə edilən küllü miqdarda pul terror məqsədləri üçün xərclənir.

Yuxarıda göstərilən 32 terror aktlarının törədildiyi konkret yerlər və tarixləri rəsmi olaraq açıqlanmışdır. Bunlardan əlavə Avropa Şurası Parlamenti Assambleyasında bildirilmişdir ki, Ermənistanın terrorçu dövləti Azərbaycanın Dağlıq Qarabağ ərazisi və onunla həmsərhəd olan işğal edilmiş digər 7 azərbaycanlılar yaşamış rayonlar narkotik maddələr əkini və xarici ölkələrə daşınıb satılması üçün geniş istifadə edir və bundan əldə edilmiş gəlirləri özlərinin «Asala» ordusu və digər terrorçu hərbi dəstələrin silahlanması və saxlanılması üçün geniş istifadə edilir.

Oxucuya təqdim edilən qısa şərh göstərir ki, XX əsr boyu erməni-daşnaklar Azərbaycan ərazilərini zəbt etmək və xalqımıza qarşı soyqırım siyasətini qəddarlıqla həyata keçirməklə məşğul olublar və bəzi hallarda istədiklərinə nail də olublar.

Bunun səbəbini müasir ədiblərdən biri xalqımızın «nifrət hissindən məhrum olması» ilə izah edir[2]

Görkəmli publisist Hidayət Orucov isə bu mənfi halı xalqımıza xas olan unutqanlıq ilə izah etməkdə tamamilə haqlıdı[illegible]. Həqiqətən də bizə qarşı **düşmənçiliyə dözümlülük səviyyəsinə qalxmış unutqanlıq xalqımızın mentalitetində (düşüncə tərzində) mənfi hala çevrilmişdir**. Halbuki, xalqımızın mentaliteti, sözünə sadiqlik, qonaqpərvərlik, dini dözümlülük (tolerantlıq) və digər müsbət keyfiyyətlərlə seçilir və bu müsbət keyfiyyətləri dünyanın bir çox mütərəqqi xadimləri yüksək qiymətləndirmişlər.

[1] Bax, «Xalq» qəzeti, 26 sentyabr 2001.
[2] Bu haqda bax: İsrafil İsmayılov. Dünya azərbaycanlıları XX əsrdə. B., 1997, s.247.

Bizə belə gəlir ki, bu məsələ də böyük şairimiz Səməd Vurğun daha düzgün mövqedə olmuşdur.

Səməd Vurğun 1942-ci ilın 23 avqustunda Tiflisdə keçirilmiş Zaqafqaziya xalqlarının antifaşist mitinqindəki çıxışında demişdir: «...Qoy keçilməz Qafqaz dağlarının dibi, görünməyən dərələri alman işğalçıları üçün məzarıstan olsun. **Mən düşmənə nifrət bəsləməyə çağırıram»**

Erməni faşistləri alman faşistlərindən daha qəddardırlar. Onlar yalnız nifrətə layiqdirlər.

Son illər Rusiyada «Xocalıya ədalət» Beynəlxalq kampaniyasına start verilmişdir. 2009-cu lin 27 fevralında Moskvadakı «Bakı» kinoteatrında Rusiyadakı Azərbaycanlı Gəncləri Təşkilatı (AMOR) ilə İslam Konfransı Gənclər Forumunun «Dialoq və əməkdaşlıq» təşkilatının birgə fəaliyyəti ilə **«Xocalıya ədalət»** beynəlxalq kompaniyası keçirilmişdir. Tədbirdə iştirak edən məşhur vətənpərvər yazıçı Yuri Pampeyev Xocalı faciəsinin insanlığa qarşı cınayət olduğunu vurğulamış və özünün yazdığı «Qarabağın qanlı çanağı» kitabını təqdim etmişdir. Belə tədbirlərin keçirilməsi sübut edir ki, Xocalı soyqırımının dünya miqyasında qəbul edilməsi uğrunda mübarizəni davam etdirmək yolu ilə Azərbaycanın haqq işinin beynəlxalq aləmdə tanınmasını qəbul etdirmək mümkündür.



## XIII Fəsil.
## TÜRKDİLLİ XALQLARIN MƏDƏNİ ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİ

XX əsrin əvvələrində dünyanın türkdilli xalqlarının mədəni əlaqələri pərakəndə və zəif olmuşdur. Bunun əsas səbəbi isə1917-ci ildən sonrakı dövrdə siyasi sistemlərin qadağaları idi. Lakin bəzi hallarda öz mənfəəti üçün siyasi sistem rəhbərliyi çıxış yolu da axtarırdı.

1921-ci ildə Rusiya Elmlər Akademiyası Şərqşünaslıq institutu yaradılmış və həmin institut İ.V.Stalinin rəhbərliyi altında Rusiya hökuməti tərkibində olan Millətlər Üzrə Komissariat tərəfindən idarə olunurdu. 1918-1920-ci illərdə Rusiya Federasiyası Xarici İşlər Nazirliyi sistemində fəaliyyət göstərmiş Nəriman Nərimanov həmin millətlər üzrə Komissariyatın fəaliyyətinə də cəlb edilir.

1924-cü ildə Millətlər Üzrə Komissariat ləğv edildi və onun əsasında SSRİ MİK nəzdində Şərqşünaslıq üzrə Ümumittifaq Elmi Assosiasiyası yaradıldı və onun ilk sədri Mixayıl Pavloviç Veltman təyin edildi, «Yeni Şərq» («Novıy Vostok») jurnalı assosiasiyanın mərkəzi orqanı olacaq 1930-cu ilə qədər nəşr edilirdi.

Həmin jurnalın baş redaktoru 1920-ci ilin sentyabrın əvvəlində Bakıda çağrılmış Şərq Xalqlarının I qurultayında iştirak etmişdir. Qurultayda Qafqaz, Orta Asiya, Əfqanistanın, İran, Türkiyə və digər ölkələrdən 37 millətin nümayəndəsi iştirak etmişdir.

Türkdilli Azərbaycan xalqının qonşu Türkiyə dövləti ilə mədəni əlaqələri Sovet siyasi sisteminin ilk 50 ilində arasıkəsilməz qadağalar və təqiblər şəraitində həyata keçirilmişdir. Faktiki olaraq bu əlaqələr yalnız diplomatik kanallar vasitəsilə həyata keçirilirdi. Buna görə də Azərbaycanda əcnəbi şərq ilə elmi əlaqələr çox zəif idi birtərəfli keçirilirdi.

1930-cu ildə SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu yaradıldı. Həmin İnstitutun tərkibində M.Pavloviç, B.Bartold, N.Marr, S.Oldenburq, İ.Kraçkovski, B.Struve, İ.Meşaninov, N.Konrad, B.Qafirov, A.Krınski kimi görkəmli alimlər fəaliyyətdə olmuşlar.

1922-ci ildə Azərbaycan Dövlət Universitetində Şərqşünaslıq fakültəsi açıldı, 1958-ci ildə Azərbaycan Elmlər Akademiyası nəzdində Şərqşünaslıq İnstitutu fəaliyyətə başladı. İnstitutun fəaliyyətində görkəmli professorlardan Həmid Araslı, Əkrəm Cəfər, Abdulkərim Əlizadə, Ziya Bunyadov, Məmməd Şirəliyev geniş fəaliyyət göstərmişlər.

Azərbaycan mədəniyyəti və ədəbiyyatının sistemi tarixinin yaradılmasında və öyrənilməsində professor Həmid Araslının (1909-1987) müstəsna xidmətləri olmuşdur. Şərqşünaslıq İnstitutunun «Türk filologiyası» şöbəsinə rəhbərlik edən prof. H.Araslı Türkiyə və Azərbaycan şairləri Gülşəhri və Gəncəli Nizami, eləcə də «Tofiq Fikrət və Azərbaycan ədəbiyyatı», «Azərbaycanda və Türküstanda yaşayan Nəsirəddin Xoca» adlı klassik əsərlərini yazmışdır.

Professor Həmid Araslı ümumtürk mədəniyyətinin inkişafı və əlaqələrinin genişləndirilməsində də müstəsna xidmətlər etmişdir. O, Özbəkistan respublikasının əməkdar elm xadimi, Türk Dil Qurumunun, İraq Elmlər Akademiyasının, İordaniya Kral Cəmiyyətinin fəxri üzvü seçilmişdir.

Yalnız XX əsrin 70-ci illərinin ortalarından başlayaraq Azərbaycan-Türkiyə mədəni əlaqələrində müəyyən qədər qarşılıqlı mədəni əlaqələr yaradılmağa başlanmışdır. Həmin dövrdə məşhur bəstəkar və dirijor Niyazi Türkiyəyə qısa müddətli elmi fəaliyyətə dəvət edilmişdi. Azərbaycan incəsənət xadimlərinin Türkiyəyə səfərlər etməsinə icazə verilmişdi.

Bu sətirlərin müəllifi də 1975-ci ilin sentyabrında Türkiyəyə səfər etmiş ilk Azərbaycan ziyalılar dəstəsi (24 nəfər) tərkibində olmuşdur.

Bu səyahətə başlanmazdan əvvəl bizim hamımızı Moskvada məsul şəxslər bir saat ərzində qəbul edərək, müvafiq göstərişlər verdilər: kommunist şair Nazim Hikmətin adını Türkiyədə çəkməməyi xüsusi olaraq qeyd etdilər. Bu görüşdə bizə xəbərdarlıq edilən qabaqlayıcı nəsihətlər və Türkiyədə bizim gördüklərimiz sübut etdi ki, SSRİ rəhbərliyində Türkiyə dövləti haqqında qərəzli mənfi münasibət həmişə davam etmişdir. Təkcə onu demək kifayətdir ki, biz Türkiyənin hər yerində Nazim Hikmətin



kitablarını mağazada gördük. 2009-cu ilin əvvəlində Nazim Hikmətə Türkiyə vətəndaşlığı da qaytarılmışdır[1]

***

İstanbulun gözəlliklərini, Topqapı sarayını, çoxsaylı tarixi abidələri Bosfor üzərindən çəkilən və Avropa ilə Asiyanı birləşdirən məşhur asma körpüsü, altı minarəli məscidi, Bursanı, Kuşadasını, Panukkalanı, Konyanı, Avropa sayağı tikilmiş Ankaranı, ulu öndər Atatürkün məqbərəsini və muzeyini, Mərmərə dənizi sahillərini, İzmir şəhərini ziyarət etdikdə qonşu Türkıyənin qəhrəmanlıqlarla dolu möhtəşəm tarixi yerlərini əvvəllər görməkdən məhrum olduğunuza çox heyfsləndik.

***

Türk yazı dili 2500 il bundan əvvəl mövcud olmuşdur.

Tarixdə türklərin 120-yə qədər dövləti olmuşdur ki, bunlardan 16-sı imperiyadır[2]

Osmanlı imperatorluğu 1299-cu ildə Anadoluda yaradılmış və 1922-ci ilə qədər (623 il) davam etmişdir. Qədim Azərbaycan ərazilərində yaradılmış Qaraqoyunlu dövləti (1380-1469-cu illər) və Ağqoyunlu dövləti (1146-1225) də türk dünyasının qədim tarixinin səhifələrini özündə təcəssüm etdirir.

Yuxarıda sadalanan qısa tarixi icmal göstərir ki, Şərqdə türk mədəniyyəti zəngin olmuşdur.

Məşhur İngiltərə alimi Arnold Toynbi və Almaniya alimi Osvald Şpenqlerin irəli sürdükləri Yevrosentrik nəzəriyəyə görə Bəşər mədəniyyəti aşağıdakı 5 iri mədəniyəət qrupundan ibarətdir:

1) İlkin mədəniyyət (şumerlər, qədim Misir, Hindistan və Çin mədəniyyəti)
2) Babil, Suriya, Ellin (Yunanıstan) mədəniyyətləri
3) İran, Ərəbistan mədəniyyətləri

---

[1] Daha ətraflı bax: İsrafil İsmayılov, Azərbaycan-Türkiyə mədəni əlaqələri XX əsrdə, B., 2004.

[2] Bütün bunlar haqqında Bakıda 1992-ci ildə nəşr edilən «Türkün qızıl kitabı»nda (1 kitab) müfəssəl məlumat verilmişdir.

4) Xristianların mədəniyyəti

5) Uzaq Şərq (Yaponiya, Koreya) və türkdilli xalqların (Turan) mədəniyyəti.

Amerika siyasətşünası Samuel Xantinqon isə 1896-cı ildə nəşr etdirdiyi «Mədəniyyətlərin toqquşması» adlı əsərində (bu kitab dünyanın 26 xalqının dilinə tərcümə edilmişdir) dünyada 8 qrup mədəniyyətin qarşılıqlı təsirdə toqquşmada olduğunu iddia edir. Xarninqonun hipotezinə görə nəticədə indii yüksək səviyyədə inkişaf etmiş Qərb mədəniyyətini təmsil edən xalqlar ilə keçmişdə güclü mədəniyyətləri olmuş Şərq xalqları mədəniyyətləri arasında konflikt başlanacaqdır.

Oxucuya məlumdur ki, bu fərziyyələr XX əsrin sonlarında mədəniyyətlərdə qloballaşma nəzəriyyəsi ilə əvəz edildi.

Qloballaşma prosesinin mədəni səviyyələrinə görə hazırda zəif inkişaft etmiş ölkələr və xalqlar üçün mənfi hallar yarada biləcəyi ehtimalı realdır və bu məsələ hazırda geniş müzakirələrə səbəb olmuşdur.

Türkdilli xalqların sayca əksəriyyətinin əvvəllər keçmiş SSRİ tərkibində olduğunu nəzərə alaraq bu xalqların mədəni həyatında baş verməkdə olan proseslərin inkişaf istiqaməti xüsusi diqqət və qayğı tələb edir.

Məlumdur ki, Sovet siyasi sistemi dövründə həmin xalqların «beynədmiləlçiliyə» istiqamətləndirilmiş mədəni inkişaf istiqaməti cəmiyyəti sinfi bölgüyə istiqamətləndirilən marksizm nəzəriyyəsinə əsaslanırdı və bu da Karl Marksın 5 ictimai – siyasi (ibtidai-icma, qurldurluq, feodalizm, kapitalizm, sosializm-kommunizm) inkişaf mərhələsini mədəni inkişafda da əsas istiqamət kimi qələmə verirdi. Bu nəzəriyyəyə xidmət edən cəmiyyəti sinflərə bölmək cəhdi də əlbətdə nöqsanlı idi.

Ulu öndər Mustafa Kamal Atatürk cəmiyyəti bir-birinə əks olan siniflərə bölməyi nöqsanlı hesab edərək onu (cəmiyyət) əmək peşələri əsasında peşələr üzrə bölməyi düzgün hesab edirdi və belə bölgü dünyanın əksəriyyət xalqlarının siyasi həyatında qəbul edilmişdi.

Keçmiş SSRİ_də türkdilli monqol – tatar xalqların orta əsrlərdə Qərbə yürüşləri Sovet ədəbiyyatında mənfi boyalarla işıqlandırılırdı və tarixi saxtalaşdırmağa xidmət edirdi.



Digər tərəfdə, Anadolu türklərinin orta əsrlərdə mövcud olmuş görkəmli sultanlarının qərbə yürüşləri (hətta İspaniyaya qədər) və Qərbdə həyata keçirdikləri mədəni quruculuq fəalıyyətləri haqqında tarixi faktlar yaddan çıxarılır, sadəcə olaraq bu faktlar heç olmamış kimi susdurulurdu.

Bütün bu deyilənlər türkdilli xalqların mədəniyyətlərin oxşar cəhətlərin dərindən öyrənilməsi və dünyanın türkdilli xalqlarının mədəniyyətləri haqqında ədəbiyyatın yaradılması və eyni zamanda həmin mədəniyyətlərin öyrənilməsinin yüngülləşdirilməsi üçün ortaq türk dilinin yaradılması vəzifəsi ortaya çıxır.

Dünyanın türkdilli xalqlarının sayca və əhalisinin miqdarına görə gələcəkdə böyük siyasi qüvvə ola bilməsi ehtimalına real imkan kimi yanaşılarsa, ortaq türk dili gələcəkdə Birləşmiş Millətlər Təşkilatının rəsmi dillərindən birinin olması ehtimalı da real görünür.

***

SSRİ-nin mövcudluğu dövründə olduğu kimi onun dağılmasından sonrakı dövrdə də qədim və zəngin Şərq mədəniyyətinin güclü qolu olan türkdilli xalqların milli mədəniyyətlərinin qarşılıqlı təbliği bir qədər zəifləmişdir. Həmin xalqların Milli dövlətlərinin təşkili və möhkəmləndirilməsi ilə əlaqədar olan indiki keçid dövründə bu zəifləmənin səbəbi anlaşılandır.

Bununla belə, türkdilli xalqların mədəniyyət sahəsində ümumi mənafelərinin birliyi bu əlaqələrin genişlənməsi və möhkəmlənməsi vəzifəsini ön plana çəkir və buna imkanlar vardır.

Türkdilli xalqların qədimdən qalmış «Kitabı Dədə Qorqud», «Manas», «Alpamşu» və digər dastanları, yazılı və şifahi ədəbiyyata aid əsərlərin qarşılıqlı öyrənilməsi və təbliği bu xalqların birliyinin möhkəmlənməsinə xidmət edən güclü amillərdən biridir.

Azərbaycan Prezidenti İlham Əliyevin və Heydər Əliyev fondunun Prezidenti Mehriban Xanım Əliyevanın təşəbbüsü ilə «Yeniləşən Azərbaycana - yeni məktəb» proqramı

çərçivəsində bütün ölkədə yüzlərlə məktəb, xəstəxana və digər tibbi-müaliicə mərkəzləri tikilmişdir.

Azərbaycanda gənclərin dünya standartlarına uyğun səviyyədə təhsil almasına şərait yaradılır. 2015-ci ilə qədər 15 minə qədər gəncin xarici ölkələrdə təhsil alması təmin ediləcəkdir.

Hazırda Azərbaycan dünyanın 140-a yaxın ölkəsi ilə qarşılıqlı iqtisadi və mədəni əlaqələrə malikdir. Bu əlaqələrin digər türkdilli 6 dövlətin ərazilərində və türkdilli xalqların yaşadığı digər dövlətlərin regionlarında geniş miqyasda aparılması üçün bütün imkanlar vardır.

Türkdilli Azərbaycan xalqının Volqa boyu tatarlar və başqırd xalqı, Dağıstanda yaşayan türkdilli kumık xalq, və xüsusilə Mərkəzi Asiyada yaşayan türkdilli xalqlar ilə mədəni və iqtisadi əlaqələri getdikcə genişlənir.

2008-ci ilin noyabrında Türkiyənin Antaliya şəhərində keçirilmiş türkdilli dövlət başçılarının VIII zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev demişdir: «**Birgə fəaliyyətimiz nəticəsində bölgəni inkişaf etdirmək üçün sülhün, təhlükəsizliyin, sabitliyin tam şəkildə bərqərar olunması üçün bizim birgə səylərimiz böyük əhəmiyyət kəsb edir. Bizi birləşdirən tarixi köklər, ortaq mədəniyyət, etnik mənsubiyyət əlbəttə ki, qarşılıqlı, sərfəli fəaliyyətimiz üçün çox böyük əsasdır, böyük amildir**».

Sovet siyasi sistemi dövründə SSRİ-də yaşayan türkdilli xalqların milli mədəniyyətlərinin inkişafına «beynəlmiləlçilik» xatirinə daxil edilən bəzi yad əməliyyatların mənfi təsirinə baxmayaraq həmin 70 il ərzində türkdilli xalqların milli mədəniyyətlərinin tərkib hissəsi kimi qadın azadlığı və inkişafı probleminin demokratiya əsasında həlli üzrə müəyyən uğurlar qazanılmışdır.

Azərbaycanda həmin illərdə Mirvari Dilbazi, Nigar Rəfibəyli, Tahirə Tahirova, Şövkət Məmmədova, Çimnaz Aslanova, Ağabacı Rzayeva, Hökümə Qurbanova, Zeynəb Xanlarova kimi görkəmli dövlət və mədəniyyət xadimləri, yüzlərlə incəsənət xadimləri yetişmişdir. Özbəkistanda Zoya Rəhimbabayeva kimi görkəmli qadınlar dövlət xadimləri səviyyəsinə yüksəlmişdir.



Bununla belə Sovet siyasi ssitemi illərində Rusiya mətbuatında Orta Asiyanın müsəlman əhalisinin məişətinə aid təhqiredici bir müddəa tez-tez səslənirdi. Əksəriyyət hallarda özbək xalqına ünvanlandırılaraq iddia edilirdi ki, özbək qadınlarının öz ərləri ilə yanaşı gedərkən 1-2 metr arxada getməsi mədəni gerilik əlamətidir.

Bu şərtlərin müəllifi həmin məsələlərin məzmunu və tarixçəsi üzrə ədəbiyyatı təhlil edərək bu nəticəyə gəlmişdir[1] ki, Şərq ölkələrində qadınların öz ərlərindən arxada getməsi qədimdən qalmış adət və ənənədir. Belə ki, qədim Şərqdə ictimai nəqliyyatın zəif olduğu şəraitdə piyada yeriyən qadın və ya qızın kişinin arxasınca getməsi bədəncə zəif bu məxluğun hər hansı hücumdan (hətta vəhşi heyvanların hücumundan) müdafiəsi üçün məqsədə uyğun idi və bu bir adət şəklini almışdı.

1982-ci ildə Daşkənddə məişət mədəniyyət məsələlərinə həsr olunmuş Ümümittifaq elmi-praktiki konfransında müəllifin bu mülahizələri diqqətlə dinlənilmiş və məmuniyyətlə qəbul edilmişdir.

Türkdilli Azərbaycan xalqının zəngin mədəniyyətinin ermənilər tərəfindən oğurlanması artıq biabırçı bir fakt kimi geniş oxucu kütləsinə məlumdur. Və bu haqda ifşaedici yazılar da kifayət qədərdir. Görünür mədəniyyətin incəsənət qolu üzrə təkcə kasıb olan ermənilərın bəzi ziyalıları bu kasıblığı doldurmaq üçün Qafqazdan uzaqda belə mədəniyyət oğurluğun təbliğinə adət etmişlər. Belə mədəni oğurluğun bəlkə də ilk nümayəndəsi Amerika Birləşmiş Ştatlarında kinorejissor Ruben Mamulyan olmuşdur. O, II dünya müharibəsi ərəfəsində dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun məşur «Arşın mal alan» operettasını ekranlaşdıraraq, «erməni mədəniyyətinin incisi» kimi təbliğ etməyə başlamışdı və az sonra ifşa olundu. Ermənilər Azərbaycan xalqının bir sıra mahnı və rəqslərini də özlərinkiləşdirmək istəyirlər

Belə biabırçı faktların təkrar olunmaması üçün təsiredici tədbirlərdən biri Türkdilli xalqların mədəniyyət məsələləri ilə

[1] И.З.Исмайлов, Воспитание трудящихся в духе революционных, боевых и трудовых традиций, Баку, 1978.

məşğul olan «Türksoy» tərəfindən qabaqlayıcı tədbirlər işləyib hazırlaya bilər. Türkdilli xalqların mədəniyyət incilərinin kataloqunun hazırlanaraq nəşr edilməsi və dünya ölkələrinə yayılması məqsədəuyğun bir tədbir ola bilər.

Türk dünyası xalqlarının əksəriyyətinin 15 il bundan əvvəl müstəqil milli inkişafa başlaması müasir qloballaşma dövründə çoxsaylı manelərə rast gəlir. Bu xalqların əksəriyyətinin yaşadığı Mərkəzi (Orta) Asiya regionuna kənardan siyasi təsir məsələsi bu çətinliklərin ən əsasıdır. Cənubi Qafqazda türkdilli Azərbaycan öz müstəqilliyi uğrunda mübarizəsinin uğurla davam etdirir. Belə bir şəraitdə yenicə müstəqillik qazanmış türkdilli dövlətlərin mədəni əlaqələrinin genişlənməsi xüsusi əhəmiyyət kəsb edir.

Qırğızıstanın paytaxtı Bişkek şəhərində «Ermənilərin Azərbaycan torpağındakı əməlləri haqqında tarixi faktlar» kitabı rus və ingilis dillərində (baş məsləhətçilər Milli Məclisin sədri Oktay Əsədov, elmi redaktoru AMEA müxbir üzvü Yaqub Mahmudov) 2008-ci ildə nəşr edilmişdir.



# XIV Fəsil
# TÜRK BİRLİYİ DÖVRÜN TƏLƏBİDİR
## (*Nəticə əvəzi*)

### Mədəni – etnik birlikdən siyasi birliyə doğru

Türkdilli xalqların sayca ən çoxunun yerləşdiyi Anadolu türklərinin tarixi dövləti XX əsrin I dünya müharibəsi illərində dağılma qorxusunda idi. Osmanlı ordusu əvvəl apardığı Balkan müharibəsinin yorğunluğundan qurtarmamış I dünya müharibəsində Antantanın əksinə vuruşan Almaniya qruppu dövlətləri ittifaqına qatışdı. Rusiyanın gözü ilə əvvəlki əsrlərdə olduğu kimi yenə də İstanbulda idi.

Türklərlə münasibətdə həmişə düşmənçilik mövqeyində olmuş Rusiya çarizmi müsəlman türklərə qarşı mübarizəsini əsasən pantürkizm və panislamizim ilə mübarizə pərdəsi altında aparmışdır. Afrikadan Kiçik Asiyaya, oradan da Rusiya hakim dairələrinin bilavasitə köməyi ilə Qafqaza köçmüş vəhşi erməni tayfaları isə burada məskunlaşdırıldıqdan sonra öz ərazilərini qonşu türk dövlətlərinin tarixi əraziləri hesabına genişləndirərək, «Böyük Ermənistan» yaratmaq planını bütün vasitələrlə həyata keçirməyi öz qarşılarına əsas məqsəd qoymuşdu. Buradan aydındır ki, ermənilər Rusiya üçün Türkiyəyə qarşı mübarizədə bəzi hallarda gərəkli oldular.

Rus etnoqraf-alimi və publisisti, «Qafqaz» qəzetinin redaktoru işləmiş V.L.Veliçko 1904-cü ildə yazmışdır: «Ciddi desək, ziyalı ermənilər çoxdan dərk edirlər ki, onların məxsus olduğu tayfa pis ad-san qazanmışdır. Buna görə də onlar hələ çox-çox qədimdən Qafqazı tanımayan adamların yanında özlərini güclü, bəzən də çərkəz kimi qələmə verməyə cəhd edirlər». Həmin müəllif, göstərilən kitabın 73-cü səhifəsində yazmışdır: «Demək olar ki, hər bir gəlmə şəxs bu vilayətlərdə (yəni Qafqazda) xalqın köklü özəyini təmsil edən insanlar ilə rastlaşdıqda, o,türkləri sevir onlara hörmət edir, yunanları onlardan aşağı hesab edir, erməniləri isə gözü-görəsi gəlmir və onlara nifrət edirdi. Hər yerdə belə bir atalar sözü özünü

doğruldurdu: «yunan iki yəhudini aldadırsa, erməni iki yunanı aldada bilər».

Bütün erməni əhalisini uşaq yaşlarından başlayaraq qonşu türklərə qarşı nifrət ruhunda tərbiyə etmək vəzifəsini qarşıya qoymuş erməni – daşnakları XX əsrdə türkdilli xalqlara qarşı dəfələrlə soyqırım və terror aktları təşkil etmişlər. terror aktlarını vaxt etibarılə 3 dövrə bölmək olar:

1) Rusiya çarlığı dövründə ermənilər tərəfindən Azərbaycan-Türklərinə qarşı həyata keçirilmiş soyqırım və terror aktları;
2) Sovet siyasi sistemi dövrü həyata keçirilmiş terror aktları;
3) XX əsrin son 10 ilində (ən çoxu 1988-1995-ci illərdə) həyata keçirilmiş terror aktları.

Terrorçu Hakop Ter-Hakopyan (Şahan Natan) hələ 1912-ci ildə ABŞ-da nəşr olunan «Nayrenik» adlı məcmuədə dərc etdiyi «Türklər və biz» adlı məqalədə yazmışdı: «Ermənilərin türkdən başqa düşməni yoxdur...».

1960-cı ildə Ermənistan Respublikasında Kommunist partiyasının II katibi işləmiş Hrand Martirosyan demişdir: «Qəlbində (türklərə qarşı) intiqam hissi yoxdursa, sən erməni deyilsən». Zabit Ovanes Apresyan etiraf etmişdir: «Biz ermənilər bacardığımız qədər türkləri qırdıq. Ancaq bu elə bir sonsuz kin və intiqam zənciridir ki, get-gedə daha dərin şəkildə insanın varlığına qənim kəsilir...».

Son zamanlar erməni terrorçuluğu haqqında xeyli ədəbiyyat nəşr edilmişdir[1]. Təəssüflə qeyd etmək lazımdır ki, həm Türkiyədə, həm də xüsusilə Azərbaycanda belə ədəbiyyatın toplanmasına və nəşrinə, eləcə də dünya miqyasında geniş yayılmasına, gec başlanmışdır.

Amerikalı hüquqşünas-alim Samuel A.Vits «Ermənistan: böyük hiylə. Terrorçu «xristian» dövlətinin sirrləri» adlı kitabında erməni lobbisinin və erməni kilsəsinin azərbaycanlılara və ümumiyyətlə, türklərə qarşı hiyləgər və əsassız siyasətini ifşa etmiş və qondarma «erməni

[1] Rövşən Mustafayev. Erməni terror və quldur birləşmələrinin törətdikləri cinayətlərin müxtəşər xronoloji ensiklopediyası (XIX-XX əsrlər). B, 2002 (rus dilində), Bəhruz Abdullayev, Hidayət Cəfərov. Azərbaycana qarşı erməni terrorizminin qısa xronologiyası. B, 2000, «Dirçəliş – XXI əsr», №50, aprel 2002, s.156-170, «Xalq» qəzeti, 25 yanvar 2000-ci il və s.



soyqırımının» uydurma olduğunu rəsmi arxiv sənədləri ilə təsdiq etmişdir.

Azərbaycanda Sovet hakimiyyəti illərində azərbaycanlılara qarşı erməni terroru əsasən respublikanın inzibati-güc nazirliklərinə soxulmuş erməni-daşnakların bilavasitə iştirakı ilə təşkil olunmuşdur. Təkcə onu demək kifayətdir ki, 1937-38-ci illərdə Azərbaycan Daxili İşlər Kommisarlığının 51 rayon şöbəsindən 38-nə ermənilər başçılıq edirdi. Respublikanın cəza orqanlarındakı müstəntiqlərin isə 80%-i ermənilərdən ibarət idi. Bu vəzifələr Moskvanın nəzarəti altında idi və bir çox hallarda təsdiq edilərək oradan birbaşa Azərbaycana göndərilirdi.

Möhtəşəm Türkiyə dövləti müstəqil olsa da, görünür əvvəllər erməni xəyanətinə, onun terrorçuluqda geniş imkanlarına əhəmiyyət verməmişdir. Bundan istifadə edən ermənilər isə əsasən ticarət xidməti yolu ilə Türkiyədə özlərinə yuva sala bilmişlər.

Son illərdə Türkiyədə dörd cildlik arxiv sənədləri çap olunmuşdur və bu sənədlərdə ermənilərin türklərə qarşı qəddar vəhşiliklərlə həyata keçirdikləri soyqırım və terror qurbanları haqqında geniş məlumatlar verilmişdir. Etiraf edək ki, belə tədbirlərin beynəlxalq miqyasda təbliğində Türkiyə də (Azərbaycanda olduğu kimi) gecikmişdir.

Erməni terrorunun qəddarlıqla həyata keçirilməsi, onun geniş miqyas alması bunu deməyə əsas verir ki, bu terrorun təşkilatçıları dünyada indii ən qorxulu hərbi-siyasi qüvvədir.

Əvvəla, erməni terrorunun təşkilatçıları əksəriyyət hallarda öz zərbələrini ən əvvəl Azərbaycan xalqının ziyalı zümrəsinə qarşı yönəltmişlər.Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) rəhbər xadimlərindən olan Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Behbud ağa Cavanşir 1920-ci ildə erməni terrorunun qurbanı oldular.

Azərbaycan xalqının görkəmli siyasi və mədəni xadimi Nəriman Nərimanova qarşı 1918-1922-ci illərdə aparılan mübarizənin əsaslı təşkilatçıları Anastas Mikoyan, Mirzoyan və digər «yan»lar olmuşdur.

1991-ci ilin 20 noyabrında Qarabağın Qayakənd adlı kəndinin səmasında Azərbaycan xalqının 12 nəfər görkəmli

dövlət xadimləri və ziyalıları sülh missiyası ilə vertalyotda Dağlıq Qarabağa uçarkən, erməni terrorçuları tərəfindən göydə vurularaq məhv edildilər.

1992-ci ilin fevralında Xocalıda törədilmiş terror erməni vəhşiliyi üçün daha səciyyəvidir. Bu terror hadisəsi öz miqyasına və vəhşiliyinə görə insanı vahiməyə gətirir. Mühasirəyə düşmüş Xocalı şəhərində qalmış 2000 nəfər əhalini erməni faşistləri fevralın 25-dən 26-na keçən gecə məhv etdilər: 613 nəfər vəhşicəsinə öldürüldü (bunlardan 106 nəfəri qadın, 70 nəfəri qoca, 83 nəfəri kiçik yaşlı uşaqlar idi), 1275 nəfər əsir götürüldü və az sonra çoxları əsirlikdə məhv edildi.

Dünya miqyaslı siyasi xadim Heydər Əliyev bu cinayət haqqında belə demişdir: «Xocalı faciəsi insanlığa qarşı çevrilmiş, öz qəddarlığına və amansızlığına görə misli görünməmiş genosid aktı kimi tarixdə qalacaqdır». Bütövlükdə isə XX əsrdə iki milyona yaxın azərbaycanlı erməni soyqırımına məruz qalmış, bu terrorun qurbanı olmuşlar.

Azərbaycanın indiki Prezidenti İlham Əliyev 2001-ci ildə Avropa Assambleyasının iclasındakı çıxışında bəyan etmişdi ki, son 13 ildə erməni terrorçu qrupları tərəfindən Azərbaycan xalqına qarşı 32 terror aktı törədilmişdir. Həmin terror aktları vasitəsilə 2000 nəfər Azərbaycanlı məhv edilmiş, on minlərlə insan yaralanmışdır[1].

Erməni vəhşiliyinin və həyasızlığının ikinci bir istiqaməti Azərbaycan-türk xalqının milli mədəniyyətinin ən görkəmli nailiyyətlərini oğurlayaraq, erməni mədəniyyəti nümunəsi kimi dünyada geniş təbliğ etməkdən ibarətdir, deməli mədəniyyətimizi oğurlamaqdır.

Amerikada yaşayan rekssor Ruben Mamulyan dahi Üzeyir Hacıbəyovun yazdığı məşhur «Arşın mal alan» operettasını erməni dilinə tərcümə edərək 1939-cu ildə kinofilm şəklində «erməni musiqisinin incisi» kimi Amerikada təbliğ edirdi.

Tokioda (Yaponiya) nəşr edilən «Musiqi alətlərinin kolleksiyası» adlı kitabda erməni müəllif «kamança» musiqi

---

[1] «Xalq» qəzeti, 26 sentyabr 2001-ci il.



alətini erməni musiqi kimi təbliğ etmişdir... Ermənilər indii də bir çox Azərbaycan mahnılarına sahib çıxmaq istəyirlər. Belə eybəcər faktlar çoxdur.

Erməni həyasızlığının digər bir təzahürü vaxtilə türkdilli xalqların yaşadığı, lakin ermənilər tərəfindən müxtəlif vaxtlarda zəbt edildiyi bütün şəhər və kənd, göl və çay adlarının dəyişdirilərək erməniləşdirilməsidir. Tarixə və tarixi yaddaşa böyük xəyanət olan bu cinayət də erməni vəhşiliyi üçün çox səcəyyəvidir.

2000-ci ildən başlayaraq Azərbaycanda nəşr edilən «Qərbi Azərbaycan» oncildliyində indiki Ermənistanın yerləşdiyi Azərbaycan ərazilərindəki şəhər və kəndlərin adlarının dəyişdirilərək, erməniləşdirilməsi ifşa edilir. Erməni saxtakarlığı o dərəcəyə çatmışdır ki, uydurma coğrafiyə xəritələri nəşr edərək, heç bir zaman ermənilərin toplu şəkildə yaşamadıqları ərazilərə də sahib çıxmaq istəyirlər.

Bütün bu deyilən faktlar dünyanın türkdilli xalqlarını erməni terrorçuluğuna qarşı və başqa xalqların tarixi ərazilərinə sahib olmaq xəyanətinə qarşı sayıqlığa çağırış ilə yanaşı, onları öz milli mənafelərini qorumağa çağırır. Gənclərimizi xəbərdar etməliyik ki, türkdilli xalqlara qarşı erməni xəyanəti və düşmənçiliyinin 200 illik tarixi vardır və bu tarixin acı nəticələri heç bir vaxt yaddan çıxarılmamalıdır.

SSRİ dağıldıqdan sonra əmələ gəlmiş 5 müstəqil türk dövlətinin varlığı şəraitində türk dünyası xeyli möhkəmlənmişdir. Bundan başqa vaxtı çatmış siyasi və iqtisadi məsələlərin müzakirəsi üçün türkdilli xalqları təmsil edən dövlətlərin paytaxtlarında və ya iri şəhərlərində dövlət və hökumət başçılarının iqtisadi məsələlər üzrə görüşləri keçirilir.

Göstərilən tədbirlər türk dünyasında ənənəyə çevrilərək yeni uğurlar əldə edilməsinə kömək edəcəkdir.

XX əsrin 90-cı illərinin əvvəllərində Sovetlər İttifaqının dağılması zəminində yaranmış 5 müstəqil türk dövləti hesabına türk dünyası xeyli gücləndi. Bu güclənmə, dünyanın digər regionlarında yaşayan türkdilli xalqların türk birliyi işinə cəlb edilməsi üçün şərait yaratdı. Bütövlükdə isə XXI əsrin əvvəli üçün türk dünyasının strateji mənafelərini müəyyənləşdirilməsi aktual bir vəzifə kimi qarşıya qoyulmuşdur.

Türkdilli xalqların birliyi müasir dövrdə baş qaldırmağa imkan tapmış təcavüzkar separatizm və davakar millətçiliyə qarşı mübarizəni ən aktual vəzifə kimi qarşıya qoyur və imkanları səfərlər etməyi tələb edir.

Tarixi İpək Yolunun bərpası və Azərbaycan Respublikası prezidenti Heydər Əliyev tərəfindən işlənmiş «İpək Yolu Strategiyası»nın ABŞ dövləti tərəfindən dəstəklənməsi, bu dövlətin müasir dövrdə dünyanın bütün dövlətlərinin ərazi bütövlüyü və milli təhlükəsizliyi prinsiplərini müdafiə etməsi türk dünyası üçün uğurlu imkanlar yaradır.

1949-cu ildə dünyanın 12 ölkəsinin iştirakı ilə yaradılmış NATO-nın tərəfdaşlıq proqramlarında 44 ölkə iştirak edirlər. NATO-nun 1999-cu ilin aprelinin sonunda keçirilmiş 50 illiyi tədbirlərində Qafqazın və Mərkəzi (Orta) Asiyanın bütün müstəqil dövlətlərinin prezidentləri iştirak etdilər. Bu iştirak onların Qərblə əlaqələrə böyük əhəmiyyət vermələrinin təsdiqi idi.

Türkiyə dövləti NATO-nun üzvüdür. Türkiyə eləcə də Avropa Şurası üzvlülüyünə namizəd statusu (dekabr 1999) almışdır. NATO-da Türkiyə ordusu ABŞ ordusundan sonra ikinci, ən böyük və güclü ordudur. 25 illik tarixə malik olan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) öz tərkibində indii 54 ölkəni birləşdirir.

SSRİ-nin dağılması ilə türkdilli xalqların çoxunun yaşadığı Cənubi Qafqaz və Xəzər dənizi rayonu mühüm geostrateji məkana çevrildi. Bu ərazidə və onun ətrafında yerləşən dövlətlərin böyük bir hissəsi türk-dilli xalqların yaşadıqları dövlətlərdir. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının 1998-ci ilin 26 oktyabrında Ankarada çağrılmış Zirvə toplanışında qəbul edilmiş «Deklarasiya» strateji əhəmiyyət kəsb edən iqtisadi və siyasi məzmunlu bir sənəddir. Bu deklarasiyada, göstərilən regionda neft məhsullarının və qazın boru vasitəsilə daşınmasının əsas istiqamətləri müəyyən edilmişdir. Belə ki, əvvəl inşa edilmiş Bakı-Supsa və Bakı-Novorossiysk neft kəmərləri ilə yanaşı əsas (ən böyük) ixrac boru kəməri Bakı-Tibilisi-Ceyhan istiqamətində boru kəməri müəyyən edilmişdir və çəkilmişdir.



Faktiki olaraq bu sonuncu boru xətti Bakı-Novorossiysk kəmərinə alternativ xəttdir. Şimali Qafqazda hərbi gərginliklərin mövcud olması və davam etməsi şəraitində alternativ Bakı-Ceyhan xəttinin çəkilməsi Azərbaycan prezidenti Heydər Əliyevin siyasi uzaqgörənliyinin sübutu və nümunəsidir.

Özünün yanacaq mənbələri zəif olan qardaş Türkiyə (1983-cü ildə Türkiyədə 2,3 milyon ton neft hasil edilmişdir. Bax, «Stranı mira», M. 1985, s.248) üçün bu əsas boru kəmərinin Türkiyədən keçməsi bir neçə sahədə xüsusi əhəmiyyət kəsb edir: 1999-cu ildə ATƏT-in İstanbul zirvə görüşündə Bakı-Ceyhan əsas ixrac kəmərinin inşası üzrə sazışın imzalanması münasibətilə nitqində ABŞ prezidenti Bill Klinton demişdir: «Bu sənədlər regionun inkişafı və təhlükəsizliyini ön plana çəkəcəkdir. Bu isə dünyanın bütün qalan hissələri üçün də əhəmiyyətlidir. Qədim İpək yolu üzərində yerləşən bu ərazilərdə baş verəcək hadisələrin... Qərblə müsəlman dünyasının əlaqələrinə, qlobal iqtisadiyyatın güclənməsinə... təsiri olacaqdır»[1].

1999-cu ilin 18-19 noyabrında ATƏT-in üzvü olan 30 ölkənin dövlət və hökümət başçılarının iştirakı ilə İstanbulda keçirilən zirvə görüşündə «Avropanın Təhlükəsizlik Xartiyası» imzalandı və «İstanbul Bəyannaməsi» qəbul edildi. Həmin zirvə görüşündə eləcə də Avropada adi silahlı qüvvələr haqqında müqavilə də imzalandı. Məlumdur ki, həmin müqavilə 20 il bundan əvəl SSRİ-nin və Varşava bloku dövlətlərinin mövcudluğu şəraitində imzalanmışdı və onun yenidən baxılaraq, adi silahların səviyyəsini müəyyənləşdirən yeni sənəd kimi imzalanmasına ehtiyac var idi.

Yuxarıda sadalanan mühüm sənədlərin bir zirvə görüşündə imzalanması İstanbul Sammitinin böyük uğurudur. Bu sammitin məsələlərinin hazırlanmasında Azərbaycan və Türkiyə sabiq prezidentləri Heydər Əliyev və Süleyman Dəmirəlin xidmətləri diqqətə layiqdir.

Bakı-Ceyhan əsas neft kəmərinin inşası, Transxəzər qaz kəmərinin çəkilməsi, Qazaxıstanın neft məhsullarının Azərbaycandan keçirilməsi, Türkmənistan qazının

[1] «Xalq» qəzeti, 24 noyabr 1999-cu il.

Azərbaycandan keçməsi məsələsi üzrə danışıqlar və Böyük İpək Yolunun bərpası Azərbaycanın regionda böyük geostrateji mövqeyə malik olduğunu əyani sürətdə göstərir. Buna görə də demək olar ki, Azərbaycanın milli təbii sərvətləri olan qaz və neft, bir də geostrateji mövqei regionda onun güclü təsirə malik olduğunu müəyyən edir.

Hələ 1997-ci ilin avqustunda Amerika Birləşmiş Ştatları və Azərbaycan prezidentlərinin görüşündə «Amerika-Azərbaycan münasibətiləri»haqqında çıxışında ABŞ prezidenti Bill Klinton demişdi: «Azərbaycan Avropa, Asiya və Yaxın şərqin kəsişdiyi strateji məkanda yerləşir. O, Mərkəzi Asiyaya giriş qapısıdır, təbii sərvətlərlə çox zəngin bir ölkədir... **Amerika Azərbaycanda qüdrətli, müstəqil dövlət qurulması istiqamətində edilən səyləri güclü sürətdə dəstəkləyir»[1].**

Ulu öndər Heydər Əliyevin uzaqgörənliklə hazırladığı neft strategiyası Qərb ölkələrinin iqtisadi maraqlarına cavab verirsə, eyni zamanda qonşu ölkələrdən bəzilərinin iqtisadi və siyasi mənafelərinə müəyyən dərəcədə təsir edir və buna görə də müqavimətlə rastlaşır. Ən böyük müqavimət Xəzərin sektorlara bölünməsi tələbinə qarşı edilir; halbu ki, faktiki olaraq belə bölünmə hələ Sovetlər İttifaqı dövründən mövcuddur.

Eyni zamanda bu da məlumdur ki, hələ Sovetlər İttifaqı dövründə neft istehsalı üzrə əsas elmi və texniki mərkəz həmişə Azərbaycan Respublikası olunmuşdur. Xəzərin 200-dən artıq neft yataqlarından təxminən 145-i dənizin Azərbaycan sektorundadır. Bunların içərisində 18 yataq iri neft yataqlarıdır ki, onlardan biri olan məşhur Neft Daşları 50 il bundan əvvəl (1949) inşa edilməyə başlanmışdır. Dənizdə qurulmuş bu böyük neft şəhərciyinin estakadalarının uzunluğu 163,4 kilometrdir.

1994-cü ilin 20 sentyabrında Azərbaycanda xarici neft şirkətləri ilə neftin istehsalı üzrə bağlanmış məşhur «Əsrin Müqaviləsi» belə güclü neft yataqlarının zəngin ehtiyatlarına əsaslanırdı.

[1] «Xalq» qəzeti, 12 avqust 1997-ci il.



Azərbaycanda hazırlanmış yeni neft stretegiyasının əsasını neft və qaz sərvətlərinin səmərəli istifadə edilməsi və bunun üçün dünyanın böyük neft şirkətləri ilə müştərək iş görmək təşkil edir.

Yeni neft strategiyasına qarşı ikinci maneçilik Xəzərdə güya neft ehtiyatlarının çox az olması iddiası istiqamətində edilirdi və bunun da əsassızlığı sübut olundu.

Dəqiqləşdirilmiş proqnozlara görə Azərbaycanda 2002-ci ildən başlayaraq, ildə 12-15 milyon ton neft hasil ediləcəkdir. Bakı-Ceyhan əsas neft kəmərinin tikintisi 2004-cü ildə başa çatdıqdan sonra, onunla ildə 50 milyon ton neft ixrac etmək mümkündür. Qazaxıstan və Türkmənistanın neft və qazının bu istiqamətdə nəqli Mərkəzi Asiyanın türkdilli dövlətlərinin də iqtisadiyyatının inkişafına müsbət təsir edəcəkdir. Yaradılmış Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi (TRASEKA) də bu istiqamətdə işə xidmət edir.

Azərbaycan və Qazaxıstanın böyük neft ehtiyatları, Türkmənistan və Azərbaycanın zəngin qaz ehtiyatları imkan verir ki, Qədim İpək Yolu üzərində və Xəzər dənizi ətrafında yerləşən 3 türkdilli dövlət NEft-qaz kimi zəngin və əlverişli yanacağın istehsalı və Avropaya ixracı üzrə qlobal proqrammı həyata keçirsinlər. Əsas icrac boru kəmərinin Türkiyə ərazisindən keçməsi bu magistral yolun təhlükəsizliyi üçün zəmanətdir. Bakı-Ceyhan əsas boru kəmərinin inşasının arxitektoru Azərbaycan prezidenti ümumilli lider Heydər Əliyevdir. Azərbaycan Prezidentinin bu qlobal planı Azərbaycan xalqının yaxın və uzaq gələcəkdə rifahının qat-qat yüksəlməsinə kömək edəcəkdir.

Burada bir məqamı da yada salmaq yerinə düşər. Azərbaycan Sovet Respublikası 1920-1922-ci illərdə öz neftini satmaq üçün bazar tapa bilmədiyi (mühasirə vəziyyətində idi) dövrdə Sovet Azərbaycanı hökümətinin başçısı Nəriman Nərimanov (Zaqafqaziya federasiyası yaranana qədərki dövrdə) Azərbaycan neftini qismən Rusiyanın vasitəçiliyi ilə Qərbdə satmalı olmuşdu. **Heydər Əliyev Azərbaycanda böyük neft istehsalına başlarkən, eyni vaxta onun xaricə çıxarılması (satılması) məsələsini də Azərbaycanın və türk dünyasının xeyrinə həll edə bildi.** Bu isə tarixi xidmətdir. Bu böyük neft siyasətinin tərkib hissəsini Azərbaycanın pozulmuş ərazi

bütövlüyünü dinc yolla bərpa etmək və Avropa birliyinə daxil olmaq yolu ilə ölkənin müstəqilliyini və təhlükəsizliyini daha da möhkəmləndirməyə nail olmaq məqsədi təşkil edir.

Ümumilli lider Azərbaycan prezidenti Heydər Əliyev İstanbul Zirvə görüşündəki çıxışında regional münaqişələrin həllinə diqqətin artırılmasının vacibliyini xüsusi olaraq vurğulamış və konkret olaraq «*Mən Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təsis olunmasını təklif edirəm*» demişdi.

Təklifin məzmununu Heydər Əliyev həmin çıxışında belə şərh etmişdir: «Belə bir pakt dövlətlərarası münasibətləri və münaqişələri aradan qaldırmağın prinsipial əsaslarını təsbit etməlidir. **Onun əsasında regiondan xarici hərbi qüvvələr çıxarılmalıdır».** Göründüyü kimi dahi şəxsiyyət olan prezident Heydər Əliyev məsələnin həlli üçün son dərəcədə konkret təkliflə çıxış etmişdir.

Bütün bu tədbirlərin və təkliflərin həyata keçirilməsində türk dünyasının ən böyük və güclü ölkəsi olan Türkiyənin mövqeyi və köməyi xüsusi əhəmiyyət kəsb edir. «*Bölgədə sülh, Cahanda sülh!*» **təklifi ilə çıxış etmiş böyük öndər Atatürkün irsinə sadiq qalan müasir Türkiyə 90-cı illərin əvvəllərindən başlayaraq yeni müstəqillik qazanmış türkdilli dövlətlərlə iqtisadi və siyasi əlaqələrini möhkəmlənməsinə xüsusi əhəmiyyət verir.**

Hazırda Azərbaycan Şərqin dünyaya açılan qapısı hesab olunur. Bu sahədə Amerikada yaşayan Azərbaycan və Türkiyə diasporunun birgə fəaliyyəti diqqəti cəlb edir. Amerikada hazırda 400 mindən çox mənşəcə türk yaşayır. Bu böyük qüvvənin siyasi fəaliyyətini düzgün istiqamətləndirmək günün tələbidir.

Erməni diasporu hər ilin nisan (yanvar-aprel arası) aylarında qondarma erməni soyqırımın məsələsini gündəmə gətirməkdə çox fəallaşırlar. Buna görə də həmin məsələdə dünyanın bütün ərazilərində yaşayan türkdilli xalqlarının diasporu üzərinə geniş əks fəaliyyət göstərmək vəzifəsi düşür.

2008-ci ilin mayında Berlin şəhərində keçirilmiş böyük bir beynəlxalq konfransda Azərbaycan prezidenti İlham Əliyev və Türkiyə hökumət başçısı Teyyub Ərdoğan iştirak edərək öz diasporlarının birgə fəaliyyəti haqqında birlikdə



verdikləri geniş tövsiyyələr bu sahədə birgə fəaliyyətin başlanğıcı hesab edilə bilər.

2008-ci ilin 18 dekabrında Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında dünyanın 27 ölkəsindən gəlmiş Şura üzvləri və Şura üzvü olmayan daha 17 ölkənin nümayəndələri (cəmisi 202 nəfər) iştirak etdilər. İclasda Azərbaycanda diaspor ilə iş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Dünya azərbaycanlılarının II qurultayından keçən dövr ərzində görülmüş işlər barədə hesabat məruzəsi ilə çıxış etdi. Həmin iclasda çıxış edən Azərbaycan prezidenti İlham Əliyev ölkəmizin diasporunun fəaliyyətinin səaiyyəsini müasir tələblər səviyyəsinə qaldırmaq üçün müvafiq tədbirlər görülməsini tövsiyə etdi.

XXI-əsrin ilk illərindən başlayaraq Azərbaycan diplomatiyası öz fəaliyyət dairəsini xeyli genişləndirmişdir. Azərbaycan prezidenti İlham Əliyevin ali diplomatik təhsilə malik olması, bir neçə xarici dili sərbəst bilməsi bu uğurların təsirli əsasını təşkil edir.

Beynəlxalq aləmdə Azərbaycanın uğurlarının mühüm bir istiqamətinin **xarici mədəni əlaqələr təşkil edir.**

Azərbaycanın qədim və zəngin muğam sənətinin dünya xalqlarının incəsənət nailiyyətləri zirvəsində geniş təbliği qarşıda duran əsas vəzifələrdəndər.

2008-ci ilin 27 dekabrında Bakıda Dənizkənarı parkda Beynəlxalq muğam mərkəzinin açılışında Azərbaycan dövlətinin prezidenti İlham Əliyev iştirak etdi və öz tövsiyələrini verdi.

Son illərdə Azərbaycan xalqının mədəni həyatının coşğun inkişafında Heydər Əliyev fondunun xüsusi rolu diqqətəlayiqdir. Bu fondun prezidenti, Millət vəkli, Yuneskonun (BMT-in Mədəni əlaqələr üzrə təşkilatı) və İçeskonun (Beynəlxalq İslam Təşkilatının mədəni əlaqələr təşkilatı) xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın fəaliyyəti respublikanın bütün mədəniyyət xadimləri tərəfindən çox yüksək qiymətləndirilmişdir.

Hazırda Azərbaycan mədəniyyətinin dünyanın bütün ərazilərində, o cümlədən, türkdilli xalqların yaşadıqları

dövlətlər və regionlarda geniş təbliği üçün müvafiq şərait və imkanlar xeyli genişlənmişdir.



Mehriban xanım Əliyeva

2006-cı ilin aprelində Bakıda: **«Azərbaycan siviLizasiyalararası dialoqun keçmişi və bu günü»** mövzusunda keçirilmiş beynəlxalq konfransı açarkən Mehriban xanım Əliyeva demişdir: **«Azərbaycan çox yüksək tolerantlığa malik ölkə kimi bütün dünyaya nümunə ola bilər»**[1].

XXI əsrin əvvəllərindən başlayaraq dünyanın türkdilli xalqlarını təmsil edən dövlətlər və digər milli ərazilərdə və regionlarda yaşayan türk əhalisi arasında iqtisadi və xüsusilə mədəni əlaqələr getdikcə genişlənməkdədir. Türk dünyasının bu günkü vəziyyəti buna imkan verir.

Bu kitabın yazıldığı 2008-ci ilin sonuna qədərki 7-8 illik dövrdə Azərbaycanda keçirilən IV enerji sammitində (noyabr 2008) dünyanın 21 ölkəsinin nümayəndələri və diplomatlar, o cümlədən Türkiyə dövlətinin prezidenti Abdullah Gül, eləcə də Qazaxıstan və Türkmənistan dövlətlərinin nazirləri iştirak etdilər. 2008-ci ilin noyabrında Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin Bakıda üç tərəfli görüşü oldu və Trans Kaspi qaz kəmərinin çəkilməsinin surətləndirilməsi məsələsi haqqında razılıq əldə edildi. Həmin ilin dekabrının əvvəlində Bakıda türkdilli dövlətlərin mədəniyyət nazirlərinin görüşü keçirildi. Yenə də həmin ilin noyabrında Bakıda türkdilli dövlətlərin milli kitabxanalarının direktorlarının işgüzar görüşü oldu.

---

[1] «Xalq» qəzeti, 20 aprel 2006-cı il.



2008-ci ilin oktyabrında Bakıda Tataristan mədəniyyət günləri keçirildi.

XX əsrin sonuncu onilliyində türkdilli xalqların qədim qəhrəmanlıq dastanları olan «Kitabı Dədə Qorqud»un 1300 illiyinin, «Manas» dastanının 1000 illiyinin, Aşıq Ələsgərin 150 illiyi yubileyinin keçirilməsi və müvafiq ədəbiyyatın türkdilli xalqların dillərində nəşri, Şərqin ilk muğam operası olan «Leyli və Məcnun»nun 100 illiyinin geniş qeyd edilməsi türkdilli xalqların mədəniyyətlərinin köklərinin ayrılmazlığını təsdiq edən böyük tədbirlər idi.

Adları çəkilən və çəkilməyən bütün bu tədbirlərin keçirilməsi onu sübut edir ki, XXI əsrin əvvəllərindən başlayaraq türkdilli xalqların iqtisadi və mədəni əlaqələri genişlənir və durmadan inkişaf etməkdədir.

2008-ci ilin noyabrında İstanbulda Türkdilli ölkələrin Parlament Assambleyasının təsis konfransı keçirildi. Həmin konfransda Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstan prezidentləri digər ölkələrin nümayəndələri iştirak etmişlər. Özbəkistan və Türkmənistan da bu Assambleyanın qərarlarına qoşulacağı gözlənilir.

Konfransda çıxış edən Qazaxıstan prezidenti Nursultan Nazarbayev təklif etdi ki, Assambleya qurum yanında müşavir (məşvərətçilik) hüququ ilə Ağsaqqalar şurası da yaratmaq məqsədə uyğundur. Həmin qurumlarda ortaq dil və ortaq əlifba məsələləri də müzakirə edilə bilər.

Konfransda eləcə də qeyd edildi ki, Assambleyanın konfranslarına Rusiya və digər ölkələrdə toplu şəkildə yaşayan türk dilli xalqların müvafiq qurumlarının nümayəndələri də Assambleyanın konfranslarına dəvət olunacaqlar.

Azərbaycan Prezidenti İcra Aparatının rəhbəri akademik Ramiz Mehdiyevin 2009-cu ilin əvvəlində nəşr etdirdiyi **«Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və invasiyalıq»** əsəri ən yeni tariximizdə ictimai fikrin və siyasi mədəniyyətin inkişaf yollarına yeni işıq salan mühüm bir tədqiqatdır[1]

---

[1] Ramiz Mehdiyev, Zaman haqqında düşünərkən və elitanı transformasiya edər kən: varistlik və inovasiyalıq, Bakı, fevral 2009.

Müstəqil Azərbaycan dövləti öz dövlətçiliyinin inkişafının yeni mərhələsinə daxil olduğu bir dövrdə ölkədə formalaşmaqda olan siyasi, iqtisadi, intellektual (elmi-təhsil) və hərbi elitaların ideya əsaslarının düzgün istiqamətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Burada qara qızılın intellektual kapitala çevrilməsi qayğısı da qarşıya çıxır.

Akademik Ramiz Mehdiyevin yeni əsərində irəli sürülən yeni ideyalar tarixi keçmişimizin bu əsas sütununa arxalanır ki, bəşəriyyət həmişə özünün yetişdirdiyi elitanın yaratdığı və sınaqdan çıxardığı yenilikləri ilə sıçrayışla inkişaf etmişdir.

Türk dünyasının çoxəsirlik tarixində də əldə edilmiş böyük uğurlar və fəthlər Qərbi Avropanın dərinliklərinə (məsələn, İspaniyaya) qədər irəliləyərək orada Şərq mədəniyyətinin qədimliyini və cazibədarlığını, insanpərvərliyini sübut edən faktların yaddaşlarda indiyə qədər də qalması türkdilli xalqların bəşəri mədəniyyətinə böyük töhfəsidir[1].

***

Hətta orta əsrlərdə bu mədəni xidmətin səhifələrini özündə əks etdirən əsərlərin yazılması və nəşri fərəhləndiricidir. Bu işdə Azərbaycan alimlərinin əməyi də diqqətəlayiqdir.

Ümumilli lider Heydər Əliyev XXI əsrin başlanması münasibətilə «Azərbaycan xalqına müraciətində» xüsusi olaraq qeyd etmişdi ki, **«Azərbaycan xalqı dünya mədəniyyətində öz dəsti-xətti ilə seçilən bir xalqdır».**

Türkdilli xalqların böyük bayramı olan «Novruz»un müsəlman Şərqində 2009-cu ildə geniş miqyasda keçirildiyi günlərdə (mart 2009) Azərbaycan və Türkiyə dövlətləri hökümətləri və başçılarının razılaşmaları əsasında həmin dövlətlərin Mədəniyyət Nazirliklərinin türk dünyası üçün yaratdıqları ortaq «Avaz» («Səsi») televiziya kanalının işə başlaması böyük bir uğur oldu. Həmin televiziya kanalının dünyanın 27 ölkəsinə

[1] Bu haqda daha geniş bax: prof.Vəli Həbiboğlu Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri, Bakı, 1995. Professor Fazil Qaraoğlu (Ankara) «Türk millətinin tarixi, qurduğu dövlətlər və ata-babaları» BAkı, 2007. Osman Musuyev, «Osmanlı sultanları», B.,2008, Mehman Hüseynbəyli, Şah Abbas, Bakı, 2008.



öz verilişlərini ötürə bilməsi imkanı dünyanın türkdilli xalqları üçün böyük bir bayramdır.

2009-cu ildə İslam dünyasının mədəniyyət mərkəzi elan edilmiş Azərbaycanın paytaxtı Bakıda keçirilmiş Beynəlxalq Muğam müsabiqəsi (mart 2009) müsəlman Şərqində mədəni əlaqələrin güclənməsinin diqqətəlayiq təsdiqi oldu. Həmin müsabiqədə Türkiyə, İran, Özbəkistan,Tacikistan, Azərbaycan və digər ölkələrdən gəlmiş muğam ifaçılarının çıxışları böyük uğurlarla keçdi və yüksək qiymətləndirildi.

Beləliklə XXI əsrin ilk illəri dünyada türkdili xalqların əlaqələrinin genişlənməsi və möhkəmlənməsi istiqamətində diqqətəlayiq nailiyyətlər əldə edildi. Bu tədbirlərin sonunda eləcə də Azərbaycan və Türkiyyə Millət vəkillərinin iştirakı ilə ortaq Türk parlamentinin yaradılması məsələsi də müzakirə olundu.

# ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan və türk dillərində


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası (I-II cild), B, 2008
2. Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət), Bakı, 1998
3. Azərbaycan Xalq Cümhuriyyət və Qafqaz İslam ordusu, Bakı, 2007
4. Atatürkün xarici siyasəti (1919-1923), Ankara, 1981
5. Atatürkün «özü» sənsən (Heydər Əliyev haqqında), Bakı, 2001
6. Azərbaycanı dünyaya saydıran insan. B, 1998
7. Abuzər İsmayılov, Nazim Hıkmət, B, 1990
8. Borak Sədi, Yüz böyük türk, B, 1991
9. Bəxtiyar Vahabzadə, Gəlin açıq danışaq (məqalələr toplusu), Bakı, 1989
10. Budaq Budaqov, Türk uluslarının yer yaddaşı, Bakı, 1994
11. Buludxan Xəlilov, Türklüyün intıbah dövru, B, 2001
12. Buludxan Xəlilov I Beynəlxalq türkoloji qurultay, B, 1995
13. Dünyamalı Vəliyev, Yadigar Babayev, Türkıyə, Turqut Özəl. İqtisadi möcüzələr. B, 1990
14. Əliyev H.Ə., Müstəqilliyimiz əbədidir, I-II cild, B, 1997
15. Heydər Əliyev və şərq, Bakı. 2002-2004, I-IV cildlər
16. Qafqaz Türk – İslam ordusu Bakı yollarında, Bakı, 2008
17. Dünya xalqları (Ensiklopedik məlumat kitabı). B, 1998
18. Əlibəy Hüseynzadə. Türklər kimdir və kimlərdən ibarətdir? B, 1997
19. Əlisahib Əli oğlu. Erməni – daşnak faşizmi və Azərbaycan (bədii publisistika), B, 2007
20. Əsgərov Əli paşa. Anışqa türkləri. B, 1996
21. Elməddin Əlibəyzadə. Azərbaycan xalqının mənəvi mədəniyyəti. B, 1998
22. Cavad Heyət. Türklərin tarixi və mədəniyyətinə bir baxış. B, 1993





23. Erbol Həmzə. Paşanın həyat hekayəsi (türkcədən tərcümə). B, 1992
24. Elxan Quliyev. Türk xalqları ədəbiyyatı. B, 2008
25. Qeybullayev Qiyasəddin. Azərbaycan türklərinin təşəkkül tarixindən. B, 1994
26. Çəmənzəmənli Yusif Vəzir. Xarici siyasətimiz. B, 1993
27. Qulman İlkin. Türk ordusu Bakıda (xatirələr). B, 2003
28. Qurbanov Afət. Dünyanın dil ailələri. B, 1994
29. İrfan Sapmaz. Qurdlar sərfəsində Azərbaycan. B, 1997
30. İsrafil İsmayılov. Türk dünyası XX əsrin 90-cı illərində. B, 2001
31. İsrafil İsmayılov. Türklük şərəfi. B, 2005
32. İsrafil İsmayılov. Azərbaycan – Türkiyə mədəni əlaqələri XX əsrdə. Bakı, 2004
33. İsrafil İsmayılov. Azərbaycan – İran mədəni əlaqələri XX əsrdə. Bakı, 2006
34. İsrafil İsmayılov. Dünya azərbaycanlıları XX əsrdə. B, 1997
35. İsrafil İsmayılov. Azərbaycanlıların II dünya müharibəsində iştirakı. B, 2000
36. İsrafil İsmayılov. Azərbaycan xalqının siyasi mədəniyyəti. B, 2002
37. İsrafil İsmayılov. Azərbaycan vətənpərvərliyi XX əsrdə (uğurlar və problemlər). B, 2003
38. İsrafil İsmayılov. Azərbaycanda dövlətçilik fikri oçerkləri. B, 1996
39. İsrafil İsmayılov. Azərbaycan ziyalılar XX əsrdə. B, 2008
40. Köhn Hans. Panslavizm və rus millətçiliyi. Ankara, 1982
41. Hüseynov M.M. Dünya türklərinin muxtəsər tarixi. B, 1999
42. Mustafa Haqqı Türkəgül. Azərbaycan türk şairi Hüseyn Cavid. Bakı, 2002
43. Yunis Oğuz. Türkün tarixinə yeni bir baxış. B, 2007
44. Yoloğlu Güllü. Qaqauzlar. B, 1996
45. Kənan Yildırım. Şairlər və yazarlar sözlügü. Ankara, 1992
46. Yüz böyük türk (türkcədən tərcümə). B, 1991
47. Yaqub Mahmudov, öyrənilməmiş səhifələr. B, 1972
48. Mehman Süleymanov. Nuri Paşa. B, 1993

49. Minəxanım Təkləli, Qərbdən Şərqə ulu türk yurd adlarının dəyişdirilməsi tarixindən. B, 2000
50. Mahmud Qaşqarlı, Divani-Lüğət-Türk (I-IV cildlər) tərcüməsi. B, Atalay, Ankara, 1985-1986
51. Əli Mirşedizad. Azərbaycan ziyalıları və onların milli-etnik məsubiyyəti, Tehran, 2001
52. Nizami Cəfərov, Bəxtiyar Vahabzadə. B, 2000
53. Ocəl Şəfa. Dövlət quran qəhrəmanlar. İstanbul, 1987
54. Orucov Hidayət, Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, 2001
55. Ramiz Mehdiyev, Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, 2002
56. Rafiq Dağkəsəmənli. Sönməz günəşdir Şəhriyar. B, 2008
57. Rəbiyyət Aslanova. XXI əsr:yeni mədəniyyət məkanına inteqrasiya. B, 2007
58. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. B, 1990
59. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. B, 1990
60. Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti. B, 1994
61. Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. B, 1994
62. Rəhimov Əkbər, Mehtixanlı Telman. Türk dünyasının xeyirxalqları (M.Atatürk, H.Əliyev, S.Dəmirəl), B, 1997
63. Sabir Hüseynov. Ömür var, ömürlərə bərabər. B, 1998
64. Süleymenov Oljas. A-ya. B, 1993
65. Türk dövlətləri tarixi. Ankara, 1983, 1986
66. Turkay İslam. Türkin 101 şairi. B, 1993
67. Türkü səsi. №3, B, 2001
68. Türkün qızıl kitabı. I-II cild, B, 1993
69. Türk dünyası tarixi dərgisi. 1987-1992 (№1-64)
70. Təkləli M.S. Türk umzası. B, 2008
71. Tahizadə Ədalət, Şamil Əli. Türk xalqlarının tanınmış adamları, B, 1998
72. Həbiboğlu Vəli. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdləri (I kitab), B, 1995
73. Həsən Əzizoğlu. Türklüyümüz. Bakı, 2007
74. Ülki İrfan. Qızıl ulduzdan hilala doğru (heydər Əliyevin fırtınalı həyatı). B, 1994
75. Fazil Qaraoğlu. Türk İslam dünyası. B, 2007
76. Fazil Qaraoğlu. Türk millətinin tarixi, qurduğu dövlətlər və ata-babaları. B, 2007



77. Q.E.Fon Trunebam. Klassik Islam. Istanbul, 1998
78. Xəndam Rafiq Ziya. Atatürkiyyə. B, 1998
79. Xəlilov Pənah. Türk xalqlarının və Şərqi Slavyanların ədəbiyyatı. B, 1994
80. Zeynalov Fərhad. Türkologiyanın əsasları. B, 1981
81. Ziya Göyalp. Türklüyün əsasları. Ankara 1937; Bakı, 1991

## Rus dilində


1. Алиев Г.А. Выступление на торжественном собрании, посвященном 100 летию со дня рождения Н.Нариманова. Б, 1988
2. Александр Жибаков, Кемаль Ататурк, М, 2009
3. Алькаева Л.О. Из истории турецкого романа. М, 1975
4. Аитматов Ч. И дальше века длится день. М.
5. Босфорд К.Я. Мусульманские династии. М, 1991
6. Брук С.И. Население мира. М, 1981
7. Будагов Л. Сравнительный словарь турецко-татарских наречий. Том I-II, СП, 1869-1871
8. Западная культура глазами мусульманина. Б, 1992
9. Исаев М.А. О языках народов СССР. М, 1978
10. История Казахстана (I-II тома) Алма-Ата, 1958
11. История Узбекистана, Ташкент, 1960
12. Исторические факты о действиях армян на Азербайджанской земле, Башкек, 2008
13. Кесаль Ататюрк. Избранные речи и выступления. М, 1966
14. Новиков А.Д. История Турции. М, 1963
15. Олжас Сулейменов. От января до апреля. Алма-Ата, 1989
16. Сагдеев А.В., М. Султан-Галиев и его идеи. Большивизм, Ислам и национальный вопрос, М., 1998
17. Чингиз Айтматов, Тавро Касандра. М, 2007
18. Правда и только правда. «Белые пятна» нашей истории. Баку, 1991
19. Памятники литературы народов Востока. М, 1989
20. Рзаев Р.К. Азербайджанские востоковеды XIX века. Баку, 1986
21. Расульзаде М.Э. Азербайджан в борьбе за независимость. Варшава, 1938
22. Т.Рыкулов, Из истории партийного строительства в Казахстане (в кн. «Мусульманское бюро ПКП (б) в Туркестане»)




# MÜNDƏRİCAT


ÖN SÖZ .......... 7
GİRİŞ .......... 9
I Fəsil: TÜRKLÜYÜN MAHİYYƏTİ VƏ ONUN İLK NƏZƏRİYYƏÇİLƏRİ VƏ TƏBLİĞATÇILARI (Əli bəy Hüseyn Zadə, Ziya Yoyalp).......... 21
II Fəsil: ŞƏRQİN İLK DEMOKRATİK XALQ CÜMHURİYYƏTİ 24
III Fəsil: TÜRKİYƏ CÜMHURİYYƏTİ.......... 38
Türkün bayrağı.......... 45
IV Fəsil: BİRİNCİ BEYNƏLXALQ TÜRKOLOJİ QURULTAY 46
V Fəsil: TÜRK DÜNYASININ XX ƏSRİN I YARISINDA GÖRKƏMLİ DÖVLƏT XADİMLƏRİ.......... 54
§1. Mustafa Kamal paşa Atatürk.......... 54
§2. Nəriman Nərimanov.......... 62
§3. Məmməd Əmin Rəsulzadə.......... 68
§4. İsmət İnenyu.......... 73
§5. Seyid Cəfər Pişəvəri.......... 73
VI Fəsil: XX ƏSRİN II YARISINDA TÜRK DÜNYASININ GÖRKƏMLİ DÖVLƏT XADİMLƏRİ VƏ PREZİDENTLƏRİ.......... 75
§1. Görkəmli dövlət xadimi Heydər Əliyev..........
§2. Türkiyə Respublikasının Prezidenti Turqut Özal..........
§3. Türkiyə Prezidenti Süleyman Dəmirəl....... 88
§4. Türkiyə hökumətinin başçısı Bulənd Ecevit.......... 90
§5. Özbəkistanın partiya rəhbəri və ictimai xadim Şərəf Rəşidov.......... 91
§6. Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov....... 92
§7. Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev 93
§8. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 95
§9. Türkiyənin Cümhuriyyət başqanı (prezidenti) Abdullah Gül 97
§10. Türkiyə hökumətinin başçısı Rəcəb Ərdoğan 97
§11. Türkmənistan Respublikasının prezidenti Qurbanqulu Berdiməhəmmədov 99
§12. Qırqızıstan Respublikasının prezidenti Kurbanbek Bakıyev 100
§13. Şimali Kipr (Kipris) Türk Cumhüriyyəti Prezidenti Rauf Denktaş 100
§14. Şimali Kipr (Kipris) Cümhuriyyətinin ikinci prezidenti Mehmet Ali Talat 102
§15. Tataristan Muxtar Respublikasının (Rusiya tərkibində) prezidenti Mintemer Şaymiyev 103
VII Fəsil: TÜRK DÜNYASININ GÖRKƏMLİ HƏRBİ SƏRGƏRDƏLƏRİ 105
§1-2. Ənvər paşa, Nuru paşa 105
§3. Kazım Qarabəkir paşa 107
§4. General-polkovnik Səmədağa Mehmandarov 108
§5. General-leytenant Əli ağa Şixlinski 109
§6. General-mayor, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov

110

| | | |
|---|---|---|
| **VIII Fəsil:** | **TÜRKDİLLİ XALQLARA QARŞI XX ƏSRDƏ ƏDAVƏTLƏR VƏ SOYQIRIMLAR** | 111 |
| §1. | Azərbaycan və Türkiyə ərazilərində türklərə qarşı soyqırımlar | 111 |
| §2. | Cənubi Azərbaycanda azəri türklərinin milli azadlıq hərəkatının boğulması (1945-1946-cı illər) | 120 |
| §3. | Ahısqa türklərinin faciəsi | 123 |
| §4. | Krım tatarlarının faciəsi | 124 |
| §5. | Bolqarıstanda yaşayan türklərə qarşı milli ədavət | 125 |
| §6. | Şimali Kiprdə yaşayan türklərin milli müstəqillik uğurunda mübarizəsi | 126 |
| **IX Fəsil:** | **XX ƏSRİN SONUNCU ONİLLİYİNDƏ TÜRK DÜNYASINDA YENİ MÜSTƏQİL DÖVLƏT LƏRİN ƏMƏLƏ GƏLMƏSİ** | 127 |
| §1. | Türkdilli dövlətlərin başçılarının zirvə görüşləri | 129 |
| §2. | Müstəqilliyi XX əsrin sonunda qazanmış dövlətlərin türkdilli əhalisinin islama qayıdışının başlanması | 137 |
| §3. | Türksoy və onun fəaliyyəti | 142 |
| **X Fəsil:** | **TÜRKDİLLİ XALQLARIN XX ƏSRDƏ YETİŞDİRDİKLƏRİ GÖRKƏMLİ MƏDƏNİYYƏT XADİMLƏRİ** | |
| §1. | Üzeyir Hacıbəyov (1885-1948) | 144 |
| §2. | Görkəmli türk şairi Nazim Hikmət | 146 |
| §3. | Hüseyn Cavid(1882-1941) | 152 |
| §4. | Səməd Vurğun(1906-1956) | 153 |
| §5. | Məhəmməd Şəhriyar (1906-1988) | 155 |
| §6. | Mustafa Topçubaşov (1898-1981) | 156 |
| §7. | Rəşid Behbudov (1915-1990) | 157 |
| §8. | Şövkət Ələkbərova (1922-1993) | 157 |
| §9. | Rəşad Nuri Cüntəkin (1892-1956) | 158 |
| §10. | Maqsud Şeyxzadə (1908-1967) | 159 |
| §11. | Bəxtiyar Vahabzadə (1925-2009) | 159 |
| §12. | Xəlil Rza Ulutürk (1933-1995) | 162 |
| §13. | Oljas Süleymenov | 163 |
| §14. | Çingiz Aytmatov (1928-2008) | 165 |
| §15. | İsmayıl Şıxlı (1919-1996) | 165 |
| §16. | Ziya Bünyadov (1923-1997) | 166 |
| §17. | Mahir incəsənət xadimi Habil Əliyev | 168 |
| §18. | Ələsgər Lütfizadə | 170 |
| §19. | Krım tatarlarının görkəmli ziyalısı Çobanzadə Bəkir Vahab oğlu (1893-1937) | 170 |
| §20. | Volqaboyu tatarları xalqının görkəmli ziyalısı Mirsəid-Sultan- Qaliyev | 172 |
| **XI Fəsil:** | **TÜRKDİLLİ AZƏRBAYCAN XALQININ XX ƏSR TARİXİNDƏN UYDURMA «26 BAKI KOMİSSARLARI» LƏKƏSİ SİLİNMƏLİDİR** | 172 |
| **XII Fəsil:** | **XX ƏSRİN ƏN DƏHŞƏTLİ XOCALI SOYQIRIMI.** | 175 |
| **XIII Fəsil:** | **TÜRKDİLLİ XALQLARIN MƏDƏNİ ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİ** | 182 |
| **XIV Fəsil:** | **TÜRK BİRLİYİ DÖVRÜN TƏLƏBİDİR** (nəticə əvəzi) | 190 |
| **ƏDƏBİYYAT SİYAHISI** | | 205 |
| **Müəllif haqqında qısa məlumat** | | |




# ОГЛАВЛЕНИЕ

| | |
|---|---|
| ВВОДНОЕ СЛОВО | |
| ВВЕДЕНИЕ | |
| ГЛАВА I. | Сущность тюркизма и его первые теоретики (Алибек Гусейнзаде и Зия Гейалп) |
| ГЛАВА II. | Первая демократическая народная Республика на Востоке (Азербайджанская Демократическая Республика 1918-1920гг ) |
| ГЛАВА III. | Турецкая Республика (с 1923года) |
| ГЛАВА IV. | Первый Международный тюркологический съезд в Баку (1926г.) |
| ГЛАВА V. | Видные государственные и партийные деятели тюркского мира в I половине XX века |
| §1. | Мустафа Кемал паша Ататюрк |
| §2. | Нариман Нариманов |
| §3. | Мамед Амин Расулзаде |
| §4. | Исмет Именю |
| §5. | Сеид Джафар Пишевари |
| ГЛАВА VI. | Видные партийные, государственные деятели и президенты тюркского мира второй половины XX века |
| §1 | Гейдар Алиев |
| §2. | Тургут Озал (Турция) |
| §3. | Сулейман Демирал (Турция) |
| §4. | Бюлленд Эджевит (Турция) |
| §5. | Шараф Рашидов (Узбекистан) |
| §6. | Ислам Керимов (Узбекистан) |
| §7. | Нурсултан Назарбаев (Казахстан) |
| §8. | Илгам Алиев (Азербайджан) |
| §9. | Абдуллах Гюль (Турция) |
| §10. | Реджеб Эрдоган (Турция) |
| §11. | Курбанкулу Бердимагомедов (Туркменистан) |
| §12. | Курбанбек Бакиев (Кыргызстан) |
| §13. | Рауф Денкташ (Кыпрыс) |
| §14. | Мехмет Али Талат (Киприс) |
| §15. | Минтемир Шаймиев (Татарстан) |
| ГЛАВА VII. | Видные военные деятели тюркского мира XX века |
| §1. | Энвер паша, Нуру паша |
| §2. | Кязым Гара Бекир паша |
| §3. | Генерал-полковник Самед бек Мехмандаров |
| §4. | Генерал-лейтенант Алиага Шихлинский |
| §5. | Генерал-майор Гаси Асланов |
| ГЛАВА VIII. | Геноцид тюрков и организация национальной розни против тюркоязычных народов в XX веке |
| §1. | Армянский геноцид против тюрков Азербайджана и Турции |
| §2. | Задушение национально-освободительного движения азербайджанцев в Иране (1945-46 г.) |
| §3. | Трагедия тюрков-месхетинцев |
| §4. | Трагедия Крымских татар |

§5. Шовинизм против тюрков, проживающих в Болгарии
§6. Национально-освободительная борьба тюрков Кипра
ГЛАВА IX. Создание новых самостоятельных государств в последнем десятилетии XX века
§1. Встречи глав тюркоязычных государств мира
§2. Возврат к Исламу населения новых тюркоязычных государств
§3. Тюрксой и его деятельность
ГЛАВА X. Видные деятели культуры народов тюркского мира в XX веке
§1. Узеир Гаджибеков
§2. Назим Хикмет
§3. Гусейн Джавид
§4. Самед Вургун
§5. М.Шахрияр
§6. Мустафа Топчубашев
§7. Рашид Бейбутов
§8. Шевкет Алекберова
§9. Рашад Нуры Гюнтекин
§10. Максуд Шейхзаде
§11. Бахтияр Вагабзаде
§12. Хялил Рза Улутюрк
§13. Олжас Сулейменов
§14. Чингиз Айтматов
§15. Исмаил Шыхлы
§16. Зия Бунятов
§17. Габил Алиев
§18. Лютфи Заде
§19. Бекир Чобанзаде
§ 20. Мирсаид Султан-Галиев
ГЛАВА XI. Легенда о «26-и Бакинских комиссарах» выдуманная
ГЛАВА XII Кровавая Ходжалинская трагедия (Азербайджан)
ГЛАВА XIII Расширение культурных связей тюркоязычных народов
ГЛАВА XIV Единство тюрков –веление времени (вместо заключения)
Список литературы
Коротко об авторе






## MÜƏLLİF HAQQINDA QISA İCMAL

1919-cu ilin aprelində Şəki qəzasının şərqində yerləşən (indii Oğuz rayonu ərazisidir) Bayan kəndində anadan olmuşdur. Şəki şəhərində Müəllimlər seminariyasını bitirdikdən (1937-ci ildə) sonra müəllim və məktəb direktoru işləmiş, 1939-cu ilin dekabrında hərbi xidmətə çağrılmış və 1941-45-ci illərin Böyük Vətən muharibəsinin əvvəlindən sonuna qədər iştirakçısıdır.

Kapitan rütbəsində artilleriya zabitidir. Üç orden və 20 medal ilə təltif edilmişdir.

İlk elmi məqaləsi 1953-cü ildə nəşr olunmuşdur. 1954-cü ildə tarix elmləri namizədi adına (Moskvada İçtimai Elmlər Akademiyasında) və 1968-ci ildə tarix elmləri doktoru adına (Bakıda) dissertasiya müdafiə etmişdir. 1954-1961-ci illərdə

Bakı Ali Partiya məktəbinin direktoru (rektoru), 1968-1988-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri vəzifəsində işləmişdir.

Nəşr olunmuş 52 kitabın və 300-dən çox elmi məqalənin müəllifidir. Əsərlərindən bir kitab və 15 məqalə əcnəbi dillərdə (ingilis, fransız, ispan, alman, ərəb, türk və dari) nəşr olunmuşdur. Əsərlərinin əksəriyyəti dövlətçilik siyasətinə, mədəniyyət və Milli vətənpərvərlik tərbiyyəsi məsələlərinə həsr olunmuşdur.

1950-1963-cü illərdə Azərbaycan Respublikasının Ali Sovetinin deputatı olmuşdur.

Amerikada yerləşən Beynəlxalq Bioqrafiya İnstitutu tərəfindən ildə bir dəfə nəşr edilən «İlin adamı» nəşrinin növbəti kitabına «Hall-mark 2000» «2000-ci ilin adamı» sırasına daxil edilmiş və qızıl medala layiq görülmüşdür.

İctimai əsaslarla 1987-ci ildən bu vaxta qədər Bakı şəhərinin Nəsimi rayonu veteranlar şurasında sədr vəzifəsində işləyir.



# İSMAYILOV İSRAFİL ZAKİR OĞLU

***

## İsmayılov İ. Z.
## TÜRK DÜNYASI XX ƏSRDƏ

***

## Исмаилов И.З.
## ТЮРКСКИЙ МИР В XX ВЕКЕ

***

## Ismailov I. Z.
## TURKISH WORLD IN XX CENTURY

***

Çapa imzalanmışdır : 05.02.2009. Kağız formatı $70x100^{1}/_{16}$
Çap vərəqi 14. Sifariş 41. Sayı 500.

**ADNA-nın mətbəəsi**
Bakı, Azadlıq küçəsi, 20